AZƏRBAYCAN

3’2023

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: İntiqam QASIMZADƏ

Baş redaktor müavini: Südabə AĞABALAYEVA

Məsul katib: Vüsal NURU

Şöbə müdirləri: Məmməd ORUC, Qəşəm NƏCƏFZADƏ, Mübariz CƏFƏRLİ

Redaksiyanın ünvanı: Bakı - Az1000 Xaqani küçəsi, 25 **Telefonlar:** *Redaksiya –* 498-78-10 493-28-32 493-2834 *Mühasibat –* 493-29-41	**Çapa imzalanıb:** 10.03.2023 **Sifariş 514** Tiraj 500 **Kağız formatı** 70x108 1/16 - 6,5 kağız vərəqi 13 çap vərəqi 18,2 şərti çap vərəqi	**E-mail:** intigam.gasimzade@gmail.com sudabe334@mail.ru **www.azyb.az** **Qiyməti** **2 manat** **Bakı şəhəri, “Azərbaycan” nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.
Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU SAYIMIZDA:

ANARIN 85 YAŞI

İNTİQAM QASIMZADƏ – ... Elə bil dünən idi 3
TƏYYAR SALAMOĞLU – "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndən "Otel otağı"na gedən "Vahimə"li yollar 9
NADİR CABBAROV – İnsanı sevmək azdır... 23

POEZİYA

KAMALƏ ABİYEVA – Şeirlər 29
MAHCAMAL – Şeirlər 35
AYSEL FİKRƏT – Şeirlər 82
NADİR YALÇIN – Şeirlər 90
ŞÖVKƏT ZƏRİN HOROVLU – Şeirlər 119
İSA SEVƏR – Üşüyürəm baba – (poema) 126
NƏZAKƏT MƏMMƏDOVA – Şeirlər 150
SƏYYARƏ MƏMMƏDLİ – Şeirlər 158
GÜLNAR ÜMİD – Şeirlər 161
BANU MÜHƏRRƏM – Şeirlər 176
ŞƏFƏQ ƏLƏSGƏRQIZI – Şeirlər 181

"Azərbaycan" – 100

QƏNİRƏ PAŞAYEVA – "Azərbaycan" jurnalına təbrik məktubu 38
ALEKSANDR QRİÇ – 100 yaşın baharı 133
MƏMMƏD ORUC – 60-40 arası 164
NOVRUZ NƏCƏFOĞLU – Adınla yaşa, "Azərbaycan"! 167
SÜDABƏ AĞABALAYEVA – Yüz ilin birinciləri. Ruhulla Axundov 169
ZÜMRÜD ƏHMƏDOVA – Böyük komandanın bir üzvü olmaq 174

NƏSR

NATƏVAN DƏMİRÇİOĞLU – Açar (roman) 39
NİCAT MƏMMƏDOV – Əlifba sırası ilə 135

YENİ TƏRCÜMƏLƏR

FAZİL İSKƏNDƏR – Keçilər və Şekspir (hekayə) 96
İOSİF BRODSKİ – Şair və nəsr (hekayə) 109

TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

NƏRGİZ CABBARLI – Modern nəsr, yadlaşma və tənhalıq problemi, "şüur axını" texnikası və Afaq Məsud yaradıcılığı 184
ADİLƏ NƏZƏROVA – "...Qarabağdır məkanım" 197

ESSE

TƏRANƏ VAHİD –Ağrıya elegiya 202

KİTAB RƏFİ 207

Anarın 85 yaşı

...Elə bil dünən idi

Hər dəfə eyni sözləri deyirik: "Adamın heç inanmağı gəlmir. Elə bil dünən idi..." Amma nahaq – inanın...

...Və inanırsan da. Elə ki başlayırsan bir-bir ötüb keçənləri yada salmağa – inanırsan. Yox, dünən deyildi. Düz 62 il əvvəl idi.

Anarı (Xalq yazıçısı Anarı) mən ilk dəfə 62 il əvvəl görmüşəm; salam verib, salamını almışam. Adını eşitmişdim; Rəsul Rzanın Anar adlı bir oğlu olduğunu bilirdim; bir-iki hekayəsini də oxumuşdum, amma özünü görməmişdim.

1961-ci ildə onunla Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Fioletov küçəsi 6 nömrəli ünvanda yerləşən səsyazma studiyasında tanış oldum. Qardaşım Daşqın o vaxt radioda səs operatoru idi. Radionun üzdə olan bir neçə verilişi burda – Fioletovda yazılır və montaj olunurdu; o cümlədən, ilk qələm təcrübələri artıq mətbuatda işıq üzü görmüş və oxucular tərəfindən maraqla qarşılanmış istedadlı gənc yazıçı Anarın müəllifi olduğu "Axşam görüşləri" verilişi də Fioletovda

yazılırdı. Az bir vaxtda veriliş çox populyar olmuşdu. Quru ictimai-siyasi verilişlərdən, diktorların amiranə səslə SSRİ rəhbəri Xruşşovun, eləcə də digər partiya və dövlət adamlarının saatlarla oxuduqları yorucu məruzələrindən bezmiş radio dinləyiciləri hər şənbə axşam saat 9-da "Axşam görüşləri"ni səbirsizliklə gözləyirdilər. Bu verilişdə onlar ədəbiyyat və incəsənət xadimlərinin yaradıcılıqları barədə maraqlı söhbətlərə, tanınmış və heç tanınmamış sənət adamları ilə müsahibələrə, mahnılara, hətta qısa hekayələrə də qulaq asa bilirdilər.

Mən studiyaya girəndə qardaşım maqnitofonda qurdalanırdı, cavan bir oğlan da vardı orda; eynəyi alnında, gözləri əlindəki varaqlardaydı; Anar idi. Adını eşidib özünü görmədiyim Anar. Tanış olduq. Onu mən ilk dəfə gördüyüm görkəmdə bu gün də görürəm - düz 62 ildir; eynəyi alnında, gözləri qarşısındakı mətndə. Heç nə dəyişməyib. Dəyişən yalnız saçlarıdır; onda qaraydı, indi - ağarıb. Necə ağarmasın? - ötən bu illər ərzində nələr görüb, nələr eşitməyib?! Kimləri itirməyib? - doğmalarını, ən yaxın dostlarını...

Tanış olduq... O gündən bu günə mən onu mütəmadi görürəm: universitetdə oxuduğum illərdə, aspirant olduğum vaxtlarda, kinostudiyada işlədiyim dövrdə... Və indi də; 35 ildən artıq sədri olduğu Yazıçılar Birliyində də. Bu, mənim həyatda ən böyük qazanclarımdandır - əlbəttə, Anarla dostluğum, onunla tez-tez görüşüb kəlmə kəsməyim.

Fioletov küçəsində yerləşən studiyadakı görüşümüzdən sonra, onun yaradıcılığını daha maraqla izləməyə başladım.

Hə, indi mən iki istedadlı yazıçı ilə tanış idim: Anarla və Elçinlə (Xalq yazıçısı Elçinlə). Elçinlə tanışlığım adi tanışlıq deyildi - dost idik onunla; Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, bir qrupda oxuyurduq.

60-cı illərin lap əvvəlində mən Anarın artıq bir neçə hekayəsini oxumuşdum. Bunlardan iksini: "Keçən ilin son gecəsi" və "Asılqanda işləyən qadının söhbəti"ni çox bəyənmişdim. İstedadla yazılmış bu həyati əsərləri mən illər keçsə də, unutmuram. Elə bil dünən oxumuşam. Müxtəlif mövzulu bu hekayələrin hər birinə Anar çox uğurlu biçim - forma tapıb. Onların çox böyük marağa səbəb olmasında, zənnimcə, bu amilin də az rolu olmayıb. Xüsusən "Keçən ilin son gecəsi" əsərinin əsk-sədası Azərbaycandan çox-çox uzaqlara - Moskvaya, SSRİ-nin bir çox respublikalarına gedib çıxmışdı. 1966-1967-ci illərdə Anar "Keçən ilin son gecəsi" hekayəsinin əsasında eyni adlı pyesini yazdı və pyes Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyuldu. Tamaşa o qədər xoşuma gəlmişdi ki, "Molodyoj Azerbaydjana" qəzeti üçün bir resenziya da yazmışdım. "Heç bir yaxşılıq itmir" adlı həmin məqalədə

yazmışdım ki: "...əsərin təsir gücü tamaşaçını tamaşadan sonra da uzun müddət düşündürür. Tamaşaçı Həmidə xanımın ailəsində yeni il gecəsi yaranmış vəziyyəti, onun bayram günü tək qalmasını ürək ağrısı ilə götür-qoy edir, düşünür və nəhayət, belə bir nəticəyə gəlir ki, nəsillər bir-birindən fərqlənirlər, övladlar bir gün çıxıb gedirlər, yaşamları, həyat tərzləri valideynlərinkindən fərqlənir. Bu, əlbəttə, kədərlidir, amma bu kədər mənəvi cəhətdən sarsıtmır. Əksinə, insana mənəvi borcunu xatırladır,

valideynləri ilə, özündən əvvəlki nəsillərlə canlı əlaqəsi olduğu barədə düşünməyə sövq edir."

Hər bir yazıçının ən böyük uğuru oxucusunu, tamaşaçısını tapmasıdır; Anar tapa bilirdi - bu gün də tapır.

O illər Anar bir-birinin ardınca nisbətən irihəcmli nəsr əsərlərini - "Ağ liman", "Dantenin yubileyi" və başqa povestlərini yazdı. Gözəl illər idi. 60-cı illər nəslinin; nasirlərin də, şairlərin də məhsuldar işlədikləri illərdi.

O zaman biz Anarla daha çox yaxınlaşmışdıq. Bizi yaxınlaşdıran, tanışlığımızı dostluğumuza çevirən həm də hər ikimizin istəkli dostu Vaqif Səmədoğlu (o illər Vaqif Vəkilov idi hələ) poeziyasına olan sevgimizdi.

Axşamlar tez-tez Vaqifgilə, Səməd Vurğun ocağına gedərdik, gecədən xeyli keçənə kimi oturub söhbət edərdik. Vaqif yeni şeirlərini oxuyardı. Hərdən onun şeirlərini götürüb Anar da oxuyardı; onda bu çox yaxşı alınırdı.

Bir dəfə Anar bizi evinə – Vaqif küçəsi 30-dakı yarızirzəmidə olan mənzilinə – dəvət etdi; yenicə tamamladığı povestinin oxunuşuna... Bizdən başqa Yusif Səmədoğlu, Araz Dadaşzadə, Emin Sabitoğlu və Rəhman Bədəlov da dəvət olunmuşdular.

Anar qalın bir dəftəri əlinə alıb oxumağa başladı: "Ağ liman."...O axşam "Ağ liman"ın oxunuşu dörd saat yarım-beş saat çəkdi; 8-in yarısında başladı, gecə saat 1-ə işləmiş qurtardı. Arada bir 15 dəqiqəlik fasilə oldu; çay içdik.

Anar sürətlə, amma ifadəli oxuyurdu. Artıq 10-15 dəqiqədən sonra hamımız tam diqqət kəsilmişdik. Tamamilə orijinal üslubda yazılmış bir əsərdi. Dili axıb gedirdi. Biri-birindən maraqlı obrazlar, xarakterlər... Hələ dialoqları demirəm...

Nəhayət, oxunuş bitdi. Hamı əsərin təsiri altında idi; heç kim dinmirdi. Kiçik pauzadan sonra sükutu pozan Emin Sabitoğlu oldu; özünəməxsus yumorla (görkəmli komedioqraf Sabit Rəhmanın oğluydu axı) "O gün olsun Turalın toyuna gələk" – dedi. Hamı güldü, dinlədiklərini hələ də həzmə verən otaqdakı dostlar hərəkətə gəldilər. Nə demək olardı? – belə bir xoş gündə gözəl arzu idi.

Mən çox təəssüf edirəm ki, həmin tarix dəqiq yadımda deyil, çünki Eminin sonda zarafatyana dediyi söz, əslində, Anarın "Ağ liman"ına verdiyi xeyir-duası çin oldu: illər keçdi, balaca Tural böyüdü, Azərbaycanın tanınmış diplomatı – səfiri kimi respublikamızı xarici ölkələrdə təmsil etdi və bu gün də edir. Həm də o gün Anarın bir nasir kimi ilk böyük təntənəsi (bu mənim qəti qənaətimdir) sonrakı uğurlu yoluna gur işıq saldı. Yeri gəlmişkən, onu qeyd etmək istəyirəm ki, Anara xalq arasında ən çox şöhrət qazandıran "Beşmərtərbəli evin altıncı mərtəbəsi" romanının nüvəsi də "Ağ liman"dandır.

Anarın yaradıcılıq diapazonu çox genişdir. O, əlbəttə, dediyim kimi, ilk növbədə nasirdir. Eyni zamanda, həm də dramaturqdur, ssenaristdir, publisistdir. Onun ədəbiyyatımızın bir sıra problemləri ilə bağlı yazıları esseləri, məqalələri məntiqinə, arqumentlərinə görə ciddi bir ədəbiyyatşünas alimin tədqiqatları, araşdırmaları səviyyəsindədir.

Və nəhayət, Anar kinorejissordur; mədəniyyət tariximizin görkəmli nümayəndələrinin həyat və yaradıcılıq yolundan bəhs edən "Dantenin yubileyi", "Üzeyir ömrü", "Qəm pəncərəsi" kimi filmlərin quruluşçu-rejissoru, "Cavid ömrü" və "Sübhün səfiri" filmlərinin ssenari müəllifidir. O, yorulmadan çalışan, yazıb-yaradan bir sənətkardır. Yazdığı hekayə, povest və romanların; pyeslərin, ssenarilərin; çəkdiyi filmlərin; bədii-publisistik əsərlərin eləcə siyahısı onun ədəbiyyatımız, ümumiyyətlə, mədəniyyətimizçün nələr etdiyi barədə çox şey deyir. Bununla belə, məni ilk növbədə həmişə (gənclik illərində də, sonralar da) yazıçı, nasir Anar daha

çox cəlb edib; özünəməxsusluğu ilə: qələmə aldığı obrazların daxili aləmlərinə, ən mübhəm hiss və duyğularına nüfuz etmək məharəti ilə, həqiqəti oxucusuna təmiz, aydın və təsirli bədii dillə, yeri gəldikdə isə, orijinal yumorla çatdıra bilməsi ilə cəlb edib. Yadımdadır, "Dantenin yubileyi" povestini oxuduqdan sonra mən uzun müddət bu əsərin təsiri altından çıxa bilmirdim. Düşünürdüm; real həyatda gör nə qədər kəbirlinskilər var; Anar onların acı talelərini sözün gücü ilə öz qəhrəmanının simasında necə də ustalıqla ümumiləşdirə bilib.

60-cı illərin ikinci yarısı və 70-ci illər Anar yaradıcılığının, həm də bir yazıçı-vətəndaş kimi fəaliyyətinin, məncə, ən qaynar mərhələsidir. Bu illərdə o, xeyli sayda hekayələr yazıb; bunların sırasında, ona yalnız SSRİ məkanında deyil, Sovetlər ölkəsinin xaricində də oxunan, müəllifinə şöhrət gətirən "Mən, sən, o və telefon", "Gürcü familiyası" və s. əl-əl gəzirdi. "Keçən ilin son gecəsi" hekayəsi əsasında yazdığı eyni adlı pyesi təkcə Azərbaycanda yox, bir neçə ölkədə səhnəyə qoyuldu, televiziya tamaşaları çəkildi. Milyonların sevimli filmi "Gün keçdi" də bu illərdə ekrana çıxdı. Mən həmişə daxilən qürurlanmışam ki, unudulmaz Arif Babayevin quruluşunda lentə alınmış bu filmin ərsəyə gəlməsində - Anarın ssenarisinin SSRİ Dövlət Kinematoqrafiya Komitəsində qəbulundan tutmuş sonda səsləndirilməsinə qədər, azca da olsa, bir redaktor kimi mənim də iştirakım olub. Anarla Moskvaya getməyimiz, orda Anarın moskvalı məmurların səslərini kəsməsi üçün bir gecənin içində ssenariyə, xırda-para olsa da, əlavələr yazması bugünkü kimi xatirimdədir. Gözəl günlərdi...

HAŞİYƏ: Hə, Anar, doğrudan da, burda deyiblər ey: "Ömür keçdi, gün keçdi, cavan olmam bir də mən". Amma onu da sən həmin filmdə yaxşı demisən ki, gün keçdi, amma ömür hələ qarşıdadır: "Gözəl günlər, şən günlər... Hələ qarşımızdadır" - bunu da Müşfiq deyib; Allah ona rəhmət eləsin.

Ötüb keçənləri yada salanda Anarın yaratdığı "Qobustan" jurnalının ərsəyə gəlməsini xatırlamaya bilmərəm.

Dedim ki, Anarın yaradıcılıq diapazonu çox genişdir və onun yazıçı-ziyalı mövqeyi yalnız ədəbiyyatla məhdudlaşmırdı... O, Azərbaycan incəsənətinə yaxından bələddi; teatr, kino onun az qala ədəbiyyat qədər sevdiyi sahələrdi. Musiqimiz, rəngkarlığımız da elə... Və Anarı bizdə bu sahələri işıqlandıran bir jurnalın olmaması çox narahat edirdi. Düşünürdü ki, niyə Azərbaycanda da Moskvadakı kimi, Baltikyanı respublikalardakı kimi, incəsənət jurnalı olmasın?!

O, bu arzusunu həyata keçirməkçün xeyli çalışdı və nəhayət, 68-ci ildə rüblük - ildə 4 dəfə olmaqla belə bir toplunun nəşrinə icazə aldı (o zaman yeni bir dərginin nəşrinə icazə almaq asan mə-

sələ deyildi; buna təkcə respublika hökumətinin yox, mərkəzin – Moskvanın da razılığı olaydı gərək). Bu xəbəri incəsənət aləmində çalışan sənət adamları, xüsusən gənclər – elə hər bir ziyalı da – böyük sevinclə qarşıladı.

Anar "Qobustan"ın nəşrinə başlamazdan əvvəl zövqünə, dünyagörüşünə inandığı insanları redaksiyaya dəvət etdi, gələcək dərgini necə görməsi barədə fikirlərini – formatına qədər – onlarla bölüşüb, onların da fikirlərini, təkliflərini dinlədi.

"Bayatı" telealmanaxından. 1981. Soldan sağa: İntiqam Qasımzadə, Anar və Aleksandr Qriç

Beləliklə, 1969-cu ildə "Qobustan" dərgisinin ilk nömrəsi işıq üzü gördü. Mən bu tarixçəni təfsilatı ilə niyə xatırladım?

İlk növbədə, Anarın mədəniyyətimizin bütün sahələrinin problemləri ilə yaşayan bir yazıçı-ziyalı olduğunu, ikincisi isə, onun liderlik xüsusiyyətini nəzərə çatdırmaq üçün. O, həmyaşıd və həmfikir olduğu müasirlərini, gəncləri arxasınca apara bilirdi.

Anarla bağlı mənim sözüm də, xatirələrim də çoxdur. Amma bir jurnal yazısında bunların hamısını əhatə eləmək mümkün deyil. Bir də ki, qarşıda hələ onun 90 illik yubileyi gəlir. Allah qoysa, o vaxta kimi hal-hazırda üzərində işlədiyim "Xatiratım" kitabımın "Anarlı günlərimiz" hissəsini yazıb tamamlaram.

Hələliksə, dostum, qardaşım Anar, Sənin 85 yaşını ürəkdən təbrik edirəm. Sən həyatını Azərbaycan ədəbiyyatının, Azərbaycan mədəniyyətinin inkişafına, onun dünyada tanınmasına həsr etdin. Və bu, bakılılar demişkən, bica yerə olmadı; çox şeyə nail ola bildin. Sözünlə, sənətinlə, ictimai-siyasi fəaliyyətinlə daim Xalqımıza, Vətənimizə xidmət etdin. Azərbaycanımızın müstəqilliyə qovuşmasında Sənin də payın az deyil. Bunu bilənlər bilir və qiymətləndirir.

Əzizim Anar, Sənə ilk növbədə cansağlığı arzu edirəm. Bir də bolbol yaradıcılıq sevincləri.

Arzuların çin olsun!

İntiqam QASIMZADƏ

Təyyar SALAMOĞLU

"BEŞMƏRTƏBƏLİ EVİN ALTINCI MƏRTƏBƏSİ"NDƏN "OTEL OTAĞI"NA GEDƏN "VAHİMƏ"Lİ YOLLAR

İnsan və cəmiyyət kontekstində ədəbi düşüncələr

Keçən əsrin 50-ci illərinin sonlarından başlayaraq, Azərbaycan ədəbiyyatının yeni keyfiyyət mərhələsinə daxil olmasında altmışıncılar nəslinin müstəsna rolu var. Azərbaycan "yeni nəsr"inin formalaşmasında altmışıncıların aparıcı rolu da, fikrimizcə, şübhə doğurmamalıdır. Bu nəsrdə altmışıncıların ən böyük nümayəndələrindən biri də (Nəsrə gəlişinin və özünütəsdiqinin tarixi və yaradıcılığının vüsəti etibarı ilə, fikrimizcə, birincisi) Anardır. Ç.Aytmatovun B.Vahabzadənin "Мы на одном корабле» kitabına yazdığı "Ön söz"dəki bir fikri xatırlamaya bilmirik: "Bir həqiqəti təsəvvür etmək çətin deyil ki, klassikləri yalnız keçmişdə axtaranlar çağdaşın barədə deyəcəyin tutarlı fikirlərə dodaq büzüb, çiyin çəkə bilərlər. Buna görə də, istər-istəməz, işə ehtiyatla yanaşmağı lazım bilirsən. Xoşbəxtlikdən, elə hallar olur ki, heç nə ilə hesablaşmadan, çəkinmədən öz çağdaşın haqqında ürək dolusu, açıqca fikrini bildirirsən ki, buna də məsələyə hamburqsayağı yanaşma deyərlər". Türkün böyük oğlunun fikrini iqtibas edərək, məsələyə "hamburqsayağı" yanaşsaq, deməliyik ki, Anar da Azərbaycan ədəbiyyatının çağdaş klassikidir, canlı klassikidir. Canlı klassikimizin 85 yaşı tamam olur. 65 ilə yaxındır ki, yaradıcılıq aləmindədir. Sözün həqiqi mənasında ciddi və məhsuldar bir yaradıcılıq yolu keçmişdir. Stixiyası etibarı ilə biz onu yazıçı kimi qəbul etsək də, dramaturgiya və ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, publisistika, tərcümə sahəsindəki, eləcə də ictimai xadim kimi səmərəli fəaliyyəti də diqqətdən yayınmır. Bütün bu istiqamətlər – bütövlükdə götürəndə miqyassız fəaliyyəti Anar haqqında yubiley ərəfəsində yazı yazmaq istəyimizi kifayət qədər çətinliklə üzbəüz qoydu. Çətinliyi, eyni zamanda, məsuliyyətimizi artıran bir cəhət də o idi ki, böyük sənətkar ədəbi prosesə gəldiyi ilk vaxtlardan bu günədək tənqidin, zaman keçdikcə isə həm də ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuşdur.

* * *

Nizami Cəfərov yazır: "Məndə belə bir təsəvvür var ki, Anar demaqoq məzmunda götürülən cəmiyyətdən çox (və bəlkə də, yalnız) insanın yazıçısıdır" (Cəfərov N. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Elm, s.228). "İnsanın yazıçısı" olmaq, ədəbiyyatın baş məramını "insanda insanı kəşf etmək" kimi görmək Anarın və bütövlükdə altmışıncılar nəslinin və təbii ki, altmışıncıların gəlib çıxdığı mərhələnin başlanğıcını, Azərbaycan "yeni nəsr"inin ərəfəsini hazırlayan İ.Şıxlı, İ.Əfəndiyev, İ.Hüseynov kimi nasirlərin ədəbiyyatı siyasi ideologiyanın yedəyindən xilas etmək, onu özünün əbədi və əzəli predmetinə – insana qaytarmaq psixologiyası ilə bağlı idi.

* * *

Varlıq fəlsəfəsi – özünü dərk edən insanın azadlığı ideyası Anarın bədii nəsrində konsepsiya şəklində iştirak edir. «Macal» povestinin qəhrəmanı Fuadın mühitin onun üçün tərtib etdiyi «dəqiq ömür cədvəli»ni bir tərəfə ataraq «macalsızlıqdan» «macal»a və deməli, özünü dərk edərək azadlığa qovuşması onun mənəvi təkamülünün əsasında dayanır. «Dantenin yubileyi»ndə istedadsız aktyor Feyzulla Kəbirlinskinin faciəsi də özünüidrakla bağlıdır. Xarakterinin təbiətən zəifliyi onun özünüidrak şansını heçə endirir və mənəvi azadlığa qovuşmasına imkan vermir. «Ağ liman»da Nemət və onu əhatə edən insanların mühitindəki darıxdırıcılıq və yeknəsəqlik də, ilk növbədə, qəhrəmanın daxilə baxış imkanlarının məhdudluğu ilə (mühitin təsiri və xarakterinin «təbiəti» ilə bağlı) əlaqələnir.

Cəmiyyət əxlaqı ilə insanın daxili dünyasının vahid süjetdə ikiləşməsinin, sanki paralelizminin, çulğaşan "dünya"ların bir-birini təqib etməsinin alt qatdan üst qata keçməsinin, mahiyyətcə daha sərt ifadəsinin, intim dünyaların sosial həyatı analitik bədii təhlil üçün həm də bir vasitəyə çevrilməsinin mükəmməl əksini "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə görürük.

Romandakı ata-oğul qarşılaşması insanın fərdi dünyası ilə sosial əxlaqın qarşılaşmasından yaranan kolliziyanı önə çıxarır. Ata – professor Məcid Zeynallı cəmiyyət əxlaqının təmsilçisi kimi simvollaşır. Məsələ onda deyil ki, Məcid Zeynallı yaşadığı mühitdə ona diktə olunan bu əxlaqı qəbul edir, onun prinsipləri ilə yaşayır, məsələ ondadır ki, Məcid Zeynallıda yaradıcı insan, alim olmasına rəğmən, cəmiyyət əxlaqına fərdi münasibət yoxdur, bütün stereotipləri ilə bu əxlaqın təlqin etdiyi yaşayış kanonlarına uyğunlaşmaq meyli var və həm də bu meyil çox güclüdür.

Cəmiyyət əxlaqında maddiyə köklənmə, hər şeyi insanın maddi tələbatı ilə bağlamaq, insanın iç dünyasını, mənəvi tələblərini nəzərə almamaq kimi ciddi qüsur bir yaradıcı insan kimi nəinki onu narahat etmir, əksinə, razı salır. Məcid Zeynallı bütün məsələlərə maddi rifah prizmasından baxır. Onun əxlaq prinsiplərinə (sosial, mənəvi və s.) müəllifin ironiyalı münasibəti bu cəhətlə bağlıdır. Romanda Məcid Zeynallının evinin interyerinin təsvirinə diqqət yetirək: «Valideynləri ev-eşiklərini ağır, zəhmli, tünd mixəyi

rəngli köhnə mebellə doldurmuşdular... Valideynləri bufetlərin üstünü, servantların içini bahalı qab-qacaqla doldurmuşdular, masanın, hətta royalın üstünə də iri billur güldanlar, mürəbbə vazaları, külqabılar düzülmüşdü». Bu təsvirdə tez-tez təkrarlanan «doldurmuşdular» və «masanın, hətta royalın üstünə də» ifadələrində Məcid Zeynallının və arvadının həyatın və yaşayışın mənasını maddi rifahda görmək meyilləri əks olunmuşdur.

Atanın oğlunu «düz» yola dəvət məqsədi daşıyan «monoloqu»nun bütün ahəngi, pafosu da «həyat maddi rifah üstə qurulub» tezisini əyaniləşdirməyə xidmət edir. Təhminədən əl çəkmək müqabilində Məcid Zeynallının oğluna təklif etdiyi «kooperativ ev», «Volqa» da onun düşüncəsində maddidən kənar olana yer olmadığına işarədir. Zaurun atasının iradəsinə qarşı çıxmasında ən həlledici məqam kimi ona «Volqa» təklif edilməsi məsələsini yazıçının qabartması təsadüfi deyil. Bu həyata iki fərqli baxışın qarşılaşmasından yaranan kolliziyanı bədiiləşdirir. «Volqa» təklifindən sonra «gərək deməyəydi, deməyəydi gərək atası bu sözləri. Təhminədən əl çəkməyin bahasına verilən rüşvəti təklif etməyəydi gərək Zaura». Zaurun bütün varlığını təlatümə gətirən bu düşüncənin mayasını, mahiyyətini Məcid Zeynallı ona görə düzgün başa düşə bilmir ki, mənəvi-əxlaqi baxımdan hər ikisi tamam fərqli dünyaların insanlarıdır.

Təhminə və Zaur isə fərdi düşüncə özünəməxsusluğu ilə yadda qalırlar. Bu qəhrəmanların həyat fəlsəfəsi «iç dünyaları»nın tələblərindən qidalanır və ömür yollarını istiqamətləndirir. Anarın qəhrəmanları mühitin və cəmiyyətin diktəsi ilə yox, daxili istəklərinə uyğun hərəkət edirlər.

Zaurun xarakterini birmənalı qiymətləndirmək mümkün deyil. Anarın qəhrəmanı öz varlığında iki Zauru yaşadır. O, ikisəsli qəhrəmandır. Aldığı tərbiyə və içində yaşadığı mühit onu özünüidrakdan yan keçməyə, «camaat necə, mən də elə» stixiyası ilə yaşamağa sövq edir. O, Təhminə ilə məhz bu stixiyanın diktə etdiyi «səs»in təsiri ilə münasibət qurur. «Nə sevgi, nə filan əşi?.. İstək var, ehtiras var, arzu-kamına çatmaq intizarı var, bir də istədiyinə nail olandan sonra doyğunluq, bezginlik, biganəlik var, vəssalam. Qalan hamısı sözdür, havayı söhbətlərdir». Bu düşüncə Anarın qəhrəmanının varlığındakı «birinci» Zaurun "səsi"dir. Nə qədər qəti deyilmiş olsa da, diqqət edilsə, bu düşüncədə qəhrəmanın situasiyaya tərəddüdlü münasibəti, özünətəlqini də görünməkdədir.

Anarın qəhrəmanının canındakı ikinci Zaur fitrətən təmiz doğulmuş, ilkin varlığın təcəssümüdür. İçindən gələn, lakin hələ mahiyyətinə varmadığı və başa düşmədiyi bu «səs» ona nə isə qeyri-adi hisslər, düşüncələr təlqin edir. Təhmi-nənin Spartakı tanıdığını biləndə Zaurun içində yaranan «titrəyiş», «bütün içinin qaynaması» da bunun əlamətidir. Bu məqamda və məhz belə məqamlarda Zaur Təhminəyə daha yaxın olur, onların arasındakı ruhi yaxınlıq birlikdə olduqları məqamlardan daha çox ayrıldıqları məqamda yaranır. Vüsal dəmlərində yox, bu ayrılıq məqamlarında Zaur daha çox özünüidrak hissi keçirir, daha saf və təmiz olur.

Təhminənin istək və arzuları, hərəkət və əməlləri, insanlara və mühitə münasibəti «məhəbbət qəhrəmanı» kontekstində axıra qədər izah oluna bilmir. Münasibətlərinin ən xoşbəxt çağında Təhminənin Zaura dedikləri («Bax, ən böyük, ən əsas həqiqət budur... Zaurik, dünyada bir həqiqət, bircə həqiqət var – qəlbin həqiqəti və səadət, xoşbəxtlik də elə budur, vallah») onun təkcə məhəbbət görüşlərinin ifadəsi deyil. Bu, daha çox həyata qeyri-adi bir baxış bucağıdır. Təhminənin bu sözlərində həyata ekzistensialist bir baxış, «öz daxili azadlığını, mütləq sərbəstliyini təmin etməyi» hər şeydən üstün tutmaq istəyi vardır. Təhminə Zaurla da, Muxtarla da, hətta Spartakla da qurduğu əlaqələrdə həyata «mütləq sərbəstlik» prizmasından baxır. Onun məhəbbət görüşləri də bu prizmadan keçib həyata vəsiqə alır.

* * *

Yazıçı cəmiyyət və insan münasibətlərini, qarşıdurmalarını, bu qarşıdurmaların insan taleyini faciə qədər sürükləmək gücünü bədii cəhətdən ifadə etmək imkanlarını yaradıcılığının yeni mərhələsində, müstəqillik dövründə qələmə aldığı əsərlərdə daha dərin ifadə edir. Cəmiyyət əxlaqı ilə fərdi əxlaqın toqquşmasından yaranan kolliziya onun bu illər yaradıcılığının leytmotivinə çevrilir. Nizami Cəfərov Anarın bu mərhələdəki yaradıcılığını "Azərbaycan insanını Azərbaycan cəmiyyətinin (ümumən cəmiyyətin!) total ictimai-siyasi psixozunda" təsvir etmək meyli ilə xarakterizə edir (Cəfərov N. Göstərilən əsəri. s.229). "Otel otağı" kitabındakı (1995) "Qırmızı limuzin", "Vahimə" hekayələrinin və "Otel otağı" povestinin aparıcı qəhrəmanlarının taleyini bu psixozun işığında dəyərləndirir, onların "özlərindən asılı olmayan təhtəlşüur, sövqi-təbii "istəklə" (və əsaslı bir müqavimət göstərmədən!) ölümün ağuşuna atılması"nı yazıçının yaradıcılığında özünü qabarıq şəkildə büruzə verən ekzistensializmin bədii ifadəsi hesab edir.

Ancaq məsələ burasındadır ki, misal üçün, "Vahimə" hekayəsinin qəhrəmanı Orucu ölümə aparan yolun təfərrüatı ilə tanış olanda, bu yolun Kərim Əsgəroğlunu ("Otel otağı") ölümə aparan yoldan tam fərqləndiyini görürük. Əlbəttə, ən geniş mənada onların həyatının vaxtsız ölümlə nəticələnməsində cəmiyyət əxlaqının rolu var. Anaq bu "var"ın nə dərəcəsi eynidir, nə də mahiyyəti. Oruc və Kərim Əsgəroğlu Anarın əsərlərinə ziyalı obrazı kimi daxil olurlar, ancaq tamam əks qütbləri təşkil edirlər.

* * *

Oruc yaşayışa «dünya beş günlükdür, beşi də qara» fəlsəfəsi ilə yanaşır və həyatını buna uyğun quraraq mümkün qədər çox zövq-səfa ilə yaşamağa çalışır. «Hünər bu qara günləri istədiyin rəngə boyamaq və o rəngdə yaşamaqdır. Son vaxtlara qədər Oruca elə gəlirdi ki, bunu bacarıb».

Həyatın dadını mümkün qədər çox çıxarmaq ehtirasından doğan, müayinə və müalicə, maddi imkanlar, ailə sakitliyi, oğlunun gələcək yüksəlişi, bağın açıq havası, ...Ofelyalı şənbələr, dost məclisləri, preferans, nərd, videofilmlərdən ibarət «dəqiq ömür cədvəli» Orucun həyatını «çəpər

içinə salır» və onu öz fərdi dünyasında yaşadır. Dünyanın və millətin dərdləri bu çəpər, bu daş divarları yarıb Orucun həyatına heç cürə daxil ola bilmir. Çünki «bu divarın dalında qaynaşan, çalxalanan, kükrəyən, qan axıdılan, göz yaşı tökülən dünyanın ona elə bil heç dəxli yoxdu».

Oruc cavanlıq şövqünü, gücünü saxlamaq üçün nə qədər «dəqiq ömür cədvəli» tərtib etsə də, özünü «ictimai həyatın tələtümləri»ndən – «mitinqlər, tətillər, Qarabağ davası, hakimiyyət çəkişmələri və hakimiyyət dəyişmələri»ndən uzaq tutsa da, yenə də «işin içindən iş çıxır».

İlk növbədə, təsvir predmeti kimi götürülən materialın həyatiliyi, həyati olduğu qədər də səciyyəviliyi diqqəti cəlb edir. Sanki hər gün gördüyümüz, müşahidə etdiyimiz və bəzən də iştirakçısı olduğumuz hadisələr kino lenti kimi gözlərimiz qarşısından keçib gedir.

Müəllifin bədii tədqiqatın mərkəzinə çəkdiyi həyat materialını dərindən bilməsi, bütün konkretliyi və səciyyəvi detalları ilə əks etdirməsi razılıq doğurur. Hekayədə yazıçı niyyəti konkret situasiyalar və xarakterlər vasitəsilə əyaniləşir. Orucun ölümü-yanıb kösövə dönməsi təsadüfi bir hadisə nəticəsində baş versə də, müəllif bu ölümdə bir qanunauyğunluq görür. Əlbəttə, hekayədə bu barədə heç nə deyilmir. Hiss olunur ki, müəllifi ən çox narahat edən aparıcı qəhrəmanın ictimai amaldan məhrum olmasıdır. Müəllifə görə, insan ancaq öz fərdi dünyasında yaşaya bilməz. Vətəndaşlıq hissindən, ictimai amaldan məhrumluq mənəvi boşluğa, həyatın beş günlüyü haqqında çürük fəlsəfəyə aparır və heç vaxt insanı sona qədər xoşbəxt edə bilməz. Əgər belə bir xarakter və düşüncə sahibi ziyalıdırsa, yüksək ziyalı titulları daşıyırsa, bu artıq mənəvi ölülükdür və cəmiyyətin sosial faciəsidir. Orucun ölümü bu mənəvi ölüm rəmzi ifadəsidir.

Anar "insanın intim dünyası ilə sosial dünyası, necə deyərlər, ictimai fəaliyyəti arasında nə isə bir kontakt, harmoniya axtarır..." (Cəfərov N. Göstərilən əsəri, s.230). Orucun ölümünü həmin bu "nə isə bir kontakt, harmoniya"nın yoxluğu labüdləşdirir, qəhrəmanın özü ilə ictimai hadisələr arasına çəkdiyi "dəmir çəpər" gerçəkləşdirir.

* * *

"Otel otağı"nın qəhrəmanının da ölümünü cəmiyyət əxlaqı hazırlayır. İstər "Vahimə"də, istərsə də "Otel otağı"nda hadisələr müstəqillik dövrünün ilk illərində cərəyan edir. Lakin Anarın qəhrəmanları müstəqillik dövrünə sosializm cəmiyyətinin psixologiyası ilə (tərbiyəsi ilə) daxil olurlar. Hər ikisi yeni cəmiyyətdə özünə yer tapmağa çətinlik çəkir. Lakin qəhrəmanlar arasında tipoloji fərq vardır. "Vahimə"nin qəhrəmanı keçmiş cəmiyyətin əxlaq qanunlarının verdiyi imkanlardan maksimum yararlananları təmsil edir. Bu yararlanmanın mənəvi əsaslarını onun təbiətinə cəmiyyət əxlaqı hopdurmuşdur. Ancaq Kərim Əsgəroğlu başqa bir tipdir, başqa cür "bədbəxt"dir. Orucun xoşbəxtliyində bədbəxtlik, Kərim Əsgəroğlunun bədbəxtliyində xoşbəxtlik var. Ancaq, doğrudan da, bədbəxt kimdir və əksinə, xoşbəxt kimdir? sualına Anar dəyişən cəmiyyət fonunda birmənalı cavab vermir, heç cavab vermək də istəmir. Ona görə ki, suala birmənalı cavab vermək əsərin məna polifonizminə xələl gətirə bilər. Yazıçı zamanın hadisələrini ancaq öz bədii-fəlsəfi təfəkküründən keçirərək qiymətləndirmir, çox vaxt "söz"ü qəhrəmanlara verir. Həyata onların gözü, idealları prizmasından baxır. Buna görə də "Otel otağı"nda süjet sənətkarın qəhrəmanlarına verdiyi "rol" əsasında yox, fərqli qəhrəmanların düşüncə polifoniyası ilə hərəkətə gəlir. "Vahimə"dəki Orucu "Otel otağı"nda Sədyar müəllim əvəz edir. Çopur Cabbar obrazı isə Orucun və Sədyar müəllimin hərəkətlərinin, xarakter və düşüncələrinin, amal və məramlarının haradan, hansı zamandan qaynaqlandığını təsəvvür etməyə imkan verir, əxlaqi kataklizmi ilə onun səsi daha dərinlərdən gəlir. Əslində, 30-cu illərin, 50-ci illərin Çopur Cabbarları sonrakı zaman kəsiklərində, lap elə müstəqilliyin ilk illərində Sədyarlara transformasiya olunur. Dəyişən zamanda Çopur Cabbarların əxlaq kodeksi tam qanuniləşə bilməsə də, Sədyarların əxlaq kodeksi "qanuniləşir", cəmiyyətin normativ əxlaq qaydaları kimi qəbul edilir.

* * *

Kərim Əsgəroğlunun atası Əsgər müəllim əsərə milli əxlaqın, mənəviyyatın, türk oğlunun tarixi xarakterinin daşıyıcısı kimi daxil olur. Kərim Əsgəroğlunun xarakteri, təbiəti və düşüncəsi bu tarixi xarakterdən güc alır. Lakin bu xarakterlər öz mühitində deyil, onlar tamamilə yad bir mühitdə yaşamağa məhkumdurlar.

Atanın və oğulun obrazı milli tarixi xarakterin sovet əxlaq tərzinə müqavimətini simvollaşdırır. Lakin bu "müqavimət" ata və oğula ömürlərinin yarıda qırılması hesabına başa gəlir.

Müəllif hadisələri konsentrik süjet tipi ilə hərəkətə gətirir. Əsərdə baş verən hadisələr səbəb-nəticə əlaqələri ilə bir-birinə bağlanır. Qeyd edək ki, "Otel otağı" müəllif və ədəbi proses dəyərləndirməsində povest janrının nümunəsi kimi qavranılır. Şübhə etmirik ki, bu zaman nəzərə alınan ən həlledici faktor əsərin həcm etibarı ilə yetmiş səhifə ilə hüdudlanması olur.

Ancaq demək lazımdır ki, bu, bədii nəsr janrları haqqında ənənəvi təsəvvürdən irəli gəlir.

Çağdaş roman gerçəkliyi "dünya modeli" kimi qavrayır və sosial həyatı bütövlükdə öz içinə alır, "roman fəlsəfiləşir". Mövzuya verilən bədii həldəki maksimum ümumiləşdirmə fəlsəfiliyə yol açır. Roman təfəkkürü bədii idrakın hüdudlarının nəhayətsizliyini şərtləndirir və janrın sosial-fəlsəfi yükü sürətlə artır. Lakin, nə qədər paradoksal görünsə də, həcm kiçilməyə doğru gedir. "Otel otağı" bu tələblərə cavab vermək baxımından janrın müasir milli nümunələrindən biri kimi üzə çıxır.

Əsər yetmiş illik sovet dövrü Azərbaycan cəmiyyətinin siyasi-ictimai və əxlaqi-mənəvi modeli kimi qavranılır. Doğrudur, romanın qəhrəmanı bizim çağdaşımızdır, hətta, demək olar ki, yaşıdımızdır. Kərim Əsgəroğlu ilə ilk tanışlığımız ermənilərin Qarabağ iddiasının, Topxana meşələrinin qırılması və bütün bunlardan dolayı Azadlıq meydanında davamlı yer alan mitinqlərin baş verməsi ərəfəsi və dövrünə düşür. Kərim Əsgəroğlu bütün bu hadisələrin içindədir, bəzən müşayiətçi, bəzən də iştirakçı şəklində öz vətəndaş missiyasını yerinə yetirməkdədir. Biz də bu hadisələrin içində olmuşuq. Meydan hadisələri barədə Kərim Əsgəroğlunun düşüncəsindən keçənlər vaxtilə bizim də düşüncəmizdən keçib. Meydan hadisələrinin, bütövlükdə cəbhə hərəkatının mürəkkəb xarakteri ilə, razılaşdığımız və razılaşmadığımız tərəfləri ilə bağlı qəhrəmanın düşüncələri, artıq tarixə çevrilmiş hadisələrin bədii həqiqətə çevrilməsinin dürüstlüyünü ifadə edir. Tarixiliyin heyrətamiz dərəcədə dəqiq ifadəsi hesab oluna bilər. Əlbəttə, meydan hadisələrinə dair romandakı təfərrüatlar yazıçı mövqeyinin ifadəsi kimi yox, baş qəhrəmanın münasibətinin əksi kimi verilir. Bu münasibəti öz təbiəti etibarı ilə başdan-başa milli tarixi varlığa bağlı olan bir ziyalının düşüncələri, qənaətləri kimi qəbul edilir. O da bütün hallarda meydan hadisələri haqqında qəhrəmanın düşüncələrindən keçib romana gələn təsvirlər hadisələrə verilən subyektiv təhlilin obyektiv xarakteri ilə bizi də bu fikirlərə şərik edir.

Müəllif roman materialına çevirdiyi heç bir hadisəni epik təhkiyə yolu ilə nəql etmir. Belə bir nəqletmə varsa da, o da romanın ekspozisiyası üçün səciyyəvidir. Kərim Əsgəroğlunun Türkiyə səfərinə çıxdığı vaxtdan başlayaraq, xüsusən Ankaradan İstanbula gedərkən baş qəhrəmanın xəyalından keçənlər süjetin hərəkətverici qüvvəsinə çevrilir. Yaşadığı 58 illik həyatda ancaq mənəvi olana tapınan qəhrəman qəflətən kəskin maddi problem qarşısında qalıb, bu problemi Türkiyədə işləməklə həll etməyə çalışır. Müəllif Kərim Əsgəroğlunun Türkiyəyə gedişini və burada qarşılaşdığı hadisələri bədii təhlilin əsas predmetinə çevirir. Bu "çevirmə" zamanı ağır maddi durumdan çıxılmaz vəziyyətə düşən qəhrəmanın həyat yolunun keçmişi, indisi və gələcəyi bədii təhlilin obyekti olur. Müəllif retrospeksiya üsulundan sona qədər məharətlə faydalanır. Ağır maddi durum Kərim Əsgəroğlunu keçdiyi həyat yolunu analizdən keçirməyə, dünənin və

bu günün parametrləri ilə dəyərləndirməyə sövq edir. Müəllif şüur axını, xatırlama üsulu ilə yaxın keçmişi – qəhrəmanın uşaqlıq və ilk gənclik illərinin hadisələrini təhlil sferasına daxil edir. Romanın təsvir predmeti olan zamanın hüdudları genişlənir, biz yetmiş il içində yaşadığımız rejimin ən təlatümlü dövrlərində – 30-cu illərdə, 50-ci illərdə baş vermiş hadisələrin içinə düşürük. Müəllif qəhrəmanının düşdüyü durumun – inandığı həqiqətlərdən geri çəkilmək psixologiyasının səbəblərini aşkarlamağı lazım bilir. Kərim Əsgəroğlunun düşüncəsində yer alan təbəddülatlar nəticə kimi qavranılır. Yazıçını ən çox düşündürən inandığımız həqiqətlərdən sapmağa, Sədyarları, az qala Çopur Cabbarları haqlı çıxartmağa qədər beynimizi yeyən qənaətlərin haradan, nədən, hansı zamandan qaynaqlandığını ortaya çıxarmaqdır.

DANTENİN YUBİLEYİ

Anarın qəhrəmanını, ilk növbədə, milli varlığın tarixi xarakterini sovet müstəmləkə rejiminə daşımaqla bağlı qarşılaşdığı problemlərin məngənəsində görürük. Bu "məngənə"nin Azərbaycan insanının tarixi xarakterinə zərbələrini müşahidə edirik. Zaman dəyişəndə – Azərbaycan insanı yenidən milli müstəqilliyinə qovuşanda daha tragik bir situasiya ilə üzləşir. Biz küll halında müstəqillik dövrünə tarixi mənəviyyatımızın daşıyıcıları kimi yox, həm də sovet əxlaqından varlığımıza hopanlarla birlikdə daxil oluruq. Nəticədə, müstəqilliyə qovuşmağımız siyasi cəhətdən mümkün olsa da, mənəvi-əxlaqi müstəvidə çoxsaylı problemlərlə üz-üzə qalırıq.

Türk ruhu Kərim Əsgəroğlunun varlığında sovet dünyagörüşü ilə qarışıq bir şəkildə yaşayır. Nəinki yazıçı, qəhrəman özü də bunun fərqinə varır. Onun fikrindən özünün "sovet adamı" olması ilə bağlı vaxtaşırı keçən düşüncələr bunu sübut edir. Sovet rejimindən sıyrılıb çıxmış Azərbaycan insanı, birinci növbədə, öz ruhuna səpilmiş ateizm toxumlarından göyərib bar verən inancsızlığın acısını yaşayır. Kərim Əsgəroğlu Türkiyə türkləri ilə ünsiyyətdə olanda bu qüsuru aşkar hiss edir, acı və təəssüf dolu bir hissin təsiri altında düşünür: "Bədbəxt sovet insanı – öz-özünü qınadı – heç nəyə inam qalmayıb, nə sosializmə, nə dinə, nə allaha, nə şeytana... Amma axı milyonlarla insan ya ona, ya buna inanır. Ya da başqa bir şeyə –

hər halda nəyəsə, ya kiməsə inanır". Hərçənd ki, Kərim Əsgəroğlu, özünün də xüsusi vurğuladığı kimi, Allaha inanır, lakin varlığını büsbütün bürüyən bir inancla yox. Onun Allaha inamı qan yaddaşından gəlir, intuitiv bir səviyyədədir. Qan yaddaşı ilə Kərim Əsgəroğlu arasına girən sovet rejimi bu inanca zaman-zaman zərbələr vurmağa çalışıb. Möminliyin, Allaha inamın birinci atributu olan "namaz qılmaq"a ironik münasibəti bunun ifadəsidir. Ən acınacaqlı hal budur ki, Kərim Əsgəroğlu öz mövqeyinə, baxışlarına da inamlı deyil, sövq-təbii ilə bu cür baxışların sovet təbliğatının onun varlığına hopdurduğu fəsad olduğunu dərk edir. Elə bu dərketmənin təsiri altında öz-özünə etiraf edir ki, "içindəki əski sovet adamının donuq əxlaq qəliblərindən çıxa bilmir".

Anar güzəştsiz təhlil aparır. Özü də, bu təhlillərini ciddi bir eksperimentlə əsaslandırmaq istəyir. İstanbulda işinin düzəlməməsi və ondan da daha artıq şəkildə maddi imkansızlıq Kərimi ömrü boyu düşmədiyi sıxıntıya salır: "Doğrudan da nə itim azıb mənim burda – yorğun-arğın, yarıac, pulsuz, hər şeydən bıkıb usanmış, min bir qayğıdan tık deyincə doymuş, ahıl bir kişi, nə idi belə təzə bir dolanışığın sevdasına uyub gəlmişdi bura?"

Yazıçını ən çox maraqlandıran budur ki, bu sonu görünməyən sıxıntılar Kərimi inandığı həqiqətlərdən geri çəkəcəkmi, onun düşüncəsində metamarfoza yaradacaqmı, başqa sözlə, türk qanı, yoxsa bu qana qarışmış sovet təbliğatı qalib gələcək? Vəziyyətin sonrakı inkişaf mənzərəsi göstərir ki, hələ ki, Kərimin şüurunda sovet təbliğatından gələnlər daha aktivdir, üstün gəlir. Kərim fikirləşirdi: "Niyə hədər keçmiş ömrünün bu son qısa qismini də boşuna xərcləmək istəyirdi? Niyə ömrü boyu həmişə kiməsə borclu olduğunu düşünə-düşünə yaşadı? Və bu borcdan nə zaman qurtulacaqdı? Kimə borcluydu ki? Hamıyamı? Nə vaxtacan özünü aldadacaqdı ki, hələ hər şey qabaqdadır, yaxud heç olmasa irəlidə nə isə, nə isə var? Heç nə yoxdu qabaqda. Arxada da heç nə olmadığı kimi... Puç yaşanmış bir ömrün yükü vardı belində, belini əymişdi. Vəssalam, şüttamam".

İlk növbədə, onu qeyd edək ki, yazıçının insanın fikrindən keçənləri, yaşadığı ağrının ifadəsini bu qədər riyazi dəqiqliklə ifadə etmək bacarığı heyrət doğurur. Ancaq indiki məqamda məsələ bu deyil. Kərimin fikrindən keçənlərin bu monoloqvari ifadəsi qəhrəmanın təbiətindəki çevrilməni göstərir. Bu məqamda Kərim Əsgəroğlu onun üçün müqəddəs olan bütün amal və əməllərindən əl çəkir. Nəinki əl çəkir, hətta onları "puç yaşanmış bir ömrün yükü" hesab edir. Bu hallar Kərimi öz yolundan çıxarıb Çopur Cabbarların, Sədyarların yoluna salır. Onların əməllərinə və əqidələrinə bəraət verilir. Əsərdə bunun davamlı təzahürü ilə qarşılaşırıq. Qəhrəmanın maddi sıxıntıları artdıqca (ürəyinin ağrıları sistematik xarakter aldıqca) onun komfortlu həyat şəraitində yaşayanlar haqqında ardıcıl düşündüyünü, bu cür yaşayışın cazibəsinə düşdüyünü görürük. Bu baxış sistemi Kərimin öz təbiətindən, xarakterindən uzaqlaşmaqla olduğunu

göstərir. Biz qəhrəmanımızın fikrindən keçən aşağıdakı qənaətləri ürək ağrısı ilə qarşılayırıq. (Bizim də ürəyimizin sancmaları sistematik xarakter alır): "Nə yaxşı ki, Sədyarın belə imkanı var, pulu var, hansı yolla qazanıb - qazansın, halal xoşu olsun, əliaçıqdır, dostu darda qoyan deyil... Yaxşı ki, tərsliyə, höcətə uyub Sədyarla aranı vurmamışam".

Bu cür qənaətlər əqidə, dünyagörüşü savaşında Kərim Əsgəroğlunu "təslim aktı"nı imzalamağa aparır. Bir neçə səhifə sonra biz artıq bu "təslim aktı"nın imzalandığının şahidi oluruq: "Fikirlərində, hər yerdən əli üzüləndə qərarlaşdırırdı: bəd başına Sədyardan xahiş edərəm, hər şeyi açaram ona, yəni onsuz da vəziyyətimdən agahdır, bəli, xahiş edərəm, məni qəbula salsın və bir dəfə, bircə dəfə şeytanın qıçını sındırıb mən də o arvad tualetinin yanına gedən yekəqarınlardan birinin qulağını kəsərəm... Sədyar, əlbəttə, onu başa düşəcəkdi. Kərimə elə gəlirdi ki, belə söhbət baş tutsa, Sədyar hətta sevinəcəkdi. Sədyar kimi adamlar dünyada heç bir insanın sonunacan təmiz, ləkəsiz qalacağına inanmırlar. Geci-tezi var – deyə düşünürlər. Və düşündükləri gec-tez təsdiq olunanda sevinirlər, elə bil öz vicdanları üçün də bir təsəlli tapırlar".

Kərim Əsgəroğlunun pessimizmə qapılmasını, bundan dolayı mövqeyində baş verən sapıntıları inkar etmək mümkün deyil. Bizi məsələnin başqa bir tərəfi daha çox narahat edir. Qəhrəmanın dalana dirənməsi və geri çəkilməsi oxucunu da pessimizmə aparmır ki? Onun təmsil etdiyi xalqın gələcəyi ilə bağlı ümidsizlik təlqin etmir ki? Ədəbiyyat, təsvir etdiyi situasiyanın necəliyindən, ağırlığından asılı olmayaraq, oxucusunu işığa doğru aparmalıdır. Bu nöqteyi-nəzərdən çıxış edəndə bizim beynimiz zülmətə qərq olmur ki? Çünki Kərim Əsgəroğlular, etiraf edək ki, gələcəyə gedən yolda bizim ən çox ümid bəslədiyimiz bir zümrədir.

Azərbaycan ziyalısının daşımalı olduğu keyfiyyətləri mütəfəkkir filosofumuz Ə.Hüseynzadənin necə sıraladığına diqqət yetirək: "Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai!" Sonuncu xüsusiyyətləri bir tərəfə buraxıb Azərbaycan-türk ziyalısı üçün mütləq həqiqət kimi qəbul və zəruri hesab etdiyimiz birinci iki xüsusiyyəti bir də xatırladaq:

"Türk qanlı, müsəlman etiqadlı fədai (oxu: ziyalı – T.S.)". Anarın, təkcə Anarın yox, elə bizim də qəhrəmanımızın səciyyəsində çatışmayan ikinci cəhətin – "müsəlman etiqadlı" məsələsinin üzərində, sanıram ki, təfərrüatı ilə dayanmağa ehtiyac var. Bu ehtiyac ondan doğur ki, günümüzdə hətta ən nəcib sifətlərə malik olan Azərbaycan ziyalılığında belə, ümumən götürəndə ən zəif cəhət budur. Biz İslam dəyərlərini "milli sərvətimiz" (Heydər Əliyev) kimi qavramağa çətinlik çəkirik. 1994-cü ildə yazıldığını nəzərə alsaq, "Otel otağı"nda bu, tam yerində və vaxtında qaldırılmış və düzgün bədii həll verilmiş problemdir. Uzun illər ədəbiyyatşünaslığımızın bədii mətnləri İslam inancından təmizləyərək geniş oxucu kütləsinə təqdim etməsi (mahiyyətcə onu təhrif etməsi) bizim dünyagörüşümüzü

iflic vəziyyətinə salmışdır. Kərim Əsgəroğlunun "bədbəxt sovet adamı" haqqındakı qənaətlərində yer alan və sovet tərbiyəsi almış insanları "milyonlarla insan"dan fərqləndirən bu cəhət bizim ən ağrılı yerimizdir. Qarşılaşdığımız fəlakətlərin hamısının mayasında, sözün həqiqi mənasında, İslam inancına sahiblənə bilməməyimizin müstəsna yeri var. Fikrimizcə, Kərim Əsgəroğlunun "büdrəməsi"ndə bu amilin rolunun olması yazıçını da narahat edən bir məsələdir. Çünki qəhrəmanın vəziyyəti gərginləşdikcə, vəziyyətdən çıxış yolunun tapılması zərurətə çevrildikcə qəhrəmanın "Allah məsələsi"nə qayıdışı ardıcıl xarakter alır. Yazıçı yaratdığı obrazı bütöv görür, onun təbiətini tam təsəvvür edir və bədii əksetdirmədə bu bütövlüyə sadiq qalır. Kərim Əsgəroğlu, əlbəttə, Allaha inanır, ancaq "Kərim lap qədim sufilər sayağı insanı allaha tən bilirdi və ikisinin də mövcudluğuna şəkk-şübhə etməsə də, kimin kimi yaratdığından qəti əmin deyildi. Allahmı insanı yaratmışdı, insanmı allahı?". Sonuncu sual məsələyə Oktay Eloğlusayaq yanaşmadır. Əvvəlki mülahizələrində də, özünün etiraf etdiyi kimi, sufi şeirinin yanlış təlqinlərinin təsiri altındadır. Bütövlükdə onun Allaha inamı dünyəvi ədəbiyyatın, xüsusən bu ədəbiyyata ateist mövqedən təhlil verən ədəbiyyatşünaslığın təsiri altındadır.

GÜN KEÇDİ

Düşdüyü çətin vəziyyətdə Allaha tam sığına bilmədiyi üçün qəhrəman ruhən yüngüllük tapa bilmir. Ruhi ağırlıq ruhi müvazinətini itirməsinə və ölümlə üzbəüz qalmasına səbəb olur.

Hadisələrə verdiyi bədii təhlildə, qəhrəmanlarını təqdimdə yazıçı heç vaxt birtərəfliliyə yol vermir. Situasiya öz mürəkkəbliyində təqdim olunur. Kərim Əsgəroğlunun düşdüyü vəziyyətə dözümsüzlüyündə öz xarakterindən qopa bilməmək xüsusiyyəti də görünür. Qəhrəman "sədyarlaşma"nı öz problemlərinin həll yolu kimi fikrindən keçirsə də, onun ruhu bu "qərarı" birmənalı qarşılamır. Yadımıza salaq bu "qərar"dan sonra onun düşdüyü ruhi vəziyyəti. Yazıçı bu vəziyyəti həssaslıqla izləyir: "Hava lap qaranlıq idi, amma Kərim qaranlıqda da hiss elədi ki, üzü pörtüb, qulaqları yanır. Fikirlərinin xəcaləti idi – üzünü qızardan?". Heç şübhəsiz. Bu hal beyində qərarlaşan fikrə ruhun etirazı idi. Verdiyi qərardan sonra yüngülləşə, dərindən nəfəs ala bilməməsi, ürək ağrılarının azalmaması, nəhayət, ölümünün gerçəkləşməsi bu etirazdan güc alırdı. Əslində, "çevrilmə" prosesinin baş tutmaması, qəhrəmanın öz xarakterində qalaraq ölümə qədər getməsi bir çox ciddi səbəblərlə də

bağlanır. Məsələn, qəhrəmanın təbiətinin büllur kimi saflığı, onun vətən sevgisi, Qarabağ problemləri ilə bağlı keçirdiyi ağrılı hisslər heç vaxt onu maddi rifahı önə çəkməklə yaşamaq səviyyəsinə düşməyə qoymamış, həmişə ucalıqda saxlamışdır (Deməli, genefond öz əslini saxlaya bilmişdir). Ölüm ayağında qızının vəziyyətinin, toyunun necə olacağı ilə bağlı keçirdiyi hisslər tam təbiidir. Ancaq bu məqamda diqqətimizi daha çox onun Şuşa sevgisi çəkir: "Şuşanı bir də görə bilməyəcəyəm. İnfarktla o yüksəkliyə qalxa bilmərəm – bir gün ora qalxmaq imkanımız olsa da...". Məhz qəhrəmanın "Şuşa sevgisi", nə vaxtsa Şuşanı görmək imkanı olacağına dair içində baş qaldıran inam Qarabağ hadisələrinin, Xocalı faciəsinin, Şuşa ilə bağlı konkret təsvirlərin əsərin kompozisiya sistemindəki yerini düzgün təsəvvür etməyə imkan verir. Eyni zamanda, insanın ruhi müvazinətini saxlamasında vətən, yurd, torpaq sevgisinin rolunu üzə çıxarır.

Yaxın keçmişdə baş verən hadisələr qəhrəmanın onları tez-tez xatırlaması, unuda bilməməsi, baş verən hadisələrdən dolayı yaşadığı sonsuz iztirablar fonunda önə çıxır. İddia etmək olar ki, "Otel otağı" Qarabağ hadisələrinin, Birinci Qarabağ savaşının, Xocalı faciəsinin, Şuşanın itirilməsinin, ilk növbədə və ən əsası isə, hadisələrdən dolayı ağrılarımızın, faciəli yaşantılarımızın sənətkarcasına və hətta klassikcəsinə ifadəsini verən bir əsərdir. Hadisələrlə bağlı heç bir təfərrüatlı təsvir yoxdur, bunun əvəzində ən səciyyəvi detallarla, çox dərin ümumiləşdirmə gücünə malik ştrixlərlə hadisələrin mahiyyətini açmaq üsulu var.

Xocalı faciəsinin bütün dəhşətlərini yaşayan Lətifənin Kərim Əsgəroğluna dediklərinə diqqət yetirək, ancaq bundan da qabaq müsibətin içindən çıxmış qadının baş vermiş hadisələri hansı şəraitdə dilə gətirdiyini göz önünə gətirək: "Ermənilər dörd gün vaxt verdilər ki, hamı Xocalıdan çıxıb getsin. Aldatdılar bizi. İki-üç saatdan sonra atışma başladı. Özümüzünkülər də aldatdı bizi". Bu üç cümləlik informasiya, xüsusən sonuncu cümlə Xocalı hadisələri ilə bağlı bildiklərimizə qarışıb bizim düşüncələrimizi yalnız üfüqlərə qədər aparmır, hansısa qənaətlərin təsiri altında ruhumuzu didir.

Əsərdə Xocalı dəhşətlərini yaşayıb, tam təsadüfən sağ qalan qohumu Lətifəni görəndə Kərim Əsgəroğlunun fikrindən keçənlər, qəhrəman bir tərəfə qalsın, oxucunun bütün varlığını sarsıdır: "Kərim Lətifəyə baxıb düşünürdü – iztiraba heykəl qoyulsa – bu qadının heykəlini yapmaq lazımdır. Daha doğrusu, Lətifənin özü canlı heykəl idi – tələf olmuş ailənin qaxaca, ağaca dönmüş dərd heykəli". Bu "dərd heykəli" oxucu əzabını son həddə çatdırır. Ancaq, sən demə, Xocalı faciəsində bu xocalıların yaşadığı əzabın son həddi deyilmiş. Yazıçı, deyə bilmərik, bu təsvirləri qələmə alarkən ürəyini necə mühafizə eləyib (və ümumiyyətlə mühafizə eləyə bilibmi?), bu barədə qabaqlayıcı nə tədbir görüb, ancaq onu deyə bilərik ki, aşağıdakı təsvir oxucuya iztirabın ölçülə bilməyən dərəcəsini yaşadır. Lətifənin dediklərindən: "Kamal (əri – T.S.) dedi ki, sən qonşu Bilqeyis arvadla çıx kənddən. Biz burada qalacayıq. Axıracan vuruşacayıq. Razı olmadım. Balacanı – Səmayəni, qızımı deyirəm – Bilqeyis arvada tapşırdım, özüm qaldım. Əvvəlcə Adili vurdular, sonra Kamalı... Eşitdim ki, meşədə Bilqeyis arvadı da vurublar, amma uşağa güllə dəyməyib. Düşdüm meşələrə, iki gün gecə-gündüz axtardım Səmayəni, axır tapdım meyitini. Güllə dəyməmişdi. Donub ölmüşdü. Qarın içində iməkləyib, iməkləyib tifil, sonra donub ölüb. Balaca əlləri eyzən tikan içində idi. Tikanların hamısını bircə-bircə çıxartdım, qəbir qazıb basdırdım balamı".

Fikirləşirik, görəsən, yazıçı özü fərqindədirmi ki, yetmiş səhifədən ibarət mətnin içinə neçə romanın materialını sığışdırıb?! Bu məqamda istərdik ki, oxucu ən azı əsərdə yer alan türk xanının çinlilərə əsir düşməsi və on üçüncü əsrə aid rus salnaməsində iki türk xanı ilə bağlı tarixi rəvayətləri xatırlasın. Bu rəvayətlərin hər birinin mayasında bir roman materialı gizlənib. "Qarın içində iməkləyib, iməkləyib, sonra donub ölən tifil" epizodundakı ağrının, ağrıdan mayalanan mənanın necə bir romana süjet verə biləcəyini təsəvvürümüzə gətiririk.

Biz heç bir əsərdə vətən sevgisinin, yurda bağlılığın, qadın fədakarlığının aşağıdakı həddi ilə rastlaşmamışıq. Lətifənin dediklərindən: "Arvadlar söz qoyduq ki, mina tarlasına gedək, özümüz partlayaq, tanklarımız üçün yol açaq". Azərbaycan qadınının torpaq uğrunda ölümə qədər getmək əzmini bu cümləni bir dəfə oxumaqla qavramaq, dərk etmək mümkün deyil. Bu cümlənin üstünə ağrıya-ağrıya, ağlaya-ağlaya, dərddən qurd kimi ulaya-ulaya, dönə-dönə qayıtmaq lazım gəlir. Qayıtmaq lazım gəlir ki, bizi doğan anaların kimliyini dərk edək (və özümüzü dərk edək). Qəhrəmanımızın yurd sevgisinin, yaddaşının Şuşa təbiətinin xəritəsinə çevrilməsinin haradan, nədən qaynaqlandığını başa düşək. Başa düşək ki, "Otel otağı"nı yazan müəllifin hüdudsuz Şuşa sevgisi, hüdudsuz Şuşa ağrısı, onun təbiətinə, flora və faunasına bələdliyi haradan, nədən qaynaqlanır. Başa düşək ki, teleçıxışlarının birində "son illərdə yazdığım əsərlər arasında ən çox xoşuma gələn "Otel otağı"dır" deyən müəllifin sözlərinin altında hansı əsrarəngiz mənalar yatır.

Söz ardı

Əsərdə saysız unudulmaz epizodlar içərisində heç unudulmaz, yazıldığı vaxtdan keçən uzun illərdə yaramızın üstünə köz basan daha bir epizod da var. Qəhrəman vaxtı ilə qarış-qarış gəzdiyi Laçındakı Sarıbaba dağlarına, Qırxqız yaylaqlarına məxsus qayaları, bulaqları adları ilə bir-bir xatırlayır. Şuşanın İsa bulağındakı, Turşsudakı yaşantılarını, Süleyman bulaqdan, Saxsı bulaq, Yastı bulaq, Çarıx bulaq, Səkili bulaqdan içdiyi suların hər birinin fərqli tamını xatırlayır. Və sonra da acı bir həqiqət şüurunu döyəcləyir: "İndi bütün bu yerlər ermənilərin əlindəydi". Üç onillik sonra Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımız şərəfli bir tarix yazdı. Qırx dörd günlük müharibəmiz nəticəsində biz, başda Şuşa olmaqla, "bütün bu yerlər"ə qayıtdıq və uca səslə elan etdik: " Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!"

Möhtərəm Prezidentimiz İlham Əliyev son vaxtlar dünya dövlət başçılarının tez-tez ona Qarabağdakı qələbəmizi nəzərdə tutan belə bir sualla müraciət etdiklərindən söz açır: "Axı, Siz buna necə nail oldunuz?". Ali Baş Komandan qürurla xatırlayır ki, onlar bizim təcrübəmizi öyrənmək istəyir, bu yolla öz problemlərini həll etmək istəyirlər. Möhtərəm Prezidentimiz cavab verir ki, bunu necə izah etmək olar axı? Bunu başa düşmək üçün bütün bu uzun illərdə bizim yaşadıqlarımızı yaşamaq lazımdır. Düşünürük ki,"bizim yaşadıqlarımız" ifadəsi altında, Ali Baş Komandanımız erməni qəsbkarlığından keçən uzun illərdə Azərbaycan xalqının yaşadığı sonsuz iztirabları, ümumilikdə isə, böyük Vətən sevgisinin təlqini ilə xalqımızın Ali Baş Komandan ətrafında birləşmək əzmini nəzərdə tutur. Bu birlikdən aldığı güclə xalqımızın fədakar oğul və qızlarının ölümün gözünə dik baxmaq əzmini, bu əzmin Şuşanın alınmasında Azərbaycan oğullarının fədakarlığındakı ifadəsini nəzərdə tutur. Qarabağ sevgisinin qarşısıalınmazlığında tarixi yaddaşımızın rolunu və bu yaddaşın güclənməsində ədəbiyyatımızın – "Otel otağı" kimi klassik nümunələrin rolunu nəzərdə tutur. Nəzərdə tutulanlar içərisində, heç şübhəsiz ki, "Varlığında azərbaycanlı – türk ruhu daşımayanların bütün bunları başa düşməsi isə çətin məsələdir" mesajı da var.

Nadir CABBAROV



İNSANI SEVMƏK AZDIR...

Retro

İnsanı iti tənqid oxlarına da, əlvan tərif çiçəklərinə də bürümək olar. Amma onu kəşf etmək, bütün gizli mənəvi potensialı ilə yenidən özünə qaytarmaq isə çətindir. Qütbləri "mənfi" və "müsbət" qəhrəman anlayışları ilə tamamlanan estetik duyum dairəsi müasir insanın mürəkkəb bütövlüyünü ehtiva etməyə qabil deyil. Hər şeydə olduğu kimi, insanda da dialektika ölçülərə, mizanlara deyil, öz daxili – təbii inkişafına əsaslanır. Elə buna görə də, nə yolla olursa-olsun, mütləq "müsbət qəhrəman" yaratmaq təşəbbüsləri, mövcud insana parodiya olacaq qədər, model yaratmaq təşəbbüslərindən uzağa getmədi. Çünki müasir insan bu model-qəhrəmandan qat-qat müsbət olduğu kimi, qat-qat da canlı və mürəkkəbdir. O, sənətdə qəsdən düyün salınmış süjet kələflərini bir sehrbaz məharətilə açan, zorla gərilmiş konfliktlərdən həmişə qələbə ilə çıxan, ali ideyalar, ictimai məqsədlər naminə əməlindən daha çox, sözü ilə mübarizə aparan primitiv təsəvvür qəhrəmanı olmadığı kimi, həyatda da zəfərlər və müvəffəqiyyətlər zirvəsinə yumşaq kürsülü tərəqqi funikulyorunda qalxan bir ictimai varlıq deyildir. O, həm də bəzən parlaq yüksəlişlər axtarışında olan böyük bir kütlə içərisində öz dərd-səri ilə sezilməyən, məişət qayğılarında əriyib itən, ən dəhşətlisi isə donunu dəyişib müasirlik, yenilik adından danışan rəsmiyyətçi biganəliyin, təminatlı təkəbbürün, saxta nəciblik pərdəsinə bürünmüş daşqəlbliliyin, obıvatelliyin, bir sözlə, meşşanlığın kəsif dumanında yol azan bir fərddir. Bu dumandan siyrilib çıxarsa, daha doğrusu, bu duman yox edilərsə, onun da hamı kimi böyük nəcibliyi, zərif gözəlliyi, ictimai gərəkliyi üzə çıxar. Və bu zaman yəqin ki, vicdanının bənd-bərəsi, gözlərinin qara eynəyi arxasından hər şeydə bir günəş hərarəti axtaran saxta "ideal divanəsi" ona dodaq büzməyə, arxa çevirməyə cürət etməz. Sənətkar belə fərdi bu kəsiflikdən alıb estetik qayənin parlaq işığında təşrih edəndə sənət məbədini büt qəhrəmanlar məbədi hesab edən vərdişkar... düşüncə

sarsılarsa, məhz bu mənada təbii görünməlidir. Əsil sənətin təsir gücündən xəbər verən bu sarsıntı sözlərə çevrilsə idi, yəqin belə səslənərdi: "İlahi, həyatda böyük amalların mübarizləri ilə yanaşı, Kəbirlinski də varmış." Lakin burası hələ Anar və onun "Dantenin yubileyi" əsəri üçün səciyyəvi olan məziyyətin özəyi deyildir. Mətləbin canı, estetik qayənin mayası kəbirlinskiləri udan kəsifliyin – meşşanlığın özünün icitmai mühakimə kürsüsünə gətirilməsindədir. İctimai əxlaqın və vicdanın qarşısında sorğu-suala çəkilməsindədir.

Əlbəttə, yazıçı Kəbirlinski əvəzinə açıq tendensiyalı, döyüşkən, fəal, ictimai mövqeyi aydın bir obraz da yarada bilərdi. Və həmin obrazın yüksəkliyindən meşşan miskinliyi, meşşan rəzilliyi, küt və məhdud meşşan cılızlığı daha yaxşı görünərdi. Amma belə miskinlik, rəzillik, cılızlıq bu gün hamımızı düşündürən problemə cavab olmazdı. Çünki bəlanın böyük meşşanlığın bu epitetlərində deyil, onun dəhşətli olmasındadır, törətdiyi irinlərin infeksiya gücündədir. İctimai iradənin təzyiqi ilə getdikcə daha çox gizlənməyə can atan bu bəlanı faş edərkən yeni həyatın yeni Gülsabahı ("Dönüş", C.Cabbarlı) bərabər, sənət öz qoynuna Kəbirlinskini də alarsa, bunda təəccüblü heç nə yoxdur. Heç olmasa, ona görə ki, meşşanlıq adlanan afət zəif cəbhədə – kəbirlinskilər mühitində daha arxayın, daha rahat əl-qol oynadır. Qeydlərimizə bir yekun, həm də sonrakı mülahizələrə bir vəsilə kimi burası olduqca ibrətamizdir ki, həyatda Siyavuş "sənətinin" qəbul etmədiyi qəhrəmanımıza Anar sənəti riqqətlə ağuşunu açır. Sovet sənətkarına məxsus bir humanizmlə narahat və həssas yazıçı qayğıkeşliyi ilə onun müdafiəsində hamını müttəfiq olmağa çağırır. Çünki bu "balaca", "adi" insanın düşməni çox güclüdür. İctimai fikrin Kəbirlinski taleyinə azca əyilməsi kifayətdir ki, meşşanlıq adlanan bu düşmənin amansızlığını görəsən, onu məhv etməyin zəruriliyinə inanasan.

Əsərdə "Bu gecə, bu qoca, bu ocaq" sözləri ilə özünü təqdim edən Kəbirlinski "Bəli, bəli, görürsən, bu da yeriyən pilləkən" sözləri ilə də bizi tərk edib adi – gündəlik həyatına qayıdır. Qayıdır, amma bu gedişlə fikrin əminliyini, qəlbin rahatlığını da aparır. Səni özünə və ətrafına boylanmağa məcbur edir. İnsan səadətini, insan bəxtiyarlığının bərəkət anbarında siçan civiltisi eşidilmir ki..? Bu narahatlıq, bu təbii təşviş bizi bir daha əsərə qaytarır, ömrünün yalnız bir parçasını müşahidə etdiyimiz qəhrəman haqda bizi bir daha dərindən və ayıq düşünməyə sövq edir.

Kimdir Kəbirlinski? Başladığı ömrü birtəhər tamamlamaq üçün hər şeylə razılaşan zavallı bir miskinmi? Zamanın sürətinə, həyatın inkişafına biganə, nadan seyirçimi? Öz fərasətsizliyi ilə heç kəsə lazım olmayan zəhlətökən bir sənət əllaməsimi? Bəlkə, ömrünün 40 ilini fəda edib ağrı-acısına həmişə səbr edən bir fanatik? Mövcud həqiqəti dərk etməyən, ya dərk edib vecə almayan bir peşə vurğunu, peşə qulu? Yoxsa,

fitrətən olmayan paxıllıq və xəbisliyi ilə, ya ögey ata cəfakeşliyi ilə qəlbimizdəki mərhəmət və xeyirxahlığa əl açıb dilənən aciz bir vücud? Lakin fərqi yoxdur. Bu epitetlərdən hansını ona bənd etsək, tutmayacaqdır, zira fərqi yoxdur. Zira bunlardan öncə insandır o. Elə bir insan ki, onu zənbilində kefir şüşələri bazar yolunda, qoltuğunda köhnə portfel avtobus dayanacaqlarında, nə bilim daha haralarda yüz dəfələrlə görmüşük. Hətta lütf edib onunla hava barəsində, bolluq, ucuzluq haqda söhbət də etmişik. Təbii ki, indi baş alıb çözələnən suallara cavab tapmaq niyyəti ilə yox. Çünki teleskopla uzağı görmək arzusu çox vaxt bizə adi gözlə, adi duyumla yaxını görməmək qorxusunu unutdurur. Ümumiyyətlə, insan haqda hayla-küylə danışan bizlər, adətən onun barəsində susuruq, qəlbinin dərinliyinə nüfuz etmirik. Onu saxta alicənablıq, təhqiramiz kinayə, zəhərli zarafatlar önündə tək qoyuruq, halbuki, meşşanlığın siçan dişləri digər afətlərin canavar dişlərindən heç də pis kəsmir, pis doğramır. Dünən müfti atası tərəfindən lənətlənəndə, qaçaq əmisi oğlunun qəzəbindən gizlənəndə, hər tin başı atılmağa hazır olan güllələrlə izlənəndə ümumxalq iradəsi ilə Kəbirlinskini müdafiə etməyi lazım bilmirdiksə, bu gün o "get mollalığa, bəy balası kimi dolan, mən Quran oxumağı bilsəydim, bir gün teatrda qalmazdım" deyə Cavad obıvatelliyinin təcavüzünə məruz qalırsa, belə bir müdafiənin lüzumsuzluğunu necə iddia etmək olar?

Bəli, Feyzulla molla, hətta Siyavuşun dediyi kimi, "pinəçi", "aşpaz", "çayçı", "nə bilim camadar, məsciddə mürdəşir" də ola bilərdi. Amma Kəbirlinski oldu. "Səhnədə... mütilik heykəli" oldu. Çünki o, teatra gəlir-çıxarlı, götür-qoylu mühakimə ilə gəlməmişdi, böyük bir sevgi ilə, sonsuz bir ehtirasla gəlmişdi. Ömür keçsə də, arzu ilə əməlini, istəyi ilə bacarığının qovuşacağı üfüqə hələ də gəlib çatmayan Kəbirlinski, kiçik də olsa, sənət ümmanının qoynunda doğulub. O, bu ümmana məcidlər kimi skafandrla salınmamışdır. O, teatrın pərəstiş ediləni deyilsə də, pərəstiş edənidir. İdarə etdiyi həvəskarlar dərnəyində 3 ildən bəri "Oqtay Eloğlu"nu məşq etməsi də, belə pərəstişin təzahürüdür. Bu isə kifayətdir ki, 40 illik təmənnasız, şan-şöhrətsiz, yubileysiz bir ömür üçün heyifsilənməyəsən. Böyük sənət naminə, Brext üsulu xatirinə ünvanına deyilən, özlüyündə bəlkə də, haqlı iradlara – təhqiramiz kinayələrin, acı tənələrin bayağı zarafatla şit gülüşlərin müşayiət etdiyi iradlara dözəsən. Yox, bu dözüm heç də yalnız acizliyin və istedadsızlığın yaratdığı immunitet deyildir. Teatr adlanan sənət kəbəsinə dərin bir etiqaddan doğan, yaş və təcrübə müdrikliyindən mayalanan dözümdür. Dəhşət isə ondadır ki, vaxtilə sinfi düşmənin qıra bilmədiyi bu dözümü, indi özünü sənət fədaisi hesab edən meşşanlıq imtahana çəkmişdir. Vaxtilə kütlüyün, nadanlığın təqib etdiyi istedadsız Kəbirlinskini indi haqlarında "vallah belə cavanları görəndə adamın ürəyi dağa dönür. Görürsən necə bülbül kimi ötürlər. Millətimizin ümidi bunlaradır", –

deyib fərəhləndiyi istedadlı cavadların, siyavuşların, ağamehdilərin çoxüzlü prizma kimi cilvəsi tez-tez dəyişən xarakter ədabazlığı, özündənrazı, təkəbbürlü ziyalı intellektizmi təqib edir. Nə haqla? Hansı mənəvi-əxlaqi əsasla? Bəlkə, ona görə ki, səhnədə istedadsız olan Kəbirlinski həyatda da istedadsızdır; Cavaddakı "nəcib" riya, şarlatan səmimiliyi, Siyavuşun daldalandığı "Brext" qalxanı, Məcidin gəda həyasızlığı onda yoxdur? Bəli, yoxdur. Əvəzində isə Kəbirlinskidə xalqa və cəmiyyətə gərəkli pak və sadə bir ürək, müdrik bir fikir tərzi vardır. Burası necə də ibarətamizdir ki, Siyavuşun təbirincə səhnədə üç kəlmə sözü ləyaqətlə deməyi bacarmayan Kəbirlinski təsadüfi ölümün yetim qoyduğu bir körpəni hər çətinliyə dözərək məhz siyavuşlara bənzəməyən bir oğul kimi, saf, ləyaqətli bir vətəndaş kimi ərsəyə gətirməyi bacarmışdır. Elə buna görə də öz mikromühitinin addımbaşı təzyiqinə məruz qalan qəhrəmana nə qədər acıyırıqsa, ona müvazi olaraq, bu təzyiqi doğuran qüvvəyə də nifrətimiz bir o qədər şiddətlənir. Gəncliyin təbii qüvvəsi ilə, ən başlıcası, cəmiyyətin açdığı böyük imkanlardan gün-bol faydalanaraq universal bacarıq tərzinə yiyələnib həmin cəmiyyətin nəcib idellarına vicdanla xidmət etməyənlərin, onun əxlaqi-etik tələblərindən sui-istifadə edənlərin nankorluğuna qəlbimizdə dərin bir ikrah oyanır.

"Bu adam səhnəyə haradan və necə gəlib..?" Bu sualı biz vermirik. Kəbirlinskinin səhnəyə haradan və necə gəldiyi bizə yaxşı məlumdur. Bu sualı verən "qabağında... maşallah dağ kimi dədəsi" hesabına, hər cür proteksionist vasitələrlə mənsəb qazanıb iş otağını dünyanın mədəniyyət mərkəzi, qabiliyyətini sənət etalonu, nitqini kodekslər məcmuəsi hesab edənlərdən biridir. Bu sualı, nəinki Kəbirlinski keçmişinə bir tədqiqatçı baxışı, heç adi insan marağı da hesab etmək mümkün deyildir. Belə sual-xitab əslində "bunun kimi adamlar səhnəmizdən necə və haçan gedəcəklər" sual-tələbini başlanğıc nöqtəsindən qeyri bir şey deyildir. Bu tələbdə insana xeyirxahlıqdan çox, laqeydlik və biganəlik, sənətə yanmaqdan çox, onun vasitəsi ilə insanı alçaltmaq təşəbbüsü vardır. İnsandakı ləyaqəti və gözəlliyi duymadan sənətdəki ləyaqət və gözəllik uğrunda vuruşmaq nə qədər gülüncdür! Bu "vuruşun" konkret hədəfi ona istiqamət verən fikrin və düşüncənin lillənmiş dayazlığını yaxşı əks etdirir. Təbii ki, belə bir fırtınasız, tufansız dayazlıqda çaya oturub lövbər salan vicdanı heç bir səmimi nida, hətta "indi pis-yaxşı mənimki də bu artistlikdir. Çıxarıb atsalar acından ölərəm" sözləri də sarsıtmağa, yerindən oynatmağa qadir deyildir. Bu vicdan heç bir mənəvi əzab duya bilməz, olsa-olsa, sadəcə, nədənsə "darıla" bilər. Zira meşşan təbiətində nəciblik, xeyirxahlıq, həssaslıq olmadığı kimi, xəcalət və peşmançılıq hissləri də yoxdur. O, həzz ala bilər, əylənə bilər, təkcə bir bacarıq fərqini bütün insaniliyə yeganə, dəyişməz meyar sayar, amma insan taleyini izləməyə – həyat

keşməkeşlərini araşdırmağa özündə güc və qüdrət tapa bilməz. Əgər belə olmasa idi, əsərin bir yerində "Ay rəhmətliyin qızı, qorxuya-zada kim idi baxan. O vaxt nə pul gözümdə idi, nə şöhrət, nə zvanya-filan. Kənd-kənd gəzib teatr çıxardırdıq... Camaatımızı ayıltmaq, gözünü açmaq istəyirdik... Eh, deyir ötən günə gün çatmaz" – deyən istedadsız Kəbirlinskinin istedadlı həmkarları, onu addımbaşı təhqir edib alçaldan həmkarları bu şəxsin onlardan daha sənətsevər, daha yüksək, daha zəngin olduğunu çoxdan etiraf edərdilər. Və qəhrəmanın da dərindən köks ötürməsi keçən günlərin şirin xatirəsinə təbii ehtiramdan çox, bugünkü vəziyyətinə acı bir təəssüf təsiri bağışlamazdı. 40 ildən bəri ictimai ideal, xəlqi bir məqsəd qarşısında əyilmiş baş meşşanlığın təcavüzləri nəticəsində bir daha qismət qarşısında əyilməzdi.

Kəbirlinskini aciz, döyüşməyə qabil olmayan insan kimi də xarakterizə etmək olar. Lakin kimə və nəyə qarşı döyüş? Düşməni vaxtilə sinfi səngərdə görüb elə-beləcə də təsəvvür edən Kəbirlinski bugünkü gözəl həyatda insan səadətinə, insan bəxtiyarlığına, insan ləyaqətinə qəsd edilə biləcəyinə əsla inanmır. Təsadüfi deyil ki, onun nəzərində hamı kimi Siyavuş da, Cavad da, bütün onlara bənzəyənlər də xalqın gələcəyi, millətin, vətənin ümidləridirlər. Elə buna görədir ki, düşdüyü bütün gülünc vəziyyətlər, eşitdiyi hər cür tikanlı tənələr Kəbirlinskini qəzəbləndirmir, sadəcə, təəccübləndirir və heyran qoyur. Lakin qəhrəmanımız qəzəblənməsə də, düşmənini tanımağı bacarmasa da, oxucu qəzəblənir, Kəbirlinski səmimiyyəti, saflığı və inamı müqabilində sərbəstcəsinə əl-qol açan meşşanlığın, sovet adamının əxlaqi-etik anlayışlarına zidd mənəvi eybəcərliyin iç üzünü, həqiqi simasını yaxşı görür. Bir daha inanır ki, bu eybəcərlikdən iyrənmək, ikrah etmək azdır. Ona qarşı şiddətlə mübarizə aparmaq, onu əzmək və məhv etmək lazımdır. Əks təqdirdə o, tək qoca Kəbirlinskiləri deyil, "ən təmiz və ən coşğun bir ürəyin özünü belə əsil səadət haqqında şübhəyə salan rəzalət" (V.Q.Belinski) kimi, həyatı yenicə başlayan eldarları da hədəf edə bilər, onların da təmiz, kövrək arzularına xal salar, gözəl həyata, halal çörəyə uzanan əllərini qəhərlənə-qəhərlənə "dərd dağıdan" qədəhlərə yönəldə bilər. Halbuki rəzil məcidlər müqabilində təkcə sənət naminə yox, ən başlıcası, xalq və ictimai ideal naminə məğrur eldarlara ehtiyacımız hələ vardır.

Əsər bitir. Xoşniyyətli oxucunun arzusuna əks olaraq, antiəxlaq qeyri-insanilik, meşşan dünyagörüşü cəzalandırılmadan bitir. Kəbirlinski aldığı yeni, növbəti zərbənin ağrısını çəkə-çəkə bizi tərk edir. Və çətin ki, bu son aldanış da onu ayılda bilsin. Sabah çox güman ki, yenə hər şey eynilə təkrar olunacaq. Siyavuş özünü didib-tökəcək, Cavad "yarıtəkəbbürlü, yarısadəlövh, bir qədər çoxbilmiş, bir qədər məsum" "sən heç ürəyivi sıxma" deyəcək. Məcid bic-bic axşamkı "yubileyin" necə keçdiyini soruşacaq və s. Şübhəsiz olan isə bir şeydir: cəmiyyətimizin

sabahında meşşanlığa, hər cür əxlaqi naqisliyə əsla yer olmayacaqdır. Həyatımızın təmiz ruhu, pak nəfəsi bu kəsifliyi mütləq yox edəcək, ictimai iradə ayaqlarda sürünən bu tüfeylini basıb əzəcəkdir. Bu mənada əsərin estetik qayəsindən, sənətkarın tendensiyasından doğan böyük həqiqətə – sovet həyat tərzinin, kommunistcəsinə dünyagörüşün və mənəviyyatın hər cür eybəcərliyə və fənalığa qalib gələcəyi həqiqətinə biz də qəlbən inanırıq. Kəbirlinski taleyinin ruhumuzda doğurduğu riqqət inamı nəinki azaltmır, bəlkə də, bizi onun ictimai təsdiqi və təntənəsi üçün səfərbər edir. Əsərin problematikası bizə bir daha öz qəhrəmanının şəxsində xatırladır ki, insanı sevmək azdır, onu qorumağı da bacarmaq lazımdır.

"Azərbaycan" jurnalı, №1, 1977

Fəxr edirəm ki...

"...Fəxr edirəm ki, yazılarım ilk dəfə "Azərbaycan"da işıq üzü görüb. Mətbuatda dərc olunan ilk hekayələrim "Bayram həsrətində", "Keçən ilin son gecəsi" 1960-cı ilin son nömrəsində çap edilmişdi. Mən həmin nömrəni böyük qayğı və riqqətlə hifz edirəm. "Ağ liman" və "Dantenin yubileyi" povestlərim də ilk dəfə "Azərbaycan" jurnalında çap olundu. Gələcəkdə də jurnalımızla sıx əlaqə saxlamaq mənim həm arzum, həm vəzifəm, həm də borcumdur".

ANAR,
1973, №3, səh.137

Kamalə ABİYEVA

QARABAĞIM

Sənsiz keçən gecələrim özüm kimi ağır oldu...
Sənsiz ötən gündüzlərim özün kimi fağır oldu
gecələrin yaxasından aytək asılmaq istədim
hərdən sənə boylanmaqçün,
gündüzlərdə günəştək yanmaq istədim
hərdən sənə toxunmaqçün.
Donub qaldım dağlarıntək,
susub qaldım bağlarıntək,
həsrət oldum yarpaq-yarpaq, çiçək-çiçək.
Bulud oldum düzlərinin başı üstə,
ota döndüm qayaların daşı üstə.
Külək kimi meşələrində dolandım,
ağaclarına sarıldım,
yağış oldum səpildim ki, çöllərinə
"gələcəyəm" pıçıldayım dönə-dönə...
Elə böyükdü ki ağrın
ağrı da ola bilmədim,
sənin ağrında əridim yoxa çıxdım.
böyüyə də bilmədim mən...
kiçik qaldım, Qarabağım.
30 ildi bətnindəydim ağrı çəkən bu torpağın.

göz yaşımla, gülüşümlə
onun Vətən ağrısından 44 günə doğuldum mən,
44 günə sənin boyda böyüdüm mən,
Böyüdüm ki, səni görəm, səni sevəm.
Heç doyunca görməmişdim səni axı...
gördüm səni əsgər-əsgər, igid-igid,
gördüm səni Qarabağım.
Heç doyunca sevməmişdim səni axı,
sevdim səni şəhid-şəhid.
sevdim səni Qarabağım.

UNUT

Boynubükük bir atanın
gözlərindən cığır salan,
bir ananın saçlarında
dən-dən olan dərd gördünmü?
O saçlarda dolandınmı?
O gözlərdən həyatına boylandınmı?
Sən kədəri gördünmü heç?
Bilirsənmi necə olur?
Kədər vətən yarasıdı,
kədər torpaq ağrısıdı.
Bəs sevinci gördünmü sən?
hələ gizlənqaç oynamaq arzusunun
torpaq üçün
Şəhid olmaq arzusunda ölməsində,
atasının daş şəklinə qucaq açan
bir körpənin gülməsində
ağrı içində qıvrılan,
kədərlə qolboyun olan
o sevinci gördünmü sən?
dərdlərini, kədərini yığ üst-üstə,
bax sevincin gözündəki o qürurlu kədərə
bax protez üstə
və
həyatdan sevinc istə, gör olurmu?
Olmasa da, heç darılma.
Qartopu oynamaq istəyinin
bir də qar soyuqluğunu
duymayacaq əlindən tut
bütün dərdlərini unut.

SON SEVGİMSƏN

İlk sevdiyim deyilsən sən.
Sənə qədər nəyi sevdim,
kimi sevdim, bilmirəm mən.
Sənə qədər səndən ötə sevdim bəlkə
ipək donlu gəlinciyi,
bər-bəzəkli yelləncəyi.
Bəlkə qışı, qarı sevdim,
bəlkə də baharı sevdim.
Sənə qədər onu sevdim, bunu sevdim,
kimisinin gözlərini, kiminin boyunu sevdim.
Bəlkə sevdim mən hamıdan çirkinini,
bəlkə də ən gözəlini?
Amma demə sənə qədər
sevməmişəm heç birini.
Demə Sənə çatanadək bilməmişəm sevgi nədir.
Amma ki, mən səni sevdim.
Hər tikəni, hər parçanı
gözlərimə, ürəyimə yığdım elə.
Səni bütöv sevdim elə.
Hər daşını əzizlərəm,
hər ağrını ovudaram.
Yadlardakı hər qarışın dərd evimdi.
Hər yarana məlhəm olmaq,
yad əllərdən səni almaq and yerimdi.
Adım "Vətən" deyən neçə şəhidin var.
Türkün yurdu şəhid olmaz,
türkün özü şəhid olar.
"Vətən" adlı oğlun ilə,
qızın ilə mən əl-ələ
Təbrizimlə Bakım ilə gedəcəyəm
Qarabağdan Zəngəzura,
İrəvana, Göyçə gölə.
Oxşayacam hər gülünü, yarpağını,
oxşayacam mən hər qarış torpağını.
Bəlkə bir az səndən doyum.
Səni bütöv sevəcəyəm ömrüm boyu.
Sən uğruna öləcəyim,
sən uğruna yaşadığım varlığımsan – ana Vətən.

Səni bütöv sevirəm mən.
İlk sevgilim deyilsən sən – Son sevgimsən.

SORĞU

– Heyvanlardan qorxursanmı?
– Qorxmuram.
– Nədən?
– Hansının nə edəcəyini bilirəm.
– Adamlardan qorxursanmı?
– Qorxuram.
– Nədən?
– Hansının nə edəcəyini bilmədiyimdən...

ELƏ DARIXDIM Kİ

Elə darıxdım ki bu yer üzündə
Buludlara dönüb çəkildim göyə.
Göyə də sığmadım səpildim yerə
bəlkə bir damcımı tapasan deyə.

Elə darıxdım ki, elə darıxdım,
Nə yerə, nə göyə sığa bilmirəm.
Elə darıxdım ki, darmadağınam,
Özümü bir yerə yığa bilmirəm.

Günlər ilə döndü darıxdı zaman,
Ayların, illərin yaddaşı oldun.
Mən bir dünya qurdum xəyallarımdan,
sənsə o dünyanın yad daşı oldun.

Elə darıxdım ki, mən bu şəhərdə
bir küçə, bir qapı olmaq istədim,
dedim o küçədən keçib yenə də
bəlkə o qapını döymək istədin.

Döndün mənim gerçək bir yalanıma,
sənli həqiqəti görmədim ki heç.
Özümü aldatdım öz yalanımla
əgər günahdısa, bu günahdan keç.

Elə darıxdım ki, sənli qəlbimi
darıxan əlimlə sökmək istədim.
Elə darıxdım ki, mən səni deyil,
başqa birisini sevmək istədim...

GEDƏ BİLMƏDİN

Niyə birdəfəlik getmədin ki, sən
gah gecəmə gəldin, gah gündüzümə?
Hərdən saçlarıma toxundu əlin,
hərdən gözlərimə, hərdən üzümə.

Niyə birdəfəlik getmədin ki, sən,
niyə əl çəkmədin yanaqlarımdan.
Mən imdad dilədim nə qədər sözdən,
adın ayrılmadı dodaqlarımdan...

Bir az buludlara yığışıb qaldın,
Bir az küləklərə qarışıb qaldın.
Səni nəfəs kimi çəkdim içimə,
elə ürəyimə sıxışıb qaldın.

Ağrılı günləri ovutmaq üçün
Hərdən ümid oldun, hərdən təsəlli.
Səni birdəfəlik unutmaq üçün
Hərdən ümid oldum, hərdən təsəlli.

Niyə birdəfəlik getmədin ki, sən?
hər anın, saatın yolunu kəsdin.
Ən gözəl günləri apardın, nədən,
qalan günlərimə qənim kəsildin.

Niyə birdəfəlik getmirsən ki, sən?
Səndən qalan nə var daşımaq olmur.
Anladın sonunda – gedə bilmirsən,
Bilirsən yarıcan yaşamaq olmur...

QARĞIŞ

İstəyirəm
yuxunu tapmayasan.
gecəni gəzə-gəzə qalasan.

Yatmayasan...
səssizcə ağlayasan,
harayını göz yaşında boğasan
İstəyirəm özünü gecədən atasan,
küçəyə atasan,
Gedib o tənha skamyada oturasan...
tökəsən xatirələri qarşına
peşman olasan
və mən çıxam qarşına...

KÖHNƏ ADAM

Kimsəni təzə don təzələməz
kimsəni əşyalar köhnəltməz,
Təzə adamlar köhnəldər...
təptəzə adamlar...
Təzə payız ömrün payızın təzələməz,
hər təzə payızla bir az da köhnələrsən...
Təzə payızda köhnə adam
bircə qışı gözlərsən...

İLK QATİL

Ölüm, ölüm, ölüm...
Hər yerdə ölüm var.
bir bəhanə tapır
bir-birin öldürür adamlar.
Ölür adamlar.
Başımda bir sual dolanır:
Kimdi günahkar? İlk qatil kim oldu?
Adam balası,
biz başdan günahla-günahdan doğulduq...

MAHCAMAL

XURŞİDBANU NATƏVANA TƏZMİN

Günəş, ey can, gülüşümdür, təzə məcra gətirir.
Vətən hüsnündə gülüş könlümə sevda gətirir.

O Vətəncün gözümün çəkdiyi vüslət yoludur,
O yol üstündə əsən fırtına qovğa gətirir.

"Tari-zülfündü məni böylə giriftar eləyib,
Nə gələ başıma ol zülfü mütərra gətirir."*

Nə qədər fitnə-fəsad, cövrü-cəfa etsə rəqib,
O qədər könlümə ümman, ona səhra gətirir.

Neçə müddətdi cünuntək dolanıb cövrü-bağın,
Xarıbülbül sorağın cəzbeyi Leyla gətirir.

Eşidir doğma nəfəs Natəvan ölmür, dirilir.
Təzədən canə gəlir, dürr dolu dərya gətirir.

Vüslətin qoynu genişdi, Şuşa xürrəmdi bu gün.
Elə bil Yusif üçün mehri-Züleyxa gətirir.

Qəmə meylin kəm edir, Mahcamal əhval dəyişir,
Şerinin beyti üçün qəmzəli misra gətirir.

---

* *Beyt Xurşidbanu Natəvanındır*

***

Yoxdur sənə tay sevgili canan yer üzündə.
Sandım özümə tək səni xaqan yer üzündə.

Hər kəs bilir ol son səfəri naqəfil etdin,
Ahımla yaratdım təzə karvan yer üzündə.

Ey saqi, nədir, söylə mənim badəmə süzdün?
Hökm eylədin iç, yox belə dərman yer üzündə.

Kim vəsli tutub, həbs eləyib, zindana saldı?
Cövlan elədi bir dəli hicran yer üzündə.

Kim qanqal olub gözlərimin çəkdiyi yolda?
Solmuş neçə gülzarla gülüstan yer üzündə.

İsmin gahi qismət, gahi tale dedi aləm,
Qismətlə yaranmış belə səhman yer üzündə.

Ey Mahcamal, artıq o qatar getdi, gecikdin...
Bir xoş gün üçün qalmadı imkan yer üzündə.

***

Könlüm deyəni söyləmir, əqlimdə talan var.
Əqlimdən uzaq düşdü könül, qovğa salan var.

Dərdim səhər-axşam oxuyur nəgmə kədərdən,
Bir şad günü itmiş, onu gizlincə çalan var.

Ah daglarının zirvəsi əl yellədi, getdim.
Gördüm nə qədər zülfünü sakitcə yolan var.

Qurdum bu ömür yollarımı haqq yolu üstə,
Heç bilməz idim haqq yolu üstündə dalan var.

Öz haləti pəjmürdədi, dünya da doluxmuş,
Sormuş bu günümçün gözü qan-yaşla dolan var?

Sormuş hanı Fərhad, hanı Sənan, deyin indi
Leylası üçün Məcnun olan, düzdə qalan var?

Var söylədi eşq! Mahcamal artıq sübut etmiş,
Ancaq belə eşqi nə satan var, nə alan var!

***

"Ağlama ömrüm-günüm, ağlamaq olmaz sənə.
Gözləri qan-yaş ilə bağlamaq olmaz sənə."*

Etsə hücum qüssə-qəm, eyləmə dərd, ay gülüm,
Jaləni bas, sinəni dağlamaq olmaz sənə.

Sökmə, könül mülkümün hücrəsi min bir naxış,
Eşqin uca qəsrini daşlamaq olmaz sənə.

Dərdini könlüm çəkər, zülfünü tök çiynimə,
Böylə bir ağır yükü saxlamaq olmaz sənə.

Yelkəni uçmuş gəmi olsa da məskən cana,
Heç kimə küfr eyləmə, qarğımaq olmaz sənə.

Dalğa coşub hirsini tökdü qızıl sahilə,
Etmə qüsur, dalğatək çağlamaq olmaz sənə.

Əssə külək, Mahcamal, qoymaz o üzsün səni,
İncə beli özgəyə bağlamaq olmaz sənə.

Ankara, 02.09.2022

**Beyt İlqar Fəhminindir*

“Azərbaycan” jurnalının Baş redaktoru, Əməkdar incəsənət xadimi İntiqam Qasımzadəyə

Hörmətli İntiqam müəllim,

Sizi, Sizin timsalınızda “Azərbaycan” jurnalının bütün əməkdaşlarını, Redaksiya heyətini və daimi oxucularınızı, jurnalın ilk sayının çıxmasının 100-cü ildönümü münasibəti ilə təbrik edir, kollektivinizə yeni yaradıcılıq uğurları diləyirəm!

Ədəbi mətbuatımızın bayraqdarı olan “Azərbaycan” jurnalı yalnız Azərbaycan mətbuatı tarixində deyil, ümumən yaxın-uzaq ölkələrdə 100 il ardıcıl gün üzü görən azsaylı ədəbi nəşrlərdəndir. Əlamətdar yubiley yaşınadək fərqli adlarla yayınlansa da, bu, bayraqdar ədəbi jurnalımız tarixin çətin sınaqlarından çıxıb. Nəşrə başladığı və uzun illər fəaliyyət göstərdiyi keçmiş Sovet dönəmində sosrealizm tələbləri, sərt senzura yasaqları mövcud olsa da, jurnalın, necə deyərlər, özünəxas sifəti, xarakteri olub. Təsadüfi deyil ki, XX yüzil Azərbaycan ədəbiyyatının ən önəmli, unudulmaz əsərlərinin çoxu jurnalınızın səhifələrində yer alıb. Oxucular ədəbiyyatımızın qızıl fonduna daxil olmuş əsərlərin bir çoxu ilə ilk dəfə məhz “Azərbaycan”ın səhifələrində tanış olub. Jurnal Sovet dönəmində doğma dilimizin keşikçisi olub.

Müstəqilliyin ilk illərində “Azərbaycan” jurnalı maddi sıxıntılar yaşasa da, ədəbiyyatın, mədəniyyətin himayədarı Ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə gəlişindən sonra, jurnalın və AYB-nin digər mətbu orqanlarının dövlət büdcəsi hesabına maliyyələşdirilməsi mümkün oldu.

Ən mötəbər ədəbi jurnalımızın öz oxucusunu bundan sonra da yaddaqalan əsərlərlə sevindirəcəyinə inanıram.

Siz son 25 ildə “Azərbaycan” jurnalına uğurla və fədakarlıqla rəhbərlik edirsiz. Sizi və bütün əməkdaşlarınızı jurnalın yüksək səviyyədə çıxmasına nail olduğunuza görə alqışlayır, əlamətdar yubiley münasibəti ilə Milli Məclisin Mədəniyyət Komitəsi adından bir daha təbrik edirəm!

Hörmətlə,

Qənirə PAŞAYEVA,
Milli Məclisin Mədəniyyət Komitəsinin sədri

♦ Nəsr

Natəvan DƏMİRÇİOĞLU

AÇAR

♦ *Roman**

"Göylərin və Yerin açarları ONUN əlindədir...
O hər şeyi biləndir ... Həmd olsun Ona"
"Quran"dan

Dövlətimə, xalqıma, taleyindən Vətən müharibəsi keçən bütün insanlarımıza, oğluma, Zəfərimizə ithaf edirəm.
Müəllifin əlyazmasından

Yazının ilk sözünü, ilk cümləsini axtarırdı. İlk cümlə açardı yazıya. Açarı tapsa, hər şey düzələcəkdi. Fikirlər bir-birinin ardınca gələcək, cümlələr yan-yana düzüləcəkdi. Açar tapılmırdı ki, tapılmırdı. Bəlkə, təmizliyi, halallığı itmişdi, ondan idi?! Ya bəlkə, ruhu Şeytana satılmışdı (Allah lənət eləsin ona). Nədənsə, yazmağı alınmırdı, bu isə can vermək kimi əzablı idi. Boğulur, nəfəsi tıxanır, darıxır, puçur-puçur tər tökür, ürəyi də köksünü yarıb çıxacaq dərəcədə çırpınırdı. Açar lazımdır ona. Tanrının "Ol" sözü kimi! "Açar" yazdı əvvəldə. "Özü bağlayan, özü açar!" – dedi ürəyində. "Hər bağlı qapının bir açarı var!" – düşündü və hər şey belə başladı...

***

Şəhid anası Yaqut isə oğlunun bəy otağının açarını qoynunda gəzdirirdi. Son günlər hər şeyin yerini unutsa da, deyilən sözün birini eşidib, birini eşitməsə də, günün iyirmi dörd saatının hansında istəsən, o açarın yerini bilirdi. İndi də qapını açdı:

** Jurnal variantı*

– Fələk bağladığı qapını açdım, ay bala–dedi. Yanınca gələn qonağı özündən əvvələ ötürdü. Gələn adam belə bir mənzərə görəcəyini bilməzdi heç. Qapıdan girəndə sağ tərəfdə stula zabit paltarı geyindirilmişdi. Stulun qarşısında bir cüt döyüşçü çəkməsi yanaşı qoyulmuşdu.

Ana tez:

– Dayanın, oğlumun paqonlarını taxım, onu paqonsuz görməyin – dedi və tez baş leytenant rütbəsinin paqonlarını canlı insana taxırmış kimi, cansız hərbi geyimin çiyinlərinə taxdı.

"İlahi, bu geyimi bu şəkildə bircə dəfə görmək insanın iradəsini zəiflədir. Bu qadın necə dözür?!" Gələn adam gizlicə ürəyindən keçirtdi.

Zabit geyimini "çiyinlərinə atmış" stulla üzbəüz – sol tərəfdə kiçik mizin üstündə tələbəlik şəkilləri, ali məktəb diplomu, təhsil haqqında şəhadətnamə, tam orta təhsil attestatı düzülmüşdü.

– Balam əlaçı olub. Universitetin tarix-coğrafiya fakültəsini bitirib. Tarix, coğrafiya müəllimi idi. Amma hərbini seçdi, vətəni seçdi. "Bəs diplomu neynəyəcəksən", dedim. Dedi, "Ana, onu sənə verirəm. Qoy evə. Yaxşı oxumayanlar hərbiyə gedir deyənlərə göstərərsən" dedi. – Oy, Allah, balam elə ağıllı idi, elə xeyirxah idi, elə tərbiyəli, elə qoçaq idi, – dedi ana. Balam deyirdi ki, darıxma, ana, səni şahzadələr kimi yaşadacam. Hamının balasından baş idi balam.

– Yenə hamının balasından başdır, şəhidlik zirvəsinə ucalmış, şəhadət şərbəti içmişdir O.

– Ehh, demək asandır, evimi yıxdı, qapımı bağladı, açarını da cibinə qoyub, getdi.

– Elə deməyin... İraq candan, balalarınız var. Oğlunuzu evləndirib, qızınızı gəlin köçürəcəksiz. Bədbinlik salmayın ocağınıza. Yas başqa şeydir. Üç, yeddi, qırx gün çəkər, bir il olar yasdan çıxarsınız. Amma bədlik, bədbinlik pisdir; tutar ailəni. Fəxr edin, qürur duyun balanızla. Eşitmişəm dövlətin dəstəyindən, jurnalistlərin ondan yazmaq istəməsindən imtina edirsiz, "heç nə lazım deyil", – deyirsiz, belə eləməyin.

– Elə bilirəm onun şəhidliyi ilə fəxr eləsəm, ruhuna hörmətsizlik edərəm. Düz ürəyimin içində, qəlbimin dərinliyində onunla qürur duyuram. Üzgörən, bəhrələnən, fürsətgir, istifadəçi olmaq istəmirəm. Onun şəhid adından xeyir görmək mənə çətindir. Neynirəm, heç nə istəmirəm, balamı istəyirəm.

– Balanız Vətən göylərinin səmasındadır. Tanrının dərgahındadır. Cənnətin ən yüksək qatındadır. Balanız əlçatmazlıqdadır. Balanızı heç kəs sizə verə bilməz. O, şəhadət şərbətini içib, Tanrı dərgahına ucalıb, ona kimsənin əli çatmaz, ünü yetməz, – dedi gələn adam.

Pəncərənin qabağına qoyulmuş böyük mizin üstündə şəhidin bayraq fonunda böyüdülüb, çərçivəyə alınmış şəkilləri, fəxri fərman-

ları, döyüş medalları və Ali Baş Komandanın imzası ilə ölümündən sonra təltif edilməsi haqda sənədlər qoyulmuşdu. Ana mizin üstünə salınmış ipək örtüyü sığallaya-sığallaya astadan balasını oxşayırdı:

– Yatdığın Yerə, uçduğun Göyə, qazandığın ada qurban olum, ay Məhəmməd. Torpağına, daşına, uğrunda öldüyün Vətəninə qurban olum, ay Məhəmməd.

Qadın elə deyirdi, elə nalə çəkirdi ki, adamın sümükləri sızıldayırdı. Gözlərindən isə bir gilə də yaş çıxmırdı.

– Sən gedəli gözümün yaşı quruyub, ay Məhəmməd. Özüm quruyub ölmürəm, ölöm, yaşım quruyub.

Sonra da elə həzin-həzin, elə narın-narın göz yaşı tökdü ki... Elə bil bədəninin son suları süzülüb gözündən axırdı:

– Bu açarı görürsünüzmü, bu, balamın bəy otağının açarıdır. İndi onu hara qoyum, hardan asım, kimə verim?! Gəlinə verəcəkdim... neynim mən, qanlı Fələk?!

– İraq candan, "qanlı Fələk" deyib, asi düşməyin. Balalarınız var, Allah dərgahında ən uca mərtəbədə Məhəmmədiniz var. Onun ruhunu sevindirmək, haqqında xatirələr danışmaq, onu tanıtmaq üçün yaşayın.

– Gedib o dünyada balama qovuşmaq istəyirəm, darıxıram onun üçün. Dözə bilmirəm. Vallah, dözə bilmirəm onun yoxluğuna – yenə ananın səsi nəğmə kimi axıb getdi.

– Belə etsəz, ona qovuşa bilməyəcəksiz. Yeməyib-içməyib də zəifləmək, o da bir intihardır. Dinimiz intiharı qəbul etmir. Oğlunuz Cənnətdədi, intihar edənlər isə ora getmir. Bütün yollar Tanrıya aparır, intihar isə yox! – Bunları gələn adam söyləyirdi. Dediklərinə özü inansa da, qadını inandıra bilmədiyini aydınca hiss edirdi.

– Başımı itirmişəm. Bu açar da mənə bir dərd olub.

– Verin o açarı mənə, şəhid leytenantın bəy otağının açarı kimi hərbi muzeyə verəcəyəm.

– Onda qoy, üzükləri də verim. Ad eləməmişdim onu, "həri üzüyü" aparmamışdım sevdiyi qıza. Amma bir cüt nişan üzüyü alıb qoymuşdum, gəlinimlə oğluma, çərşənbələr başlayanda nişan qoyacaqdım. Uşaqlardan sızmışdı mənə, sevdiyi vardı. Deyirdi "ana, mənim işim imkan vermir mərhələ-mərhələ, uzun-uzadı sən bu işləri görəsən, sən elə elçi gedəcəksən, toy eləyəcəksən. Vəssalam."

– Yox, üzüklər qoyun sizdə qalsın. Yeni doğulacaq nəvələrinizdən birinə onun adını qoyarsız, üzükləri də ona verərsiz. – Havası çatmırmış kimi, dərindən nəfəs aldı. – Mən bir şəhid ünvanına getmişdim. Onun təkcə sağ qolu gəlmişdi. Tabutda bir qolu gələn, bədəninin qalan hissəsi tapılmayan hərbçi haqqında yazmaq parça-parça etdi məni. Belələri də var. O anaya deməyə söz tapmırdım... Təsəlli yeri yox bunların...

Ovcundakı açara baxdı: Şəhid leytenantın bəy otağının açarı...

* * *

Qaçqın Qoca elə indi gəlmişdi. Tez soyunub yuyunmaq, özünü çay-çörəyə çatdırmaq istəyirdi. Amma onlardan da vacib məsələ vardı. Sağa-sola tüynüdü, sonra mətbəxə getdi, oradan eyvana çıxdı, qayıdıb vanna otağına baxdı və gəlib divarboyu mebelin paltar şkafının qarşısında dayandı. Şkafı açdı. Burada insanın ürəyini və paltarları əzəcək qədər sıxlıq var idi. Paltarları iki əli ilə aralaya-aralaya, rəhmətlik arvadının "sənin bəzək kostyumun" dediyi kostyumu axtardı. Tapdı. Asılqanı ilə birlikdə götürdü. Hər şey əvvəlki kimi yerində olsun deyə, haradan çıxardığına baxdı. Oğlunun yun köynəyi ilə nəvəsinin qış gödəkçəsinin arasında idi. Həmin yeri sol əli ilə genişləndirdi – köynəyi sağa, gödəkçəni sola itələdi. Sonra kostyumu asılqanı ilə birlikdə həmin yerdən asacaqdı. "Bəzək kostyumu"nun içəri, döş cibindən bir bükülü çıxardı. Bu, qalın iplə bağlanmış bir topa açar idi, yaylığa bükülmüşdü. Yurdlarından qaçqın düşəndə evin, aynabəndin, küçə qapısını – darvazanı bağlayıb açarlarını cibinə qoymuşdu. Qarışıqlıqda itməsin deyə, rəhmətlik arvadı açarları bir-birinə bağlamışdı. O vaxtdan eləcə qalmışdı. Qaçqın Qoca bu açarları itirməkdən çox qorxur. Həmişə təzə kostyumun cibində saxlayır. Bir yerə gedəndə pencəyin cibindən çıxarıb ev paltarının cibinə qoyur, qayıdan kimi yenə yerinə qaytarır. Oğlu, gəlini açarların kəndirinə hər dəfə eyni donuq, heç nə ifadə etməyən gözlərlə baxır, heç nə demirlər. Qızının çox vaxt onlarda qalan oğlu – böyük nəvəsi Məhəmməd isə hər dəfə gülür, "baba, onsuz da bu açar məsələsini başa düşmürük, bu kəndir də ki, dəhşətdir, heç olmasa bunları "brelok"a keçirt" deyir. O birisi – ömründə bir ağaca çıxmayan, bir hasara dırmaşmayan, bir toyuq başı kəsməyən nəvəsi isə deyir ki, təki biz, sən deyən kimi, yurdlarımıza qayıdaq, açar xırda məsələdir. Qoca isə dağlar qar, bağlar bar, xəstə nar, könül yar istəyən kimi, bu açarların bağlı qapını açan səsini eşitmək istəyir. Qaçqın Qoca bu gün vağzal bazarından açarları keçirtmək üçün dəmir halqa alıb, evdəkilər gələnə qədər açarları kəndirdən açıb, bu dəmir bəzəkli halqaya taxdı. Kəndiri ovcunda yumrulayıb zibil qabına atmaq istədi...

Bu kəndir buzov kəndirinin bir tay hissəsindən idi. Gözünün qarşısına gəldi Maral inəyin xına rəngində buzovu. Onu necə buruntaq verib çəkərdi, anasını əmməsin deyə. Buzov isə ağzı isti, təmiz süddən köpüklənə-köpüklənə çənəsini oynadar, quyruğunu yellədər, bütün vücudunu əsdirərdi. O, buzovun çatısından çəkib anasından ayırar, rəhmətlik arvadı inəyi sağandan sonra buzovu yenidən açıb buraxardı. Buzov da özünü acgözlüklə inəyin yelininə yetirər, eyni ləzzətlə əmərdi. Qaçqın Qoca ovcundakı kəndirə baxdı, baxdı... Ürəyi dilinə gətirə bilməyəcəyi bir ümidsizliklə sıxıldı. Tər gəldi alnına, boynuna, qulaqları-

nın dibinə. Elə bil üstünə qara duman kimi gələn fikirlər sıxdı onu. Birdən də gülümsündü, niyəsə nəvəsini xatırladı. Üzünə təbəssüm yayıldı. Nəvəsi gənc alimdir, yazıçıdır, beynəlxalq konfranslarda iştirak edir, müsabiqədə birinci yeri tuta bilməsə də, üçüncü yeri qazanıb. Yaxınlarda bir jurnalist sual verib ona, deyib ki, gənclərimiz erməni terroru nəticəsində Qarabağdan itirilmiş torpaqlarımız haqqında nə düşünür? Qarabağ düyünü açılacaqmı? Bu da deyib ki, "Azərbaycan üçün qara qızıl, Qarabağın qızıl açarı ola bilər" – marağa səbəb olub bu fikir.

Qaçqın Qoca əlindəki buzov kəndirinə baxıb daha kədərlənmədi, əksinə, üzünə yayılan təbəssüm dərisinin qırışları arasına dolub, üzünü nurlandırdı.

İllər qabaq, bu nəvə hələ balaca olanda, qoca ilə arvadı da orta yaşda, nisbətən cavan nənə-baba idilər. Bir gün bu uşaq da yanlarında olanda arvad niyəsə gəlinin arxasınca deyinməyə başladı. Uşaq yanlarında olduğuna görə gəlinin adını çəkmir, amma ürəyindəki hirsi-hikkəni tökürdü. Kişi dedi: "bəsdir, bənd olma", "cavandır, düzələcək", "əşi, sən də təzəliyində o qədər səhvə yol verirdin ki", arvad kirimirdi. Kişi uşağın aradabir əlini oyuncaqlardan çəkib, onları dinləməsindən yəqin elədi ki, uşaq başa düşəcək söhbət kimdən gedir. Kişi heç narazılığı üzə vurub, oğlu, gəlini ilə aranı açmağın tərəfdarı deyildi. İstəmirdi ki, narazılığı cavanlara çatsın. Ona görə uşağın duyuq düşməsindən, məsələni anasına deyə biləcəyindən narahat oldu. Bunu arvada qandırmaq üçün dedi: "Anam gəlini, ehtiyatlı ol, buzov açıqdır". Arvad əlüstü kişini başa düşüb, gülümsündü, amma gəlinin qarasınca deyinməyinə ara vermədi. Kişi bir də xəbərdarlıq etdi: "Dedim axı, buzov açıqdır, inəyi əmizdirəcəksən, peşmançılıq olacaq". Birdən uşaq əlindəki oyuncaqları yavaşca yerə qoyub, gəlib düz babanın qarşısında dayandı. Gözlənilmədən təmiz rayon ləhcəsində – "Ay bava, mənimi deyirsən? – dedi. Kişi ilə arvadın qəfil gülüşü eyni anda elə gur səsləndi ki, uşaq çaşan kimi oldu. Kişi tez onun biləyindən tutub, özünə tərəf çəkdi, uşağı sinəsinə sıxdı. Uşaq sıxılmış, bir az da pisikmiş – "Nənəm anama söylənir? – deyə yavaşca soruşdu. Kişi şəhadət barmağı olmadığına görə arvada tərəf, orta barmağını silkələdi: – "Sən bunun anasına nəsə desən, bax, özündən küs" – dedi. Arvad da "Yox, onun anasına nə deyə bilərəm, onun anası başı qulhuvallahlıdı. Oğlum elə bilir "göy çat eləyəndə" gəlin göydən mələk kimi enib. Onun anasına heç kim heç nə deyə bilməz". Nəvə nənənin sözlərini daha dinləmirdi də. Babanın sinəsinə sığınıb "Baba, axı sən niyə demirsən, niyə sənin barmağının ikisi yoxdur. O birisi əlini ver, ver, bax, birində beş dənə, o birisində üç dənə barmaq var". Kişi sinəsinə qısılan nəvənin başını çənəsi ilə oxşaya-oxşaya, gözucu arvada baxanda bildi ki, şəhərli qızından doğulan nəvənin

təmiz kənd ləhcəsində dediyi sözlər arvadın hirsini suya döndərib. Şəhərli qızı istəməsə də, hər tətildə oğlan nəvəsini kənddə ərdə olan qızı Yaqutgilə göndərirdi. Onun oğlu Məhəmmədlə azca yaş fərqləri var idi oğul nəvəsinin. Nəvə Məhəmmədlə bərabər kənd adamlarına qarışıb, əsl "yer-yurd uşağı" olurdu. Babanın da istədiyi bu idi. Oğlunun qızına isə "sən ananla gedərsən" – deyirdi.

Qaçqın Qoca bunları xatırladı. Kəndir parçası əlində qalmışdı. Ovcunu sıxıb bir anlıq dayandı, sonra onu pencəyin yan cibinə qoydu.

Yadına salmaq istədi ki, gələndən sonra çörək yedi, ya yemədi. Daha heç nə istəmirdi. Təmiz hava, ağacın altında, göy otun üstündə süfrə açmaq istəyirdi... Mətbəxə keçdi, xörək isidib yeməyə heç həvəsi gəlmədi, soyuducunu açıb oradan bir kəsim pendir götürdü, çörəyin arasına qoydu, meyvə-tərəvəz səbətindən bir pomidor götürüb krantın altında yudu, elə mətbəxdə oturub bunları yedi. Bilirdi pomidor, özü demiş, "mədəsi ilə yol getməyəcək". Amma belə başaldadıcı yemək bəs idi ona. Yeyib qurtarandan sonra "Lənət şeytana, bu şəhərdə heç nə öz tamını vermir də", – deyə düşündü. Bir azdan oğlu gələcək, onu da götürüb böyük oğlu gilə, onun ad gününə gedəcəkdilər. Evin adamları – gəlini və iki nəvəsi yəqin ki, artıq getmişdilər.

Şəhərdəki dostunu xatırladı. Aralarında beş yaş fərq vardı. Amma tələbəlikdə dost olmuşdular. Ayrı-ayrı ali məktəblərdə oxuyurdular, bir evdə kirayədə qalırdılar. Dost yox, böyük qardaş olmuşdu ona. Bu, valideynləri vaxtsız rəhmətə getdiyindən, kiçik bacı-qardaşlarını saxlamaq üçün kəndə qayıtdı, o isə təhsilini davam etdirdi. Sonra təhsilin bütün mərhələlərini keçib alim, universitet müəllimi oldu. Universitet müəllimi, görəsən, nələr düşünür bu haqda. Onunla söhbətə ehtiyac duyurdu, "amma onun işi-gücü çox olar, narahat etməyim" – deyə fikrindən daşındı. Bununla belə, uşağın fikrinə nə rəy verəcəyini bilmək marağı Qaçqın Qocanı rahatsız edirdi. "Azərbaycan üçün qara qızıl, Qarabağın qızıl açarı ola bilər". "Görəsən, Məhərrəm indi neynir?" Öz-özünə verdiyi bu sualın cavabını da özü düşündü: "Professor uşaqmuşaq deyil ki, o, çox lazımlı işlərlə məşğuldur".

* * *

Təmiz hava almaq və yüngül səhər idmanı etmək üçün eyvana çıxdı. Qonşu binalardan asılmış bayraqları görüb "Bu gün nə bayramıdır ki?" deyib, ayın tarixini yadına salmaq istədi. Elə bil bir ayın tarixini yadda saxlayacaq qədər də yüklənmək istəmirdi. Ayın tarixini yadına sala bilmədi. Otağa keçib mobil telefonda təqvimə baxdı: 27 sentyabr, 2020, bazar günü. "Bu gün əlamətdar bir gün deyil, bu bayraqlar nədir belə?" bir daha düşündü. Telefonunun ekranında şəkil kimi bu yazı vardı: "2020-ci il, iyulun 12-də Ermənistan silahlı

qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib. Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlələri nəticəsində Ermənistan ordusunun hücum cəhdinin qarşısı alınıb. Müdafiə Nazirliyi bildirir ki, atəşkəs rejimi haqqında razılaşmanın Ermənistan tərəfindən pozulması təkrarən baş verərsə, düşmənə vurulacaq zərbələr daha ağır və sarsıdıcı olacaq."Hər dəfə bu yazını görəndə "İnşallah!" deyirdi. Bu gün "Yəqin budur!" – dedi. Telefonun gündəlik bölməsini açıb gördü ki, xeyli zəng gəlib, "Telefonu səssizə qoymuşdum" fikirləşdi, whatsapp bölməsinə baxdı. Whatsapp səhifəsi sıra ilə yaşıl nöqtələrlə dolu idi. Baxdı ki, on beş-iyirmi nəfər ona yazıb. Buna da təəccüb etdi. Ona, adətən, iki-üç nəfər yazardı hər gün. Ən yuxarıdakı mesajı vurdu. Hərbi akademiyada dərs dediyi tələbəsidir, mayordur indi. Onun səsi otağa yayıldı: "Yoldaş polkovnik, sizi müharibənin başlaması münasibətilə təbrik edirəm. Axır ki, siz deyən oldu. "Bu problem ancaq hərblə həll oluna bilər" deyirdiz. Bu da hərb! İnşallah, qələbə günü görüşərik". "Bu nə deyir?!" Tez o biri səsi dinlədi. "Sabahın xeyir, köhnə qvardiya, necəsən? Hazırsan? Nəhayət, Ali Baş Komandan "Əks-hücum" əmri verdi. Gedirik biz də?! Bizsiz iş olmaz! Görüşərik". Bu, hərbçi yoldaşı, polkovnik-leytenant idi.

Gələn zəngləri bir-bir yoxladı, heç birinə geri – təkrar zəng etmədi, sonra whatsappdan gələn ismarıclara baxdı ki, kimlər yazıb, onları da dinləmədi və cavab yazmadı. Axtardığını tapmamışdı. Nə hərbi komissarlıqdan, nə iş yeri rəhbərliyindən zəng edən, yazan olmamışdı. Tez təkrar vanna otağına girdi, saçlarına əl gəzdirdi, üzünü taraş etdi, yuyundu, çıxıb yaxşıca qurulandı, hərbi formasının parad geyimini götürüb geymək istədi. Sonra onu yerinə qoydu. Hərbi–səhra formasını geyindi, sənədlərini götürdü, baş hərbi komissarlığa getdi.

Gənc zabit sənədi alıb oxudu: Musayev Aydın Hüseyn oğlu.

– Sizə hörmətimiz və ehtiramımız böyükdür – dedi.

– Nə təhər hörmətdir bu, heç saya salan olmayıb bizi. Vətən Müharibəsi başlayıb, bizi çağıran yoxdur.

– Cənab polkovnik, sizdə yaş əllidən artıqdır.

– Olsun da, əlli nə yaşdır ki! Rəhmətlik Üzeyir bəy demiş, "oğlan yaşıdır". Özü də, mənim əlli yaşım cəmi bir həftə bundan əvvəl tamam olub.

Cavan zabit rəsmiyyəti buraxıb, ayağa durdu, yaxınlaşıb onu qucaqladı:

– Sizinlə qürur duyuruq, cənab polkovnik. Ali Baş Komandan qismən səfərbərlik elan edib. Allah eləməmiş, tam səfərbərliyə ehtiyac ol-

sa, onda siz də gedəcəksiz. Hələlik narahat olmayın. Amma, şübhəsiz ki, siz bizə lazımsız. Rəis gəlsin, görüşdürərəm sizi.

"Aslanlarım, haydı düşmən üstünə. Ana vətən, ana torpaq, dövlət və dövlətçiliyimiz üçün, sevdiklərimiz üçün döyüşə... Ayağınız altından torpaq, başınız üstündən Günəş əskik olmasın". Bu sözləri demək, döyüşçüləri cəbhədən-cəbhəyə aparmaq üçün tələsdi.

...Axırıncı dəfə sərhəddən – səngərdən evə gəldiyi gün elə bil dünən idi... Evdə necə sevinmişdilər. Amma o heç deməmişdi ki, hərbi xidmət müddətim başa çatıb. Artıq mən hərbidən ayrılacam. Ayrılmaq istəmirdi. Belə məğlub durumda hərbi karyerasını bitirmək istəmirdi. Evdə onun gəlişini toy-bayram kimi qarşıladılar. Xanımı:

– Aydın, sənin gəlişin hər cəhətdən yerinə düşdü. Qurban olum səni bizə yetirən Allaha. Nə yaxşı gəldin. Hər şey öz-özünə çox gözəl oldu – dedi.

– Məsələn, nə gözəl oldu?

– O gözəl oldu ki... – bir anlıq dayandı, – sənin gəlişin həmişə bayramdır, o öz yerində. İndi iki gündən sonra atanın ad günüdür. Hərçənd ki, o ad günü eləməyə qoymur, "qaçqınlıqda nə ad günü" deyir, amma biz tort hazırlayacağıq, yemək də öz qaydasında. Sənsiz ləzzəti yoxdur heç nəyin. İndi hamı ləzzətlə oturacaq süfrədə. Üç gündən sonra uşaq da məktəbə gedir. Bu gün də mən pərdələri dəyişməliyəm.

– Nə pərdə?

– Pərdə də, pəncərələrin pərdəsini. Səni Allah yetirib. Yuyulub, ütülü, hazırdır pərdələrim, açıb – bağlamağa sən yardım edəcəksən.

Ütü stolunun üstündən aşırılmış pərdələrin indi fərqinə vardı. Ağappaq tül idi, üzərində qızılı, xırda yarpaqlar. Bir də, qızılı rəngdə atlaz üstlük. Gəlin həvəslə əlini pərdələrə çəkdi.

– Görürsən, rəngi də payızı imitasiya edir. Pəncərədəkilər yay pərdəsidir, rəngi də yaya uyğundur, ağ tül, mavi dekor, dəniz rəngi, həm də bir azdan soyuğu saxlamayacaq.

– Sən onları qatla, qoy dolaba.

– Niyə?

– Qoy müharibə qurtarsın, dəyişərsən.

Gəlin istədi ki desin "müharibə nə vaxt qurtaracaq ki", demədi.

– Müharibənin qurtarmağını gözləyə-gözləyə ömrümüz getdi – dedi.

Gəlin divana çöküb, oturdu. Astadan köksünü ötürdü.

Aydın bu illər ərzində birinci dəfə Ona dedi:

– Cəbhədə bilirsənmi nələr olur? – kövrəldiyini gizlədə bilmədi.

Cavab almadan dedi:

– Mənim əsgərim vardı, Mahmud, qarın nahiyəsini qəlpə dağıtmışdı, bağırsaqları yerə tökülürdü. Bir əli ilə bağırsaqlarını qarnına yığıb, o

biri əlilə onları tutub saxlamağa çalışır, dayanmadan deyirdi: "Komandir, qoyma məni ölməyə, qoyma məni ölməyə, mən ölümdən qorxmuram, bircə, anam dözməz deyə ölmək istəmirəm. Qışın soyuğunda onun qarnından bir buğ qalxırdı, hələ də dəhşətə gəlirəm ki, insanın bədəni necə isti olur. O gündən bu yana çay da buğlananda Mahmud yadıma düşür.

Susdu. Hönkürtüylə, səslə ağlamaq keçdi ürəyindən. Dodaqlarını bir-birinə sıxıb, dayandı:

– Bunları kədərlənəsən deyə demirəm. Sənin də bilməyin lazımdır, o üzdən deyirəm – bir anlıq susdu. – Həsən vardı. Uzun kirpikləri vardı. Adama baxanda kirpiklərini tez-tez çalırdı. Soruşmuşdum ki, niyə gözünü çox qırpırsan, gözündə problemmi var? Dedi, "Yox, komandir, kirpiklərim hərdən dolaşır". Uşaqlar gülüşdü. Mərmi partlamışdı yanında. Gödəkçəsinin cibində gəzdirdiyi bir cüt körpə ayaqqabısının hərəsi bir yana düşmüşdü. Dedilər, təzəcə övladı dünyaya gəlib. Məzuniyyətdən qayıdanda ayaq geyimini özü ilə götürüb, hər gün qoxlayırmış. Başı bədənindən ayrı düşmüşdü. Gözlərini sığadım. Kirpikləri örtülmədi. Gözləri açıq qaldı...

Bilirdi bunları demək olmaz, niyəsə deyirdi, səbəbini özü də bilmirdi. Üstündən illər keçəndən sonra dilə gətirirdi:

– İlk könüllü batalyonun əsgəri Vəfa! Onu heç birimiz unutmadıq indiyəcən. Allah vergisi idi o qız. Oğuldan ötə bir qız. Mansurova idi soyadı, Dəmirçi qızı.

– Dəmirçi əminin qızı da.

– Mən sonra bildim Dəmirçi əminin qızı olduğunu. Mən o hadisədə heç bilmirdim ki... Könüllülərin qeydiyyata alınmasında gəlmişdi. Əynində şalvar, köynək, başında günlük papaq, saçları oğlan saçı kimi kəsik, çiynində avtomat, alov kimi bir qız idi. Döyüşçü kimi qeydiyyatdan keçmək istəyirdi. Ona dedim ki, biz rəsmi qeydiyyata qız döyüşçü götürə bilmərik, icazəmiz yoxdur. Siz ancaq tibb bacısı, ya da mətbəx işlərini görəcək işçi kimi sıralarımıza qatıla bilərsiz. Həmən tüfəngi çevirdi və uzaqda görünən kiçik boş qabı göstərərək, "Komandir, o sizin nişangah, bu da atəş!" dedi və atdı. Qab parçalanıb havaya "uçdu". Onu könüllü ordu sıralarına atıcı-döyüşçü kimi qeydiyyata götürdük. Mansurov Vəfadar Dəmirçi oğlu kimi yazdıq adını, soyadını.

– Aman Allah! Qızın hünərinə bax! – Onun haqqında bir az bilgisi olsa da, indi eşidirmiş kimi, münasibət bildirdi. Səsini çıxarmadı. Aydın bəlkə onuncu dəfə o qız haqqında danışırdı. Dosta, tanışa, evə gələn qonağa, tələbələrinə... Hər dəfə də elə danışırdı ki, elə bil birinci dəfə danışır. Bütün detalları ilə.

– Bu hələ hünər deyil, hünər bilirsənmi nədir? – Aydın davam etdi. – Hünər odur ki, silah-sursatımız qurtaranda, bəzən bircə güllə qalırdı.

O zaman qarşı tərəfi susdurmaq üçün snayperin arxasına Vəfa keçirdi.

– Aman Allah, qıza bax ee... – Gəlin yenə münasibət bildirməyin vacib olduğunu düşündü.

– Qərargaha yaxın yerdə bir daş var idi. Çox böyük daş idi. Səngər kimi istifadə edirdik ondan. Ancaq o daşın üstünə çıxanda ratsiya yaxşı tuturdu, bir də ən yaxşı o daşın üstündən görünürdü düşmən tərəfin hərbi düşərgəsi. Bəzən kəşfiyyat məqsədilə o daşdan istifadə lazım olurdu. Hər kəs ürək eləmirdi ora getməyə. Bir də görürdün, axşamda, sabahda – lazım olan anda Vəfa ora gedib, qayıdır. Ona Vəfanın daşı deyirdik. 1993-cü ilin sonuna qədər bizimlə oldu Vəfa döyüşdə.

– Bilirəm. Bəzi faktlar eşitmişəm onun haqqında. Doxsan üçdə "ordunun sahibi gəldi" deyib hərbi yüksəklikdən enib, evinə qayıdıb. Onun "Biz sərhəddə yaşayırıq, dağın o üzü ermənilərdir, kəndi saxlamaq üçün hər evdən bir adam səngərdə olmalıdır!" çağırışı kəndin oğlanlarını səngərə toplayıb.

– O özü də bir oğul idi, əməlli-başlı. "Niyə qəbula getmirsən, axı universitetə sənəd vermişdin" – deyənlərə söylədiyi "Diplom Vətən qorumur!" sözləri aforizm olmuşdu. Susdu.

– Cəbhədə şəhid olmayıb amma o. – Gəlin dedi.

– Nə dəxli var, cəbhədə yaşadığı psixoloji və fiziki gərginlikdən səhhətində problem yaşadı və həyatını itirdi.

– "Onun dəfninə gedə bilmədik" – deyib, üzülürdün.

– Hə, elə oldu. Gedə bilmədik. Sonralar getdik... Heç şəhid kimi dəfn olunmayıb. Nə özü, nə də atası onun hərbçi imtiyazlarının marağında deyildilər. O, təmənnasız fədai idi. Onu tanıyanlar bilir – bir an susub, əlavə etdi. – Onların ruhunu xoşbəxt eləmək var hələ qarşıda ... – Yorğun gözlərlə Gəlinə baxıb, – Sən də deyirsən ki… – köksünü ötürdü.

– Neynim ee... – Gəlin çarəsiz dedi.

…İndi bütün bunları xatırladı. "Müharibənin qurtarmağını gözləyə-gözləyə ömrümüz getdi". "Bax, indi bitirəcəyik müharibəni!" hündürdən dedi: – Nə qədər günahsızın haqqı alınmalıdır.

...Hələ qəbul otağında oturmuşdu…

Köməkçi zabit:

– Siz narahat olmayın, rəis gələn kimi görüşdürəcəyəm sizi, – dedi. Divar boyu düzülmüş kreslolardan birində əyləşmişdi. Oturmağa səbri çatmırdı. Nəzakət xatirinə əyləşmişdi.

– Çox sağ olun, – dedi. Əllərini ovuşdurdu, ətrafa nəzər saldı.

Köməkçi zabit onun darıxdığını, aram olmadığını görürdü. Darıxmasın deyə, söhbətə körpü atdı:

– Siz Birinci Qarabağ müharibəsində necə lazımdır iştirak etmisiniz. Briqada komandirliyindən başlamısınız, – dedi.

– Elədir. Orada situasiya bir az başqa cür idi.

– Necə ki?

– Doxsan bir-doxsan ikiyə qədər SSRİ var idi. Biz də iki respublika onun tərkibində və tabeliyində idik. Hadisələri mərkəz yönləndirirdi.

– Bu, müharibəyə təsir edirdi ki?

– Əlbəttə, edirdi. Moskva idarə edirdi döyüşü, hətta özü vuruşurdu ermənilər tərəfdə. 336-cı motoatıcı alay nə idi bəs? Xocalıda qətliam törədənlər, Şuşanı döyüşsüz alanlar – hamısı rus əli ilə hərəkət edirdi.

– Ermənilər həmişə rusun kölgəsində olub.

– Elədir.

Bu söhbətlərə çox da marağı yox idi. Rəisin gəlməsini gözləyirdi səbirsizliklə. Qapı açıldı və bir cavan oğlan daxil oldu. Köməkçiyə yaxınlaşdı. Bacardığı qədər alçaq səslə gəlişinin səbəbini anlatmağa çalışdı. Aydın hiss etdi ki, gələn ancaq köməkçinin eşidəcəyi səslə danışmağa çalışır. Ona görə durub pəncərəyə tərəf getdi. Bayıra baxmaqla özünü məşğul etməyə çalışdı. Gələnin əksinə, köməkçi onun dediklərinə çox ucadan cavab verdi:

– Ərizə yazmağınıza ehtiyac yoxdur. Hələlik ad, soyad, ya elə şəxsiyyət vəsiqəsinin surətini və əlaqə telefonu qoyun. Lazım olsa, biz sizi çağıracağıq.

Oğlan getmək istəmirdi. Yenə alçaq – xəlvəti səslə izah etməyə çalışırdı ki, Tibb Universitetində oxuyur, III kurs tələbəsidir. O, cəbhədə yaralılara lazım ola bilər. Könüllü getmək istəyir. Köməkçi gənci inandırmağa çalışırdı:

– İnanın, səhər açılandan nə qədər müraciətlər olub. Səhərdən susmayan telefonda könüllü getmək istəyənlərin adını, soyadını qeyd edirəm, müraciətlər çeşidlənəcək. Çünki səfərbərlik, qismən səfərbərlikdir, kütləvi deyil. Ona görə mərhələlərlə olacaq, hər kəsə şamil edilməyəcək.

– Hər halda, bizim orada lazım olacağımızı düşünürəm.

– Orası elədir. Amma tələsməyin.

Aydın müdaxilə etməkdən özünü saxlaya bilmədi:

– Qürur duyuram belə gənclərlə. Bu gəncimizlə tanış olmaq istəyirəm.

Köməkçi:

– Buyurun. – Əvvəl Aydını göstərdi. – Azərbaycan Silahlı Qüvvələrinin polkovniki Aydın Hüseyn oğlu Musayev, – sonra əlini gəncə tərəf uzadıb – Tibb Universitetinin tələbəsi... – tələbə ad, soyad söyləyib əlini uzatdı Aydına – Mehdili Kərim. Aydın üçün ad əsas deyildi. Əsas belə bir gənci tanımaqdı. Tez də söhbətləri alındı:

– Ali Baş Komandan qismən səfərbərlik elan edəndə həm sevindik, həm də təəccübləndik – dedi oğlan.

– Nədən təəccübləndiz?

– Çünki, biz düşünürdük ki, indi hərbi arsenalımız yetərincədir və düşmən ölkə ilə müharibəyə hələ bir neçə il bəs edər.

– Könüllülərdən istifadə olunmalıdır. Mütləq olunmalıdır. Ali Baş Komandan düşünülmüş hərəkət etdi.

– Sizcə, könüllülər peşəkar hərbçilərdən üstünmü?

– Qətiyyən yox. Məsələ burasındadır ki, müharibədə peşəkar hərbiçilərdən istifadənin öz üstünlüyü var, könüllülərdən istifadənin öz üstünlüyü. Bilirsiz, peşəkar hərbçi ağıllıdır, prosesi bilir, vəziyyəti düzgün qiymətləndirir, taktika qurur, strategiyanı həyata keçirir, öldürməyi və sağ qalmağı eyni anda planlayır. O, müharibənin onurğa sütunudur. Könüllülər isə ağıllı olduğu kimi, emosionaldır, fədaidir, döyüşə coşqu, ruh yüksəkliyi, yeni məzmun qatır. – Üzünü köməkçiyə çevirdi. – Sizcə, belə deyil?

– Belədir, əlbəttə, belədir. Hərbçi və könüllü ittifaqı hərbi qələbəyə aparır – dedi köməkçi.

– Üçüncü amil də varmı? – oğlan yarıciddi, yarızarafat soruşdu.

– Bəli, üçüncü amil də var. Qoşun böyüyü. Ali Baş Komandan. Onun qətiyyəti, qərara gəlməsi, əmr verməsi əsasdır. Müharibə əmrdən asılıdır.

– Bizim lider əmrə tələsmədi, heç tələsmədi.

– Əmr məsuliyyətdir, cəsarətdir. Cəsarəti hazırlıq diktə etməlidir. Əks halda cəsarət fəlakət gətirər. Hazırlıq isə planlama ilə olur. Müstəqil iqtisadi inkişaf, diplomatik uğur, hərbi potensial toplanıb güc yaratmalıdır.

– Liderin gücünü?

– Liderin və dövlətin gücünü! Güclü lider, peşəkar hərbçilər, hər şeyi vətənə qurban verəcək könüllülər varsa, qələbə olacaq, inşallah!

– Müharibə üçbucağı! – Köməkçi əlavə etdi.

– Hətta dörd edək, tam olsun, dörd sütun, – Aydın dedi. – Üstəgəl mütəşəkkil xalq!

– Tanrı bizimlə olsun, hər şey yaxşı olacaq – köməkçi dedi.

– Əlbəttə, yaxşı olacaq. Hələ müharibə təzə başlayanda bir sadə kəndli vardı, qarabağlı. Qoyunlarını qabağına qatıb gətirmişdi ki, komandir, bunları kəsib əsgərlərə bişirin, yeyin, için, hücuma keçin. Bir də 21 yaşlı bir kənd cavanı yadımdadır, mənim də elə 22 yaşım vardı onda. Gəlmişdi ki, "komandir, siz hara getmək istəsəniz, icazə verin mən qabaqda gedim, harda mina partlayar, siz arxamca gəlin, təki siz sağ qalın, hücuma keçin". Peşəkarlıq da lazımdı, ürək də lazımdır döyüşdə.

– Aydındır, – gənc söhbətin kəsilməsini istəmədi, deyəsən. – Bizdə müstəqilliyin ilk illərində ordu siyasətçilər tərəfindən idarə olunurdu,

bu, ciddi səhv idi, deyirlər. Ordu siyasətçilər tərəfindən deyil, hərbçilər tərəfindən idarə edilməlidir.

– Çünki hər sahənin öz tələbləri var və hər birinin öz qanunları əsasdır. Hərbdə hərb qanunları işləməlidir. – Aydın qapıya tərəf döndü. – Rəis gec gələr?

Söhbət maraqlı olsa da, darıxdığını gizlətmədi.

Köməkçi:

– Mən sənədlərinizi götürürəm, hər ikinizlə əlaqə saxlayarıq – dedi.

Bunu elə dedi ki, yəni, çıxın gedin, lazım olsa, biz zəng edib sizi çağıracağıq. Aydın ayağa qalxdı, tələbə-həkimə baxdı, nəsə demək istədi, demədi, köməkçiyə əl verdi:

– Hələlik – dedi. Qapıdan çıxmaq istəyirdi ki, sıra ilə düzülmüş telefonlardan biri kəsik-kəsik zəng çaldı. Köməkçi mayor telefonu götürdü, qulaq asıb, tez də dəstəyi qoydu. Həmən əl-ayağa düşdü, qalstukunu əli ilə yoxladı, pencəyin düyməsini bağladı, stolun üstünə qoyduğu hərbi papağı başına qoydu, qapıya tərəf getdi. Aydın təxmin etdi ki, bunun rəhbəri gəldi. Yəqin əsas qapıdan maşını keçən kimi, qapıdakı buna zəng elədi ki, rəisin gəldi. Həqiqətən, az keçmədən polkovnik rütbəli rəis içəri girdi, onu müşayiət edən köməkçi onun arxasınca daxil oldu və ondan əvvələ keçib, rəisin qapısını açdı. Rəislə Aydın hərbi salamlaşdı. Bu çox ani oldu. O, köməkçinin açdığı qapıdan içəri keçdi və bir an sonra geri qayıtdı. Aydın onu indi tanıdı. Yerindən tərpənmədi, sadəcə, gülümsündü. Rəis isə ona sarıldı. Sonra elə yarıqucaqlamış şəkildə onu otağına tərəf apardı. Hələ də yerində oturub, tərpənməyən həkim-tələbə yavaş səslə:

– Təbrik edirəm, Sizin işiniz düzəldi, – dedi. Aydın ayaq saxladı, tələbəyə tərəf dönüb:

“Sizin də işinizi düzəldərəm” demək istədi. Duruxdu:

– Siz gedin, təhsilinizi davam etdirin, – dedi. Rəisi yarıqucaqlamış halda olsa da, tələbəyə əl verdi, – söz verin, daha yaxşı oxuyacaqsız. Lazım olsanız, onsuz da özləri çağıracaqlar. Təki heç lazım olmasın. – Oğlan onun uzatdığı əli sıxıb, könülsüz:

– Sağ olun, minnətdaram, – dedi.

– Düz deyirəm. Əvvəl oxumaq lazımdır. Sözmü?

– Söz... – oğlan dedi.

Otağa keçdilər. Keçərkən rəis köməkçiyə:

– İçməyə sərin nəsə versinlər... – dedi.

Vəziyyətin təfsilatını öyrənib Aydın rahat oldu.

– Demək, bu qəti əks-hücumdur. Əla. Bizə də bu lazımdır.

Həm söhbət edirdilər, həm də rəis işlərini görürdü. Arada köməkçini çağırdı:

– Sən nə lazım olsa, işində ol, otağa da gəl-get. Musayev hələ burda olacaq. – Aydına baxdı: – Komandirim olub. Onunla ən ağır əməliyyatlara girmişik.

– Polkovnikin özünə də demişəm, qürur duyuruq onlarla... – söylədi köməkçi.

Rəis işindən əlavə Aydın üçün də lazımi yerlərlə yazışırdı. Sevincək dedi:

– Quru Qoşunlarının səfərbərlik təminatı bazasında yoxlama olmalıdır. Nazirlə gediləcək. Cənab Ali Baş Komandanın şəxsi tapşırığıdır. Mütəxəssislərdən ibarət komanda olacaq. Sonra nazir rəhbərə məruzə edəcək. Hər halda, mən sənin namizədliyini verirəm. Təsdiq yuxarıdan asılıdır.

– Aydındır. Yəqin ki, bazanın silahlanma balansında olan artilleriya vasitələrinə, döyüş və avtomobil texnikasına baxış olacaq. Bir də, şəxsi heyətin hazırlıq səviyyəsi yoxlanılacaq. Mən hazır, məsləhət bilsələr, can-başla.

– Axxx, sənin o "can-başla" sözünü sevirəm də... Onun nə demək olduğunu bilirəm, – göz vurdu Aydına.

Aydın da gülümsədi:

– O söhbətlərə girmə. Onlar hamısı olub-keçib. Nə qədər böyük hünərlər olsa da, əsas qalibiyyətdir. Bu dəfə Zəfər lazımdır bizə, – dedi, – dediyin təklif ürəyimdən oldu. Sevərək iştirak etmək istərdim. Amma əsas cəbhədir. Cəbhədə sözümüzü deməliyik, – söylədi.

– Tələsmə, əzizim. Müharibədə hər yer cəbhədir. Mən faksla artıq bizdə olan məlumatlarını göndərdim. Sənin orada olmağının məqsədəuyğun olduğunu yazdım.

– Oğulsan ee, sən. Qəbul etsələr, etimadını doğruldacam. – Hər ikisi bərkdən güldü.

– Ona şübhəm yoxdur.

– Olmasın. Olmasın... – deyib zarafata zarafatla cavab verdi. Tez də ciddi tövr alıb həyəcanlandığını gizlətmədi. – Yoxlananlar üçün məsuliyyətdirsə, yoxlayanlar üçün də məsuliyyətdir. Əlini üzünə, üstünə çəkdi, hərbi səhra geyiminin üstündən çəkib bərk-bərk bağladığı kəmərini yoxlayırmış kimi, bir jest etdi, otaqda var-gəl edib, dərindən nəfəs aldı. – Döyüşlərdə iştirak edəcək şəxsi heyətin döyüş qabiliyyətini, hərbi təcrübəsini və döyüş ruhunu qiymətləndirirəm mən əsasən. O məsələlərə də baxarıq. Texniki hazırlıq da öz yerində.

– Baxmaqdan əlavə, nə görsəniz, qeydləri demək və yeni təkliflər vermək lazımdır.

– İnşallah! – Bu səfərə getməyi çox istədiyini gizlətmədi.

Onu yuxarıdan gələcək cavab ciddi narahat edirdi. Bununla belə, qərargah rəisi olan, indi bir dəqiqə də boş vaxtı, imkanı olmayan dostunu məşğul etmək istəmirdi:

– Gedim, amma buralardayam, – dedi, – mobilimi yaz.

– İşin axırında bir oturub dərdləşərik.

– Gedək bizə, – Aydın dedi.

– Yox, evə gec olar, burda iş nə vaxt qurtaracaq, bəlkə heç qurtarmayacaq, səhərə qədər, Allah bilir. Ona görə dedim, axşam yeməyi sifariş veriblər, rəsmi iş saatı qurtarandan sonra gətirəcəklər. Mən bu gün bir qismət də çörək kəsməmişəm. Nə imkanım olub, nə iştaham. Oturarıq, həm də söhbətləşərik.

– Olsun, – Aydın etiraz etmədi.

* * *

– Deyir, xarici mətbuat yazır ki, Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrini cəmi 15 dəqiqəyə darmadağın edib. Təsəvvür edirsiniz bu nə deməkdir? Dastana dönürük eee, xəbəriniz yoxdur.

– Xudayar da oxuyub "dastana döndü, dastana döndü". Deyir, bütün sosial şəbəkələr Xudayarın oxumasını paylaşır.

– Həqiqi deyirsən? De Allah haqqı! – Tovuzdan olan döyüşçünün emosiyaları aşıb-daşdı.

– Ə, qələtini elə, Allahın adını çəkmə. Deyirəm dostum yazıb, mən nə bilim nə dərəcədə həqiqətdir. O da oxuyub haradansa yəqin.

– Soruş da komandirdən.

Başqa biri dedi:

– Xudayar kimdir?

– Xudayar dostumdur. Sərhəd qoşunlarında gizirdir. Yaxşı uşaqdır, yaxşı da səsi var. Oxumasa, dayana bilməz. Deyirəm "orda da oxuyursanmı?" Deyir biz elə oxuya-oxuya alacağıq vətən torpaqlarını. Oxuya-oxuya öldürürük düşməni.

"Komandirdən soruş" deyən yenə təkrarladı:

– Leytenant gəlir, soruş, görək düzdürmü deyilənlər.

Məhəmməd yaxınlaşıb:

– Nədir uşaqlar, nə olub? – dedi.

Əvvəl heç kəs dinmədi. Sonra elə ilk danışan əsgər mızıldandı:

– Deyirlər biz dağıda-dağıda gedirik, geri alırıq torpaqlarımızı terrorçulardan.

Heç dinməyən əsgər:

– Sənin şübhən var deyilənlərə? Elə iki yüksəklik, yeddi kənd biz almışıq.

Məhəmməd ona baxıb gülümsündü. Əlini sildiyi, hərbi geyim rəngində dəsmalı yanındakı əsgərə uzatdı:

– Qondarma rejimin dırnaqarası "Təhlükəsizlik Şurasının katibi" Rusiya mətbuatına verdiyi müsahibədə bildirib ki, müharibənin ilk günündə Azərbaycan tərəfi cəmi 15 dəqiqəyə Qarabağdakı erməni artilleriyasının 40, hava hücumundan müdafiə sistemlərinin isə 50 faizini məhv edib.

– Urra! – uşaqlar bir ağızdan qışqırdılar. Bölük komandirinin sözünə qarşılıq vermək istədilər, amma burada çox səs çıxartmaq olmazdı. Cəbrayıl rayonu uğrunda döyüşdən çıxıb dincələn 180 nəfərlik heyət coşqulu qarşıladı xəbəri.

– Bəs biz niyə oturmuşuq. Niyə hücuma keçmirik? –əsgər soruşdu.

– Dincəlin, səhərə yaxın əməliyyat olacaq, – komandir Məhəmməd dedi. Bayaq dəsmalı verdiyi əsgərə üzünü tutub "dincəlin" dedi və öz çadırına getdi. Hava soyuq olduğundan yaraları sızıldayırdı.

Üç gün ard-arda döyüşdə olmuşdular. İkinci günün axşamı yaralandı. O günü unutmaq, yaddaşından silib atmaq istəyirdi, amma alınmırdı.

Yüksəkliyi almaq, strateji səngəri ələ keçirmək üçün ən əvvəl qarşıdakı düşmən mövqeyində yerləşən snayperi zərərsizləşdirmək lazım idi. Onun üçün əməliyyat qurdu. Havanın qaralmasını gözlədilər. Sakitlik olan kimi əməliyyata başladılar. Əməliyyata dörd döyüşçü ilə girdi. Özü öndə snayperin arxasına keçməli, iki döyüşçü sağ və sol cinahlardan onu qorumalı, dördüncü hərbçi mərkəzdən hərəkətsiz irəliləməli, müdaxilə etmədən, ehtiyat qüvvə mövqeyində olmalı, rabitə alınmazsa, ya planlaşdırılmamış, qeyri-adi situasiya olarsa, vəziyyəti xəbər vermək üçün geri qayıtmalı idi. Hər şey qaydasında gedirdi. Snayperin durduğu yeri təxmin etdiyi əraziyə çatmışdı, amma niyə isə onun əlaməti görünmürdü. Birdən snayper atəşinin ani qığılcımını gördü və həmin istiqamətə atıldı. Cəld sol qolunu arxadan fırlayıb, snayperin çənəsinin altından boğazına doladı. Başını arxaya qanırdı, sağ əlindəki səs boğucu keçirilmiş silahla boynunun damarına sıxdı. Düşmən atıcının başı həmin anda çiyninə düşdü. Hər iki cinahdan gələn döyüşçülər də artıq çatmışdı və o, snayperin taqətdən düşmüş bədənini tappıltı salmasın deyə, yavaşca yerə qoydu. İşarə ilə əsgərlərə bildirdi ki, onun silahını bir yerdə gizlədib, davam etsinlər, düşmənin arxasında mövqe tutub gözləsinlər. Özü aşağı enib, mərkəz döyüşçünü götürüb, mövqeyə qayıtmalı və hücum əmri verərək tapşırığı sonadək yerinə yetirməli idi. Ürəyinə danmışdı ki, dördüncü döyüşçünün – İmranın vəziyyəti yaxşı deyil, çünki snayper gülləsinin ətə dəydiyini yəqin etmişdi. Düşündüyü kimi idi. İmran torpağın üstündə, budaqların arasında çırpınırdı. Qan aparırdı onu. İmran çapaladıqca yerdə qan torpağa qarışırdı. Tez döyüş çantasından ilk tibbi yardım qutusunu açdı, qankəsici dərman verdi ona.

– Su ver, komandir, su, – dedi İmran.

– Susuz ud, uda bilməsən, çeynə, – dedi, – su olmaz hələ.

Tampon çıxarıb yarasına tıxadı. Yara qurşaqdan yuxarı, sağ tərəfində idi. "Snayper burasından necə vurub" deyə ani düşündü, heç nə demədi amma. Onu qucağına götürüb var gücü ilə geri, mövqeyə tərəf qaçdı.

– Su verin, komandir, yanıram.

– Döz, İmran.

– Məni yerə qoyun, siz gedin. Əməliyyatı ləngitməyin.

– Tələsmə, çatırıq.

– Nəfəsim daralır, söz demək istəyirəm, cənab leytenant, yerə qoyun məni.

İmranı qucağında daha da rahatladı.

– Sözünü de, narahat olma, indi çatırıq.

– Komandir, buşlatımın gizli cibində məktub var, üstünə ünvanı yazmışam, onu çatdırarsız.

Soruşmadı "nə məktubdur?", İmran özü dedi:

– Sevdiyim qıza yazmışam, vida məktubudur.

Yalnız indi İmranın üzünü görməyə çalışdı, qaranlıqda görmədi. Tərlədiyini isə qucağında hiss edirdi. Ya tər idi, ya qan. Məhəmməd yaş olurdu artıq. Özünün də gücü azalırdı. İmran ağırlaşır, həm də daha çətin nəfəs alırdı.

– "Vida məktubu" nədir, deməmişəm ki, döyüşə ölmək üçün yox, öldürmək üçün girin.

– Bilirəm, amma vida məktubu olmalıdır, komandir, mütləq olmalıdır, – səsi öləziyirdi, təntiyirdi. – Təki sağ qayıtsın adam, evə gedəndə məktubu cırar, ya da kimə yazıbsa, birlikdə oxuyub gülər, gülərlər...

– Danışıb özünü yorma.

İmran gücdən düşən səslə:

– Üşüyürəm, komandir, üşü-yü-rəmm...

Artıq çatmışdılar, İmranı yerə qoydu. Tez üst gödəkçəsini çıxarıb onun üstünə örtdü. Bölüyün həkimi özünü çatdırdı. Yaralını görən kimi:

– Tibbi maşın çağırılmalıdır. Dərhal təxliyə etmək lazımdır, – dedi.

Nəfəsini dərməmiş, dedi:

– Siz yardım edin, mən çağıraram.

İmranın rəngi avazımış, üzü puçur-puçur tər tökmüşdü. Nəfəsi təngiyə-təngiyə:

– Komandir, siz gedin, irəli gedin, məndən nigaran qalmayın, – dedi.

– Narahat olma.– Məhəmməd sualedici nəzərlərlə həkimə baxdı, həkim çarəsiz çiyinlərini çəkdi. Onlar bir-birini başa düşdülər.

Vaxt itirmək olmazdı. Bölüyü dörd hissəyə bölüb, hər birinə başçı təyin edib, hücum əmri verdi. Əsgərlər ildırım sürəti ilə irəli şığıdılar. İmran əlini güclə qaldırıb, baş barmağını havada tutdu və gülümsədi, yəni ki, "əla, siz gedin, sağ-salamat". Komandir də sağ əlini havaya qaldırıb, onunla sağollaşdı, "möhkəm ol, görüşəcəyik" dedi.

Döyüş ağır keçdi. Bu əməliyyatda ən əvvəl snayper məhv edildi, alay dağıdıldı, yüksəklik alındı, düşmənin mövqe tutduğu strateji səngər ələ keçirildi və bir kənd azad edildi.

Hələ döyüş gedə-gedə bir əsgər minaya düşdü. Onu döyüş zonasında qoya bilməzdi, ələ keçə bilərdi. Yaralı əsgərə doğru süründü. Bu bölüyün yaşca ən kiçik üzvü idi. Qardaş kimi yox, övlad kimi sevirdi onu. Elə özünə də "Övlad" deyirdi. Bölük üzvləri də zarafatla "Övlad" çağırırdı onu. Birtəhər uzanıqlı şəkildə ayağının birini əlinə keçirtdi, özünə tərəf çəkdi. Əsgəri özünə tərəf sürüyür, özü də arxaya sürünürdü. Yaxınlıqdan vıyıltı ilə snaryad gülləsi keçdi, o yaralandığını hiss etdi. Arxada yenicə aldıqları düşmən səngəri var idi. Ora düşdü, yaralını da sürüyüb ora saldı. Mina partlayanda ayağının birini kəsib atmışdı. Səngərə düşəndə ayaq qatlandı, baldırdan axan qan komandirin üzünə fışqırdı. O, cəld yan cibindən jqutu çıxarıb ayağı gücü çatdığı qədər sıxıb qanı saxladı. Başqa bir cibindən ağrıkəsici dərmanı və şprisi çıxarıb əsgərə elə şalvarın üstündən iynə vurdu. Əsgər qopub düşmüş ayağını palçıqlı hərbi çəkmənin içərisində köksünə sıxmışdı. Qopub düşmüş ayaqdan qan axmırdı; axıb, qurtarmışdı. Çəkmənin içi isə laxtalanmış qanla dolu idi. İstədi ayağı alıb, kənara atsın. Əsgər onu köksünə daha da bərk sıxdı.

– Ayağımı atma, komandir. Ayağım olmasa, yaşamaram. Onu döyüş meydanında qoymadım, götürdüm ki, yerinə calasınlar, tiksinlər, neyləyirlər eləsinlər, ayağım bütöv olsun. Ayaqsız olmaq istəmirəm... istəmirəm, istəmirəm, – əsgər dayanmadan qışqırıb, huşunu itirdi… Məhəmməd bunları xatırladı, ürəyi qısıldı.

Yalnız indi öz yaralarının qeydinə qalmalı olduğunu düşündü. Sağ çiyni və sol budu yaralanmışdı. Özünü yaralı komandirə yetirən bir döyüşçü ona ilk tibbi yardım göstərdi. Artıq düşmənin qırılanı qırılmış, qalanları geri çəkilmişdi. Çox keçmədən tibbi maşın gəlib çıxdı. Həkim İmranı götürdükdən sonra, burada döyüşün bitdiyini bildiyindən kimlərəsə tibbi yardım göstərmək lazım olduğunu yəqin edərək, hərbi-tibbi maşını bura sürdürmüşdü. Huşunu itirsə də, kəsik ayağını qolları arasında saxlamış əsgərə yardım göstərdilər və maşına yerləşdirdilər. Bundan sonra Məhəmmədin yaralarına baxıb ona da maşına minməyi məsləhət gördülər.

– Yox, siz gedin, mən uşaqları qoyub gedə bilmərəm.

– Uşaqlar uşaq deyil, hər şey həll olunacaq, sizin getməyiniz lazımdır, – dedi bölüyün həkimi. O, getməyəcəyində israrlı idi. Maşınla gələn orta yaşlı polkovnik həkim:

– Mən əmr edirəm. Təlimata uyğun hərəkət etməliyik, yaranız ciddidir, – dedi.

Məhəmməd daha çox İmrana görə vaxt itirmədən, mübahisə etmədən maşına mindi. Gələn həkimdən vəziyyəti soruşdu. Həkim heç nə demədən kədərlə onun üzünə baxdı. Maşında İmranın üzərinə tərəf əyilib:

– Məktubu özün verəcəksən sevdiyin qıza, – dedi. İmranın üzü sapsarı idi, gözlərinin rəngi solmuşdu. Əlini onun yarasının üzərində gəzdirdi. Onu danışdırmağa qıymazdı, amma maraq ona güc gəldi:

– İmran, necə oldu ki, snayper səni bu hissədən vurdu. Sən ayaqüstəydin ki?

– Mən ayağa qalxdım ki, o, atəş açsın. Yoxsa onun yerini müəyyən edə bilməyəcəkdiz. O, yerini dəyişmişdi. – İmranın artıq danışmağa gücü çatmırdı. Dodaqları çat-çat idi. Həkim yaş dəsmalla onun dodaqlarını isladırdı.

– Su verin, həkim, nə olursa olsun, – əsgər ümidsiz dedi. Həkim biriki damcı su damızdırdı onun dodağına.

Son gücünü toplayıb:

– Komandir, əgər atamı görsəz, mütləq necə döyüşçü olduğumu ona deyin, – dedi. – Bir də anama deyin, ağlamasın.

Onun ağzı qanla dolur, səsi xırıldayırdı. Yanında oturan həkim ümidsiz:

– Ona su verin, – dedi, – daha keçib.

Məhəmməd tez su vermək istəyirdi ki, birdən İmran dikəldi, nə isə demək istədi, deyə bilmədi, səsi xırıldadı, ağzına qan doldu, sonra gülümsədi və gözlərini yumdu. Su qabı Məhəmmədin əlində qaldı. Həkim əli ilə onun gözlərini sığadı. Gülüşü üzündə donub qaldı. İndi Məhəmmədin ürəyi İmranın ürəyi kimi yanırdı. Kaş, doyunca su verəydik heç olmasa. Yaralıya su vermək olmaz, amma bir halda ki...

– Bu acını mənə necə yaşadarsan, İmran, ay İmran?! – deyib, onu qucaqladı. Onu buraxıb sual dolu gözlərlə həkimin üzünə baxdı.

– Güllə ciyərini dağıtmışdı. Bir faiz ümid ancaq var idi, – dedi həkim.

Bir vaxt ciyər haqqında oxumuşdu haradasa. Can ciyərin içində gizləndiyinə görə “can-ciyər” deyirlər. Son nəfəsdə isə can ciyəri tərk edir. Axırıncı nəfəsalma, içəridən gələn səs onunla bağlıdır. Yəni son nəfəsdə can ciyəri tərk edir. Ondan sonra bədən taqətsizləşir və hərəkətsiz qalır. Can ciyərdən çıxır. İnsan ciyərindən yaralananda, əgər ciyər dağılıbsa, o, mütləq ölür, yox, ciyərin bir hissəsi yaralanıbsa, can

qaçıb salamat hissədə gizlənir, yaralı hissəni kəsib götürürlər, yerdə qalan hissə bərpa edir özünü. Qara ciyər insan orqanizmində yeganə orqandır ki, bir hissəsi kəsildikdən sonra özünü tam bərpa edə bilir. Can özünə gətirir onu.

– Can, ay İmran, canın gizlənməyə yer tapmadı, çünki sən o canı sipər etdin Vətənə.

İmranın şəhadəti olmasaydı, həmin gün istədikləri döyüşü aparmışdılar, istənilən nəticəni qazanmışdılar. Ən kiçik əsgəri ayağını itirmişdi. O, bu itkiyə necə öyrəşəcəkdi? İndi isə iynə vurub yatırtmışdılar onu. Palçıqlı əsgər çəkməsinin içindəki kəsik ayağı da yanındaydı...

...Döyüşqabağı bunları xatırlamamağa çalışırdı, amma bacarmırdı. Həmin gün tibbi məntəqədə yaraları yuyulub, təmizlənib, tikilib, sarınandan sonra yenidən bölməyə qayıtmışdı. "Uşaqları tək qoya bilmərəm. Mən orada olmalıyam" demişdi. İndi yatmalı, bir neçə saatdan sonra ağır döyüşə girməli idi. İmranın sözləri yadına düşdü: "vida məktubu olmalıdır, komandir, mütləq olmalıdır".

"Mən ona necə vida məktubu yaza bilərəm? Mən bunu ona necə qıyaram? Onu yarı yolda qoymağa nə haqqım var"?

Sonuncu dəfə ayrılanda "gələndə nə alım sənə, nə istəyirsən" deyəndə, pıçıldadı: "Generalım, məni sənsiz qoyma. Sənsiz heç nəyi istəmirəm, onda dünyam ölər mənim. Dünyamı diri istəyirəm səndən, başqa heç nə" ayaqlarının ucuna qalxıb dopdolu dodaqlarını onun dodaqlarına yapışdırdı. Köz kimi dodaqları ilə öpdü onu. Qaçıb uzaqlaşdı. Onu yenidən bərk-bərk qucaqlamaq və doyunca öpmək üçün ürəyi yandı. Gülə-gülə əl elədi, ürəyindən keçənlərə qarşılıq:

– Gələndə, – deyib, güldü.

– Gəl. Sözüm var, – dedi Məhəmməd.

– Sözünü whatsappa yazarsan, – şıltaq-şıltaq əl elədi.

"Onun gülüşlərinə qıymaram mən. Allahım, sən də qıyma" dedi Məhəmməd ürəyində.

Yatmaq üçün yerini rahatladı, gödəkçəni üstünə örtdü. Bu gödəkçəni İmranın üstünə salmışdı o, "üşüyürəm, komandir, üşüyürəm" deyəndə. "Heyf sənə, ay İmran... Heyf sevdiyin qıza" deyə ürəyindən keçirdi, döyüşçüsünü qucaqlayırmış kimi, sonuncu dəfə ona örtdüyü gödəkçəni üzünə çəkdi, bərk-bərk sinəsinə sıxdı. İmranın anasını düşünməməyə çalışdı. Heç gözü yuxuya getmədən zəng gəldi. Əks-hücum əmri verilmişdi. Əslində, gecə yarıdan keçəndə, səhərə yaxın gözlənilirdi qarşı tərəfdən hücum. Kəşfiyyat belə xəbər vermişdi. Əks-hücum əmri də mütləq olacaqdı. İndi yuxarıdan göstəriş gəlmişdi. Düşmən bu

istiqamətdə tam, qətiyyətli cavab almalıdır. Gecə saat üçə kimi Ali Baş Komandana məruzə olunmalıdır.

Bölüyə hazırlıq əmri verdi. Hər kəsin yuxuda olduğu vaxtda bu əmr elə bir coşqu ilə qarşılandı ki, özü də məəttəl qaldı.

* * *

Məhəmmədin başçılıq etdiyi bölük gündüz kilometrlərlə məsafə qət edib, xeyli irəliləmiş, mövqe dəyişdirmişdi. Gecə əməliyyatına hazır idilər. Hərəsi üç nəfərdən ibarət iki əməliyyat qrupu yaratdı. Onlar düşmənin arxasına keçib münasib mövqe tutmalı idilər. Gecədən keçmiş üç istiqamətdə hücum olmalıydı. Əməliyyat qrupunun biri az bir vaxt keçmiş geri qayıtdı. Bir düşmən zabiti gətirmişdilər. Onlar ya mövqeyə gedib çatmadan qayıtmışdılar, ya da qarşı tərəf onlara doğru xeyli irəliləmişdi. Yoxsa belə tezliklə niyə qayıtmış və düşməni necə ələ keçirmişdilər?! Gedən əməliyyatçılardan biri gətirdikləri zabiti gözləri bağlı qabağa itələdi:

– Cənab komandir, hədiyyə gətirdik sizə.

– Hədiyyə üçün təşəkkür, amma sizi hədiyyə üçün göndərməmişdik. Əsas tələb başqa idi.

İkinci əməliyyatçı dilləndi:

– Bu sürprizi qaçırda bilməzdik. Bunlar kəşfiyyatçı idilər. Yolun yarısında rastlaşdıq. Üç nəfər idilər. İkisini həll elədik. Bunu götürdük.

– Əsir həmişə qənimət hesab olunsa da, tapşırığın mühümlüyünü nəzərə alıb, bunu da həll edib, yolunuza davam edərdiz.

Üçüncü əməliyyatçı tez dilləndi:

– Komandir, mümkün olmadı. Elə yalvardı, elə sözlər dedi ki, sağ saxladıq. Həm də çox gərəkli ola biləcəyini düşündük. Dilimizi bilir. Deyir, nə olursa-olsun, mən evimə salamat qayıtmalıyam. Əsir götürün məni, amma öldürməyin. Yalvarır ki, “mən aprel döyüşlərinə gedəndə anam infarkt olub”. Deyir, mən evdən çıxanda dörd yaşlı qızıma söz vermişəm ki, qayıdanda ona şar, bir də ayı şokoladı alacam. Getməsəm, anam ölər, qızım... Nə isə, özünüz baxarsız... Yəqin bildikləri də çoxdur. Evinə sağ getmək üçün nə desəz, edəcək.

Əməliyyatçılar əsiri təhvil verib getdilər.

Dəstə üzvləri – yüz yetmiş nəfərlik heyət sərbəst istirahət vaxtındaydı. Gündüz xeyli ağır döyüş keçirmişdilər. İndi dincəlib, gecə əməliyyatına getməli idilər. Amma əsiri görüb, dincəlmək də, döyüşə hazırlaşmaq da yadlarından çıxmışdı. Hamısı onunla maraqlandı. Detektiv maraqlısı əsgər dedi:

– Komandir, onu danışdırmağı mənə tapşırın, sarı yağdan tük çəkər kimi çəkim sözləri ondan.

“Dağıdançı” dedikləri gizir dedi:

– Onu danışdırmaq yox, mələtmək lazımdır.

"Ziyalı" ləqəbli zabit isə dedi:

– Əziyyət çəkməyin, "ağıllıdır", görürsüz, özü deyib ki, evimə sağ-salamat getmək istəyirəm. Qəşəng danışacaq, bülbül kimi ötəcək.

– Bülbül nədir deyirsən, qarğa kimi qarıldayar deyinən heç olmasa.

– Rəhbəri kimi rəqs eləyə-eləyə cavab verəcək bəlkə, istəsək, bir şıdırğı "Yallı" da gedər.

– Ə di utandırmayın kişini, bir qələtdir eləyib, sağ qalmaq istəyib. Nolub sizə?

– Bizim əsirləri döyüb qançır eləyirlər, vurub şikəst günə qoyurlar. Nolar komandir, buna qarşı da humanist olmayın. Bizdəki əsirlər bordaq potasına dönürlər, bunlardakı əsirlər ölüm düşərgəsi sakinlərinə çevrilir. Canını alın bunun.

– Yaxşı baladır, incitmərik bunu, balasına şar alacaq hələ.

– Amma nə deyirsiz - deyin, o uşağa görə bu şərəfsizin evinə salamat getməyini istəyirəm.

Dəstə üzvləri elə bil hərəsi bir cümlə deməlidir. Sıralandıqca sıralanırlar. Məhəmməd dedi:

– Onu təhvil verəcəyik. Məlumat vermişəm, gəlib qərargahdan götürəcəklər. Onu qeydə almaq, danışdırmaq, lazımi şəkildə yerinə çatdırmaq bizlik deyil. Amma mən bilirsinizmi nəyi xatırladım. Aprel döyüşlərində mənim komandirim şəhid olmuşdu. Mən onun ailəsini ziyarət etmək, öz komandirimin döyüşçü keyfiyyətlərindən danışmaq, onun zabit hünərini ailəsi ilə bölüşmək istədim. Çünki hər zabit bir tarixdir, bir tarixi şəxsiyyətdir, yeriyən bir parça vətəndir. Amma onlar ailələri üçün çox adi adamlardır. Bəzən söz eşitməyən oğul, bəzən övladının istəyinə qarşılıq verə bilməyən ata, bəzən kobud qardaş, bəzən xanımını az sevindirən kişi, ömrü boyu anası üçün uşaq qalan adicə bir oğuldur. Onları ailələrinə tanıtmaq, necə bir tarixi şəxsiyyətlə bir tavanın altında yaşadıqlarını doğmalarına demək lazımdır. Komandirimin anası, xanımı, böyük oğlu ilə bir az söhbət etdik. Bapbalaca qızı vardı, yenicə məktəbə gedən. Kənarda durub baxır, hərdən yaxınlaşıb, əlini hərbi paltarıma sürtüb, tez də qaçıb, o biri otağa gedirdi. Kreslonun baş tərəfinə şar qoyulmuşdu. Onu qucağına götürdü. Dedim:

– Gəl oynayaq. At mənə.

Başını silkələdi, yəni ki, "yox".

Dedim:

– Axı əmi də oynamaq istəyir. Gəl oynayaq.

Dedi:

– Olmaz, olmaz. Partlayar birdən.

Dedim:

– Eybi yox, partlasa, sənə çoxlu şar alıb göndərəcəyəm, hər rəngdə.

Dedi:

– İstəmirəm. Bu partlasa mən ölərəm.

Dedim:

– Niyə?

Dedi:

– Ona görə ki, bunun içində atamın nəfəsi var. Axırıncı dəfə gedəndə bunu atam üfürüb, doldurmuşdu, – şarı bir az da qucağına basdı. İndi, bu günlərdə buna bənzər bir hadisəni sosial şəbəkələrdə hamı paylaşır.

Mənim də, mənimlə gedən zabit yoldaşımın da gözləri ağlaya biləcəyimiz bir yer axtardı, hətta hönkürə biləcəyimiz bir yer. İki zabit təsəlli verməyə getdiyimiz iki qadının qarşısında ağlayırdıq. O qadınlara "Ağlamayın, başınızı dik tutun. Oğlunuz, əriniz qəhrəmandır" deməyə getmişdik, başımızı bacardıqca aşağı tuturduq ki, göz yaşlarımızı görməsinlər.

Üzünü əsir tutulan ermənyə çevirib dedi:

– Başa düşürsənmi ki, bu nə deməkdir? Sənin gözlərin bağlıdır, qulağın ki eşidir, eşit məni. Səni əsir kimi geri verəcəyik yəqin və sən qayıdıb qızına şar da, "ozmo" ayı konfeti də alacaqsan. Amma bu müharibə burda qurtarmasa, əvvəl-axır, döyüşün birində öləcəksən və ailən üçün faciə olacaqsan. Axı niyə, niyə siz illər, əsrlərdir bizim başımıza bu fəlakəti gətirirsiz və biz sizi öldürürük. Bizdən də ölənlər ölür. Dəyərmi məhv olan ömürlərə sizin torpaq iddialarınız? Axı, bu torpaqlar sizin deyil, nə vaxt qanacaqsız bunu. Sizi aldadıblar, indi də aldadırlar. Sizin bizdə torpağınız yoxdur. Nə zaman siz ölürsüz, bilin ki, havayı yerə, kimlərinsə marağına görə ölürsüz. Ona görə sizinlə bizim dövlətlərimiz arasında gedən müharibədə biz öləndə şəhid oluruq, siz öləndə meyit olursuz. Çünki, biz vətən torpağımızı sizin hücumunuzdan qoruyuruq. Tarixdə bircə dəfə də olsun olmayıb ki, biz sizə hücum edək. Həmişə siz hücum etmisiz və öldürülmüsüz. Bundan sonra da nə vaxt bizə başağrısı olacaqsız, öldürüləcəksiz.

İmranı xatırladı Məhəmməd. "Ax, İmran, İmran. O qızıl ürəyin necə susa bilərdi?!". İmranın ölümünü əsgərlərə demədiyi üçün də İmrana ürəyi yandı. Heyət elə bilirdi ki, İmran ağır yaralıdır. İmran isə elə orada qurtardı. Bitdi hər şey. "Ax, İmran nə acıdır". "İmkanım olsa mən onları heç öldürmərəm. Onların da anası var, onların da cibindən sevdiyi qızın min ümidlə baxan şəkli çıxır, onların da atası boyu bərabəri oğul böyüdüb, onun ölümünü eşidəndə qəddi əyilir, onların da qara gözlü balaları onların yolunu gözləyir." Belə düşünən İmranı düşmənin bircə gülləsi bədbəxt etdi. "Onların da cibindən sevdiyi qızın min ümidlə

baxan şəkli çıxır" deyən İmran sevdiyi qıza vida məktubu yazıb. Allah bilir orada nələr yazıb. Üstündə ünvan da qeyd edib. Amma mən o məktubu yazılan ünvana göndərməyə ürək eləmirəm. Sevdiyi qızın İmran üçün axıdacağı göz yaşları qanımı yuyub aparır."

Uşaqların dincəlmək havası yox idi. Kimsə İmranı soruşdu.

Məhəmməd hələ heyət üzvlərinin İmranın ölümündən xəbər tutmalarını istəmirdi.

– İmran yaxşıdır, müalicə olunur, – dedi.

Kimsə soruşdu:

– Övladdan xəbər yoxdur?

– Mən danışmışam. İmranın telefonuna zəng çatmır. Amma Övladla danışdım, – dostu tez müdaxilə etdi. – "Cəbhəyə qayıtmaq istərdim" deyir. Ayağını kəsiblər, daha doğrusu, ayaq kəsilmişdi, yerini tikiblər, müalicə olunur. Ürəyim parça-parça oldu onunla danışanda. Heç cür qəbul edə bilmir bir ayaqla gəzəcəyini.

– Deyəydin ki, sənə elə protez ayaq qoyacaqlar, heç bilməyəcəksən, ayağın olmadığını.

– Dedim, dedim. Əvvəlki Qarabağ müharibəsində dayım qolunu itirmişdi. Ona protez qol qoymuşdular, bir müddət sonra deyirdi ki, elə bilirəm əvvəldən bir qolum olub. İkincisi heç olmayıb. Bunu da dedim ona. Psixoloji dəstək lazımdır ona.

Övlad darıxırdı. Gərgin keçirirdi halını.

... Hər gün yuxu görürdü. Yuxuda özünü sağlam görürdü. Ayaqları yerində. İstədiyi qədər gedirdi. Bu gün yuxuda məhəllə uşaqları ilə futbol oynayırdı. Yaxşı oynamırdı. Dərslərini oxusun, musiqidən tapşırıqlarını hazırlasın deyə, onu həyətdəki uşaqlarla futbol oynamağa qoymazdılar. Yuxarı siniflərdə çıxıb oynaya bilərdi. Uşaqlar yığılıb, yaxınlıqdakı stadionda oynayardılar və bir neçə qəpikdən atışıb, stadiona baxan, Birinci Qarabağ Müharibəsində bir qolunu itirən kişiyə pul verərdilər, ya da siqaret alıb bağışlayardılar. O isə, yaxşı oynamır deyə, bu tədbirlərə qoşulmurdu. Məhlədəki oğlanın "ə, gəlsənə, oynaya bilmirsən, azarkeşlik də edə bilmirsən, əl çalarsan heç olmasa?!" deməyindən sonra futboldan da, uşaqlardan da soyudu. Birdəfəlik daha futbolla qurtardı. Ayağını itirəndən sonra ikinci dəfə idi ki, yuxuda doyunca futbol oynayırdı, hətta tər-su içində oynayırdı.

– Özgə nə dedi Övlad?

– Heç nə demədi. Hamıya salam göndərdi. Döyüşəndə ürəkli olun, yazığınız gəlməsin onlara, – dedi. – Mənim ayağımın da intiqamını alın düşməndən, - dedi.

Döyüşə az qalırdı. Məhəmməd nigaran idi. Göndərdiyi iki dəstə yerinə çatıb mövqe tuta bilmişdilərmi? Xəbər almaq istəmirdi. Yəqin

uyğun zamanı gözləyirlər. Özləri məlumat verəcəklər. Bu döyüş ölümdirim savaşı olacaqdı yəqin ki.

"Allahım, hər kəs salamat qayıtsın bu döyüşdən". Hələlik bir şəhidi, bir qazisi vardı. Onları heç unuda bilmirdi.

"Üşüyürəm, komandir, çox üşüyürəm. Gör neynirsən... Elə elə ki, üşüməyim." İmranın bu sözləri yadına düşəndə ürəyi üşüyürdü. "Can, ay İmran, o qızın da ürəyi üşüyəcək məktubunu oxuyanda, orada nə yazmısan?" Yenə onun son sözünü xatırladı: "amma vida məktubu olmalıdır, komandir, mütləq olmalıdır". "İmran, sənin sözünə əməl edirəm". Çantadan qələm, dəftərçə çıxartdı. "Ürəyim ana, canım ana! Ana, əllərindən, gözlərindən öpürəm". Deyib bir az dayandı, düşündü, sonra birbaşa elə həmin cümlə ilə başlayan məktubunu yazdı: "Ürəyim ana, canım ana! Ana, əllərindən, gözlərindən öpürəm. Müharibənin ilk günü Murov dağının zirvəsini aldıq. O elə bir hiss idi ki, bütün bir ömrə bərabər idi. Bu dünyada gözüm qalmadı. Təkcə sən ağlayacaqsan deyə üzülürəm. Ağır döyüşlərə girdik. Mənim aslanlarım gülə-gülə çıxdı vuruşdan. Qalibiyyət yaşadıq o gün. Orda siz narahat olmayın. Biz burda əlayıq. Qələbə əhvalımız var. Nəhayət, yurdlarımızı düşməndən təmizləyirik. Bayraq kimiyik hamımız, irəli gedirik, göydə dalğalanırıq. Allah eləməsin, şəhid olsam, ağlama. Çünki, bu ömrü hər insan yaşaya bilməz. Bu qələbə sevinclərini ki biz burada duyduq, insan bir ömür yaşayar, amma bunun bircə anını dərk edə bilməz. Ona görə də bizimlə qürur duyun. Bu gün Ağdərənin azad edilməsi əmrini almışıq. Çox ağır, ciddi döyüş gözlənilir. Hər şey ola bilər. Mənə nə isə olsa, bil ki, son nəfəsimə qədər vuruşmuşam və bu halımdan xoşbəxtəm. Mənim üçün ağlama, nə olar, ağlama, gözlərinə qurban olum, ana, ağlama. İmza: Sənin balın, baldan şirinin! (kaş ki, bu oxşamanı bir də eşidəydim)". Vərəqi cib dəftərçəsindən ehmalca qopardı. Hüseyn babasının əsgər məktublarını görmüşdü lap balaca olanda. İkinci Dünya müharibəsindən evlərinə yazdığı məktublar, üçkünc məktublar idi. Məhəmməd də məktubunu niyə isə elə qatlamaq istədi, bir neçə cəhddən sonra alındı. Üçkünc qatladığı məktubu, İmran kimi, buşlatının gizli cibinə qoymaq istədi, sonra qoymadı. Dəftərçənin arasına qoyub, onu örtdü və çantanın gözünə yerləşdirdi. "Gözəl gözlüm" dediyinə də bir məktub yazmışdı. Təkrar açıb oxumaq istədi, vaxt yoxdu. "Döyüşdən sonra imkan olsa, bir göz gəzdirərəm. Baxaram səhv-zad getməyib". Onu İmran kimi, hərbi gödəkçəsinin gizli cibinə qoymuşdu.

* * *

Çox üzgün idi. Bu qoyma dişləri düzəltdirdiyinə görə çox üzgün idi. Bu dişə qocalığın təsdiqi kimi, qadından zövq almağın sonu kimi, fəal həyatına çəkilən bir sədd kimi baxırdı. Mənən əzilirdi, özünə təskinlik verə bilmirdi. Həkim deyirdi ki, siz psixoloji maneəni aşa

bilmirsiz. Özünüzü inandırmalısınız ki, ağzınızda cəmi iki dənə kötük diş olmaqdansa, danışanda dil bayıra çıxmaqdansa, yeməkdə çətinlik çəkməkdənsə, ordları batıq olmaqdansa, nəhayət, mırıq dişlərə görə qoca səslə danışmaqdansa, bu dişə öyrəşmək, onu sevmək, ona nicat yolu kimi baxmaq lazımdır. O isə öyrəşə bilmirdi. Bu vəziyyətlə barışmaq istəmirdi. Taleyindən küsürdü; valideynlərinin vaxtında onu vitaminli, kalorili yedirdə bilmədiklərinə görə. İşdəkiləri təqsirkar bilirdi, "ömrümüz çəkişmələrdə, mübahisələrdə çürüyür" – deyərək üzülürdü. Arvad-uşağı günahlandırırdı; onu çox əsəbiləşdirib, guya dişlərini tökdüklərinə görə. Bunları fikirləşib daha da gərginləşirdi.

Bu gün bir həqiqəti dərk edib, boyun əydi. Buna tələbəsi, magistraturada oxuyan şəlalə saçlı qız səbəb oldu. O qız ona elə heyranlıqla qulaq asırdı, elə məhəbbətlə baxırdı ki! Ağzının, gözlərinin, ürəyinin içindən xəbərsiz, qarşısında tək oturmuşdu. Magistratura tələbələri ya bir, ya iki, nadir hallarda üç-dörd nəfər olur. Bu tələbə tək tələbədir. Müəllimin mühazirəsindən dəyərli, gərəkli hesab etdiyi hissələri tez noutbukuna qeyd edir, yenə yumruqlanmış əlini çənəsinə dayayaraq qulaq asırdı.

Mühazirəsinə ara verdi. "Əslində, magistratura səviyyəsində mühazirə dərsi də dialoq şəklində, qarşılıqlı müzakirə formasında olmalıdır" – deyə qızı fəal olmağa çağırdı. Qız da utancaq gülümsündü, "Siz maraqlı danışırsınız" – dedi. Müəllim dərsi jurnalda qeyd etdi. Həmin anlarda da fikirləşdi ki, hər şeyi bu qıza qurban vermək olardı. Adamın ağlı yerindən elə oynaya bilərdi ki, hər şeyi bu qızın ayaqları altına atardı: ictimai nüfuz, ailə, arvadın incikliyi, oğlun-qızın töhməti, dost-tanışın tənəsi, qohumların danlaqları kəsməzdi insanın yolunu. Hər şeyi təzədən başlayıb, səhvsiz, mükəmməl bir ömür yaşamaq olardı, zövqlə, feyzlə, hər şeyi dərk edərək. Amma Tanrı – Yerin, Göyün, İnsanın Sahibi – bu işləri nizamlayıb. Qoyma dişlə, duzlaşmış sümüklərlə, belini çəkə-çəkə, ayağını sürüyə-sürüyə, artan təzyiqlə, zəifləyən gözlərlə, tökülən saçla yeni bir həyat başlamaq olmaz. Başladığın, yaşadığın həyatı səbirlə, şərəflə, bacardıqca müdrik şəkildə yekunlaşdırmaq lazımdır. Birdən üzünü tələbəyə tutdu:

– Səkkiz saat mühazirə, iki saat seminar dərsimiz var. Sizə qiymət neçə dənə yazılmalıdır? – soruşdu.

– Yarım illik müddətə iki qiymət olmalıdır, deyirlər. Dekan müavini bizə dedi ki, seminarı bir dənə olan fənlərin müəllimlərinə deyin, bir dənə də mühazirədə qiymət yazsınlar. Bakalavrdan fərqli olaraq, magistraturada belə etmək olar.

– Onda sənə bu gün bir qiymət yazaq, birini də sonuncu dərsi seminar keçirib, onda yazarıq, – qələmi üçüncü xananın üzərində tutub:

– 10 – dedi.

– 9 bəsimdir. “10 bal yazmaq məsuliyyətlidir” – deyir müəllimlər. 10 həmin fəndən xüsusi qabiliyyəti və fəaliyyəti olanlara verilməlidir.

– Olsun. 9 yazıb-oxumağına, 1 bal da gözəlliyinə yazdım. Qoca professora sənin ağzından süd iyi gələn, modelə oxşayan dekan müavinin heç nə deyə bilməz.

Qız gülümsündü, həm də yanaqları qızardı. Gülüşü gözəldir, yüngülcə qızarmağı ondan da gözəl oldu.

– Sağ olun, – dedi.

– Halal xoşun, – professor söylədi.

Dərs müddəti ona elə gəlirdi ki, qapının arxasında kimsə var. Cəld ayağa qalxdı və qəfil qapını açdı. Qapının arxasında cavan bir oğlan dayanmışdı.

– Sizə kim lazımdır? – müəllim soruşdu.

– Heç kim, bağışlayın.

Qapını örtdü. Tələbə qızın tələşlanmağından, alt dodağını çeynəməyindən başa düşdü ki, oğlan, dəqiq, qıza aiddir.

– O sənin nəyindir? – deyə soruşdu.

– Nişanlım, – qızın səsi güclə çıxdı.

İstər-istəməz qızın barmaqlarına baxdı. O da mətləbi dərhal anladığından:

– Nişan yayda – tətildə olacaq, hələlik sadəcə “həri” üzüyü taxıblar.

– Lap yaxşı, xoşbəxt olun, zəngə nə qədər qalıb?

– 10 dəqiqə.

– Get, cavan oğlanı çox gözlətmə.

Qız himə bənd imiş kimi, həmin anda hazır oldu.

– Sağ olun, bağışlayın, – dedi.

– Sağ ol, yaxşı yol, – dedi professor.

Qız çıxdı, oğlan həmin anda ona yaxınlaşdı. Aralı qalmış qapıdan müəllim bunu gördü. “Ay-hay, sən onun qədrini bildin ha” deyə düşündü”. “Boş-boş işlər üçün o qədər bir-birinizi üzəsiniz ki... Sən o qızın qədrini, dəyərini, səfasını biləndə, hər şey qurtarmağa yaxınlaşacaq. Sən həyatı yenidən yaşamaq istəyəcəksən. Onu bacarmazsan. Göydəki Kişi ona yol verməz. Get onda, qoyma dişlərini gizlində çıxarıb, taxarsan ki, görən olmasın”.

Beləcə, qoyma dişin kədərini qəbul etdi. Həyatda sahib olduqlarına görə şükür etməyə başladı. Oğlu, qızı, nəvələri, əsərləri, kitabları, başına dolanan qadını, nüfuzu, işi, evi-eşiyi – Şükür Allaha! Təskinlik tapmalıdır ki, o da həyatda istədiklərini yaşayıb. Evlənəndə onun 25, nişanlısının 22 yaşı vardı. Gənc idilər, gözəl idilər, sadəcə, bu gözəlliyin nemət olduğunu onda bilmədilər. Hər gün gördüyü gənc qızların təmiz

üzünə, düz ayaqlarına, incə bellərinə, ipək saçlarına baxar, daha bu nemətlərə heç vaxt sahib olmayacağını düşünərdi. Bu gün düşündü ki, nemət bir dəfə verilir, onu özün üçün nə qədər saxlaya bilərsən, bu sənlikdir.

Qaçqın Qocanın, "biləydim ki, nəvəmin dediyi "Azərbaycan üçün qara qızıl, Qarabağın qızıl açarı ola bilər" fikrinə Məhərrəm nə rəy verər" marağından professor xəbərsiz idi. O nəvə elə Qayaoğlunun da nəvəsidir. Hüseynin oğlunun, Qayaoğlunun qızının uşağıdır. Qaçqın Qocanın "Görəsən indi Məhərrəm neynir? Professor uşaq-muşaq deyil ki, çox lazımlı işlərlə məşğuldur" fikrindən də Məhərrəm müəllim xəbərsiz idi.

Məhərrəm müəllim ondan da xəbərsiz idi ki, bir müddət bundan əvvəl Qaçqın Qocanın, yəni onun tələbəlik dostu Hüseynin oğlunun əlli illik yubileyi olmalı idi. Restoranda keçiriləcək bu törənə o da dəvət olunacaqdı və orda Hüseyn nəvəsini onunla daha yaxından görüşdürəcək, onun uğurlarını Məhərrəm babaya çatdırıb, bir fikri haqqında rəyini də öyrənəcəkdi. COVİD-19 pandemiya qadağasına görə Hüseynin polkovnik oğlunun yubiley tədbiri çox məhdud – yalnız ailə çərçivəsində qeyd edildi. Və Hüseyn kişi onu maraqlandıran sualın cavabını öyrənməyi sonraya saxladı. Məhərrəm müəllim özü Hüseynin oğluna demişdi ki, biz qardaş kimi olmuşuq. Hüseyn, mən, Dəmirçi. Ona Qayaoğlu deyirdik. Siz də – bizim övladlarımız, bir-birinizə gedin-gəlin, qız alın, qız verin, qohum olun. İndi yaxşı adam tapmaq çətindir. Birbirinizin əlini tutun, yaxın olun.

Məhərrəm müəllim bilirdi ki, Hüseynin polkovnik oğlu Aydın elə də dost-tanış ünsiyyətlərinə maraqlı deyil. Amma Hüseynin nəvəsi – Məhəmməd maraqlı uşaqdır. Eşitmişdi ki, universitet qurtarıb, sonradan hərbini seçib, çox savadlı, məlumatlı gəncdir. Bir dəfə ötəri görmüşdü, daha yaxından tanımaq istərdi. O biri nəvəsi isə həm də öz nəvəsi idi, universitetdə doktoranturada oxuyan... Qayaoğlundan isə xəbəri yox idi...

* * *

Dəmirçi – Ata ömrünün sonunu yaşayırdı. Amma niyəsə həyatının əvvəlini hey yadına salmağa çalışırdı. Ta əzələ qayıdır, olmuşları xatırlayır, elə bil uşaqlıq illərini qocalığa peyvənd edirdi. Gəncliyi isə ortada uzaq xatirəyə dönmüşdü, bəzi məqamlar yaddaşında hərdən təzələnirdi. O dünyadakı ömrünün isə ancaq başlanğıcını bilirdi. Qarşılanma hissəsini. Dünən gecə Qızına dedi: "Getdim..., Şiş təpənin bəri yanına qədər getdim. Qəbiristanlıqda nə qədər adam var, hamısı yolun qırağına çıxmışdı. Bəri, alçaq təpənin üstünə cərgə ilə düzülmüşdülər. Məni görüb əl elədilər". Ondan bir gün qabaq – srağagün isə demişdi "Əlləzoğlu Fərman, Əlləzoğlu Bəxtiyar, bir də Usta Göyüş

gəliblər, bizim doqqazın qabağında çadır qurub oturublar, məni gözləyirlər". Qızı da kəndin mollasına pul göndərib demişdi ki, bu üç ölüyə "Yasin" oxusun. O dünyada belə qarşılanacağını güman edirdi. Daha nələr olacaqdı, nələr keçəcəkdi, bunu sonralar biləcəkdi, bunu bilməyə bəs qədərincə vaxt varıydı. İndi isə vaxt yox idi. İndi ömrün hər anı bir ilə bərabər olan məqam idi. Bir dəqiqə əvvəl baş verənlər qızına elə gəlirdi ki, dünən olub. Hərdən çaşıb sırağagün də deyirdi bir dəqiqə əvvələ. Ömrün kələfi çözülürdü, sürət ondan idi. Bu kələf bir dəfə yumaqlanmışdı, dolaşa-dolaşa, düyün düşə-düşə, düyünü açıla-açıla, çətinliklə… İndi isə hazır yumaq geriyə yığılırdı, heç nəyə ilişmədən, dolaşmadan açılıb, dolanırdı... Ümidi tükənmişdi. Ümid bitdi – ömür bitdi deməkdir. Bütün istəkləri, ümidləri gözündə bir damla yaşa çevrilib, kirpiklərinin arasından süzüldü, yanağı uzunu axıb döşəməyə düşdü, döşəmədə ləkə qaldı. Bu bir damla yaş həm də son nöqtə kimi ömrünün sonuna düşdü elə bil. Qismətin olmayacaq bir şey uğrunda ömür sərf etmək ən böyük yanlış və xətadır, – bunu son anda dərk etmişdi və yalnız bunu canından çox sevdiyi, yanında olan tək övladına demək, onu agah etmək istəyirdi. Amma deyə bilmirdi. Qızı onu anlaya bilmirdi. Qızının anlamadığı çox şey var idi həyatda…

Həkimin gəlişi, vurduğu iynə bir az öncə gördüklərini yuxuya çevirmişdi, ya yuxusunu yuxu kimi dərk etməsi üçün beyni aydınlaşıb, durulmuşdu. Amma ürəyincə idi gördükləri. Öz cənazəsini görürdü. Onu tərtəmiz yuyub kəfənləmişdilər. Elat xalçasının üstünə uzatmışdılar. Kəfən yumşaq, rahat idi, təzə parça qoxusu verirdi. Xalçanın gözəlliyini isə son dəfə görmək, əlləri ilə naxışlara toxunmaq istəyirdi. Amma bu artıq mümkün deyildi. Bu gözəlliyi hiss etmək, bir də xatırlamaq olardı. Qoz və palıd ağacından düzəldilmiş taxtın üstündə özünü şah taxtında hiss edir, gül dəmətinin üstündə yatmış sayırdı. Gül ətri xalçadan gəlirdi deyəsən.

Bir dadlı öpüş ömür qədər, dünyanın özü qədər qiymətlidir – bu gəldiyi son qənaət, inandığı son həqiqət idi... Artıq hər şeyin sonu olduğunu amansız bir məntiqlə dərk edirdi. Qadınının isti və nəm dodaqlarını arzu etdi, elə həmin anda da qədərinə güldü.

Qızı sol çiyni üstündən ona tərəf baxıb, narazı soruşdu:

– Ay dədə, mənəmi gülürsən?

– Yox, a bala, sənə niyə gülürəm ki?! – dedi.

"A bala" dediyi Qızının yaşı əllini keçmişdi. Qızı onun bu səhər bərk həyəcanla danışdığı yuxunu öz-özlüyündə yozmağa çalışırdı. Atası bu yuxunu danışanda rənginin ağappaq ağardığı Qızının beynindən çıxmırdı.

– Ay dədə, rəngin nə yaman vağanıdı? – deyə soruşmuşdu.

O da, adəti üzrə əllərinin üyüşüyünü açırmış kimi barmaqlarını ovuşdura – ovuşdura: – Nə bilim, a bala, yaman eyməndim, – demişdi.

– Nə gördün ki? – Qızı soruşdu.

– Gördüm Qəhrəmanı doğradılar. Balta ilə yekə, dəyirmi kötüyün üstündə ayağından tikə-tikə doğramağa başladılar. Ayağının tikələri belə-belə idi – iki barmağını bitişik tutub baş barmağını əyib, onların yarısını göstərdi – böyük tikəsini qulağı boyda elədilər Qəhrəmanın. Qanı da çıxmadı.

Qızı indi əlindəki iynəni saplamaq istəyir, həm də beynində bu yuxunun mənasını tapmağa çalışır. Heç birini də edə bilmir. Çünki Atasının halından narahatdır, fikri dağınıqdır. Ata isə yuxunu unudub, tələbəlik dostu Məhərrəmi xatırladı. Onu görməyi arzuladı. Məhərrəm Bakıda yaşayır, universitetdə dərs deyir. "Allah, görən mən Məhərrəmi bir də görə bilərəmmi?" – deyə yanğıyla fikirləşdi. "Görən çağırtdırsam gələrmi?" bunu da yalnız bir anlıq düşündü. Neynirdi o Məhərrəmi? Bilmirdi. Məhərrəmi "dağlar qar istəyən kimi, bağlar bar istəyən kimi, xəstə nar istəyən kimi, könül yar istəyən kimi" istədi. Ürəyi gizildədi. Gözlərini yumub dərindən, çox dərindən ah çəkdi...

Elə bil neçə illər bundan əvvəl idi. Məhərrəm də, o da tələbə idi...

Məhərrəm duman kimi, bulud kimi görünən tül pərdəni əlilə kənara çəkib, açıq qapıdan içəri girdi.

– A Məhərrəm, nə yaxşı gəldin. Bizim evi həncəri tapdın, təkmi gəlifsən? – deyə sevincək onu qarşılamaq istədi, əlini irəli uzatdı.

Qızı əlindəki sapı minbir əzabla təzəcə iynənin gözündən keçirmişdi, onu döşəkçəyə sancıb, Atasına tərəf qaçdı:

– Ay dədə, nə istədin? – deyə tələşla soruşdu.

Qızının iri açılmış, qorxu dolu gözlərini görüb, dözə bilmədi, gözlərini yumub başını sağa-sola döndərdi, yəni ki, "heç nə". Bir müddət gözünü açmadı. Qızı onu yuxuya getmiş zənn etdi, bir qədər hərəkətsiz durub onun yuxusunun dərinləşməsini gözlədi, sonra pəncələri üstündə sakitcə geri döndü, gəlib əvvəlki yerində oturdu, oturarkən bir də qanrılıb geri çevrildi, boynunu uzadaraq diqqətlə atasına tərəf baxdı, onun sinəsinin aramla qalxıb-endiyini görüb rahatlaşdı. İynəni götürüb, təzə döşəkçənin ağzını tikmək istəyirdi ki, bayırdan səs gəldi. Qapını sakit açdı, bacardıqca səssiz örtdü, bayıra çıxdı. Qonşunun gəlini idi, tərəzi istəyirdi yun çəkməyə. Özlüyündə fikirləşdi ki, indi kimdir qonşudan nəsə istəyən, dünya doludu hər şeylə. İstədi desin ki, mağazalarda tərəzinin indi onlarla növü satılır, üzü gəlmədi. Qonşunun gəlini:

– İpli tərəzini istəyirəm, daş tərəzisini. Qaynanam özü çəkəcək, indiki tərəzilərə inanmır – deyib gülümsündü, – özüm də elə pisəm ki, – deyə əlavə etdi.

Kişinin Qızı "niyə" deyə sual verməyə macal tapmadı. Qonşunun gəlini səsini alçaltmış:

– Dədən nətəridi? – soruşdu, cavab almamış əlavə etdi – bayaq Qəhrəmanın gəlininin yanına getmişdim. Boy, Qəhrəman hələ də ölə bilmir. Quruca nəfəsi üstündədi, bütün bədəni ölüb. Ayaqlarının əti tikə-tikə tökülür. Arvadı tökülən ətləri bir-bir yığıb selofan kloka qoyur, soyuducuda gizlədir.

– Elə niyə? – üşürgələnmiş soruşdu.

– Bə neyləsin!? Sən Allah, söz məndən çıxmasın, deyirlər ölində ətlərini də yanına basdıracaqlar. Özü də, tökülən ətlərin yerindən nə qan çıxır, nə su.

Qız atasının yuxusunu xatırladı. "Gördüm Qəhrəmanı doğradılar... ayağından tikə-tikə doğramağa başladılar... böyük tikəsini qulağı boyda elədilər Qəhrəmanın. Qanı da çıxmadı." "Allah, Dədəm bunu nətəri bilib, yataqda yatdığı yerdə, ya özü demiş, gedib o dünyada görüb Qəhrəmanı"!?

– Ürəyim bulandı, təzyiqim düşdü deyəsən, – Kişinin qızı dedi.

Qonşunun gəlini əlüstü cavab verdi:

– Təzyiqin-zadın düşməsin, niyə düşür?! Gəlini eşidib, Qəhrəmanın qarısı tikələri yığanda yavaşca-yavaşca deyirmiş: "günahlarındı, ay Qəhrəman, sonun belə oldu." Qəhrəmanın günahlarını kənd bildiyini bilir, bilmədiyini arvadı bilir, o da bilmədiyini Allah bilir. Sənin niyə rəngin avazıyır?!

Kişinin qızı "Allah, ağlımdan muğayat ol" dedi dodağının altında, "Sirlərinə qurban olum, ay Allah" - dedi ucadan.

Qonşunun gəlinini tələm-tələsik küçə qapısından ötürüb evə tərəf addımladı. Bədəninin taqətsizliyini hiss etdi. Belə olanda isti, şirin çay içib, divana uzanar, yumşaq ədyalı üstünə çəkərdi. İndi ona da halı yox idi.

Atası isə kiminləsə, lap elə Qəhrəmanla dərdləşmək, zarafatlaşmaq, bamə̇zəlik etmək istəyirdi. Əlini əlinə vurub doyunca, gözündən yaş gəlincəyə qədər güldüyü günlər çox uzaqdaydı, lap çox... Ata nəfəsi tövşüyə-tövşüyə o günlərin dalınca gedirdi...

Tövşüyən səslə:

– Qapının açarını üstündən götür, – dedi Qızına.

Qız da:

– Ay Dədə, açarı neynirsən? – soruşdu.

– Qapını aç, açarı üstündən götür, cibinə qoy, götürərlər, bilməzsən, – dedi Kişi.

Qız sevincək: – Aaaa, dilin açıldı, ay...! – qışqırdı, tez də əlləri ilə ağzını yumdu və susdu. Çünki Kişi bilmirdi ki, düz iki gündür nitqi "getmişdi", danışa bilmirdi, bu gün yaxşılaşdı.

Qonşular Kişinin qızına məsləhət görsələr də ki, Bakıdakıları çağır, gəlsinlər, Kişi təntiyər, uşaqlar çatmaz, günah olar, Qız tələsmirdi, Bakıdakılar deyilən iki bacının ailəsini narahat etmək istəmirdi. Bilirdi ki, onların da elə bir dolanacaqları yoxdur ki, səhər Bakıda, axşam kənddə olsunlar. Sonra yenə səhər tezdən şəhərdə olub, işə getsinlər. Atası da hərdən yaxşılaşır, hərdən halı bir az dönürdü. İndi halı yaxşılaşanda qəfil Qaqaşı soruşdu. Bu böyük oğlan nəvəsi Tapdıq idi. Kişinin Qızı tez:

– Onumu istəyirsən? Ay dədə, istəyirsən deyim gəlsin.

– Yox, deyirəm özündən muğayat olsun. Kəndin, şəhərin dəyəri qarışıb biri-birinə. Kənddə kəndçi, şəhərdə şəhərli olmağı bacarsın. Heç kəslə işi olmasın, özünü qorusun.

– Qoruyar, ay dədə, zabit adamdır, uşaq deyil ki.

– Bu dünya uşağa, böyüyə baxmaz, a bala.

"Ömür qatarı dayanmadan mənzilin sonuna doğru yol gedir. Bu yolda kimsə hansısa dayanacaqda düşür, kimlərsə minir. Sən yol gedirsən ta son mənzilə qədər. Ətrafı seyr edərək, bəzən çox şeyə müdaxilə etmədən, edə bilmədən... Get özünü dinləməyə vaxt tapmadan... Özünlə danışmağa macal etmədən get... "dedi ürəyində Kişi. Nəvəsinin gəlməyini istərdi, əlbəttə, amma "gəlsin" demədi. Onun işinin çətin, ağır olduğunu bilirdi. Dəmirçi babanın bircə arzusu var idi. Nəvəsini general görmək. Özü də indiki şəraitdə yox, hərb edib, qalib gəlib general olmağını istəyirdi. Onun fikrincə, məğlub ölkənin generalı olmaz. Əslində, məğlub olan ölkədə heç kəsə bu titul verilməli deyil, ta cəng edib, zəfər çalıb, qalib olmayınca. Bir dəfə elə onun anasından soruşmuşdu:

– Əgər bilsən ki, bizim əvvəlki kişilər generala nə deyirdi?

Qızı bir az fikirləşib, çiyinlərini çəkdi, yəni ki, bilmirəm.

O da dedi:

– Ay hay, ay hay, mənim ədəbiyyat bilənimə bax. Generala bizimkilər "yaranal" deyiblər əvvəllər. Hələ belə bir söz də var: "Filankəs yaranal balası kimidir" yəni özünə mənəm deyən, özünə güvənən, həm də arxalı, sahibli. Mən təkcə nəvəmin balasını yox, bütün millətimin balalarını yaranal balası kimi görmək istəyirəm. Tanrı haqqı tanıyanların haqqını itməyə qoymaz. Mənim millətimin də haqqını itirməz. Düşməndən öc alıb, hüzura qovuşarıq.

"Dostum Hüseynin də oğlu hərbçidir. Polkovnik olmuş olar indiyəcən. Qarabağ müharibəsində çox xidmətləri olub. Yaxşı mütəxəssisdir. Əsl hərbçilərimiz çoxdur. Bəs nədən bir iş görə bilmirlər. Axı niyə, nə fikirləşirlər?" - deyə yana-yana düşündü.

* * *

Eyni yuxunu görürdü. ...Səhrada addımlayır, ayaqları topuqlarına qədər isti quma batır, Günəş başının üstündə amansızlıqla od tökür, susuzluqdan ağzı udlağına qədər quruyub, sarı qumsal səhra üfüqəcən uzanır, yolun nəhayəti görünmür, qumsallıqda açarı axtarır, başının üstündə od saçan Günəş olsa da, beyninin ortası buz kimidir... Yuxudan ayıldı. Başının tən ortası donurdu. Sağ əlini qaldırıb, ovcunu başına qoyur. Sonra hər iki əli ilə od tutub yanan ayaqlarını bərk-bərk ovuşdurur. Həkim deyir ki, gecə ayaqlarını beş-on dəqiqə divara qaldırıb qoy. Hərdən bunu da edir, amma onun da köməyi olmur. Kürəyinə kürk alıb, açıq pəncərənin qabağında oturur...

Rabitə yox idi. Gözətçi məntəqələrini yoxlamağa çıxdı. Təlimata görə əsgərlərdən biri onu müşayiət edirdi. Boyundan yuxarı dərin səngərin içi ilə irəliləyirdi. Qabaqda əlində avtomat tutmuş əsgər, arxada özü addımlayırdı. Səngərdən nəm torpaq iyi gəlirdi. Bir də bu nəm torpaq iyinə yaşıl ot, yovşan ətri qarışırdı. Hissləri də qarışıq idi. Zabit kimi səngərdə addımlamaq, özü də qabağında əli avtomatlı əsgərin onu müşayiət etməsi köksünü qürurla doldururdu. Düşmən, necə deyərlər, "bir addımlıqda" idi. Bu isə ehtiyat və məsuliyyət yaradırdı. Həm də cəmi bir neçə gün əvvəl rütbə alması münasibətilə evdə açılmış bol süfrə, ailənin canfəşanlığı, doğmaların, dostların oynayıb əylənməsinin xoş bir əhvalı onu tərk etmirdi. Hələ qonşudakı yaşlı müəllimənin nəvəsi... Böyüdükcə gözəlləşən, nənəsigilə daha tez-tez gələn qız. Şənbə-bazar pəncərədən onu gözləməyə başlamışdı. Qız gələn kimi qapını yavaşca açıb, bayıra çıxır və guya təsadüfən onunla rastlaşırdı. Baxışları ipisti, dodaqları gülümsər, məsum. Bir dəfə ona dedi ki, "sən niyə köçüb birdəfəlik tək yaşayan nənənin yanında qalmırsan." Qız: "Siz mənimlə necə ikinci şəxsin təkində danışa bilərsiniz?" – incik-incik soruşmuşdu. O da: "Sən mənim üçün indi ismin bütün halları deməksən" demək istəmişdi. Amma o, yaşıdlarının əksəriyyətinin işlətdiyi kimi belə "sırtıq sözlər" işlətməyi bacarmırdı.

Doğmalarının və o qızın hər hansı bir bədbəxt hadisə olarsa kədərlənəcəkləri, acı çəkəcəkləri fikri də beynində ani bir qığılcım kimi yanıb-sönürdü. Bu sonuncu fikir hərbi məktəbdə oxuduğu gündən qəfil beyninə gəlir, tez də onu özündən qovurdu. İndi zabit kimi səngərdə addımlayanda bu fikri tamam beynindən uzaqlaşdırdı." Mən zabitəm. Vətənin keşiyindəyəm. Millətin taleyi bizdən asılıdır. Bu özü-özlüyündə nəyə desən dəyər. Hər kəs bu boyda yükü daşımağa layiq ola bilməz. Biz buna artıq layiq olmuşuq". Özündən ixtiyarsız başı bir az da dikəldi, çənəsi üfüqi xətlə sanki boşluğa dirəndi. Qürurla addımladı. Öndə gedən əsgər də tam nizamla hərəkət edirdi. Birinci məntəqəyə çatanda onu müşayiət edən əsgər qəfil dayandı. Növbədə dayanan əsgər yox

idi. Əsgərin dayanmalı olduğu yer boş olduğu kimi, həm də təmiz idi. "Təmiz" deyərkən qan izi, hər hansı bir təzyiq əlaməti, süpürləşmə və ya çəkmə izi nəzərdə tuturdu. Heç nə yox idi. Sağ əlini atıb belindən tapançanı götürdü. Əgər düşmən tərəf növbətçi əsgəri öldürübsə, qan izi olmalıdır. Əgər əsir götürüblərsə, bəs dartışma, çəkişmə əlaməti niyə yoxdur? Zabit diqqətlə səngəri gözdən keçirir, əsgər isə əlində hazır tutduğu avtomatdan daha bərk yapışaraq, ətrafı gözdən keçirir, arabir yanakı, altdan-altdan onun üzünə baxaraq, vəziyyəti sanki komandirin üzündən öyrənmək istəyirdi.

Növbəti məntəqəyə doğru tələsdi, əsgərə əlinin işarəsi ilə "davam et" əmri verdi. Əsgər vəziyyətə və onun çevik əl hərəkətinə uyğun olaraq, daha iri addımlarla irəlilədi. Onlar iri və iti addımlarla getsələr də, daban səsi salmamağa çalışırdılar. Növbəti məntəqəyə az qalırdı. Səngər boyu ötüb gəldikləri məntəqənin əsgərinin düşmən tərəfindən ya öldürülməsi, ya da əsir alınmasına uyğun gələn heç bir əlamət görmədilər.

Qabaqdakı məntəqədə onları nə gözləyir? Bu sual, əvvəlki məntəqənin əsgərinin izsiz-tozsuz yoxa çıxmasından ciddi və dəhşətli olmasa da, kifayət qədər ağır idi. Sağ əlindəki tapançanı hazır vəziyyətdə saxladı. Növbəti dayanacağa çatmadan düşmən gəlib səngərdə üstlərinə atıla bilərdi. Odur ki, ətrafı tam nəzarətdə saxlayırdılar. İns-cins yox idi. Əsəbləri gərgin, bütün ruhu səfərbər halda addımlayırdı. Bu da ikinci gözətçi məntəqəsi... Əsgər yoxdur! Səngər bomboşdur. Qabaqda addımlayan əsgər dönüb həyəcanla onun üzünə baxdı. Elə baxdı ki, qaranlıqda onun gözlərinin "neynəyək?" deyən parıltılı, həyəcanlı ifadəsini aydınca gördü. Başı ilə "davam et" işarəsi verdi. Amma özü də həmin suala ağıllı cavab tapmağa çalışırdı. "Neyləməliyəm, necə hərəkət etməliyəm? Bəlkə əsgəri geri – qərargaha göndərim, vəziyyəti xəbər versin. Ya bəlkə müşahidə altındayıq , onu qərargaha çatmadan vurarlar? Bəlkə mən özüm də geri qayıdım. Vəziyyət haqqında məruzə edim. Əlavə qüvvə ilə gəlim. Ya bəlkə bu işdə düşmən əli yoxdur? Əsgərlər fərarilik edib qaçıblar. Səngərdə də düşmən izi hiss olunmur. Qan yox, torpaq eşilməyib, dağılmayıb. Yəni əsgərlər döyüşsüz təslim olardılarmı? Yoxsa düşmən bu qədər yetkinləşib ki, onları izsiz götürüblər?" Suallar amansız idi. Sakitlik içində gərgin addımlayırdılar.

Üçüncü məntəqəyə az qalırdı. Bəlkə, hər şey buraya qədərmiş. Bəlkə, bir neçə dəqiqədən sonra onların həyatı başa çatacaq. Nöqtə. Vəssalam! Yenə gözlərindən ürəyinə istilik axan qızı xatırladı. Bir dəfə nəmli, çəhrayı dodaqlarının arasından ağ dişlərini bir-birinə sıxaraq, gözlərini üzünə dikərək dayanmış, sonra dodaqlarını dişləyərək astadan soruşmuşdu:"Siz cəbhəyə gedəndə qorxmursunuz?!" Cavabında bərkdən, kimsənin eşitməyinin fərqinə varmadan, özü də sürəkli

gülmüşdü. Elə gülmüşdü ki, bütün gördüyü çətinliklər pul-pul olub canından tökülmüşdü elə bil. İstəmişdi ki, desin, "Mən dünyada Allahdan və Səndən başqa heç kəsdən qorxmuram. Qorxuram ki, sənə bir söz deyərəm, sən də "yox" deyərsən. Bax, bu vəziyyətdən necə çıxırlar, mən onu bilmirəm". Amma heç nə deməmişdi, deyə bilməmişdi.

Özündən qabaqda gedən, avtomatı əsgəri qaydada hazır tutaraq addımlayan oğlana baxdı.

Əsgərə ürəyi ağrıdı. Onun cavanlığına qıymaq dəhşət idi. Zabit onun çiynindən yüngülcə sola çəkib, özü qabağa keçdi. Qarşıda nələr vardı?! Bunu təkcə uca Tanrı bilirdi. Əsgər dərindən nəfəs aldı, nəfəsini hiss elətdirmədən burnundan ötürdü.

Amma zabit onun yaşantılarını dəqiq hiss edirdi. Bu da üçüncü gözətçi məntəqəsi – əsas nöqtə. Sükut!!! Səngər boşdur. İz, əlamət də yox, əsgər də. Bir anlıq dayandılar. Zabit nəfəsini içinə çəkdi və elə bil içinə çəkdiyi nəfəsini daha bayıra buraxmadı. Nəfəsi içində itdi onun. Yola davam etdilər. İndi addımları sərt və qətiyyətdən daha çox ehtiyatlı idi. Bu səngərdə dörd gözləmə məntəqəsi var idi. Böyük ehtimalla düşmən hər dörd məntəqənin əsgərlərini zərərsizləşdirib, qarşıdakı – sonuncu məntəqədə zabit gözləyirdi. Onlar bilirdi ki, axşamtərəfi növbətçi zabit məntəqələri yoxlamalıdır, ya da səhər tezdən.

İndi taleyi özündən və Tanrısından asılı idi, bir də üstündə nə silah vardısa ondan. Hesablamağa başladı, "əsgərin avtomatı, məndə olan tapança". Tapançanı sağ əlindən sol əlinə keçirib, sağ əl ilə çiynindən asdığı çantanın içini yoxladı. "Bir dənə də qumbara var". Qumbaranı da hazır vəziyyətə gətirdi. Sonra zabit çəkməsinin quncuna taxdığı bıçaq da yadına düşdü. Bu bıçağı hərbi məktəbə qəbul olan il 28 Maydakı hərbi dükandan almışdı. Tiyəsi poladdan, qulpu əsgər paltarı rəngdə, avtomatik işləyən bıçaqdır. Bıçağın üstündə olmasına sevindi. Bu bıçaqla bağlı elə isti xatirələri vardı ki! İndi bunların təzələnməsi bütöv ömrünü yada salmaq kimi hissiyyatlar doğururdu. Atası bu bıçağı görən kimi həyəcanlanar, "nəsihət kitabının ağzını açardı". Hər istirahət günü evə gəlib , məktəbə qayıdanda atası "bıçağı evdə qoy" deyərdi. Bir dəfə ata bıçağı götürüb gizlətmişdi. O da dedi ki, belə eləmə. Mən ikinci, üçüncü bıçağı da ala bilərəm. Bıçağı yerinə qoy, mən onu götürmərəm, bax, bura qoyuram, mən də götürmərəm, sən də əl vurma. Elə də oldu. Dostları ilə bir yerə gedəndə ata ya soruşar, ya da gizlicə bıçağı qoyduğu yerə baxardı ki, görsün bıçaq yerindədirmi. Arada-sırada da bıçaqdan söz salıb "sənə bıçaq lazım deyil, bıçağı evdə qoy, hara istəyirsən get" deyirdi... Əyilib bıçağı götürdü, pencəyin yan cibinə – əl altına qoydu. Bilmək olmazdı, təkcə bıçaq ona lazım olacaqdı. Bıçağı qoyduğu cibini üstündən əlilə bədəninə sıxdı. Qəribədir, həmişə buz kimi olan bıçaq indi isti idi.

Bıçaqdan bədəninə bir hərarət və toxtaqlıq gəldi. İndi bu bıçaq onun üçün dayaq nöqtəsi, xilas yolu idi bəlkə də. "Bu bıçağı götürmə, belə şeylərə maraq göstərmə" deyən anasını küsdürdüyünü xatırladı. "Sizin mənə verdiyiniz tərbiyənin bir qara qəpiklik qiyməti yoxdur. Siz nəyi mənə öyrədibsiz, o mənə lazım olmur, nəyi mənə qadağan edibsiz, o mənim gərəyim olur" demişdi. Anasının geniş açılmış, matdım-matdım baxan gözlərinin içinə "hə, siz nəyə pis deyirsiz, hərbidə o yaxşı, nəyə yaxşı deyirsinizsə, hərbidə o sıfırdır" – demişdi. İndi kədərlə xatırladı ki, anası necə üzülmüş, necə fağırlaşmış, necə incimişdi ondan. Bacısı da "sən getdikcə tamam zay olursan" demişdi. İndi onları bağrına basıb gözlərindən öpmək istərdi. Amma qarşıda onu doğmaları yox, düşmən gözləyirdi. Addımını yavaşıdıb, dabanbadaban onu təqib edən əsgərə yavaşca: "Döyüşəsi olsaq, vəziyyətə baxarsan, mənə güllə saxlamağı unutma" – dedi. Əlavə etdi: "Əsir düşmək olmaz, üzülmə, təki Vətən sağ olsun" – dedi və zəif Ay işığında əsgərin üzünə baxdı. Əsgər çətir kirpikləri ilə gözəl gözlərini örtərək hərbin "oldu, baş üstə" işarəsini etdi.

– Cənab komandir, icazə verin, mən qabağa keçim, bu mənim vəzifəmdir, – dedi.

Zabit:

– Sus!

Bacardıqca səssiz addımlayırdılar. Birdən zabitə elə gəldi ki, yemək iyini hiss etdi. Bayaq yadına düşən qonaqlığı xatırladı. Doğmalarının acı çəkəcəklərini düşünüb, tez də bu hissi özündən uzaqlaşdırdı. Evlənmədiyinə sevindi. Bu hissi də varlığından qovdu. İndi əsas məsələ mövcud vəziyyətdə necə hərəkət etmək idi. Ona elə gəldi ki, musiqi səsi eşitdi. Həmin anda əsgər "cənab..." nəsə deyəcəkdi. Zabit "ssuuu" deyərək, onu susdurdu. Daha bir neçə addım... və qarşılarında heç təsəvvürünə gətirməyəcəyi bir mənzərə açıldı.

Donub qalmışdı. Xəyalından keçirtmişdi ki, bütün məntəqələrdəki əsgərləri düşmən ələ keçirib və sonuncuda oturub onu və ya başqa zabit yoldaşını gözləyirlər, səssiz ələ keçirmək üçün. Və burda baş verə biləcək bütün mümkün variantları yol boyu beynində götür-qoy etmişdi. Belə bir vəziyyət isə ağlının ucundan belə keçməmişdi. Kiçik qaz balonunun üstündə, dəmir qabda kartof qızarırdı. Telefonda çalınan rəqs havasının zəif səsinə əsgərlər coşqu ilə, tər içində rəqs edirdilər. Silahları yan-yana səngərin nəm divarına söykəmişdilər.

Elə bil zəif musiqi və coşqun rəqs fonunda zaman dayandı. Nə əsgərlər ona, nə o əsgərlərə mane olmadı. O baxır, əsgərlər isə "sümüklərini sındırırdı". Yalnız onunla gələn əsgərin rahat, xoşbəxt, istehzalı gülüşü olmasaydı. Səsi duyan əsgərlər, əli göyə, ayaqları yarı havada gülməli bir vəziyyətdə qaldılar.

Bax, əsl çətinlik indi idi. O, bir anlıq nə edəcəyini planlaşdıra bilmədi, necə hərəkət etməlidir, nədən başlamalıdır. Sükut... ağır və gülməli sükut. Əsgərlər özlərini düzəldib əsgəri salam vəziyyətini almışdılar. Düşünürdülər ki, vəziyyətimiz pisdir. Əslində isə zabitin vəziyyəti onların vəziyyətindən də pis idi. Bu halda necə hərəkət etməli. Ona yaşatdıqları acını onlara necə yaşatmalı? Əvvəlcə özü ilə gətirdiyi əsgərə göstəriş verdi:

– Qərargaha dön! Məlumat ver ki, hər dörd məntəqəyə əsgər göndərsinlər! Əsgərlərə isə "Düzlən!" komandası verdi, "Addımla irəli!"

Əsgər gözdən itmişdi. Qabaqda dörd əsgər, onların arxasından isə zabit gedirdi. Səngər boş qalmasın deyə, əsgərləri tələsdirmirdi. Onlar qərargaha çatanacan, növbəyə gedən əsgərlər qarşıdan gəlir, bir-bir ona əsgəri salam verirdilər.

Qərargaha çatdı. Bölük komandiri ağacların altında var-gəl edir, arabir dayanıb hərəkətsiz dururdu. Bu da rütbəcə özündən böyük zabitə salam verib, bir az aralıda əsgərlərə "Dur!" əmri verdi. Ətrafa göz gəzdirdi. Nəzərləri kilidlənmiş qıfıl asılmış qapının üzərində dayandı. Bura xarab olmuş avadanlıqları atdıqları gərəksiz bir yer idi. Yaxınlaşıb qapını açdı. "Keçin!" – dedi. Əsgərlər qapıdan könülsüz içəri girdilər. Onlara ona yaşatdıqları acıları yaşatmaq istəyirdi, heç vaxt unutmayacaqları acı dərs vermək niyyətində idi. Silahı kənara qoydu. Pencəyi soyundu, belindən qayışı açdı və çəkib uzatdı. Qayış uzun şallaq kimi havaya qalxıb-endikcə ağır toqqa əsgərlərin hansı hissəsini tuturdu, bilmirdi. Ağır zərbələr vursa da, əsgərlərdən səs çıxmırdı. Birdən otağın qırıq pəncərəsindən komandirin əlinin işarəsini gördü, sonra səsini eşitdi. "Təcili rabitə otağına keç!" Əlindəki qayışı iki qatlayıb, cəld qapıdan çıxdı və komandirin dediyi otağa keçdi. Rabitəçi əsgər cəld hərbi salam verib dayandı. "Kimdir məni istəyən?" deyib soruşmaq istəyirdi ki, kombat içəri girdi. Hər iksi əsgəri təzim etdi. Kombat "Azad" deyib üzünü əsgərə tutdu: – Sən bayırda gözlə, – dedi.

Əsgər çıxdı. Kombat əli və dili ilə "Otur!" dedi. İstəməsə də oturdu. Yenə sükut çökdü.

– Məsələ belədir, – kombat dedi, – Sənin pozduğun qayda, onların pozduğu qaydaya bərabərdir.

İçi od tutub yanırdı. Onların məsuliyyətsizliyi, özbaşınalığı bir yana, onun düşdüyü durum, yaşadıqları, ən əsası, səngər boyu son anını düşünməyi, xatırladıqları və yanındakı əsgərin yaşantıları onu yandırırdı. Kombat isə aramla danışırdı:

– Səni başa düşürəm. Onların vicdansızlığı, məsuliyyətsizliyi səni təbdən çıxarıb. Vəziyyət çox anlaşılmaz olduğundan gərginlik keçirmisən. Bəlkə də son məqamını yaşamısan.

Yalnız bu cümləni eşidəndə kombatın üzünə baxdı. O isə sözünü yekunlaşdırdı:

– Və sonda hər birimizə məlum olan vəziyyət. Sənə gərginlik verən budur, amma məsələ belədir: Hirsini yeyə bilsən, zabit kimi özünü təsdiq edəcəksən. Hirsini əsgərə yedirtsən, əsgərdən aşağı səviyyəyə düşəcəksən. Çünki, hirsini və özünü əsgərə "yedirtmiş" olacaqsan.

Hər ikisi susdu.

– Mənə sözün yoxdur ki? – kombat soruşdu.

Dinmədi. Dinəsi halı yox idi.

Kombat dedi:

– Get istirahət elə. Bu gün səni əvəz edəcəklər.

Otağına getdi.

Kombat özü o gecə hər şeyi sahmana qoymuşdu. Gözləmə məntəqəsini nəzarətsiz buraxan əsgərlər haqqında təqdimat yazıb vermişdi. Əsgərləri on günlük cəza üçün aparmışdılar.

Səhər açılırdı. Daha yatmadı... Yatsaydı, yenə səhrada, qumsallıqda açarı axtaracaqdı... Ax, bu səhra günəşi... Qəti əmindir: ya müharibə, ya sülh olmalıdır. Yoxsa səhra günəşinə çarə yoxdur...

Atası ilə anasının əsirlik həyatından xəbəri yox idi. Onların qısa müddət əsir düşdüklərini bilirdi. Təfərrüatdan isə məlumatı yox idi. Olsa idi... Qaçqın Qoca bu haqda heç vaxt, heç yerdə, heç kimə danışmayıb. Bir dəfə çox az bir hissəsi haqqında dostu Dəmirçiyə – Qayaoğluna danışıb. Vəssalam. Heç danışmaq fikri də yoxdur. O günləri xatırlamaq, o günlərə qayıtmaq istəmir. O yaşantıları isə həyatından kəsib ata bilmir ki, bilmir...

* * *

– Mənə niyə elə baxırsan, ay Söyün?

– Dinməsən də səni başa düşməyə çalışıram. Çox fikirlisən, məndən nigaran olma. Mən başımın çarəsinə baxaram. –...

– De, nə istəyirsən de. Bilirəm, məndən nigaransan. Qorxma, bacararam onlarla mən. Erməni nədir ki? Mən onun neçəsini bir-birinə sarıyaram.

– Gülzar... mən bir şey deməliyəm sənə... – dərindən nəfəs alıb, köksünü ötürdü. – Özün bilirsən, gözünü sevmişəm sənin... gözlərinə qurban olum... – gözləri doldu, dodaqlarını gəmirdi, kirpiklərindən süzülmək istəyən yaşı geriyə-içinə çəkdi – etiraz eləmə, bunu etməliyəm, başqa çıxış yolu yoxdur...

– ...Nə fikirləşmisən?

–...

– De, səbrim tükəndi.

– Səni divara hörəcəm – ...

– Görünür, bizimkilərin yaylağı olub bura. Divarın birində buxarı yeri var, uçulub özü də. Əyil, gizlən orda. Mən divarı hörəcəm. Bunlar

çox qala bilməzlər burada, yəqin gedəcəklər, bizi də özləri ilə aparacaqlar. Onda divarı möhkəm itələyib uçurarsan. Çalış, sağ qal.

Qadının dərddən zəifləyib, balacalaşmış vücudunu qucaqlayıb, köksünə sıxdı.

Gülzar körpə uşaq kimi onun ağuşunda yumurlandı, titrədi, gözləri doldu. Hüseyn təlaş içindəydi. Gizlicə bəzi tədarük də görmüşdü. Gülzar divarın uçuq yerinə birtəhər yerləşdi, buxarının təpəsindən görünən əl boyda səmaya baxdı. Hüseyn gizlətdiyi suyu bir tərəfə topladığı torpaq, əhəng, qum qarışığının üzərinə tökdü, tələsə-tələsə qarışdırdı, divardan uçub tökülmüş daşları necə gəldi hörməyə başladı. Gülzarla baxışları rastlaşdı, bir anlıq əlini saxladı. Doluxsunmuş gözləri Gülzarın gözlərinə ilişib qaldı. İllər öncə bir payız axşamı ona ürəyini açıb, "səndən xoşum gəlir" deyəndə Gülzar sevincək və şıltaq "mənim də səndən xoşum gəlir" cavabını vermişdi. Onda da Hüseyn ona belə baxmışdı və eynən belə doluxsunmuşdu. Onda Gülzarı öpmək istəmişdi, qız qoçaq tərpənib dörd barmağını onun dodağının üstünə qoyub, oğlanı geri itələmişdi. Bir anlıq hər ikisi o aylı axşamı xatırladılar. Gülzar hələ sinəsinə qədər hörülmüş hörgüdən qolunu çıxarıb, dörd barmağını Hüseynin dodaqlarına sıxdı. Hüseyn bu dəfə o barmaqları öpdü, gözlərini yumub, Gülzarın varlığını içinə çəkdi elə bil. Qadın:

– Tez ol, indi gələrlər, – dedi.

Gülzar qolunu içəri salıb, bacardığı qədər bədəninə sıxdı. Kişi Gülzarın bacardığı qədər bədəninə sıxdığı qolunu bir az da irəli itələdi, üstündən basdı, bir anlıq dayandı..., sonra cəld daşları üst-üstə qoyub palçıqladı. Torpaq, qum dayanmaz deyə, divarın salamat hörüyündən dırnaqları ilə sement parçaları qoparıb qarışığa qatırdı. Sərt sement dırnaqlarını qoparır, qanadırdı. Gülzarın görünməz olmağına az qalmışdı. Hüseyn üzünü divara sürtüb:

– Səni taleyinə tapşırıram, Tanrı qıymasın sənə..., elə mənə, balalarımıza da, – dedi.

Gülzar da:

– Haqqını halal et, – deyə pıçıldadı.

– Halal, halal... Sən də əzablarını mənə bağışla, haqqını halal et, – dedi.

Gülzar:

– Sənə də halal, – dedi və kəlmeyi-şəhadət gətirdi.

Hüseyn:

– Darıxdırma özünü. Çalış sağ qal, gözünə qurban olum, Gülüm Gülzarım, – deyib son daşı qoydu, iki barmaq qədər ara saxladı. Təzə hörülən yer və yerdəki palçıq bilinməsin deyə üstünə quru ot, saman, torpaq tökdü. Əllərini quru həşəmlə silib təmizlədi. Qanamış dırnaq-

larının dözülməz sızıltısını duysa da, daha çox susuzluqdan yanırdı. İki gün idi ki, içməyə verilən suyu qırıq kauçuk qaba töküb gizlədirdi ki, divarı hörməyə su olsun. Dırnaqlarının qanayan yeri, susuzluğu Gülzara etdiyinin yanında heç nə idi. Divarın başqa bir uçuq yerindən adlayıb, yoldaşlarının yanına qayıtdı. Ürəyi az qalırdı sinəsini yarıb çıxsın. Bilmirdi irəli getsin, ya qayıdıb hörgüdən qulaq assın ki, Gülzardan səs gəlir, yoxsa yox. "Yox, gələn olar birdən. Bu bir Allah lütfü idi ki, heç kəs gəlmədi və bizi görən olmadı" – deyə fikirləşdi. Sakit əsirlərin yanına qayıtdı, bir tərəfdə çöküb saymazyana oturdu. Əsirlərin ən yaşlısı bir az aralıdan sual dolu gözlərlə ona baxıb, başını əsdirdi, sağ əlini açıb, yüngül silkələdi. Yəni "nə məsələdir, haradaydın", bəlkə də "yoldaşın haradadır, o niyə gəlmədi" deyə soruşurdu. Onun sual dolu baxışlarından gizlənmək üçün üzünü yana çevirdi. Əsir yoldaşı durub ona yaxın gəldi. Əlləri bağlı olsa da iki əlini çataqlı qaldırıb, onun alnına qoydu:

– Sən yaxşısan? – soruşdu.

Gözlərini yumub-açdı. Yəni ki "yaxşıyam".

– Yox, nəsə yaxşıya oxşamırsan, uzan bir, – dedi əsir yoldaşı.

– Yaxşıyam, susuzluqdan yanıram ancaq.

– Su... suyu haradan tapa bilərik? – ətrafa göz gəzdirdi.

Həmkəndlisi:

– İndi gələr bu itlər. Yaldan, sudan gətirərlər.

– Düz deyir, gələn vaxtlarıdır. Su istəyərik. O da, versələr.

– İstəməyin. İstəsəniz, verməyəcəklər, – başqa əsir dedi. – Onlar elə qansızdır ki...

"Adını çək, qulağını bur". Səs-küylə uçuq daxmanın xarabalığına tərəf gəldilər. Bir yekəpər, cavanı vardı aralarında, o, birinci dəfə idi gəlirdi. Yeyiləsi bir şey yoxdu yenə; qalıq-quluq quru çörək, ağzı bağlı əzik-üzük, alüminium qazanda nəsə, bir kapron qabda da arx suyu. Həmişə yemək verməzdən əvvəl məzələnirdilər. Bundan əvvəlki yeməkdə, "Bilirik siz kababı çox sevirsiz, amma bizim elə varlı yeməklərimiz yoxdur, çünki bizim neftimiz də yoxdur, amma gələcəkdə olacaq" – deyib hırıldamışdı yeməkpaylayan hərbçi. Əsir oğlan – tələbə yerindən qalxıb həmən bu əyri-üyrü alüminium qazandakı it yalını xatırladan qaynar yeməyi qazanqarışıq onun başına keçirmişdi. Ermənidən bir bağırtı çıxmışdı, vəhşi çöl heyvanı kimi böyürmüşdü. Yanındakı erməninin onunla ədavəti, ya ona nifrəti, paxıllığı vardı, nə idisə, ona kömək eləmədi. Ən azından, gətirdikləri suyu onun başına töküb yalı yuya bilərdi, ya paltarını çıxarıb onun başını silə bilərdi... Heç nə etmədi, erməni başı yana-yana, bağıra-bağıra yerə yıxılıb çapaladı. Səsə gələn yoldaşları onu tutdular, sürüyüb apardılar. Heyf ki, əvəzində tələbə oğlanı güllələdilər.

İndi də gətirdikləri, ağsaqqal əsir demiş, "ağı-zəhrimarı" paylamamış, bir şitlik-alçaqlıq edəcəkdilər yəqin.

Gələnlərin rəhbəri əlindəki mobil telefonu cibinə qoydu, əllərini birbirinə sürtdü və sağ əlini təzə gələn yekəpərin çiyninə qoydu:

– Bu var ya, ara, bu, pələngdir. Neçə türk öldürüb, neçə uşağın başını kəsib, neçə azərbaycanlı qızın qanına bulaşıb, bunun əlindən qızlar özünü boğub, intihar edib. İndi ona istirahət verəcəyik. Burda bir arvad var idi, o hanı? Onu da buna verəcəyik. – Elə hırıldadı, elə baxdı ətrafa. ...Onun hərəkətlərinə dözmək çətin idi. Bir anlıq həyat durdu elə bil, əsirlər nəfəs belə almadılar. Sonra ehtiyatla, qorxa-qorxa, sezdirmədən, gizlicə Hüseynə baxdılar, daha doğrusu, baxmamağa çalışdılar. Erməni həyasızlığın bütün hədlərini keçərək, ucadan güldü:

– Bu qadın cavan olmasa da, dostumuz bizi bağışlayar, olanımız budur.

Hər dəfə bura qədər xatırlaya bilirdi. Burdan o yana ürəyi dözmürdü. Əgər öz qolları çataq bağlı olsa da, min bir əziyyətlə Gülzarı divara hörməsəydi, nələr olacağını düşünür və artıq özünü hiss etmirdi. Bu dəfə də elə oldu. Bir stəkana su tökdü, içərisinə "Validol" damcılatdı, içdi.

"Axçinin yerini deyin, deməsəniz, hamınızı öldürəcəyik" dedilər. Üzgözlərinə təpikləyirdilər. Gələn yekəpər silahını çıxardıb rusca "düzlənin" dedi. Sonra sıra ilə hamısının qarşısından keçib, Hüseynin düz ayağının tuşunda dayandı və hamısının təəccübünə səbəb olan sualı verdi:

– Ara, arvadın hardadır? – yalnız indi bildilər ki, Hüseynlə Gülzarın ər-arvad olduğunu bilirmişlər.

– Bilmirəm, – dedi.

– Necə bilmirsən?

– Bilmirəm da.

– Qaçıb arvadı, – həmkəndlisi dedi.

– Ərinə demədən?!

– Hə.

– Ola bilməz, – erməni ətrafa göz gəzdirdi. – Bir türkün arvadı ərinə demədən addım belə atmaz, nəfəs belə almaz.

Ağsaqqal:

– Qadının yerini mən bilirəm, onlar bilmir, – dedi. – Mən də deməyəcəyəm.

Yekəpər silahı onun gicgahına dirədi. O biri erməni onun qolundan çəkdi: – Ara, Qarik, güllə heyifdir bu türkə, işlətmə, – dedi, – onu əllə də həll edərik. Onsuz da yarıölüdür.

Uçuq tikiliyə doğru getdi. Yerə düşən iri daşlardan birini gətirib, kişinin başına çırpdı, yerə yıxılan ixtiyarın üstünə cumdu. Daşla başını

əzib, öldürdü. Allah, Allah, adamın cınqırı çıxmadı. O nə hikmət idi, bilmədilər.

Hüseyn kişinin göz yaşları çənəsindən axıb, boğazına, sinəsinə tökülürdü. "Haqqını halal elə, Göyüş əmi. Haqqını halal elə, ruhuna qurban olduğum" deyib hönkürdü. Hələ Dəmirçi deyirdi ki, onun ruhu səndən incik ola bilməz. Çünki seçim onun özünün olub. Sən öz əvəzində onu öldürtməmisən ki. O, özü belə məsləhət bilib, belə eləyib. Deyilənə baxmayaraq, həmişə o dünyada Göyüş kişi ilə necə rastlaşacağını, onun nə deyəcəyini, özünün nə soruşacağını götür-qoy edirdi. Hələ qadını... "Ona heç ürəyi istəyən həyatı yaşada bilmədim. Elə hey sıxıntıda yaşadıq. Həmişə biri oldu, biri yox" – deyib üzüldü.

İpək gecə köynəyini geymirdi ki, evim, ayrıca yataq otağımız olanda geyinəcəm. Olmadı. Ölçüsü böyüdü, evi böyümədi. Qatı açılmamış gecə köynəklərini toyu olan qohum övladlarına bağışladı. Nadir, bahalı qablarını qonaqlarım gələndə qoyacam, yaradıcılıq söhbətləri edəcəyik deyə qorudu. Olmadı. Ədəbiyyat müəllimi idi. Məktəbin direktoru da olmuşdu. Şeir, hekayə də yazırdı. İmzası az-çox tanınırdı. Paytaxtdan gələn qonaqları qarşılayacaq səviyyədə adam idi. Bu arzusu da ulduz gecə göyün dərinliklərinə çəkilən kimi, gözlərinin dərinliyinə çəkildi. Gecənin arxasınca səhər açılıb, göylər aydınlanan kimi, onun da gözlərinin aydınlanmağı o dünyaya qaldı. Gündüz göylərində ulduz görünməyən kimi ona da o biri dünyada bu nadir, bahalı qablar lazım olmayacaqdı... Nə yaxşı ki, balalarının toyunu gördü...

İxtiyar kişini öldürəndən sonra ermənilər əsirləri də götürüb həmin ərazidən uzaqlaşdılar. Bilmədiyi qədər yol gedəndən sonra Hüseyn min bir əzabla qaça bildi. Qaçıb həmin səmti tapdı. Amma Gülzarın yanına qayıda bilmədi. Qorxdu ki, ya onu təqib edərlər, ya da qaçdığını biləndə təxmin edərlər ki, əvvəlki yerə – qadının yanına qayıdıb. Ona görə yarım gün kolluqda gizlənib çıxmadı. Sonra gəlib hörüyü uçurdu, Gülzarı çıxartdı. Divarın yuxarısı buxarı olduğuna görə Gülzar ölməmişdi. Özü demiş, ölsəydi, ondan yaxşı olardı. Ölümcül olmuşdu. Ömürlük şikəst qaldı. Ayaqları açılmadı ki, açılmadı. Yataq xəstəsi oldu. Elə hey deyirdi "mən ölmədən uşaqları evləndir, toylarını görüm". İki oğlunu – Arifi və Aydını evləndirdi, Yaqutu kəndə gəlin köçürtdü. Sonra da Gülzarı o dünyaya yola saldı. Amma yazıq heç gileylənmirdi. Deyirdi "Taleyimdən razıyam ki, əsirlikdə o biabırçılığı mənə yaşatmadı. Sənin də, özümün də namusumu qoruya bildim. Bir də ölmədən öncə balalarımın toyunu gördüm". Yerin rahat olsun, ay Gülzarım, Gülüm Gülzarım", Hüseyn kişinin könlü cavan olmaq istədi. Bu əzabları yaşamadan keçən bir ömür istədi.

"Bütün bunlardan qurtulmaq üçün müqəddəs savaş lazımdır, üz-üzə müharibə. Kimin kim olduğunu göstərəcək cəng! Çünki biz müharibə-

də uduzmamışıq. O, müharibə deyildi. Sovet hökumətinin məkrli, alçaq siyasəti idi. Biz qonşu dövlətlə savaşda məğlub olmadıq. Bizi böyük dövlət onların əlilə bu günə qoydu. Əgər müharibə olsa, onlar bizim gücümüzü görərlər".

Həmişə belə deyirdi. Son vaxtlar dərdlərini unutmaq üçün baməzəlik edirdi, "yüngülsaqqal" olmaqdan çəkinmirdi. Üzlü cavanlar onun bu hərəkətlərindən yararlanıb, onunla şit zarafatlar etməkdən çəkinmirdilər. Uzaq qohumları, amma yaxın qonşuları Nigarın nəvəsinin dediyi söz, niyəsə yadına düşdü. "Deyəsən, inişil idi hələ, ölmüş, canı yanmış onu deyəndə".

Nigarın nəvəsi kefinin kök vaxtında demişdi:

– Ay Söyün bava, ə bir öl da, halvadan-zaddan yeyək. Öldük bozartmasız.

O da tövrünü pozmadan:

– A bala, darıxma, qoca kötük üstə çox çırpılar doğranar, – demişdi.

Beləcə, söhbət üç günün söhbəti olmuşdu. Yol qəzasında ölən oğlanın xalası: "Ürəyin, dilin yansın, ay Söyün kişi, nətəri dedin uşağın üzünə o sözü?! Elə bil söz yanmış ağzından çıxıb, dərgaha yazıldı. Heçmi hayıfın gəlmədi onun cavan ömrünə?!" – deyib dalınca qarğıyırdı. Hüseyn kişi oğlanın ölümünə heyifsilənsə də, buna heç kimin inanmadığını bilirdi. Bilirdi ki, ondan əl çəkməyəcəklər, "sən o cür qarğıdın deyə oğlan nakam öldü, niyə elə dedin" - deyib onu vayqanlı tuturdular. Bir dəfə oğlanın nənəsinə:

– A Niyar, niyə elə dedim, onu məndən soruşma, onu mənim sidqimə doldurandan soruş, – demişdi. Bununla da qara qarğışdan canını qurtarmışdı. Nigar arvad onu görəndə bənizi solmuş, səsi batmış halda salam verib ötürdü.

İndi fikirləşirdi: "Ölənin dalınca danışmazlar, amma yekəbaş gədəydi. Gör heç bu yaşda adama da o sözü demək olardımı? Amma yox, mən də son vaxtlar cavanlarla, hərdən qız-gəlinlərlə yaman baməzə zarafatlar eləyirdim. Elə eləyəndə, belə də deyə bilirlər" – bunu bir anlıq düşündü.

Hələ məhəllə uşağı sırtıqcasına "ay baba, gör indi o tərəfdə sənə nə qədər qaib yazılır, çıx get da" – deyirdi.

Heç kəs o zarafatların, özünü yüngül aparmağın arxasında bir ömrə sığmayacaq qədər dərdin olduğunu bilmirdi. Evdə isə qaradinməz idi. O bu yüklə ölmək istəmirdi, savaş istəyirdi. Başı müsibət çəkənlərin öcünü almaq istəyirdi. Ən əsas da Gülzarının...

* * *

Ardı var

Aysel FİKRƏT

SİFARİŞ

Ordan bir yumaq ömür,
Havası isti olsun.
İki gözlü evinin
Bacası tüstü olsun.

Baxçada dibçəkləri,
Həyətində quyusu,
Ağaclarında heyva,
Uzağında qayası.

Mən də olum içində
O həyətin, o bağın.
Qara günü götür get,
Qadasın alım ağın.

Elə bu cür tərs olum,
Yalnız bir az da xoşbəxt.
Yadıma sal arada,
Yaşayıram bəxtəbəxt.

Ordan bir içim sevgi,
Özümün olsun yalnız.

Cüt nağıl uydurmayım,
Gecələrində yalqız.

Kirayəyə olmasın
Sevginin çiçəkləri.
Noğulunda sevinc var
Uğurdan böcəklərin.

Ordan bir ucuz ölüm,
Kimsəyi ağrıtmayan.
Nə anam, nə qardaşım
Anlamayan, duymayan.

Elə bil olmamışam
Bu dünyanın içində,
Bir gül boyda canım yox
Bu üzdə, bu biçimdə.

Ordan bir az ayrılıq,
Bu dünyanı unudum.
Ordan bir az laylay ver,
Öz canımı uyudum.

TƏLƏSƏN ŞEİR

Həftə də bitəcək, ay da bitəcək,
Ömür də bitəcək, nə tələsirsən?
Dəlisov küləyə dönüb dumanda,
Ruhumun içində hara əsirsən?

Nədən anlamırsan gözlərəm səni?
Nədən düşünmürsən ömür qısadı?
Hara tələsirsən, kimdən qaçırsan?
Salamı, savabı niyə kəsirsən?

Bax, yanır canımda odun, alovun,
Yığılıb laləsi çəkdiyin dağın.
Dərib güllərini sevgi bağının,
Ovcunun içində niyə əzirsən?

Məgər anlamırsan insan bir kərə,
Yorulur bir kərə, solur bir kərə.

Hayana qaçsan da ömrü min kərə,
Canımın içində dustaq, əsirsən!

Həftə də bitəcək, ay da bitəcək,
Ömür də bitəcək, nə tələsirsən?
Dəlisov küləyə dönüb dumanda,
Ruhumun içində hara əsirsən?

YOXLUQ

Bu gün hər yerdə varsan,
Sabah yoxsan heç yerdə.
Bu cür adam olmayıb
Bu üzdə, bu biçimdə.

Vurnuxur ürəyində
Yaşamağa həvəsin.
Yaddaşından itmisən
Birdən-birə hər kəsin.

Kimsə düşünmür səni
Göydə Allahdan başqa.
Adam gərək zamanla
Yoxluğuyla barışa.

QORXAQ QIZ

Bu gün də səhər açıldı,
Şükür, bu günümə şükür!
Baxma sazaq, qar, dumandı,
Bükür, ümidimi bükür.

Allah, evim əyri bitib,
Sobam yanmır, keçir vaxtım.
Pəncərədə donub yatıb,
Tənbəl pişik kimi baxtım.

Mən ki sənin hər səhərin,
Günəşdən əvvəl dururam.
Duam, niyazım yerində,
İçimdə dərdi yuyuram.

Canımdakı qorxaq qızın
Məndə ümidi azıbdı.
Nə günah etdimsə, Allah
Ömrümə onu yazıbdı.

İndi mən onun sevgisin,
Harda aparım gizləyim?
Əllərim boynunu büküb,
Onu necə əzizləyim?

Necə böyüdüm o qızı?
Ruhum daha yol üstədir.
Döyəcləyir ürəyimi,
Dən istəyir, su istəyir.

Bu gün də səhər açıldı,
Şükür, bu günümə şükür!
Baxma sazaq, qar, dumandı,
Bükür, ümidimi bükür.

MÜHARİBƏYƏ

Havası dəyişdi dünya üzünün,
Barıt qoxusuna qarışdı bir az.
Ruhum ayrılığa bir söz deməsdi,
Canım ölüm ilə barışdı bir az.

Gedişi dəyişdi dünya üzünün,
Hamı üzün tutub Allaha sarı.
Daha gedənlərin yolu bağlıdır,
Unudub susdurduq kamanı, tarı.

Sevgisi dəyişdi dünya üzünün,
Dərdi biz sevirik, dərd bizi sevir.
Allah, qurban olum, çək qayğımızı,
Çevir bu varağı, o üzə çevir.

Ölümü dəyişdi dünya üzünün,
Ölüsü diridi indi sağından.
Torpaq həsrətinə elçi düşəndən,
Oğullar dərildi vətən bağından.

Yuxusu dəyişdi dünya üzünün,
Gözünə bir damla yuxu getmədi.
Atlılar keçdilər ürəyimizdən,
Biri də arzuya nədən yetmədi?!

Havası dəyişdi dünya üzünün,
Barıt qoxusuna qarışdı bir az.
Ruhum ayrılığa bir söz demədi,
Canım ölüm ilə barışdı bir az.

SEVGİLİ ƏSGƏRƏ

Səndən xəbər gəlmir, gör nə zamandı,
Çən, duman, həsrətdi başının üstü.
Ürəyim uğruna çox yanır deyə,
Hardasan görünmür, dörd yanım tüstü.

Gözümü yollardan çəkim söylədin,
Bəlkə qayıtmadım, ağlama, bəsdi.
Xatirəmi əziz tutub, yaşarsan,
Telefon qırıldı, səsini kəsdi.

Həmin an ruhumu sardı bir arzu,
Vətən sevgisindən ucada nə var?
Göylərdən yağanda odlu mərmilər,
Bir əsgər görəsən nəyi arzular?

Mənim də gözümə yuxu getməyir,
Nə olsa, nə bitsə, yenə qayıt gəl.
Əlində, üzündə zəfər haləsi
Gözündə sevgimi uyut, ayılt gəl.

Sənin vətən eşqin bir ayrı yolla,
Mənim güldən incə sevgimdən keçir.
Mən də döyüşürəm sənilə, mən də,
Gözlərim sənincün hər gün yol çəkir.

Səni gözləyən var, səni sevən var.
Sən artıq qalibsən, vətən övladı.
Həmişə ucada tut, müqəddəs bil
Alnına yazılan şərəfli adı.

SEVGİ DÜSTURU

İstəyirsən su olum, dərdini danış suya,
Yağmur olub gələrəm istidən yorulanda.
Külək kimi dağılıb hər tərəfə əsərəm,
Şıltaq budaqlar kimi öz-özümdən küsərəm.

İstəyirsən bəmbəyaz qara dönüb yağaram,
Örtərəm saçlarını, dən olaram üzündə.
İstəsən kirpiyində donub buza qalaram,
Bir an ömrüm olsa da, öpərəm gözlərindən.

İstəsən yol olaram, səni aparan o yol,
Səssiz pəncərənizdə boynunu bükən ağac.
Gecələr goy üzünə yuvarlanan Ay olam,
Səhər Günəşə dönəm, gözlərində qamaşam.

Başqa necə gəlim mən ömrünə, axı necə?
Hər şeyin ola-ola heç kiminəm axı mən.
Mən səni sevməyin də düsturunu tapmışam,
Hara getsən səninlə, nə olsa da sənsizəm.

AXMAQ KEÇİ

Ana, döndüm yanına, gəldim, danla balanı.
Heç bilirsən başımda nələr döndü, nə gəldi?
Bəlkə bir az azalda sevgin dərdi, bəlanı,
Dərd canımda döyünən qorxaq ağacdələndi.

Sən necə danışmışdın o nağılı, ay ana,
Qapını açmazdı kaş, o qurda bala keçi.
Ürəyimə damırdı bu nağılda hikmət var,
Ən şuluğu, ən tərsi, ən qanmazı, ən kəci.

Ürəyin yanır mənə? Bilirəm, qurban olum,
Mənim günahım nədi? Axı, sənin balanam.
Görəsən nə olacaq, div kimi yorulmuşam.
Yerdə tutduğum dərdə gedib göydə ovunam.

Dərdi dəmə qoymuşam, öz-özünə dəmlənir,
Mən gəlincə tam olar, söhbətləşib içərik.

Ana qapını bərk ört, külək, ölüm girməsin,
Kim gəlsə qov qapıdan, de özümüz bilərik.

Sən danışan nağıldan baş açmışam sanmıram,
Bir onu yaxşı bildim, dərd qapıdakı qurddu.
Döyüb, döyüb qapını başını aldatdığı,
Axmaq keçi cildində qorxaq sevgimi uddu.

GƏLMİŞƏM SƏNƏ

Kim nə bilir necə gəlmişəm sənə,
Dərd qalasın keçib gəlmişəm sənə.
Dolanmışam dua kimi başına,
Bəla kimi gecə gəlmişəm sənə.

Kim nə bilir, neçə kərə sevmişəm,
Hər sevgini nədəndi sən bilmişəm.
Eşq yolunda İrfanadək yetmişəm,
Dönüb orda heçə gəlmişəm sənə.

Mən gəlincə bahar dönüb, gül solub,
Yol bağlanıb, körpü yanıb, daş donub.
Bilə-bilə gözlərimə yaş olub,
Almamışam vecə, gəlmişəm sənə.

Heç bilirsən nə zülmlər çəkmişəm,
Ən müqəddəs arzulardan keçmişəm.
Ayrılığı alaq kimi biçmişəm,
Dərddən keçə-keçə gəlmişəm sənə.

Bir şəhərsən, torpaqların yad olub,
Ayaqların özgə yarçün yorulub,
Daha burda yer göy ilə tən olub,
Bir xaraba küçə gəlmişəm sənə.

Mən gəlincə bilməm kimə yar oldun,
Dağ başında əl çatmayan qar oldun.
Burda idin, nə oldun, necə oldun,
Ruh canımdan köçə gəlmişəm sənə.

Ay Allahım, sənə qaldı əlacım,
Hüzurunda nurun üçün əl açım.

Solub getdi sevgi adlı ağacım,
Gör nə halda, necə gəlmişəm sənə.

MƏKTUB

Salam, mənim əzizim, necədi orda hava?
Mən lap dəli olmuşam bu boyda ayrılıqda.
Oralar da soyuqdu, bəs işlərin necədi?
Burda sakit, səssizcə, sıradan bir gecədi.

Ulduzları göydə tək, ulduzları çox yalnız.
Buludları da qorxaq, yağışları anlamsız.
Çox adidi gündüzü, çox sadədi səhəri.
Yığışıb gedib sənlə bütün möcüzələri.

Çox unutqan olmuşam, son zamanlar bir ayrı,
Dərdi bölüb qoymuşam yan-yana, ayrı-ayrı.
Hər şeyi düşünmüşəm, ən çoxu ayrılığı,
Təkcə bu unutmağın yolu bir başqa ağrı.

Bəlkə necəsə olur yaddaşda da yaşamaq?
Bəlkə orda bir evcik, yuva qurum səninçün.
Nə var ki itirməyə, itirmək hər zaman var,
Bəlkə yaddaşda qalaq, darıxıram səninçün.

Görürsən unuduram, görürsən yaddaşsızam,
Tamam yadımdan çıxıb sənə məktub ki, çatmır.
Hər şeyi düşünmüşəm, hər nə varsa yazmışam,
Ayrılığın küçəsi, poçtu, ünvanı çatmır.

Yenə özünü düşün, öz-özünə yaxşı bax,
İsti geyin, şərfini bir az da yaxşı bürü.
Əlindən tut sevginin, yenə qaçar yaramaz,
Həsrəti çox ağırdı, yer üzünü bürüdü.

Bu çatmayan məktubu oxuyuram özümə,
İçində tək sən olan, ən doğmaca yerimdi.
Bəlkə bir gün böyüdü, o da bir adam oldu,
Bəlkə bir gün sevgimtək ayaq tutub yeridi...
Sağ ol, əzizim, sağ ol.

Nadir YALÇIN

***

31 dekabr
o, darıxır...
nə külək döyür pəncərəsini
nə şaxta qurudur üz dərisini
ocağı isti
bacası tüstü
hər yer pisdi
onsuz...

31 dekabr
iyuldan uzaq
marta yaxın...
Şəhərin sakinləri gəlir axın-axın
milyonlarla ailənin naləsi
minlərlə qarışqa ailəsinin
batırır qulağını.
Dağıdın işıqları,
açın yolları
o, gözləyir...

Bədənim yüz ilin ölüsündən də ölü
tənhasından da tənha
ürəyim tələsir...

31 dekabr
– Qar yağır?
– Yağmır.
– Yağacaq?
– Oxşamır.

Bilmirəm, məktubun sonuna nə yazım...
Həsrət boğazıma qəhər düyünü vurub, dəyişib avazım.

Son söz əvəzi
illərin qovuşduğu tarixi həkk edəcəm:
31 dekabr
O, darıxır...

QARANQUŞ

Köksündən bilinir nələr çəkdiyin,
tələşdən ürəyin nanətək əsir.
Qışda qar altında qalan çiçəklər
soruşur: o quşlar hara tələsir?

Adınla yazılıb bəxtin elə bil.
Qara gün qürbətdən rəng alıb verir.
Səni bu yerlərdən didərgin salan
Səni bu yerlərə qonaq gətirir.

Günəşdən, küləkdən asılıb bəxtin,
Kim gülər üzünə, kim sığal çəkər?
Gündüzlər qəlbinə dəyən oxların
Gecələr eyhamın göydə ay çəkər.

Arxanca su atan belə tapılmaz,
o yağan yağışlar aldadır səni.
Köçəndə göylərə yazdığın yazı,
Pozduğun cərgələr yandırır səni.

Saman yuvaların gözü yol çəkir,
Çörək qırıntısın küləklər udub.
Üryan budaqların odu sönməmiş
Göylər aşinasın niyə unudub?

VAĞZALA QAR YAĞIR

(Bu şeiri ulu babam Hacıalı kişinin timsalında bütün repressiya qurbanlarına və onların həsrətilə ömrü başa vuranlara həsr edirəm)

Yarpaqlar əsmədi, Günəş çıxmadı
Atları suladı qonşu uşaqlar
qazan qaynamadı, ocaq yanmadı
nə alça su içdi, nə ərik o gün
Yandı bağ-bağatı kəndin-kəsəyin
Üzüm çardağından asılan oraq
Kütəldi aypara işıq salmamış.
Dedilər düzələr, ümid kəsməyin.
Vağzala qar yağdı, kənddə kim bilir?!

Dağıldı quşların səsi beləcə
Lal oldu oxşama deyən qarılar
Nə deyə bildilər, nə yaman öldü
Nə deyə bildilər, harda qeyb olub?
Bahardan payıza yubanan toylar
Durna qatarına böyük dərd olub.
Dedilər gələcək, o, qayıdacaq...
Vağzala qar yağır, kənddə kim bilir?!

Çəpərlər üstündə dirsək yeri var,
Yaylıqlar ucuna gözlər töküldü
Yolların qolları dolaşdı getdi
Dörd divar üstünə sözlər töküldü
Od-alov yol aldı üzü Sibirə
Kənddən Sibirəcən neçə ağac var?
neçə moruq kolu, neçə böyürtkən
alışdı, tüstüsü buludu qovdu.
Göy üzü tərtəmiz, səssiz-səmirsiz
Durnalar hay saldı: bulud nə oldu?
Vağzala qar yağır, kənddə kim bilir?

Vağzala qar yağır, düz dizə kimi
Şaxta nizə kimi ürək qanatdı.
Yollar ayrı düşdü, yar ayrı düşdü
Bağlardan bir yolluq bar ayrı düşdü
Sevinc kədər ilə qoşa qanaddı
O bircə sevinc də ərşə çəkildi
Vağzala qar yağdı, düz dizə kimi
Hörüldü saçının ucu nənəmin
Qürbətdə kəsildi babamın səsi
Vağzala qar yağır, kənddə kim bilir?!

ŞUŞA

Daşın daş yaddaşı, ləpir yaddaşı,
soyuq divarların səs yaddaşı var.
Hər boynu bükülən lalə köksündə
yaralı əzəmət nişanəsi var.
Ağzı açılmayan su quyusunun,
nehrə ayranının, ot tayasının,
əkinçi babamın buz daxmasının
bu Yer kürəsində bir kölgəsi var.
Kölgələr calanar biri-birinə
daş da qəribsəyər bu yer üzündə.
Torpağın bağrında ilişib qalan
tövşiyən atların nalının səsi
yerdən pərvaz edər bu gün üzünə.
Əkinçi babamın torpaq arzusu
səpdiyi toxumla cücərər o gün –
Günəş dan yerindən şəfəq saçanda…
Boyuma tənlənən düyünçələrin
sayı dərdlərimin sayı qədərdi.
Nənəmin təptəzə yaylıqlarının
özgə bucağında köhnəlməyi də
qərib payızların yayı qədərdi.
Nənəmin o köhnə bayatıları
bulud qanadında dağlara uçar,
bir ilıq nəfəstək çəmən bəzəyər,
torpağa əbədi bərəkət saçar.
Şirin nənnilərdən tamarzı qalan
obalar nəğməyə dönər bir anda –
Günəş dan yerindən şəfəq saçanda…

Kağızdan təyyarə düzəldən Şuşa
üfüqə uçurdu ümidlərini.
Silahlar yoluna sipər olmasa,
bombalar cahanı yaralamasa
kağız təyyarələr uçacaq sonsuz…
Bütün arzuların ilkin müjdəsi,
qüdsi yurdumuzun pak nişanəsi
Şuşa adlı körpə dünyaya gəldi –
Günəş dan yerindən şəfəq saçanda…

NİKİTA, NOLAR, ÖLMƏ

(50-ci illərdə Ukraynada hərbi xidmətdə olan təqaüdçünün dilindən)

Eşidirəm Bakıda Kiyevin iniltisin,
Gözümü qıyan zaman ulduzlar alovlanır.
Deyin yaşıl geyimli zabitlərə, bağırın –
Tankların nəriltisi baharı yubandırır.
Yolları dağıtmayın, qayıtsam, karıxaram,
Küçələrin adları barı yerində qalsın.
Mənim xatirələrim o adlarda gizlənib
O adların ünvanı mənlə buxarlanmasın.
Nikita, nolar, ölmə...
Ürəyin səksənəndə həyəcan siqnalından
Gurultu ələyəndə bacadan təyyarələr
Bombaların səsinə tab edən pəncərətək
Sən də sınma, mətin ol, hərdən məni xatırla.
Müharibənin ən qızğın, ən alovlu anında
Yada sal sevgimizi, yada sal o günləri.
Gülümsə, gülüşlərin əridər silahları.
Nikita, nolar, ölmə...
Yadına sal, o qarlı-şaxtalı havalarda
Boqdanın pay verdiyi çaxırın xumarını.
Mən, sən, qoca nənənin uçuq-sökük daxması,
Atan alan gəlincik, çarıqlar və sairə…
O zəmi saçlarının içində boğulaydım!
Sənin məmləkətinə yeni nəfəs verəydim!
Sənin sünbül saçına səma ola bilərdim
Ukrayna bayrağıtək!

Nikita, nolar, ölmə...
Gürcü nənnilərilə daxmamız eşqlənirdi,
Sevdalandır yurdunu nənnin ilə, Nikita.
Batır nənnilərinlə o silah səslərini,
Mənim nağıllarımdan danış övladlarına,
İndi nəvaziş gərək, şəvqət gərək hamıya.
Mənə də… ən çox mənə, ən çox mənə, Nikita.
Nikita, nolar, ölmə...

***

yol göründü, iz bilindi, duman dağa sığındı
anam ürək, atam ürək, məhvərinə sığ indi.
nə bu duman mənimdi,
nə bu kənd, nə bu ocaq.
mənə bir ovuc torpaq, bir əlçim bulud qalacaq.
O qızın adı qalacaq yaddaşın mərd yerində,
Bu dünya suya dönəcək Arazın dərd yerindən.
Taleyin boynuna atılan qanlı kəmənd yerinə
qalacaq, güman kimi, nişan üzüyü qalacaq.
yol üstündə gözləyən sevdalı qızlar eşqinə,
nişan vermədiyim qız, qoşul nişanlı qızlara,
hamıdan əlini üzüb baxanda ulduzlara
ağla, sənə bir ovuc təmiz göz yaşı qalacaq.
sən də gözünü yola dik, denən bir gedənim vardı,
soruşsalar, atam de, qardaşım de,
adımı deməyə qorxursan, yəqin
qayıtmasam, öldü demə,
qəribdi yoldaşım de.
bu dünyada əzəl-axır
öz yerindən ayrı düşən qərib daşlar qalacaq.

Fazil İSKƏNDƏR



Fazil Əbdüloviç İskəndər (1929-2016) – nasir və şair. SSRİ (1989) və Rusiya (1994, 2014) Dövlət mükafatları laureatı olub, Rusiya Federasiyası Hökumətinin (2011) mükafatına layiq görülüb.

Suxumidə, ata tərəfdən iranlı olan ailədə doğulub. Abxaziyanın Çegem kəndində boya-başa çatıb. 1954-cü ildə Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. Jurnalist, redaktor işləyib, şeirlər yazıb. İlk kitabı 1957-ci ildə Suxumidə çıxıb.

1960-cı illərdə bir sıra əsərləri "Yunost" jurnalında çap olunub. "Novıy mir" jurnalında çıxan "Dağkeçisi bürcü" satirik povesti ilə şöhrətlənib. Oxucuların dərin məhəbbətini qazanmış ən məşhur əsərləri "Çegemli Sandro", "Çikin uşaqlığı", "Dovşanlar və boalar"dır.

Fazil İskəndərin nəsri ironik və fəlsəfi məzmunludur, ibrətamiz əhvalatlar və zərb-məsəllərlə zəngindir.

KEÇİLƏR VƏ ŞEKSPİR

♦ *Hekayə*

Çegemdə toyuqların hin tanımadığı, gecələr ağaca qalxdığı çağlar hələ də yadımdadır. Ağac seçimini, belə görünürdü ki, toyuqların hamısı qalxmayınca "uçuş zolağı"nda dayanan baş xoruz həll edirdi. Aydın məsələdir, bir həyətin toyuqları həmişə eyni ağaca qalxırdılar. Elə çıxmasın ki, onlar budaqda yumurtlayırdılar. Bunu ona görə deyirəm ki, Çegemdə guya toyuqların budaqda yumurtlaması, yerli qadınlarınsa ağacların altında səbrlə dayanaraq o yumurtaları üsulluca tutmaq üçün mələfə açmaları barədə söz-söhbətləri çegemliləri istəməyənlər yayıblar, onlarınsa adlarını çəkməkdən yorulmuşam mən.

Yox, yumurtlamağa yer düzəldilirdi, hərçənd toyuqlar yenə çox vaxt evin yaxınındakı kolluqları üstün tuturdular, görünür, sezibmişlər ki,

insan olan kəs yumurtalardan toyuq nəslinin davamı üçün, yəni birbaşa təyinatı üzrə yox, öz nəslinə dəstək naminə bəhrələnir. Bu hal toyuqları elə də qane etmirdi.

Nəticədə, ev sahibəsi axşamlar ətrafdakı kolluqları ələk-vələk edir, yumurtaları, ağ göbələklər kimi, ətəyinə yığırdı. Hərçənd biz tərəfdə ümumiyyətlə göbələk yığılmır. Həm də, yumurtalar dura-dura, niyə göbələk yığasan axı... Göbələklərə rəğbət bir çox xalqın xroniki aclıq çəkməsinin nəticəsidir.

...On iki yaşımda mən Çegemdə keçi otara-otara Şekspiri oxuyurdum. Başlanğıc üçün pis deyildi. Gerçəkliyə hər iki yöndən sarılırdım.

Keçilərə məni elə-belə təhkim etməmişdilər. Qohumlarım, müftəxorluq mərəzindən əziyyət çəkməyimdən qorxub küyə düşərək, keçiləri mənim öhdəmə vermişdilər.

Ancaq şəhərdə oxuyan əmiqızımgildə, təsadüfən, Şekspirin qalın bir kitabını tapdım. Yay boyu onu təkrar-təkrar oxudum. Şekspirin kitabı kimi, yay da bitmək bilmirdi.

– Kitab özündən ağırdır, – çegemlilər onu əlimdə görəndə rişxəndlə belə deyirdilər.

Elə çıxmasın, onlar ümumən kitabın əleyhinə idilər, əsl mətləb bu idi ki, hər halda, kitabın ağırlığını öz çəkinə uyğunlaşdırmaq lazımdır. Yük heyvanları ilə iş tutmağa alışdıqları üçün haradasa tarazlıq pozulanda dəqiq hiss edirdilər.

– Otlağa enirsənsə, – bəziləri məni yolda saxlayıb xoş niyyətlə nəsihət verirdilər, – kitabı kəndirlə kürəyinə şəlləyə də bilərsən. O səni geri dartacaq. Yoxsa sərt enişdə burnu üstə düşüb cığıraşağı yuvarlanarsan. Kitaba heç nə olmaz, ona görə qorxmuram. Üstündə o cür qabığı var. Sən isə, özün şikəst olar, bizi də biabır edərsən. Deyərlər, muğayat olmayıblar!

– Kim deyər? – təcrübəsizlik üzündən, əvvəllər bunu soruşur, çegemlilərin nəzər-diqqətindən yayınmayan bir köntöylüyə yol verirdim.

– Özünü bilməzliyə qoyma, guya Çegemin bədxahlarını tanımırsan! Uşaq deyilsən artıq! – deyə danlayırdılar məni.

Gözləmədiyim halda tək-tük kitabsevərə də rast gəlirdim. Onlardan biri Şekspirin kitabını sığallayaraq mənə xəbərdarlıq etdi:

– Görmüşəm, kitabını yiyəsiz qoyub ağacdan-ağaca necə dolaşdığını görmüşəm. Yaxşı hal deyil. Keçilər gəmirməsələr də, murdarlaya bilərlər onu. Dişi camış isə, yəqin, gəmirər.

Görünür, o vaxt cılız, gödəkboy olmağım çegemlilərdə narahatlıq doğurmuşdu ki, günün birində kitab əməllicə ağırlıq edərək məni cığıraşağı yuvarlayacaq. Amma mən onlardan zərrə qədər də incimirdim. O zaman hələ yazıçılıq niyyətinə düşməsəm də, nə cürsə anlayırdım ki, bütün bunlar bir vaxt gərəyim olacaq.

Yeri gəlmişkən, sözlərin mənşəyi elə onda da məni dərindən düşündürürdü. Ayva (heyva – tərc.) sözünün necə yarandığını özlüyümdə məhz o vaxt kəşf etmişdim (dırnaq işarəsinə nifrət edirəm!)

...Qədimdə bir rus qadınla qafqazlı kişi bizim keçilməz meşələrdə dolaşırmış. Birdən, üstündə iri meyvələri olan naməlum bir ağac görürlər.

– Ay! – deyə cikkə çəkir rus qadın.

– Va! – şərqli kişi heyrətini bildirir.

Beləcə, o naməlum meyvənin adı olur ayva (heyva). O rus qadını bizim keçilməz meşələrə gətirən nə idi, onlar həmin vaxt o heyvadan İncildəki anlamda yemişdilərmi – bunlar onda məni maraqlandırmırdı.

Mən Şekspiri oxuyurdum. Ser Con Falstaf, gənc baron və kralın təlxəkləri uzun müddət, hətta həmişəlik mənim sevimli qəhrəmanlarım oldular. Təlxəklərdən biri ona pul verən saray əyanına deyir:

– İkiqat comərdlik ikiüzlülük deyil!

Bu ifadə mənə insan hazırcavablığının son həddi kimi gəlirdi. Yalnız bundan narahat idim: şəhərdəki sinif yoldaşlarım bu gülməcəni izahsız anlayarlarmı? Artıq bilirdim ki, izahat gülməcənin səviyyəsini salır.

Təlxəklərin zarafatlarına uğunur, başımı qaldıranda da keçilərin hoqqalarına gülürdüm. Onları otlağa yayıb, əlimdə Şekspirin kitabı, haradasa bir kolun dibinə çəkiləndə, keçilər arada mənə göz qoyurdular ki, oxumağa tamam qapıldığım an özlərini yaxındakı qarğıdalı sahəsinə versinlər. Çalı-çəpəri vecə almırdılar.

Ola bilsin, Şekspirə münasibətdə naşılıqlarını aradan qaldırmaq üçün bəzən onlara Falstafın ən gülməli monoloqlarını çox ucadan oxuyurdum. Səsimin gücünə onları öz heyrətimə yoluxdurmaq istəyirdim.

Otlaq təpənin ayağında idi, lap yuxarıda isə qadınların tütün asıb qurutduqları dam-daş vardı. Səsim onlaracan gedirdi.

– Şa, – qadınlardan biri dik atılırdı, – bu, deyəsən, odur, kitabı özündən ağır oğlan!

Hərdən ən maraqcılı özünü saxlaya bilmir, ərinmədən damdan çıxıb, üzüaşağı, mən tərəfə çığırırdı:

– Ey, sən kiminlə bərkdən danışıb-gülürsən orada?!

– Keçilərlə! – qışqırırdım cavabında, kefləri açılsın deyə, çünki özümüzü ziyansız dəliliyə qoymaq qədər heç nə şənləndirmir adamları. Sonralar mənə danışırdılar ki, bu cavabım, mütləq, qadınları gicbəsər dayımın qəribəlikləri barədə ləzzətli söhbətlərə həvəsləndirirmiş. Çegemli qadınların incəliyi, nəzakəti bunda idi ki, gicbəsər dayımın qəribəliklərini yerbəyer sadalasalar da, heç vaxt mənə ilişmirdilər. Doğrudur, bu təsvirlərdə bəzən yersiz, dəxilsiz coşqunluq da özünü

göstərirmiş, nədən ki, dayım, həmin vaxt artıq yaşlanmış olsa da, anadangəlmə qəribəliklərini tərgitməmişdi.

Deyilənlərdən belə çıxmasın ki, sonradan dayım ömrünün sakit, nurlu qocalıq çağına qədəm qoymuşdu. Əfsus, belə deyildi. İş bundadır ki, dəqiqlik həvəsi məndən əl çəkmir, elə bil dayımdan uzaq durmaq istədikcə ona yer kürəsinin başqa səmtindən yaxınlaşıram.

Deməli, keçilərimə Falstafın monoloqlarını oxuyurdum. Bir çoxu başını qaldırıb qulaq asırdı. Hətta bəzən mənə belə gəlirdi, lap məzəli məqamlarda tısqırırlar da, hərçənd sırf keçiyana, kefləri elə istədiyi üçün də tısqırmış ola bilərdilər. Göründüyü kimi, olayları dəqiqləşdirməyin hayındayam yenə.

Ancaq, əlbəttə, çox zaman bütün dünyanı unudub, özüm üçün oxuyurdum, keçilər isə həmin vaxt sahəyə keçib qarğıdalıları yarpaqlı-gövdəli basıb yeyirdilər, elə yaşıl qabıqlı lobyaları da onun kimi. Çegemdə çox vaxt qarğıdalının yanına lobya basdırırlar ki, onun gövdəsinə sarmaşsın. O qədər lobya əkirlər, dirək sancmağa yer qalmır.

Duyuq düşən kimi, adətən, sürüyə sarı yüyürür, basqını dayandırmaq üçün sehirli kəlmə ilə təpinib:

– İyo! İyo! – çığırırdım, yəni, keçilərin dilincə: "Rədd ol! Geri gəl!"

Hər dəfə səsimi eşidəndə keçilər nəinki basqından geri durmur, hələ son anları fürsət bilib, bir az da adamı təbdən çıxaran cəldliklə qarğıdalıları gəmirməyə, tez-tələsik gəvələməyə başlayırdılar. Görünür, şüurun ilk bəlirtisidir bu: yeməkdən ayırırlarsa, daha cəld ye! Hələ bu harasıdır. Onlardan bəzisi yarpaqları xışıldayan qarğıdalı budaqlarını gəvələyə-gəvələyə aradan atlayıb otlağa qayıdır, orada rahatca axırına çıxırdı, guya iş elə ağzındakını hansı ərazidə içəri ötürməkdə imiş. Qalanı da, hər yerinə lobya tağları dolandığı üçün, çalı-çəpəri aşandan sonra, guya üstündəki əngəl-kələfdən qurtulmaq xatirinə, özünə həşir gəlirdi.

Briqadir haradansa sahənin o başından səsimi eşidib işin nə yerdə olduğunu anlayır, bağırtıyla söyüş-qarğış yağdırırdı, ən çox da o çığırbağırda, yeddimərtəbəli söyüş-qarğışında qətiyyən karıxmaması mat qoyurdu məni.

– Yenə basdılar sahəni?! – Səsi gurlayırdı. – Görüm boynun o kitabının altında qalıb qırılsın! Görüm o kitabla qalanan ocaqda sənin ən sırtıq keçin qızarsın, atamın goru haqqı, o keçidən ötrü elə bir ocaq qalayaram ki! Kitabından qalanan ocaqda bişmiş keçini yeyib, o kitabın közərtisində elə siqaret yandıraram ki! Eləyərəm bunu, atamın goru haqqı, eləyərəm!

"Gerçəkdən eləyər" düşüncəsi məni qorxuya salır, keçiləri qovalayıb qayıdırdım Şekspirin onu hansı təhlükə gözlədiyindən xəbərsiz kitabına.

Keçilərlə birgə üç toğlu da otlaqdaydı. Başlarını qaldırmadan otlayırdılar, sanki dəhşət bir and içmişdilər: imsiləmədən bircə ot da almarıq ağzımıza! Başlarını qaldırmadan otladıqları üçün hərdən gedib keçilərə toxunur, keçilər də onları buynuzlayıb qovurdular. Burası da vardı ki, bəzən onlar heç toxunmasalar da, keçilər qoyunları buynuzlayırdılar. Ümumiyyətlə, keçilərin onlardan zəhləsi gedirdi. Qoyunlardan zəhləsi getməyə hansısa səbəb yox idi, bircə bundan başqa: qoyunlar çalı-çəpəri aşıb qarğıdalı sahəsinə keçmək istəmirdilər. Keçilərsə bunu onlara bağışlamırdılar.

Qoyunlardan fərqli olaraq, keçilər otladıqca tez-tez başlarını qaldırıb sürüyə boylanır, ya da düşüncəli bir sərkərdə ədası ilə ətrafı nəzərdən keçirirdilər. Bundan ötrü onlar haradasa yaxındakı qayaya dırmanmağa da ərinmir, gövşəyə-gövşəyə yan-yörəyə baxırdılar. Görünür, onların məxsusi strateji düşüncəsi vardı. Həm də bu strateji düşüncə praktika ilə uzlaşırdı. Durduğu yüksəklikdən baxanda bir başqa keçinin fındıq kolunu qəşəngcə basmarlayıb şirəli yarpaqlarını içəri ötürdüyünü görən kimi qayadan enərək, yeyin addımlarla – ancaq qaçıb özünü abırdan salmadan – onun yanına tələsirdilər ki, ləzzətə şərik olsunlar. Həsəd duyğusu onları bir arada saxlayırdı. Əvəzində onlardan hansısa biri böyürtkən koluna uyub yarğanda qalır, sürü isə artıq oradan aralanıb onun görmədiyi yaxın bir yerdə otlayırdısa, həmin keçi küyüküb ora-bura vurnuxmağa başlayır, dəli kimi bəyirərək, dara düşdüyünü xəbər verirdi. Belə görünür ki, otyeyənlərin imsiləməklə izə düşüb özününküləri tapmaq qabiliyyəti yoxdur. Maraqlıdır ki, o biri keçilər, adətən, ona hay vermirdilər. Yəqin, cəzalandırırdılar onu: sürüdən ayrı düşmək nədir, indi bilərsən... Yalnız yaxşıca bəyirdəndən sonra hansısa biri ağızucu hay verərdi. Qəribədir ki, o arada sürüdən hansı keçininsə boynundakı zınqırovun səsi kifayət qədər aydın eşidilirdi. Ancaq yarğanda vurnuxan keçi, tam rahatlıqla deyə bilərik ki, yetərli musiqi duyumu olmadığına görə həmin səsə güvənmirdi, çünki başqa heyvanların da – inək, camış, eşşək – boynunda müxtəlif ölçüdə zınqırovlar yellənirdi.

Hay eşitməyən keçi, başını itirir, get-gedə daha da küyükür, bəlkə də elə bilirdi, sürü bax indicə cənnət kimi bir otluğa çıxıb. Sürüdən səssəmir gəlmirdi, amma əgər o dəmdə başqa bir azmış keçi də peyda olurdusa, dərhal onun bəyirtisinə hay verərdi. Onların hər ikisinə elə gəlirdi ki, bəyirən elə sürüdəndir, buna görə də mələşib tapışmağa can atır, beləcə məni tamam karıxdırırdılar. Belə hallarda həmin keçini sürüyə sarı qovalamaq heç cür mümkün olmurdu. Hər tikanlıqdan, kolkosdan aşıb o biri keçinin səsinə yüyürürdü. Get-gedə lap hövllənir, artıq xırıldayan səslə bəyirərək, ikisi də bir-birinə doğru can atırdı.

Keçilərin bəyirtisində elə bir ümumbəşəri yetimlik vardı ki, deyərdin, tapışsalar, bir-birindən qəti aralanmazlar. Və... o qədər yalqız gəzib-dolanandan sonra qəfil tapışırdılar! Bir andaca sakitləşir, bir-birinə heç baxmırdılar da.

Əlimdən gələn qədər qaytarıb sürüyə qatmağa çalışdığım, amma pıtraqlar, tikanlıqlar arasından özünü o birinin səsinə doğru atan keçi, quşüzümü kolpanını elə rahat məngirləyirdi, guya bayaqdan bunu gəzirmiş.

Onlar bir-birinə məhəl qoymadan otlayırdılar. Hər birinə elə gəlirdi ki, digərinin arxasındadır bütün sürü. Axır ki, bu minvalla onların ikisini də lazımi səmtə qovalamaq olurdu. Keçilərin təkliyə tabı yoxdur, ancaq tam biganə mühitin yarandığı sürünü üstün tuturlar.

...Bütün günü çiçəkli yaşıl çəməndə uzanırdım. Göydəki görünməyən torağaylar aramsız şəkildə isbat edirdilər ki, səma musiqinin ilkin qaynağıdır.

Qırçın yunlu qoyunlar qıvrımlı yoncaları qırpır, bu səbəbdən də, Darvin qanunlarına əsasən, yunları daha da qırçınlaşırdı. Arılar əsl dalğıc inadkarlığı ilə çiçəklərə dalırdı. Yaylı çəyirtkələrin hoppanışı... Utancaq kəpənəklərin çiçəklər üzərində dolanbac uçuşu...

Tanımadığım hansısa iri böcək vızıltı ilə çiçəyə sarı uçur, amma heç vaxt ona qonmurdu. Hər dəfə çiçəyin üzərində – havada vızıldayanda səbirlə gözləyirdim ki, nəhayət, qonsun, ona baxa bilim. Ancaq həmin çiçəyin üzərində gileyli tərzdə bir dəqiqə vızıldayan böcək, görünür, istədiyi nektarın onda olmadığını dəqiqləşdirib başqa çiçəyə üz tuturdu. Başqasının da üzərində narazılıqla vızıldayır, yəqin onun da tam arzulanan olmadığı qənaətinə gəlib, üçüncüyə sarı uçurdu. Amma mən heç bir dəfə də görmədim ki, o böcək hansısa çiçəyə qonsun. Bu vasvasılığı məndə təəccüb və mərhəmət oyandırdı. Hələ o aramsız gileyli vızıltısı! Bu tərsliklə nə tapıb yeyir o? Axırda hansı çiçəyi seçir bəs?..

Bir axşamüstü yenə gileyli vızıltısı ilə mənim yaxınımda, növbəti çiçəyin üzərində idi. Və qəfil, qürubun çəpəki şüaları altında uzun, incə bir iynə kimi parlayan xortumunu çiçəyin qəlbinə sancdı, özü də heç ona qonmadan. Gendən-genə bu xəbislikdən sarsıldım, hərçənd elə bilirdim, Şekspirin bəzi məkrli qəhrəmanları məni buna yetərincə hazırlayıblar.

...Otlaq boyunca, Sabida hövzəsinəcən yabanı meyvə ağacları – alça, gavalı, alma, armud, əncir, qoz bitmişdi. Yetişdikcə, bəzənsə xeyli erkən o meyvələrdən yeyirdim və yeyə-yeyə də nəbatata aid bir kəşf eləmişdim, amma niyəsə bunu indiyədək dünyaya yaymamışam. Eybi yox, hələ də gec deyil.

Belə bir qanunauyğunluq sezmişdim: meyvələrinin dadı-tamı nə qədər az olursa, ağac bir elə çox bar gətirir. Ən çox bar verən isə alça idi. Bəhəri yarpağından çox olurdu. Amma elə də dadlı deyildi, turşu suyunu andırırdı. Gavalı çox-çox ləzzətli də olsa, az gətirirdi. Yabanı alma-armud gavalıdan da dadlı olurdu, ancaq ağacın eni-boyu nəzərə alınanda, əlbəttə, ondan az bəhər verirdi. Əncir ləzzətcə alma-armuddan xeyli üstün, bəhərinə görə qat-qat zəif idi. Nəhayət, ən tamlısı, qidalısı qoz idi, di gəl ağacın nəhəngliyi ilə üstündəki bəhərin sayını tutuşduranda, məhsulu daha az çıxırdı.

Meyvələrdən yedikcə, iştaham sayəsində, təbiətin böyük bir qanunauyğunluğunu anlayıb aşkara çıxartdım: meyvə nə qədər dadlıdırsa, tərkibi o qədər faydalıdır, ancaq meyvələrə qida verən nadir şirələri torpaqdan tapıb əmmək də köklər üçün bir elə çətindir. Ona görə də bəhər dadlı olduqca, ağacın məhsuldarlığı azalır. Ağac nə qədər çox bar gətirirsə, eyni həvəslə də onları üstündən yerə səpələyir. Odur ki, alçanın altında həmişə donuzlar yığışır, "gavur dişləri" ilə alçaların çəyirdəklərini sındırıb çaqqaçaq gəvələyirdilər. Gəvələdikcə də başlarını qaldırıb öz çaqqaçaqlarını dinləyib həzz alırdılar. Hiss olunurdu ki, bu çaqqaçaq onların yeməyinə əlavə ləzzət qatır. Neçə donuz birlikdə çaqqaçaq salanda tıxışdırma simfoniyası alınırdı. Alça sovulanda onlar başqa, daha ləzzətli meyvələrə keçirdilər, amma çaqqaçaqları artmırdı, belə çıxırdı ki, dadın-tamın fərqinə varmayıblar. Artıq burada botanikaya tamam yad qanunlar qüvvəyə minirdi.

Yəqin ki, hansısa başqa kəşflərim də olub, amma onlar indi yadıma gəlmir. Sonradan xatırlasam, danışaram.

...Axşamlar, bibim keçiləri sağanda tez-tez qarışıqlıq düşürdü. Çegemdə (humanizmin son qalası) keçini, yaxud inəyi sağanda, adətən, əvvəlcə balasını onun üstünə buraxırlar ki, bir az süd əmsin. Sağımın sonunda da çəpişə, buzova süd saxlayırlar. Çəpişləri bir-bir buraxırlar anasının üstünə. Şadlığından mələyən çəpiş bəyirişən sürüyə cumur, amma çox vaxt, anasını tanımadığından, yad keçini əmməyə başlayır. Ən qəribəsi budur ki, ən azı çəpişə nisbətdə təcrübəli olan ana keçi də tanımaza-bilməzə, dalğın halda öz əmcəyini səxavətlə onun ixtiyarına verir.

Amma bu məqamda bibim duyuq düşür, boynundan yapışıb çəpişi öz anasının əmcəyinə calayırdı ki, həm o, halal süd əmsin, həm də bir azdan sağacağı keçi rahatlaşsın. Bu arada bayaqkı çəpişin bir qədər əmdiyi keçi yanıldığını başa düşür, amma nədənsə günahı özündə yox, bibimdə görür, o səbəbdən də, lap öz balasına qovuşsa belə, adətən, sağılarkən südünü çəkib gizlədirdi ki, çəpişinə daha çox qalsın.

Keçi ilə yiyəsi arasında qəliz psixoloji mübarizə gedirdi. Çəpişin azca əmməsinə imkan verən yiyəsi onu çubuqla qovub ana keçini sağmağa başlayırdı. Bayaq səhvən yad çəpişi əmcəyinə yaxın buraxan ana keçi, indi hədsiz nəvazişlə öz balasını yalayır, sanki xətasını yalamaqla düzəltməyə çalışırdı. Burası da var ki, xirtdəyəcən peşman olub, südünü bərk-bərk çəkib saxlayırdı, guya bitib artıq. Yiyəsi isə bundan agahdır. Hamısı nəzərə alınıb: yad çəpişin əmdiyi süd də, öz balasının əmdiyi də. Keçi yiyəsi çəpişi bir də ötürürdü anasının əmcəyinə, bayaqdan guya tükənmiş olan süd, yenə qaydasınca süzülüb gəlir, çəpiş də marçıltı ilə məmələri sortuqlayırdı. Bir qədər sonra bibim çəpişi əmcəkdən astaca, lap astaca aralayıb keçini sağmağa başlayırdı.

On dəqiqə ötür, key-key ətrafına boylanan (maraqlıdır, bu müddətdə fikri haradaymış onun?) keçi görürdü ki, əmcəyi çəpişində yox, bibimdədir. Duyuq düşən kimi keçi yenə südünü çəkirdi. Bibim təzədən çəpişi əmməyə buraxırdı, süd yenə gəlir və bu, bir neçə dəfə təkrarlanırdı.

İnsafən qeyd etməliyəm ki, keçilərin bəzisi, lap azı altına yad çəpiş gələndə, görünür, məməsinin fərqli sortuqlandığını hiss edərək, qovur onu. Ancaq bu qədər həssaslıq istisna haldır.

Gördüyüm qədərilə, çəpiş özü məmələrin doğmalıq əlamətinə elə də əhəmiyyət vermir: süd sorulursa, vəssalam! Yeri gəlmişkən, insan çağası da bu baxımdan, məncə, çəpişdən heç cür fərqlənmir. Elə düşünməyin ki, bu sonuncu mülahizəmdə şəxsi xatiratıma əsaslanıram. Nə qədər qəribə də olsa, özümün südəmər vaxtımı xatırlamıram. Halbuki olduqca uzun sürüb o.

Hə, axır ki, ağıla doldurulan keçilər sakitləşirlər. Gecə. Səssizlik. Yuxulu keçinin zınqırovu cingildəyir, sonra yenə sükut. Biz də bir nəfəs dərək.

Mənim ən erkən xatirələrim, çox güman, bunlardır: dörd yaşım olardı yəqin, atam mənə anlatdı ki, çar daha yoxdur. Hansısa başqa təfərrüatlar olubsa da, onları xatırlamıram. Yadımdadır, mən atamın dediyinə inanıb son dərəcə kədərləndim. Küçəyə çıxdım və düşündüm ki, çar yoxdursa, deməli, üstündə gəzdiyim bu torpaq da yiyəsizdir, ona kimsə cavabdeh deyil. Özümə yazığım gəldi, amma dəqiq yadımdadır ki, yiyəsiz torpaq üçün daha çox heyifsiləndim. Anadangəlmə kəndli damarımmı tutmuşdu?..

Qonşunun oğlu yüyürüb gəldi mənimlə oynamağa. Ancaq heç oynamağın yeri deyildi!

– Çar yoxdur, – dedim, onu dünya düzəninin dağılması xəbəri ilə sarsıtmaq üçün. Ancaq elə bil dediyim heç ona çatmadı.

– Haradadır bəs? – oğlan soruşdu.

– Yerli-dibli yoxdur, – dedim ki, heç ümid yeri qalmasın. Hiss etdim ki, bunun da ona təsiri olmadı.

Küsüb aralandım ki, təklikdə tam mənada iztirab çəkim. Görünür, bu, möcüzəvi şüur böhranı idi. Aydın məsələdir, mən Sovet hakimiyyəti barədə nələrsə eşitmişdim artıq, amma elə bilirdim, çarın məqamı bütün bunlardan yüksəkdir.

...Belə baxanda, mənim Şekspirə ifrat bağlılığımı şişirtməyək gərək. Olurdu ki, bəzən sürünü otlağa Şekspirin kitabını götürmədən də aparırdım. Fikir vermişdim, belə olanda keçilər açıq-aşkar darıxırdılar. Bu cür hallarda, demək olar, qarğıdalı sahəsinə doluşmaq istəmirdilər, çünki mən sayıq davranır, onları vaxtında qaytarırdım. Yay boyu keçilər mənim mütaliəsiz halımdakı sayıqlığıma alışaraq bildilər ki, əlimdə Şekspirin kitabı yoxdursa, deməli, qarğıdalılığa yolları bağlıdır.

Səhər-səhər, əlimdə Şekspirin kitabı, keçiləri ağıldan çölə çıxarırdımsa, dərhal kefləri durulurdu, şıltaqlaşırdılar. Şıltaqlıqları elə həddə çatırdı ki, məzələnib dəxilsiz cütləşmə oyunu çıxarırdılar. Bircinsli aşiqlər sayağı hoqqa verir, gedə-gedə bir-birinin belinə atılırdılar, bu isə mənə Şekspirin əsərlərindəki qiyafə tərsməzhəbliyini – kişinin qadın kimi (və ya əksinə) geyinməsini xatırladırdı. Burada sapıntılara meyildən şübhələnmək bütünlüklə yersiz olsa da, o keçilərin astagəl dişiləri hərəkətə gətirib qızışdırmağa cəhd etmələri tamamilə mümkündü. Ehtimal etmək olar ki, bu, hərəmdə bekarçılıqdan təngə gələnlərin yüngül etiraz tədbiri idi. Amma, deyəsən, dişi keçilər bu dəxilsiz eşq hoqqalarından bərk narazı idilər. Sakitcə öz qanuni istirahət haqlarını qorumağa çalışırdılar.

Onları anlamaq olardı. Dördcə dişi idilər, erkəklər isə qırxa yaxın. Erkəklər Şekspirin kitabını görcək, uzaq hədəflər üçün açıq-aşkar həvəslənirdilər. Tamam aydın idi ki, erkək keçilər mənim Şekspiri oxumağıma bənddirlər. Sonrası onlara qalırdı. Şekspiri oxumağımı dişilər də istərdilər, amma erkəklərin işarə vurduqları ehtimal bahasına yox. Bu arada, qeyd etməliyəm ki, qoyunlarda Şekspirə qatı biganəlik vardı.

Şekspirdəki saray çəkişmələri ilə keçilərin hoqqaları arasında çoxlu ortaq cəhətlər tapmışdım, bu məni əyləndirir və indiki düşüncəmlə götürəndə, dünyagörüşümün təkmilləşməsinə şüuraltı təsirlə xidmət edirdi. Mən elə onda anladım ki, insan hər nədirsə, keçi ilə Şekspir arasında bir şeydir.

Deyilənə görə, son riyazi araşdırmalar mənim bu qənaətimi nəinki təsdiqləyir, hətta daha da möhkəmləndirir. Deyirlər, artıq təsbit edilib ki, Şekspiri keçiyə bölində xalis bir insan alınır. Qalıqsız.

Bu mülahizəni yoxlamaq üçün özümün Moskvadakı həyatımın əlüstü ilkin təsvirini verirəm. Buraya oxumağa gəldiyim vaxt, elə ilk günlərdə iki, belə deyək, ziddiyyətli olay məni sarsıtdı. Bir dəfə şəhərin mərkəzində milis nəfərinə yaxınlaşıb filan küçəyə necə gedə biləcəyimi soruşdum. Milis nəfəri qəfildən – heyrətamiz dərəcədə bəyaz əlcək taxdığı – əlini qaldıraraq, məni rəsmi tərzdə salamladı və axtardığım küçəni yerli-yataqlı nişan verdi. Məni, dünənki uşağı rəsmi tərzdə salamlayırlar, özü də bəmbəyaz əlcəkli əllə!

Bu mehribanlığa mat qaldım. "Ola bilsin, əlcək Çegem keçilərinin qəzilindən (keçi qılı – tərc.) tikildiyi üçündür", – deyə fərəhlə düşündüm, amma o mənim şegemli olduğumu haradan bilərdi?

Bir neçə gün sonra isə mənə tamam anlaşılmaz, hətta qorxulu gələn səhnəyə şahid oldum. Əlcəksiz-filansız milis nəfərləri geniş, gur küçədə bütün maşınları kənarlara sıxışdırırdılar. Bir dəqiqə keçmişdi, gördüm, hökumət maşınları elə hövlnak şütüyürlər, sanki arxalarınca pulemyotçular düşübmüş, atəş altından möcüzə sayəsində qaçıb çıxıblar. Ancaq gözlərimlə görüb əmin oldum ki, onları arxadan kimsə qovalamır.

Moskvada olduğum illərdə oxşar səhnələri dəfələrlə seyr etdim və belə qənaətə gəldim ki, bu, bütün rəhbər şəxslərə xas olan adi "təqib vahiməsi"dir. İlk dəfə Stalin əyyamında görmüşdüm bunu. Sonra əyyam dəyişdisə də, "təqib vahiməsi" qaldı.

Çiçəkli Moskva çəmənliklərində bəzən yalqız keçilərə rast gəlirdim, onları, adətən, tənha qarılar otarırdılar. Hər qarıya bir keçi... Çegemdəki adətlərə görə, qarıların keçi otarmaları təknədə paltar yumaları kimi bir işdi. İlk vaxtlar az qalırdım qarılardan soruşum: bəs sürü hara yayınıb?

Amma bu çegemsayağı sualı verməyimi elə çegemli nəzakətim əngəlləyirdi. Ən çox məəttəl qaldığım bu idi ki, yalqız keçi sakitcə otlayır, sürünün yoxluğundan əsla tələşlanıb küyükmürdü. Mənim aləmimdə bu, müsibət idi. İçimdəki hönkürtülərdən titrəyərək keçini seyr etdikcə düşünürdüm, gör bolşeviklər keçiləri nə günə qoyublar ki, onlar öz fitrətini yadırğayıb. Məğrur keçi təslim olub, vay halına, Rusiya!

Uzun sürən Moskva həyatımda yazıçı yaşamına dair bir çox cəhəti kəşf etdim. Əlbəttə, bu o demək deyil ki, mən indi yazıçıları otararam. Əslində, mənim özümü otardılar və bəd niyyətlə sürüdən yayınıb azmış keçi kimi cəzalandırdılar.

Ümidvaram, Falstafa rəğbətim yazıçı taleyim üçün yanlış başlanğıc olmayıb.

Yazıçıdan ötrü ilham xoşbəxtlikdir. Ancaq xoşbəxtlik qədər də heç nə korlamır yazıçını. Xoşbəxtliyə nadir hallarda layiq görməsi təbiətin

bizə mərhəmətidir. Odur ki, xoşbəxtliyin ələ az düşməsini də bəxtəvərlik sayın, insanlar.

Oxucu sual verə bilər: yazıçının yaxşısı pisindən nə ilə fərqlənir?

Oxucu heç bunu soruşmasa da, mən ələstü cavab verərəm. İstedadsız və istedadlı yazıçılar eyni mətləbi aşağıdakı tərzdə yazıya alırlar.

İstedadsız yazır:

– Restorana daxil olanda dostumu (adını çəkir) gördüm, o, həmişəki kimi, yığcam masa arxasında oturmuşdu və adəti üzrə, araq içirdi.

İstedadlı isə yazır:

– Restorana girəndə dostumu (adını çəkir) gördüm, o, həmişəki kimi, yığcam masa arxasında oturmuşdu, adəti üzrə, araq içirdi və mən də, həmişəki kimi, dərhal ona qoşuldum...

Bircə ifadə hər şeyi dəyişir. Özünəkinayə mənzərəni daha da genişləndirir və onu araq içən dost üçün həqarətə çevrilməyə qoymur. Ümumiyyətlə, özünəkinayədən məhrum yazıçı tez-gec oxucu kinayəsinə məruz qalır, həm də eynilə bundan məhrum olduğu dərəcədə.

Beləliklə, Şekspir keçiyə bölünəndə insan alınır. Mən bunu məzə üçün bir əziz insana danışmışdım; bizi Şekspirin təlxəklərinə rəğbət dostlaşdırmışdı. Bəzən zarafata salıb həyatı olduğu kimi qəbul edərək yaşamaqda bir-birimizə dəstək verirdik. Günün birində, qanımın qara vaxtı belə bir şeir yazmışdım:

Ağırlaşıb şişmişəm, leşəm sanki,
Hey-hərəkət yoxdur canımda.
Gözlərim elə zəifləyib ki,
Üzdən daha tanımıram da –
Dostu, düşməni, bir kimsəni.
Çiyinlərimi ağrıdır,
Belə yaşamaq ağırdır.
...Dəniz kənara atır xərçəngi,
Qırıq pəncələrilə dartınır o, təki
Dənizin qoynuna girsin bir anda...
Ağırlaşıb şişmişəm, leşəm sanki,
Hey-hərəkət yoxdur canımda.

Bir neçə gün sonra yanıma gələndə bu şeiri ona verdim ki, oxusun. Bunacan əhvalım düzəlmişdi artıq. Ara vermədən siqaret çəkə-çəkə şeiri uzun müddət oxudu, sonrasa başını qaldırıb dilləndi:

– Əgər bu şeiri oxuyanda başqa bir şəhərdə olsaydım, tez köməyinə qaçardım.

Dilxor olub söhbəti bağladım. Üstəlik, kosmopolitizmlə mübarizənin ondan ötrü ən ağır illərində necə qüsursuz mətanətlə hərəkət etməsindən xəbərim vardı. Hoqqabaz!

Onunla tez-tez mübahisəmiz düşürdü, eləcə mücərrəd mətləblərdən danışırdıq. Əksər hallarda fikirlərimiz uyğun gəlirdi, bəzən haçalanırdısa da, bunun dostluğumuza təsiri olmurdu.

Anlaşdığımız mülahizələrdən bəziləri bunlardır:

Qəddarlıq axmaqlığın axmaqlığa qalib gəlmək cəhdinin fəal təzahürüdür.

Hiylə qorxağın qaranlıqdakı zərbəsidir.

Təhlil hər cür həzzi öldürür, amma təhlildən alınan həzzi artırır.

Uzun-uzadı mübahisələrdən sonra insanın təkamül üzrə inkişafının ciddi elmi xəttini müəyyənləşdirdik: diriudan, boğazboğan, boğazyeyən, gödənyırtan, qılıncxirtdək, şərabxirtdək, toyuqxirtdək, palçıqxirtdək, çürükxirtdək, milçəkxirtdək (həm də qeybətxirtdək), boğazdeşən, boğazgəmirən, boğazbaz və nəhayət, dilbaz – poliqlot.

Əgər bu məqamda köks ötürmək istəyirsinizsə, xəbəriniz olsun ki, hələ vaxtı deyil, çünki inkişaf dövr edən (az qala cövr edən deyəcəkdim!) prosesdir və bunlar hamısı eyni qaydada təkrarlanır. Təkamül nərdivanı yazıq dilbazın – poliqlotun ağırlığına davam gətirmir, hər şey yenə diriudandan başlanır.

Amma "insanları keçi yerinə qoyan adamın özü keçi əti yeyə bilərmi" məsələsində sözümüz çəp gəldi. Mənə görə, belə bir adam keçi əti yeyə bilməz. Onun fikrincə isə, mənim yanaşmam ifrat subyektiv idealizmin, yaxud, kobud desək, solipsizmin (özümərkəzçilik – tərc.) təzahürüdür.

Bu minvalla, mən gülə-gülə (hər ehtimala qarşı!) deyəndə ki, müasir elm Şekspirin keçiyə bölünməsindən insan alındığını isbat edib, o, kinayə ilə qaşlarını qaldıraraq tutuzdurdu... Tutuzdurmaqda mahir idi o:

– Salamünəleyküm! Bu, artıq iyirmi ilin kəşfidir! Hətta tərsinə halın da isbatı verilib: Şekspiri insana bölləndə keçi alınır.

– Bəs niyə bunu heç deyib-eşidən olmayıb? – mat qalmışdım.

– Çünki dövlət sirri hesab olunurdu, – deyə cavab verdi. – Milli düşüncə sirri. Ancaq amerikalı kəşfiyyatçılar milli düşüncəmizin sirrini bizdən oğurladıqda bizim kəşfiyyatçılar da amerikanlardan onların milli düşüncə sirrini oğurladılar, hər ikimizin sirri uzlaşdığına görə onları açıqlamaq mümkün sayıldı. Müharibə təhlükəsi aradan qalxdı, demokratiya bizdə keçilər doluşmuş bostan kimi canlandı və hər bir

ölkə başladı otlamağa. Düzdür, hər ölkənin öz otlağı var, amma bu, başqa mövzudur.

Yeri gəlmişkən, mənim alim dostumu tam yalqızlıq şəraitində elmi təcrübələr aparması üçün kimsəsiz adada qoyub gəlmişdilər. Danışıldığı kimi, üç il sonra həmvətənlərimiz onun yanına üzüb gedəndə soruşmuşdular:

– Üç illik yalqızlıqda bağlı ən güclü təəssüratınız nə oldu?

Gözlənilmədən:

– Vicdanım rahatlandı, – deyə cavab vermiş, amma yumşaq tərzdə bunu da əlavə etmişdi. – Üstəlik, burada çoxlu vəhşi keçi var.

– İnsanlar anlamındamı? – kimsə onun söhbəti hansı baxımdan yumşaltdığını düzgün tutub bu qənaətə gəlmişdi.

– Bəli, insanlar anlamında, ancaq həm də təzə ət mənasında, – deyə, bəlkə də, mənimlə mübahisəsini qiyabən davam etdirərək açıqlama vermişdi.

Hər halda, həmvətənlər istər özlərinə görə, istərsə də insanlıq adına ondan incimişdilər.

– Belədirsə, bəlkə, sizi hələ üç il də burada qoyaq? – onlardan biri istehzayla soruşmuşdu.

– Düşünürsünüz, üç ilə bəşəriyyət islah olunacaq? – dostum da istehzada ondan geri qalmayıb, pillələrlə gəmiyə qalxa-qalxa cavab vermişdi. – Mənim hesabımca, o, Şekspirin dövründən bəri dəyişilməyib, amma zarafatların keyfiyyəti xeyli düşüb.

...Yox, – öz-özümə pıçıldayıram, – nə qədər olmasa, tərəqqi var. Çegemdə toyuqlar daha ağaclara qalxmır, gecələr dinməz-söyləməz hinə doluşur.

Amma yenə də ağaca qalxmaları yaxşıdır, bəlkə? İlahi, İlahi, nə qəliz haldır! Dəqiq təsbitdir ki, vaxtilə ağaclara indi hinə doluşanlardan qat-qat artıq toyuq qalxıb.

...Bəs mən haradayam? Çegem harada qaldı? Hər halda, keçilərin yanı daha yaxşı idi.

Tərcümə edən:
Seyfəddin HÜSEYNLİ

İosif BRODSKİ

Şair və nəsr



İosif Aleksandroviç BRODSKİ (1940-1996) – rus-amerikan şairi, esseçisi, dramaturqu, tərcüməçisi və pedaqoqudur. 1987-ci il üçün ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. 1991-92-ci illərdə ABŞ-ın laureat-şairi seçilib.

Şeir və dramlarının böyük əksəriyyətini rus, esselərini isə əsasən ingilis dilində qələmə alıb.

Öz poeziyasını nəsrdə davam etdirən Çvetayeva bu iki ədəbi növ arasında indiyədək əksəriyyətin şüurunda formalaşan və yaxalanması məhz sintaksis baxımından çətin sayılan dil sferaları arasındakı ayırıcı cizgini ortadan qaldırmayıb, əksinə, onu daha da yüksəldib. Adətən nəsrdə üslub baxımından dalana dirənmək təhlükəsinə sıx rast gəlinir, ancaq şairin sözügedən bu tətbiqindən nəsr sadəcə qazanır: öz sintaksisinin gərgin havasına qapılan Çvetayeva öz nəsrini elə bir sürətə kökləyir ki, həmin mühitdə inersiya (ətalət) qavramının öz məğzi də dəyişikliyə uğrayır. Həm də "teleqraf üslubu"nun, "şüur axını"nın, "sözaltı (eyhamlı) ədəbiyyat"ın və sairənin sözügedən yanaşmaya hər hansı dəxli yoxdur.

Bənzər definisiyaları (məlum məfhumların qısa izahını – A.Y.) həm onun müasirlərinin, həm də sonrakı nəsilləri təmsil edən müəlliflərin əsərlərində də görmək olar, ancaq o əsərləri daha çox nostalgiya və ya ədəbiyyatşünaslığın tarixi nümunələri kimi (əslində, bunlar elə eyni şeydir) oxumaq olar. Çvetayevanın yaratdığı ədəbiyyat – "fövqəlmətn" (mətnüstü) ədəbiyyatdır və əgər ondakı şüur "axırsa", bu proses əxlaqi çərçivəni aşmır: onun üslubunu teleqraf üslubuna oxşar qılan yeganə məqam isə əsas durğu işarələrindən sayılan tiredir: bu işarədən müəllif həm hadisələr arasındakı bənzərliyə eyham vurarkən, həm də rahatlıqla

anlaşılan mənaların üzərindən adlamaq istəyəndə yararlanır. Yeri gəlmişkən, bu durğu işarəsinin daha bir funksiyası da var: o, XX yüzil rus ədəbiyyatında bir çox məqamların üstündən xətt də çəkib.

Anna Axmatova deyirdi: "Marina çox vaxt şeirə yüksək sayılan "do" notuyla başlayır". Eyni fikri Çvetayevanın nəsrindəki intonasiya barədə də söyləmək mümkündür. Səs özəlliyindən asılı olaraq, onun mətni, demək olar ki, həmişə oktavanın digər ucundan, həm yüksək registrdən, həm də bütün əzəmətiylə başlanırdı, bunun ardınca isə ya eniş, ya da ən yaxşı halda plato (coğrafiyada "aid olduğu dağ silsiləsindən özünün hamar və ya cüzi relyefli zirvəsi ilə seçilən yüksəklik, yaylaq", musiqidə isə "melodiyanın nisbətən düzxətli bir tərzdə inkişaf etdiyi bölüm" mənasında işlənən termindir – A.Y.) gəlirdi. Ancaq onun səs tembri faciə çalarıyla necə dolub-daşırdısa, səslənmə nə qədər uzansa belə, şair bir yüksəliş təəssüratı yaratmağı bacarırdı. Bu faciəlilik onun ömür yoluyla bağlı deyildi, çünki daha öncədən də mövcud imiş. Sadəcə, şairin bioqrafiyası bununla bir növ üst-üstə düşübmüş, bir əks-səda kimi onunla uzlaşıbmış. Sözügedən o tembr müəllifin "Gənclik şeirləri"ndə daha bariz sezilməkdədir:

Gənc yaşda yazdığım o şeirlərlə
Necə dərk edəydim ki, mən... şairəm?!

Bu – özü barədə bir hekayət deyil, öz "mən"indən imtinadır. Bioqrafiyanın öhdəsinə düşən missiya isə şairə bəxş olunan o səsin ardınca, həm də qarabaqara düşüb getmək idi, çünki səs artıq irəlidə yaşanacaq olayları öz yedəyində çəkib-gətirməkdə idi: axı hər necə olsa, o, səs sürətinə malik idi. Sırf təcrübəyə gəldikdə isə, o, ilkin heyranlıq hissiylə heç vaxt ayaqlaşa bilmir.

Ancaq məsələ sadəcə ilkin heyranlıq hissinin təcrübədən geri qalmasından da ibarət deyil: əsas sənət ilə gerçəklik arasında mövcud olan fərqlərdədir. Bunlardan biri – materialın daxili imkanlarının əl verdiyi dərəcədə və onu elə bir lirizm həddinə yüksəltməkdir ki, bunun fiziki ekvivalentinə (qarşılığına) real aləmdə yerli-dibli rast gəlinmir. Eyni şəkildə, elə sənətdəki faciəviliyin ekvivalentinə də real aləmdə rast gəlmək imkansızdır, həm də həmin faciəvilik özünün məğzi etibarıyla lirizmin ya tərs üzüdür, ya da ondan sonrakı pillədir. İnsan oğlunun həyatda yaşayaraq qazandığı təcrübə hər nə qədər faciəli olsa da, alətlə ustaca davranış bu xüsusu ört-basdır eləməyə imkan yaradır.

Şair isə ¬– alət ilə insanın tək simada təzahürüdür, üstəlik, zaman ötdükcə, birinci ünsür ikincini üstələyir. Bu üstünlüyü sezdiyinə görə şair həm öz səs tembrinə görə, həm də dərk edib, barışdığı o taleyinə görə cavabdehlik daşımağa başlayır.

Görünür, şairin nəsrə, xüsusilə də avtobioqrafik nəsrə keçidini də qismən elə bununla izah eləmək olar. Çvetayeva ilə bağlı durumda bu, əlbəttə ki, tarixi vərəqləmək cəhdi sayıla bilməz, çünki aradan çox sular axıb: bu, daha çox mövcud reallıqdan tarix öncəsinə, yəni uşaqlığa doğru geriyə dönüş cəhdi sayıla bilər. Ancaq həmin dövr də "hər şeyin bəlli olduğu zaman" deyildir, "hələ heç nəyin başlamadığı" dönəm kimi, həm yetkin bir şairin bəxtinə düşən uşaqlıq dövrüdür, həm də zalım zəmanə sözügedən insanoğlunu ömür yolunun tən ortasına çatanda yaxalayıb.

Ümumilikdə götürəndə, avtobioqrafik nəsr də bənzər hallarda bizə sadəcə bir nəfəsdərməni xatırladır. İstənilən ricət kimi, o da həm lirik ovqatlı, həm də ötəridir. (Bariz avtobioqrafik ünsürlərlə birgə, bu şairin ədəbi esselərinin əksəriyyətində həm lirik ricətə, həm də onu müşayiət edən digər yaşantılara rast gəlinir. Elə bu səbəbdən də bütün çağdaş "mətn mətnşünaslığı" ilə müqayisədə onun esseləri "ədəbiyyat içində ədəbiyyat" adlandırılmağa layiqir.) Gündəlikdəki qeydlərini çıxmaq şərtiylə, Çvetayevanın bütün nəsri özünün mahiyyəti etibariylə retrospektiv (keçmişə yönəlmə – A.Y.) səciyyəlidir; çünki insan keçdiyi yola dönüb baxarkən, adətən nəfəsini dərməyə fürsət tapır.

Bu sayədə belə nəsr əsərlərində hər hansı detalın rolu adama poetik mətnlərdəkinə nisbətən bacardıqca lənglaşdirilən bir axını xatırladır: bu rol sırf müalicəvi xarakter daşıyır və o, kimə uzadıldığı hamımıza bəlli olan bir saman çöpüdür. Təsvirlərdə bol təfərrüat daşıdıqca, saman çöpünə duyulan tələbat da artır. Ümumilikdə götürəndə, bu cür əsər quruluşca "Turgenev ruhu"na çox meyl etdikcə, onun müəllifinin zaman, məkan və süjet xəttinə daha "avanqardca" yanaşma imkanları artır. Bənzər durumda durğu işarələrinin üzərinə düşən yük də artır. Belə ki, hekayətin sonuna qoyulan nöqtə işarəsi fiziki sonu, son həddi, ədəbiyyatdakı deyil, real aləmdəki qırılmanı göstərir. Bu qırılmanın məhz təhkiyə tərəfindən gerçəkləşdirilən və nizamlanan yaxınlığı və qaçılmazlığı müəllifin özünə tanınan hədlərdə kamilliyə can atmaq cəhdlərini on mislə qədər yüksəldir, artıq sayılacaq hər şeydən imtinası isə onun missiyasını qismən də olsa, xəfiflədir.

Artıq sayılacaq hər yükdən qurtulmaq – öz-özlüyündə poeziyanın ən başlıca çağırışıdır, bu, səslərin gerçəklik üzərində, mahiyyətin mövcudluq üzərində üstünlük qazanmasının tam başlanğıcıdır və deməli, faciəvi şüurun da qaynağıdır. Bu məsələdə Çvetayeva təkcə rus ədəbiyyatında deyil, deyəsən elə dünya ədəbiyyatında da xeyli yol qət edib. Ən azından rus ədəbiyyatında o, başqaları ilə (bunların sırasına ən görkəmli sayılan müasirlərimiz də daxildir) müqayisədə son dərəcə əlahiddə bir yer, mövqe tutur, həm də bundan ötrü o, gərəksiz sayıb, imtina elədiyi şeylərdən hördüyü divarı özüylə başqaları arasına bir sədd kimi qoyub.

Onunla – ilk növbədə, bir nasir olaraq – yanaşı durmağa layiq yeganə insan isə – məhz Osip Mandelştamdır.

Nasir kimi Çvetayeva ilə Mandelştam arasında qurulacaq paralellər həqiqətən də heyrətamizdir: onun "Zamanın hay-küyü" və "Misir markası" şairənin "Avtobioqrafik poeziya"sına, "Poeziya barədə məqalə" və "Dante ilə söhbət"i isə Çvetayevanın ədəbi esselərinə, "Ermənistana səfər" ilə "Dördüncü proza" isə "Gündəlikdən səhifələr"ə bərabər tutula bilər. Janr və mövzudan daha artıq dərəcədə onların üslubiyyatındakı bənzərliklər (süjet xəttindən kənara çıxmalar (caymalar), retrospektivlik, dil və metafora baxımından hədsiz zənginlik) daha bariz şəkildə sezilir, hərçənd Mandelştam öz xanım həmkarına nisbətən bizə daha ənənəçi müəllif təəssüratı bağışlayır.

Bu iki müəllifin əsərlərindəki üslub və janr bənzərliklərini onların bioqrafiyaları arasındakı oxşarlıqla və o dövrün ümumi ab-havasıyla izah eləmək, əlbəttə ki, doğru olmazdı. Həm bioqrafiyaların yönü, axarı əvvəlcədən bəlli olmur, həm də bu "dövr" və "ab-hava" məfhumları dəyişikliklərə məhkum qavramlardır. Çvetayeva ilə Mandelştamın nəsr əsərləri arasındakı ən başlıca bənzərliklər onların sırf linqvistik baxımdan hədsiz dolğun olmasındadır, adətən belə hədsiz dolğunluq məhz hisslərin tərcümanına çevrildiyindən oxucular tərəfindən bu cür qavranır. Sözügedən mətnlərdəki "qatı qıvam" öz obrazlılıq dərəcəsinə, ifadələrdəki dinamizmə görə nə dərəcədə bir-birinə yaxındırsa, aralarında qan qohumluğu olmayan bu müəlliflərin ən azından eyni dərnəyi və ya ortaq bir "-izm"i (ədəbi cərəyanı – A.Y.) təmsil edə biləcəyi ehtimalı gəlir ağlımıza.

Ancaq Mandelştamın akmeist olduğu bəlli idi, halbuki Çvetayeva ömrü boyu heç bir ədəbi qrupa qoşulmamışdı, hətta ən "gözüqara" tənqidçilər belə ona hər hansı yarlıq asmağa cəhd göstərməmişdilər. Çvetayeva ilə Mandelştamın sırf bu nəsr zəminindəki bənzərliklərinin sirri də onların məhz şair kimi sahib olduqları fərqliliklərin ardında yatmaqdadır: bu, onların dilə yanaşmaları ilə, daha doğrusu, dildən nə dərəcədə asılı olmaları ilə bağlı bir məqamdır.

Poeziya – sadəcə "ən uyğun sözlərin ən uyğun şəkildə düzülüşü" deyildir, o, həm də dilin ən ali səviyyədəki bir mövcudluq şəklidir. Əlbəttə, sırf texniki baxımdan o, maksimum həcm çəkisinə malik sözlərin daha effektiv və zahirən məntiqli düzülüşü kimi də təqdim oluna bilər. İdeal halda isə, poeziya – dilin öz çəkisindən və cazibə qanunlarından açıq-aşkar imtinasıdır, o – dilin yuxarıya – və ya yana – doğru, əvvəlcə sırf Sözün var olduğu o başlanğıca doğru can atışıdır. İstənilən halda o – dilin hələ janrlar yaranana qədərki, janrların fövqündəki sferalara, yəni özünün vaxtilə meydana çıxdığı ilkin mənbəyə doğru can atmasıdır.

Poetik nitqin ifadəsi əsnasında onun ən süni formaları kimi görünən terçinalar (bəndləri aba-bcb-cdc şəklində, yəni çarpaz qafiyələnən 3 misralıq şeir forması – A.Y.), sekstinalar (və ya sestinalar; bəndləri ab-ab-ab şəklində qafiyələnən 6 misralıq şeir forması – A.Y.), deçimalar (bəndləri (əslində – beytləri) ab-ab-cc-de-ed şəklində qafiyələnən 10 misralıq şeir formasıdır, bunları adətən "oda (mədhiyyə) bəndi" də adlandırırlar – A.Y.) və sairə əslində o ilkin Sözün əks-sədasının sonradan və təbii şəkildə, dönə-dönə, həm də bütün təfərrüatlar nəzərə alınmaqla, işlənmiş hallarıdır.

Buna görə də Çvetayeva ilə müqayisədə Mandelştam bir şair kimi zahirən daha formal biri sayıldığından özünü həmin əks-sədadan, təkrar səslərdən xilas edəcək bir nəsrə, bir şairi bəndlər çərçivəsində düşünməkdən xilas edəcək və ümumilikdə şeiriyyətdən uzaq bir nəsr sənətinə yetərincə ciddi tələbat duyurdu, çünki belə nəsrin həlledici gücü budaq cümləsindədir, təməl dialektikadadır.

Dilə gətirilən istənilən söz özünün hansısa şəkildə bir davamını gözləyir, umur. Bu davam isə müxtəlif tərzlərdə – məntiqi, fonetik, qrammatik, qafiyələnən – ola bilər. Dil də məhz bu sayədə inkişaf edir, məntiqin üstlənmədiyi yerdə fonetika onun inkişafa bir ehtiyac duyduğunu nəzərə çarpdırır. Çünki deyilən söz əsla nəyinsə sonu, axırı sayılmır, o, nitqin sadəcə bir ucudur, bunun ardınca isə – Zamanın mövcudluğu sayəsində – mütləq daha nələrsə gəlməlidir.

Sonradan deyilən fikir isə adətən özünə qədər söylənənlərdən bizə daha maraqlı gəlir – ancaq bu, artıq Zaman sayəsində yox, daha çox onun hökmünə zidd bir şəkildə baş verir. Dilin məntiqi də, Çvetayeva poetikasının təməli də sırf bunun üzərində qurulubdur. Olduğu yer, məkan ona həmişə dar gəlir: bu cəhət şeirdə də belədir, nəsrdə də, hətta onun nisbətən akademik təəssürat bağışlayan esseləri də öz məlum çərçivələrini aşmağa çalışırlar. Onun şeirləri tabeli mürəkkəb cümlələr əsasında, nəsri isə qrammatik anjembmanlar əsasında qurulur və bu yolla o, tavtologiyalardan qurtula bilir. (Çünki şeirdə reallığa münasibətdə qafiyənin oynadığı rolu nəsrdə məhz təxəyyül öz üzərinə götürür.) İlham pərilərinin ən dəhşətli cəhəti də onların həm metafora, həm süjet, həm də bədii fənd ilə bağlı təkrarlara qarşı dözümsüzlüyüdür.

Gündəlik həyatda eyni lətifəni iki və ya üç kərə danışmaq bir cürm, qəbahət sayılmır. Halbuki kağız üzərində bunu etmək yolverilməzdir, çünki dil sizi mütləq başqa, ən azından stilistik baxımdan fərqli bir addım atmağa məcbur eləyir. Ancaq, təbii ki, o da bunu sizin daxili ovqatınızı yüksəltmək üçün yox (hərçənd sonradan məlum olur ki, məqsədlərdən biri həm də bu imiş), özünün stereoskopik (stereofonik) ovqatından ötrü

edir. Axı klişelər – sənətin öz-özünü degenerasiya təhlükəsindən qorumaq məqsədiylə yararlandığı qoruyucu klapanlardır.

Bu bir sonrakı addımı şair nə qədər sıx atırsa, özünü bir o qədər çox inzivaya məhkum edir. Yəni bu özünəqapanma üsulu son nəticədə həmin üsuldan gen-bol yararlanan şəxsin ziyanına işləyir. Əgər indi söhbət sadəcə Çvetayevadan getməsəydi, onda şairin nəsrə keçməsini onun bir növ ədəbi "nostalgie de la boue"si, (yazı-pozuyla uğraşan) geniş kütlədə ərimək, "əksəriyyətin bir parçası"na çevrilmək istəyi kimi də yozmaq olardı. Ancaq indi biz ta əvvəldən nəyə doğru getdiyini, ya da dilin onu haraya aparacağını bilən bir şairdən söz edirik. Biz aşağıdakı misraların müəllifindən danışırıq:

"Şair sözünə xeyli uzaqlardan başlayır,
Və söz şairi çox uzaqlara alıb, aparır..."

İndi biz "Siçovul qənimi"nin müəllifindən danışırıq. Çvetayevadan ötrü isə nəsr onun qaçıb-sığınacağı bir yer, guşə deyildir, bu, hətta psixi və ya stilistik məhdudiyyətləri aşmağın bir forması da sayılmaz. Onun nəzərində nəsr – qapandığı inziva sferasını, yəni dilin ifadə imkanlarını, bilərəkdən məhz genişlətmək fürsətidir.

Bu isə özünə dəyər verən bir söz adamının sənətdə tutub-gedəcəyi yeganə yoldur. (Əslində hazırkı sənət aləmi başdan-ayağa klişeləşibdir və elə bu sayədə də öz varlığını sürdürə bilir). Həm də ədəbiyyat düşüncənin ekvivalenti sayıldığından, öz təhkiyəsində hədsiz uzaqlara gedib-çıxan Çvetayeva öz dövrü üçün daha maraqlı mütəfəkkir kimi diqqəti özünə çəkir. İstənilən şəxsin ən müxtəlif məsələlərlə bağlı, üstəlik də, bədii şəkildə ifadə olunan düşüncələrinin ümumi səciyyəsi qeyri-ixtiyari şəkildə oxucuda karikatura effekti doğurur: axı sintez xarakteri daşıyan hansısa olaya analitik tərzdə istənilən yanaşma cəhdi uğursuzluğa düçar olur.

Buna rəğmən, Çvetayevanın düşüncə sistemini diskomfort fəlsəfəsi kimi, təkcə kandar (eşik) hallarla deyil, həm də kənar (ucqar) hallarla bağlı bir mühazirə kimi dəyərləndirsək, biz hər hansı riskə getmərik. Bu mövqeyimizdə hər hansı stoiklik (dönməzlik – A.Y.) nişanəsi axtarmağa gərəkyoxdur, çünki o, ekzistensialist deyil, ilk növbədə məhz estetik-linqvistik baxışların diktəsidir, çünki gerçəkliyin məğzini də elə onun inkarı təşkil edir. Bu yanaşmanın fəlsəfi səviyyədə nə bir banisi var, nə də davamçısı. O ki qaldı şairənin müasiri olan şəxslərə, onda əlimizə hər hansı sənədli dəlil keçmir və müəllifin Lev Şestovun əsərləriylə yaxından tanış olduğunu təxmin etməmiz daha ağlabatan sayılır. Təəssüf ki, əlimiz altda sözügedən dəlillər bulunmur, onlar həm hədsiz dərəcədə kasaddır, həm də yaradıcılığının ilkin mərhələsində özünə təsir göstərən yeganə

rus mütəfəkkirinin (daha doğrusu, onun fikriniazdıranın) məhz Vasili Rozanov olduğunu zatən Marina Çvetayeva özü də açıq-aşkar etiraf edirdi.

Əgər belə bir təsir həqiqətən də mövcud olubsa, o halda bunun sırf üslubla bağlı olduğu ayrıca vurğulanmalıdır, çünki yetkin yaşdakı Çvetayevanın yaradıcılığına hakim kəsilən amansız, bəzən isə az qala kalvinist ruhdakı şəxsi məsuliyyət hissi Rozanovun dünyagörüşünə nəzərən tamamilə əks bir qütbdə qərarlaşır.

Varlıqla (o cümlədən, gələcəkdəki yoxluqla) yanaşı, bəzi nəsnələr də şüura yön verir, onu şəkilləndirir. Belə nəsnələrdən biri də dildir. Çvetayevanın özünə qarşı sərgilədiyi və Kalvinin adını xatırlamamıza səbəb olan o amansızlığın tərs üzündə öz qələm yoldaşlarına dəyər biçərkən şairənin adətən qarşılıqsız qalan səxavəti dayanır ki, bu da təkcə onun gördüyü tərbiyənin yox, həm də – və ilk növbədə – şair ilə dil arasındakı peşəkar münasibətlərin təzahürü və ya davamı kimi qavranıla bilər.

Tərbiyədən söz düşmüşkən, xatırladaq ki, Çvetayeva üç ayrı dildə təlim-tərbiyə almışdı, bunların arasında isə rus və alman dilləri üstünlük təşkil edirdi. Əlbəttə ki, burada söhbət fəhmlə hansı dili seçməkdən getmir: onun doğma dili rus dili idi, ancaq hələ uşaq yaşlarından Heyneni orijinalda oxuyan birisi istər-istəməz "Qərbdəki yad ailəyə xas ciddiyyətin və dürüstlüyün" məntiqinə də hər halda yiyələnəsiydi.

Zahirən həqiqətə və dəqiqliyə can atma ehtirası kimi qavranan cəhdlər öz mahiyyəti etibarıyla linqvistik xarakter daşıyır, yəni bunların kökü dildən gəlir, öz mənbəyini dildən alır. Yuxarıda haqqında danışdığımız budama metodu, artıqgörünən hər ünsürdən qurtulma metodu artıq bir instinkt həddinə qədər gəlib çatmışdı, daha doğrusu, bu həddə çatdırılmışdı və bütün cəhdlər də sırf bunun hesabına gerçəkləşdirilirdi. Şairlə əlaqədar şərtlərdə həmin cəhdlər qismən ideosinkret səciyyə daşımağa başlayırdı, çünki bəzi istisnaları çıxmaq şərtiylə, şairdən ötrü fonetika və semantika təxminən elə eyni şeydir.

Bu eyniyyət şüura elə bir təkan verir ki, o, öz sahibini mövcud halından çıxarmaqla qalmır, onu bu və ya digər bir Platonun təklif etdiyi və deməli, gözlənilən enerjidən həm daha sürətlə, həm dəqat-qat uzaqlara göndərə bilir.Ancaq bu da hələ hamısı deyildir. Bu xəyal olunan və əsasən də real yerdəyişməni müşayiət edən istənilən emosiyaya sözügedən eyniyyət sayəsində bəlli yön, nizam verilir; bu emosiyanın ifadə şəkli də, eynilə faktın özü qədər, yuxarıda sözüedilən o eyniyyətdən birbaşa və estetik bir asılılıqdadır. Ümumilikdə götürəndə, əxlaq (etika) da estetikadan asılı duruma düşür. Çvetayevanın yaradıcılığındakı ən əlamətdar məqam – fenomenal dərəcədə güclənən dil həssasiyyəti fonunda onun biçdiyi mənəvi dəyərlərin öz mütləq sərbəstliyini qoruması faktıdır.

Əxlaqi başlanğıcla linqvistik determinizm arasında gedən mübarizənin ən uğurlu nümunələrindən biri də şairənin 1932-ci ildə yazdığı "Şair və zaman" başlıqlı məqaləsidir: bu, elə bir mübarizədir ki, onda heç kim ölmür və sonda hər iki tərəf qalib sayılır. Çvetayevanın yaradıcılığının məğzini anlamaq baxımından həlledici mətnlərdən biri sayılan bu məqalədə biz abstrakt kateqoriyaların şüurumuzda tutduğu mövqelərə (bu nümunədə isə məhz Zaman ideyasına) frontal (birbaşa, açıq-aşkar – A.Y.) semantik həmlənin nisbətən bariz bir örnəyi ilə qarşılaşırıq. Bu cür manevrlər nəticəsində qazanılan nailiyyət isə ədəbi dilin abstrakt qavramların o gərgin atmosferində nəfəs alınb-verməyə alışmasıdır, çünki bu zaman mücərrəd qavramlar fonetik və əxlaqi baxımdan da zənginləşirlər.

Əgər Çvetayevanın yaradıcılıq yolunu qrafik üsulla təsvir etsəydik, o zaman az qala dimdik şəkildə yuxarıya yüksələn əyri bir xət alınardı: həmin xəttə bu dikliyi qazandıran isə şairin daima daha uca notlara, daha yüksək ideyalara can atmasıdır. (Daha dəqiq desək, bu, oktava və inanc baxımından belədir). O, hər fikrini,həm də həmişə sona, xırdalıqlarına qədər ölçüb-biçdikdən sonra ifadə edir. Onun istər şeirlərində, istərsə nəsr əsərlərində heç nə havadan asılı vəziyyətdə qalmır, heç nə oxucuya ikili təəssürat bağışlamır. Öz-özlüyündə Çvetayeva – elə bənzərsiz bir haldır ki, zəmanənin mənəvi təlaşları (incələdiyimiz durumda bu, insan təbiətinin mövcudluğundakı ambivalentlikdə, ikitinlilikdə öz təzahürünü tapır) ifadənin hədəfinə deyil, onun bir vasitəsinə, sənətin bir mənada xammalına çevrilir.

Poeziyadan fərqli olaraq, şairin nəsrə müraciəti ilk baxışda guya onun düşüncə tərzinin ardıcıl inkişafındakınövbəti mərhələ effektini doğura bilər, halbuki öz-özlüyündə və dolayı yolla o, sübuta yetirir ki, böyük önəm verilən mənəvi yaşantılar elə də vacib ünsür deyilmiş. Guya daha yüksək yaşantılar da mümkünmüş və bu mənada nəsr oxucuya bələdçilik eləyə bilər, əlindən tutmaqla onu buradan-oraya aparar, yoxsa əks təqdirdə, o, həmin yaşantıları şeirin dar çərçivələrinə dürtüşdürməyə məcbur qalacaqdı.

Sonuncu ehtimalı, yəni oxucunun qeydinə qalmaq məsələsini, sırf ona görə diqqətdə saxlamaq lazımdır ki, bu, bizim əlimizdə Çvetayevanı rus ədəbiyyatı ənənələrinə uyğunlaşdırmaq baxımından yeganə fürsətdir, axı təsəlli təmayülü, gerçəkliyə və ümumilikdə dünya düzəninə (imkan daxilində, ən yüksək səviyyədə) haqq qazandırmaq təmayülü bu ədəbiyyatda hakimdir. Əks halda, belə çıxacaq ki, Zamanla hər nə qədər "yemləsən" belə, "Əbədiyyətin qorxunc meşəsindən" gözlərini çəkməyən bir "boz qurd" kimi Çvetayeva "yerdəkilərin qulaqlarına Göylərin həqiqətini" hayqırmaqla qalmayıb, bunların arasındakı məqamlara hər hansı məhəl qoymamaqla yanaşı, rus ədəbiyyatının son dərəcə sıldırım bir qayasında həqiqətən də tək-tənha qərarlaşıbdır.

Təkcə etikanın (əxlaqın) deyil, estetikanın da diktəsiylə mövcud reallıqla barışmazlıq (ondan çiyrinmə) – milli ədəbiyyatımız üçün qeyri-adi bir hal sayılmalıdır. Əlbəttə, biz bunu həmin reallığın və öz yurdumuzun özəllikləri ilə, ya da tamamilə fərqli məqamlarla bağlaya bilərik: ancaq, görünür, durum bir qədər fərqlidir. Çox yəqin, məsələ yeni semantikanın yeni fonetikaya duyduğu tələbatla bağlı olub və məhz Çvetayeva o vaxt bunu ortaya qoyub. Rus bədii söz sənəti onun simasında o vaxta qədər sahib olmadığı daha bir üfüq qazanıbdır: bununla şair sübuta yetirib ki, dilin özü faciəvi məzmuna meyl göstərir. Dünya nizamı sırf fonetik həddə faciəvi olduğundan sözügedən yeni üfüqdə reallığa hər nə cürsə haqq qazandırmaq və ya onunla hesablaşmaq əsla mümkün olmayacaq.

Çvetayevaya görə, nitqdəki səsin özü də faciəviliyə meyillidir, hətta bundan o, (eynilə hönkürtüdəki kimi) nələrsə qazanır. Buna görə də nəsihətçi pozitivizm ruhunda şəkillənən və hətta "əvvəlcə sağlığına, sonra isə ruhunu anmaq üçün qədəh qaldırdıq" deyimini mövcud normaları pozmaq cəhdi kimi dəyərləndirməyə çalışan bir ədəbiyyat üçün Çvetayevanın yaradıcılığı – bundan qaynaqlanacaq hər cür sosial nəticələr də daxil olmaqla – görünməmiş bir müjdə sayılmalıydı. Çvetayevanın tərcümeyi-halı ondan daha əvvəl ölənlərin bioqrafiyalarından müsbət mənada fərqlənir.

Ancaq o da var ki, söz sənətində yenilik sayılan bir şey milli şüurdan ötrü eyni dəyəri daşımaya bilə. Təkcə Nikolay Klyuyevi çıxmaq şərtiylə, XX əsrdə yazıb-yaratmış böyük şairlərin arasında Çvetayeva folklora ən yaxın müəllifdir, onun yaradıcılığının dərkində ən vacib ünsürlərdən biri isə ağı, oxşama stilistikasıdır. Əgər Klyuyev öz yaradıcılığında folklorun "göstəriş" deməyim də, dekorativ ünsürlərindən ustalıqla faydalanmağa nail olmuşdusa, Çvetayeva sırf düşdüyü şəraitin diktəsi altında folklorun əsas məğzini təşkil edən başqa ünsürdən, yəni ünvansız ricətdən yararlanmağa məcbur qalmışdı. Şeirlərində olduğu kimi, onun nəsrində də biz daima bir monoloq dinləyirik, ancaq bu monoloq baş qəhrəman olan qadına yox, hansısa həmdəmə həsrət bir müəllifə məxsusdur.

Bu cür ricətlərin başlıca özəlliyi – danışanın həm də dinləyici tərəf olmasıdır. Bir çobanın nəğməsi sayıla biləcək folklor – danışanın özünə, öz hekayətinə – onun qulağının öz dilinə köklənmə aktıdır. Məhz bu üsulla, yəni öz-özünü dinləmək hesabına da dilin özünüdərk prosesi gerçəkləşir. Çvetayeva şeiriyyətinin genealogiyasını hər nəylə və nə cür izah eləsələr də, onun oxucu şüurunda buraxdığı izlərə görə daşıdığı məsuliyyət səviyyəsi həm o dövrün, həm də indiki zəmanənin hazırlıqlı rus oxucusunun bu məsuliyyəti öz üzərinə götürmək səviyyəsindən xeyli dərəcədə yüksəkdir, çünki məntiqi cəhətdən folklor ilə müəllif yaradıcılığı arasındakı fərq də məhz bu tələbdən başlanır.

Hətta ehkamların qalın zirehi, ya da mütləq sinizmin nisbətən zəif zirehi ardında qorunsa belə, sənət işığına büründüyü an müəllifin vicdanı hər cür müdafiədən məhrum qalır. Onun bundan qaynaqlanan və qaçılmaz sayılan dağıdıcı gücü isə həm dini icma başçıları, həm də sürünün özü tərəfindən etiraf olunur, bu səbəbdən də Çvetayevanın öz xalqının dilində yazdığı "Seçilmiş əsərləri" indiyədək nə bu ölkə daxilində çap olunub, nə də onun hüdudları xaricində.

Siyasi müstəvidə alçaldılan bir millətin qürurunu onun mövcud mənəvi mirasını nəzərə almadan qırmaq cəhdi məntiqi baxımdan mənasızdır. Qanunvericilik ənənələri, seçki təsisatları və sairə sayəsində öz bəxtəvər həyatını təmin edən xalqlardan fərqli olaraq, Rusiya sırf ədəbiyyatın köməyi ilə öz-özünü dərk etmək iqtidarındadır. Bu səbəbdən də hətta ikinci dərəcəli müəlliflərin əsərlərinə yasaq qoyulması və ya onları yoxa saymaq yoluyla ədəbi prosesin zəiflədilməsi bu millətin gələcəyinə qarşı aşkar cinayət işləməyə bərabər tutulmalıdır.

Çvetayevanı nəsrə keçməyə həvəsləndirən səbəblər və bunun nəticəsində rus şeirinin uğradığı itkilər hər nə olursa-olsun, bizlərə İlahinin hikmətinə əsasən bu hadisənin baş verməsinə sadəcə şükür eləmək düşər. Bundan əlavə, poeziyamızın nələrisə itirdiyini də demək çətindir, çünki sırf forma cəhətdən itkiyə məruz qalan poeziya daşıdığı enerji və məna-məzmun cəhətdən özünə sadiq qalmağı, yəni öz məğzini qorumağı bacarıbdır. Əslində hər bir müəllif – hətta inkar yoluyla da – öz sələflərinin miras qoyduğu postulatların, idiomatikanın və estetikanın inkişafçısına, davamçısına çevrilir. Çvetayeva isə nəsrə müraciət etməklə, özünü inkişaf etdirdi və bu addım onun öz daxili tələbatına verdiyi bir reaksiya idi.

Şairənin bu izolyasiyası heç də məqsədli deyildi, əksinə, məcburi idi, ona kənardan sırınmışdı, bu, onun yazdığı dilin məntiqindən, yaşadığı o tarixi hadisələrdən, müasirlərinin daxili mahiyyətindən irəli gəlirdi. Onu heç bir halda ezoterik şair adlandırmaq olmaz, çünki XX əsr rus poeziyasında ondan daha çılğın səsə malik ikinci birisinə rast gəlinmir. Həm də ezoterik şairlər əsla nəsrə keçmirlər. Onun rus ədəbiyyatının axarından qopub-çıxması da, hər şeyə rəğmən, yaxşıya yozulmalıdır. Şairənin sevimli şairi Rilkenin yazdığı və rəğbət duyduğu digər şair Pasternakın ruscaya çevirdiyi bir şeirdəki ulduz da məhz belədir: o, "bir icmanın lap qurtaracağındakı ulduz kəndin sonuncu evinin" pəncərəsində sayrışan işıqdır və o, öz icmasını başqalarına göründüyündən daha iri göstərməyə xidmət eləyir.

1979 -cu il

Dilimizə çevirdi – Azad YAŞAR

Şövkət ZƏRİN HOROVLU

İSİNƏSƏN

Bu dərd üzülə yaxandan,
Sən də yorulub bezəsən.
Göyün üzünə çəkilib
Bir gün asudə gəzəsən.

Alnına yazılan bəxti
Alıb ovcuna, sıxasan.
Getdiyin ömür yolunun
Durub sonundan baxasan.

Elə yer ola gedəsən,
Orda nəhs adam olmaya.
Üstündən çırpıb tökəsən,
Günahın, xətan olmaya.

Sinə dolu nəfəs alıb
Ömrün izinə düşəsən.
Fürsət ola, özünlə də
Bircə kərə görüşəsən.

Biri əlini oxuya,
Ürəyinlə tanış ola.

Gördüyün bəd yuxuların
Yozumu da yanlış ola.

Elə ömür yaşayasan,
Ağrı döyməyə sinəni.
Qəfil yox olub gedəsən,
Tənhalıq görməyə səni.

Köhnə, qırıq ümidləri
Tikib əyninə geyəsən.
Qürbət səni üşüdəndə
Bircə hovur isinəsən.

YOLUN GÖZLƏDİM

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə axta zoğal da yoxdu.
M.P.Vaqif

Bu il də yel kimi keçdi yanımdan,
Yenə də sıxılan kövrələn, mənəm.
Gələndə ömrümə nə gətirdi ki,
Gedəndə dalınca heyifsilənəm?

Bayram süfrəsini bol nemət bəzər,
Süfrə halallıqdı, səmimiyyətdi.
Təzə qönçələnər sevən könüllər,
Təzə il arzudu, ülvi, niyyətdi.

Qaz da bahalaşdı, çörək də elə,
Evimi, odamı necə isidim?
Pulqabım da məndən, vallah, utanır,
Gözümü süfrəmdən necə gizlədim?

Gumanım şeirə, qələmə gəlir,
Ona da bazarda məhəl qoyulmur.
Zaman şairləri gözündən salıb,
Bir qələm bircə gün qarın doyurmur.

Haqlının ağzına daş basır dövran,
İndi harınlayıb ağıldankəmlər.

İlahi, bunlarda «fərasətə» bax –
Daraşıb ölkəni diri yeyirlər.

Bəhsəbəhs var yığır, sərvət daşıyır,
Gözündə gizlənib min cür yalanlar.
Qınına çəkilib xəlvət yaşayır,
Özgə ölkələri vətən sananlar.

Yola saldığımız Şəhid iliydi,
Torpaq nalə çəkdi, daş da göynədi.
Qarabağ dərdlərin ən böyüyüydü.
Gözümüzdə yandı, yaş da göynədi.

Biri qoşa oğul verdi torpağa,
Dərdi dəryalardan, dənizdən dərin.
Təki vətən yenə yaşasın, – dedi,
Tükü tərpənmədi biganələrin.

Bir il də yel kimi keçdi yanımdan,
Ekranlarda yalan vədlər izlədim.
Birtəhər söykənib köhnə ömrümə
Yenə təqaüdün yolun gözlədim.

ŞƏHİD ANASI

Huşun başdan uçub, şəhid anası,
Gündə neçə kərə yanıb-sönürsən?
Bayrağı öpəndə oğul yerinə,
Canlı bir Şəhidə sən də dönürsən.

Gecələrin keçir zülmət içində,
Bircə an ovunub yata bildinmi?
Qaraltıya qaçıb, səsə yüyürüb,
Ay ana, oğluna çata bildinmi?

Günün-güzəranın necədi, ana,
Sönük ocağını yandıran varmı?
Qapısını döyüb uçuq komanın,
Sınıq dirəyini qaldıran varmı?

Nağıl axşamların sonamı yetdi,
Uyuyan oldumu dizinin üstdə?
Kimlə bölüşürsən nağıl dünyanı,
Kim var söz gətirə sözünün üstə?

Əlləri qoynunda, nə düşünürsən,
Kimi gözləyirsən yol ayrıcında?
Nə yoldan ötən var, nə də ki gələn,
Toxtayıb səngimir ağrın-acın da.

Çıprılıb ürəyin ümid qapısı,
Özün xəyallara köçmüsən, ana.
O qara xəbəri aldığın gündən
Köynəyini dərddən biçmisən, ana!

Yenə dərddən yapış, a zalım qızı,
Bəxt, tale yazanı qarğıma hər dəm.
Nə yaxşı həyanın -- bu dərdin də var,
Biz dərdə də möhtac oluruq hərdən.

ÖLMÜR ANALAR

Ana, qocalmısan tez-tez söyləmə,
Qar tutan saçlarım titrəyər, əsər.
Asta yerişimə tənə eyləmə,
Qıçım, ayaqlarım səndən inciyər.

Ürəyim üşüyər soyuq baxışdan,
Yuxu gözlərimdən ərşə çəkilər.
Yastığım islanar gizli yağışdan,
Üstümə gecənin odu tökülər.

Dizlərim bükülür, yapış əlimdən,
Qoy söykənim sənə, arxa-dayaq ol.
Bir vaxtlar düşməzdin qollarım üstdən,
İndi də sən mənə əl ol, ayaq ol.

Dünya köçündəyəm, karvanım gedir,
Bənd-bərə bağlanıb, kəsilib yolum.
Ta ömür darıxır, sözümə baxmır,
Məni çox qınama, qurbanın olum.

Gəlimdə-gedimdə xiridar dünya,
Əbədi qaydadır, yenə fırlanar.
Ayağının altı cənnət yeridir,
Yaşayır, qocalır, ölmür analar.

BAYRAQ BİTİRİB

Yenə ürəyimin qubar vaxtıdır,
Yenə gözlərimdən payız tökülür.
Payız duyğularım kövrəlib deyə,
Köhnə həsrətimdən qəlbim sökülür.

Göylərin qəmini çəkən yağışım,
Elə bil mənimlə söz-söhbəti var.
Tələsmə, yağışım, bu yolun neçə –
Qatı açılmamış hekayəti var.

Dünyanı gəzirsən qəmsiz, kədərsiz,
Hardan biləsən ki, nələr çəkmişəm.
Həsrəti kiridib ovutmaq üçün
Şeirimə bürünüb gecələmişəm.

Gəl köhnə dost kimi duraq üz-üzə,
Yaddaş boxçamızı açaq, danışaq.
Kələfi açılan bu uzun yolun
Könlünü şeirlə alaq, barışaq.

Bir şeir oxuyaq yağış dilində,
Küsən o kənd bizi bəlkə tanıdı.
Asta keç yanından, burda hər daşın
Üstündə gül açan Şəhid qanıdı.

Burda hər ağacın qan yaddaşı var,
Barıt qoxuludu gül də, çiçək də.
Dindirsən insantək sənlə danışar,
Burda yağan qar da, əsən külək də.

Burda vətənləşən Vətən oğullar
İtən haqqı alıb bizə yetirib.

Eynəsi açılan dağlarımızın
Döşündə üçrəngli bayraq bitirib.

SƏNDƏN SAVAYI

Heç bilirsən nədən solur güllərim,
Heç bilirsən, gecəm üşüyür nədən?
Pəncərəmdə heykəlləşib baxışım
Sən mənim dünyamdan köçüb gedəndən.

Bilirsənmi nədən sınıb qanadım,
Qısılıb yanıma, açа bilmirəm?
Səndən sonra sanki ruhsuz bir canam,
Sənsizlikdən çıxıb qaça bilmirəm.

Məni o illərin qoxusu vurur,
Bir ünvana yazılmışdı sevgimiz.
Ürəkdə boş qalıb ümidin yeri,
İndi görüşürük yuxularda biz.

İtib o sevginin ünvanı, adı,
Üşüyür alnımın qırışlarında.
Nə mən qınayıram, nə də o məni,
Soluruq həsrətin yağışlarında.

Necə deyim, ürək toxta, bozlama,
Vaxt, zaman, dayanın öz yerinizdə.
Gözünüz dolmasın, xatirələrim,
Bir ömrün izi var hər birinizdə.

Yenə nə çırpınır ömür küləyi,
Döyəcləyir qalan illəri, ayı.
Heç kəs ürəyimi ovuda bilməz
Özün də bilirsən səndən savayı.

BİR XIŞMA SEVGİ

Nə yaxşı, görüşdük yenə bu gecə,
Yuxuma yalvardım gələnə qədər.
Ürəkdə bir xışma sevgi közərdi,
Yəqin bəs eləyər ölənə qədər.

Göylər də dəyişdi rəngin bu anda,
Dünya gözəlləşdi bu gecəyarı.
Elə bil, əlində bir dəstə çiçək
Geriyə qayıtdı ömrün baharı.

Qaranlıq əyilib ay işığında,
Öpdü ayağını gələn səhərin.
Sanki açılmışdı qaşı-qabağı
Bir küncə qısılan xatirələrin.

Qorxdum ki, yarıda yuxum qırıla,
Yuxumdan düşəsən, bir də görməyəm.
Dilimi yandıran o bircə sözü
Yuxuda da sənə deyə bilməyəm.

Qayıda bilsən, gəl olduğun yerə,
Bu yaşda yüyürüm mən qabağına.
Yoxluğun bir ömrü sovurub göyə,
Barı gəl ruhumun uçan çağına.

Nə yaxşı görüşdük yenə bu gecə,
Yuxuma yalvardım gələnə qədər.
Ürəkdə bir xışma sevgi közərdi
Yəqin bəs eləyər ölənə qədər.



İsa SEVƏR

ÜŞÜYÜRƏM, BABA!..

Poema

6 fevral 2023-cü il fevralın 6-da
Türkiyədə baş verən zəlzələ zamanı
dağıntılar altından çıxarılan uşaq
xilasediciyə səsləndi: Üşüyürəm, baba!...

Torpaq altından çıxan bəxt,
Daş arasından gələn tale,
Televizorda gördüm səni,
Üşüdün?
Mən də üşüdüm!
Təzyiqim qalxdı
Rahat otağımda,
Yumşaq yatağımda
Gördüm ölürəm…
Yerşünaslar şərh edir:
Türk yurdları
Zəlzələ yuvasıdı,
Zəlzələ obasıdır,
Zəlzələ zonasıdır.
Əlli ildən bir,
Yüz ildən bir
Qırılırıq,

Azalırıq,
Yurd dəyişmirik!
Bizdə də
Qədim Bərdə yerə batıb,
Qədim Gəncə yerə batıb,
Sağ qalanımız köçməyib,
Yurd dəyişməyib.
Demişəm,
Bir də deyirəm:
Türkləri sevgi öldürür–
Od sevgisi,
Su sevgisi,
Yurd sevgisi!

II

Zəlzələ –
İnsanı durduğu yerdə
Tapan dərd,
Amansız fəlakət!
Evlər qəfil yoxa çıxır,
Qalalar yıxılır,
Yerə batır insan naləsi,
Göyə qalxır insan naləsi,
Bəşər köməyə tələsir
Cəsarəti ilə,
İti ilə,
İpi ilə.
Dost özünü yetirir,
Düşmən düşünür:
Budur son?
Uşaq səsi gəlir:
Üşüyürəm, baba!
Fəlakət yaradan
Yeraltı sınaqlardan,
Yandırılan meşələrdən
Kəsilən ağaclardan!

Kündəsi küt gedir, təndiri qızmır,
Meşənin qarğışı tutub bu yeri.
Ürəyi deyəni əməli yazmır,
Heyrəti gözündə donub bu yerin.

Ağsaqqal palıdı yaraladılar,
Bir nər nərildədi, min şumal əsdi.
Polad saqqızları paraladılar.
Dədələr əkəni gədələr kəsdi.

Ağsaqqal kəldilər, başsız qaldılar,
Böyüyü qıraqdan gəldi bu yerin.
Kəhrizi batırıb, «kola» aldılar,
«Sirab»ı torpaqda qaldı bu yerin.

Meşənin yerinə mala çəkildi,
Hərə öz həyətin, evin düşündü.
Meşənin yerində şirkət tikildi,
İşə bax, ağsaqqal cibin düşündü…

İnəyi qısırdı, quzusu yetim,
Meşənin qarğışı tutub bu yeri.
Kəsilən palıdın yerində bitim,
Qarğışdan qurtarım gərək bu yeri.

Bəlkə,
Bir ağac da qoruyar bizi,
Yanan meşələr üşüdür məni,
Üşüyürəm, baba!...
Qarabağda
Dağların bağrını sökür dığalar,
Qızılı,
Misi daşıyırlar elə,
Çəkirlər dünyanı
Belədən-belə
İnsandan insana
Bu da bir tələ…
Belə ağıllara gərək zəlzələ,
Belə ürəklərə gərək zəlzələ!

III

Türk ədalət carçısı,
Türk həqiqət əsgəri.
Daş altında qalsaq belə,

Tanrı qoymaz
Haqsız göyərə,
Ədalətsiz göyərə…
Üşüyürəm, baba!
Dünyanı bürüyən
Barıt qoxusundan,
Meşələrdə gizlənən raкetlərin
Кal yuxusundan
Fransızlar
Кədərə каriкatura çəкirlər,
Zəlzələdən ölənlərə
Viкtor Hüqo ölкəsində
Gülürlər?
Axmaq bilməz
Zəlzələyə alim gücsüz,
Adil gücsüz…
Çarə tapa bilmirlər
Cavabsız suallara,
Üşüyürəm, baba!

IV

Babalarım bu şəhəri qurmaq üçün
Can qoyub,
Bu кəndi tiкməк üçün
Can qoyub,
Özü ehtiyac içində
Sərhədi кeçən qaççına
Sahib çıxıb,
Acı doyurub.
Кim qarğadı bu yurdu?
Niyə batdı bu şəhər?
Bu кənd?
Söndü çıraqlar.
Hardan tapdı bizi bu dərd?
Şaxtadan, qardan üşümürəm,
Haqsızlıqdan,
Allahsızlıqdan
Üşüyürəm, baba!

V

Daş arasından gələn tale,
Səsin yayıldı cahana.
Sən üşüdün,
Aşıq Veysəl üşüdü.
Əziz Nesin üşüdü,
Hüseyn Cavid üşüdü,
Bəxtiyar Vahabzadə üşüdü!
Körpə bala,
Bu, bir tale işidir,
Zəlzələ
«Mənim sadiq yarım qara torpaqdı»
Deyənin qismətidi!
Zəlzələ də
Dünya gərdişidi.
Rəhmət, min rəhmət
Çiyinlərdə gedənə də,
Eviylə,
Şəhəriylə birgə
Köçənə də…

VI

… şəhər salmaq çətindi,
Yoluna tökülən çınqılı da,
Evlərə hörülən daşı da,
Küçəsinə əkilən ağacı da,
Özünə qayıdan huşu da,
Pozulan yaddaşı da
Vaxt istəyir.
Hamısı da
Minbir əziyyətlə
Başa gəlir.
Tikiləcək hər ev
Su istəyir,
İşıq istəyir.
Bütün bunlar,
Allah bilir,
Neçəyə başa gəlir…
Uşaq yuxuda səslənir:

Qonşular, dostlar yada düşür,
Üşüyürəm, baba!

VII

Üşüyürəm, baba!
Soyuq insanlardan!
Buz insanlardan!
Ancaq,
Məni daş altından çıxaran
Nəcib insan
Canın riskə qoyub,
Sonasını,
Balasını anasına tapşırıb
Acımı duyub
Köməyə gəlib.
Hamıdan əvvəl də
Can Azərbaycan!
Dar ayaqda,
Çətin anda
Başımın üstündə durub,
Ürəyim riqqətlə vurub,
Rəngim üzümə qayıdıb,
Gücüm özümə qayıdıb,
Yaşamağa ümidim artıb.
Axı,
Dost yaradıb
Bizi yaradan!
Düşmənlər gəldi hardan?
Nadanlıq doğdu nədən?
«Məndə sığar iki cahan» deyən
Ürək səndədir,
Mənə daş altında da
Can, can, deyən
Qardaşım Azərbaycan!

VIII

Üşüsəm də, baba!
Qorxmuram ölümdən,
Deyirəm birdən

Torpağa batan evləri,
Qeyb olan кəndləri
Tiкməmiş ölərəm,
Qurmamış ölərəm!
Onda
Mən heç olmamışam,
Elə bilərəm…
Türк yıxılar,
Bir də durar!
Кənd salar,
Şəhər salar,
Daşlara tarix yazar.
Yazımızı yazan yazır,
Biz də işə başlayırıq.
Yuvamıza
Quş кimi çöp daşıyırıq!
Əfəndim,
Nazim Hiкmət deyib:
«Böyük insanlığın torpağında кölgə yox,
Кüçəsində fənər,
Pəncərəsində şüşə».
Bəşər bizi ozan bilir,
Dərdi-qəmi yazan bilir,
Yaxın görür, uzaq bilir:
Türкləri sevgi öldürür!
Od sevgisi,
Su sevgisi,
Yurd sevgisi,
Elə budur qurd sevgisi!

Bərdə, Xanərəb кəndi

100 YAŞIN BAHARI

ƏZİZİM İNTİQAM!

Səni və 25 ildən artıq bir müddət sükanı arxasında durduğun "Azərbaycan" jurnalının bütün kollektivini şərəfli 100 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Doğma Bakımızdan çox-çox uzaq, Sakit okean sahilində, Kaliforniyada "Azərbaycan" jurnalının artıq 100 yaşını haqladığı xəbərini alınca xəyalım məni keçən əsrin 70-80-ci illərinə apardı – o illərə ki, redaksiyalarımız, mənim işlədiyim "Literaturnı Azerbaycan" jurnalının redaksiyası – sizin redaksiyanızla qonşu idi; əslində biz birevli kimi idik. Əlamətdar günlərdə hamılıqla bir süfrə arxasında yığışardıq – bu bir başqa mövzudur, bizi daha çox yaxınlaşdıran bir amala

– Azərbaycan ədəbiyyatına, onun oxuculara yüksək səviyyədə çatdırılmasına xidmət etməyimiz idi...

“Azərbaycan” jurnalı Yazıçılar Birliyi orqanları arasında həm yaşca ən böyüyü, həm də ədəbi ictimaiyyətdə tutduğu mövqeyinə görə bir flaqman kimi öndə gedirdi; iri həcmli romanlardan, poemalardan tutmuş pyeslərə, hekayələrə, çoxsaylı şairlər ordusunun iri silsilə şeirlərinə, ədəbiyyatşünaslıq araşdırmalarına, tənqidi yazılara qədər burda oxunur, qayğı ilə redaktə olunub oxucuların mühakiməsinə verilirdi.

Yaxşı yadımdadır, o illər “Azərbaycan” jurnalını oxucuları qədər, bəlkə hələ bir az da artıq, biz, rus dilində çıxan “Literaturnı Azerbaycan” jurnalının əməkdaşları diqqətlə izləyirdik. Çünki bu jurnal bizimçün sanki bir xəzinə idi, Azərbaycan ədəbiyyatında gedən prosesi əsasən burda izləyir, yeni əsərləri seçib tərcümələr verir və çoxmilyonlu rus oxucularına çatdırırdıq. Yeni imzalarla da, gənc istedadların yaradıcılıqları ilə də burda tanış olurduq.

Bu gün mən Los-Anceles şəhərində oturub sənə təbrik məktubu yazarkən “Azərbaycan” jurnalının keçmiş redaktorları, gözəl yazıçılar İsmayıl Şıxlını, Əkrəm Əylislini, Cabir Novruzu, Yusif Səmədoğlunu xatırlayıram. Və inanıram ki, uzun illər adlarını çəkdiyim bu Azərbaycan ədibləri ilə çiyin-çiyinə işləyən əziz qardaşım İntiqam onların jurnalda yaratdıqları ənənələri, qiymətli nə varsa – hər şeyi qoruyub saxlayır, yaşadır və davam etdirir. Sənə və bu gün 100 yaşlı “Azərbaycan” jurnalında sənlə çiyin-çiyinə işləyən əməkdaşların hər birinə ilk növbədə möhkəm cansağlığı və Azərbaycan ədəbiyyatının, Azərbaycan mədəniyyətinin inkişafı naminə gördüyünüz şərəfli işinizdə uğurlar arzulayıram!

Aleksandr QRİÇ,
ABŞ, Kaliforniya ştatı, Los-Anceles

♦ Nəsr

Nicat MƏMMƏDOV

ƏLİFBA SIRASI İLƏ*

♦ *Avtofikşn***

FƏLSƏFƏ. ÜÇ SİTAT

"Fəlsəfə poeziyanın nəzəriyyəsidir." Novalis

"Fəlsəfə mətnini gərək poetik yazasan." Vitgenşteyn

"Fəlsəfə, mahiyyətcə filologiyadır, sözün dərin, yaradıcı araşdırılması." Bruno Şultz

GİZLİ SİMMETRİYA

Ölülər xoşbəxtdir. Bizimlə vidalaşmaları – yalnız tətildir. Gülərüz şəkillər valideynlərindən qopub səs-küylü hərəkətə fikir vermədən baxışlarını uzağa zilləyir. Gecə beynin bir küncündə divar tikir. Səsində xırıltılı ulduzlar gizlənib. Həqiqəti gözlədikcə, irəlidə başqa izah verənlərin ağlından keçirsən. Vərdişlər yolu səhraya çevirir, ləpirləri geri qaytarır. Bəli, rəqiblər çevik təsəlli qədər əhəmiyyətli. Sentyabr qabağa qaçır, sərhəddən çıxır. Günəş həmişə ortada, uzaqları toplayır içinə. Bir düşünülmüşdü. İki mümkündür. Nöqtənin mahiyyətinə varmaq vacib. Dərinliklərə qaçılmaz baxmayın, çünki mərtəbələr mərkəzə aparır. Varlığın "amma"sı oxumaq üçün ekizləşir, göz bəbəklərinə qədər yaxınlaşır hərflər. Zərrəni sonunadək aç və mücərrəd səthi laqeyd-laqeyd bəslə. İfadələr məhv olur. Dilin qıtlığı nəyi axtarır? Tarixin söylədiklərini eşitmək üçün sükuta sığınır zaman. Çarpazlanmış qaranlıq düşüncə nüsxələrini muzey eksponatları kimi qoruyur. Uşaqlıq rəqs edən şəkilləri tutub qarşısında. Təxminən aydındır: kimsə harasa gedir. Lakin imza doğrudur. Dindarlar səliqəli barmaqlarını daşlara təslim edib qeyri-sabit məsihin zədələnmiş keçmişini incələyir. Şeirin məsaməli təbiəti qavrayış lövhəsində

** – Əvvəli jurnalımızın ötən sayında*

*** – süjetsiz əsər mənasını verir*

pozğun sözlərlə əks olunur. Allahın ziddiyyətləri camaat tərəfindən anlaşılmır, halbuki hər qurtum suda mütəmadi sevgi var. Həndəsə ilə yaralanmış məkan, budaqlarla ləkələnmiş mənzərə, şahmat fiqurlarının xəyalları. Diktatorlar nədən romantik? Hansı toxumu səpəcəyik? Nəcib qocanın içərisi hamar! O, əvvəlcədən bütün boyalara səslənir ki, mükəmməl küçələrdə ruhun qəlibini bəzəsin. Qızlar istisna, yəni dizləri möhtəşəm. Dərinin qatına varır sənətkar. Xülasə, çoxdan bəstələmişəm çətir qanadları, bütövləşdirirəm ağızla qələmi.

GÖRÜŞ YERİ HƏR TƏRƏF

Okean üstündəki yağış buludu kimi, hərfdən kitabxanaya səyahət edərkən, Mariya və Xuanla dostluq etməyi sevən bir dostgilə gəlmək. [...] Biz hamımız ora – çıxdığımız yerə qayıtmağa təşnəyik: ana bətninə, qara torpağa, itirilmiş cənnətə. Qara bətnə, itirilmiş torpağa, ana cənnətinə. Təkrar öyrənilmək istəyir. Fərq – şüa saçmaq. Elə bil, kitablarla dolu rəflərinə baxıb belə dediyini eşidirəm: “Onlar çox yer tutur, mən isə az”. Mənim də heç nəyim yoxdur. Nə tapança, nə seks. Gəlin buna bir neçə gün şəhərdə qonaq qalan riqalı gözəlin cavab mesajından saçan xoşbəxtlik deyək: “Növbəti məqaləm üçün Visbuya gedirəm, yayda Fransaya dəyəcəm. Sizə Günəşli günlər!” Biz heç yerə getmirik, olduğumuz yerə sadiqliyimizi saxlayırıq, bu yay da qəbilədaşlarımız olan qızların xərclənməmiş eroslarının nəzarətində qalırıq, onlarla ünsiyyətdə olmaq sadə faniləri əla şərhşünasa çevirə bilər. Bu halda biz sevgi əlifbasını və/və ya yox olmaq sənətini öyrənə bilirikmi? Təbii ki, mənim üçün Məcnun cnana-yoqa ilə məşğul olan şəxs olub: gözləri bağlıdır (görmək üçün), ürəyi açıqdır (bilmək üçün). Vedalar haqqında bir az sonra. Sən Furrerin “The snow has no voice” kompozisiyanı qoymusan və mən düşünürəm ki, “İldə iki dəfə qış” adlı ssenari yazmaq pis olmazdı, bir il ərzində qəhrəmanın tutqun həyatını göstərmək; axırda heç nə baş vermir. Nəqletmənin, xüsusilə də nağılın özünəməxsus “transport” funksiyası var ki, onu bir növ nəqliyyata çevirir. Ərazi özlüyündə səhradır. Dil məkanda zamana nisbətən daha tez dəyişir: horizontal – dialektlər, deyimlər; vertikal – mələk ləhcələri, sükut. [...] Ola bilsin, biz reallığı ona görə reallıq kimi qəbul edirik, çünki onda yuxuda keçirdiyimizdən daha çox saat, dəqiqə və saniyə keçiririk. [...] İnanıram ki, var, amma bilirəm ki, yoxdur. “Bilirsən, mən, – sən donquldanırsan, – çoxdan gitaranı atmışam, qocalmışam və artıq heç vaxt “Klub 27”-yə düşməyəcəm”. Bir anlıq mən özümü kainatın mərkəzi hiss etdim, ancaq məlum oldu ki, mənlik deyil. Fəqət on beşinci daş mövcuddur.” Bəli, on beşinci daş mövcuddur. Yazmağa gəlincə, bu, əlkimya prosesidir və bəlkə də onun yeganə dəyəri elə bundadır: fəlsəfi eliksir vasitəsilə sükutu qızıla çevirən yazıçının özü də dəyişir. Dostum, mənim qulağıma belə gəlir, yoxsa sən həqiqətən “Gümüş dövr”ün şairlərinin sitatları ilə hallüsinasiya edirsən? Şübhəsiz ki, “dəbdəbəli buddist yayı” sətrini yazan onlardan birini bu sətri yazmağa öz inisialları vadar etdi – O.M. Əslində, forma məzmunun sürətləndiricisidir. Fəqət, tələsən yerimiz yoxdur. Ona görə də Vedalar haqqında bir qədər sonra. Söz verirəm, dostum, ölü şair sözü. (“Nə vaxtsa Allah sübut edəcək ki, sən

yoxsan", – qımışırsan). Haradasa bir yarpaq düşür. "Biliklə bitki arasında heç bir fərq yoxdur." Copy paste, Gertruda Stayn. Bütün yollar dünyaya aparır, bütün dünya mifə. Və beləcə davam edir... Yaxşısı, mənə bir fincan çay süz.

GÜLÜŞ. ALTI SİTAT

"Komiklə kosmik arasında bircə hərflik fərq var." (Nabokov)

"Əgər ətrafda bu qədər çox müdrik olmaq istəyən Zarafatcıl varsa, bəs niyə Müdrik Zarafatcıl olmasın?" (Salvador Dali)

"Dəli olmaq istəmirsənsə, əylən." (Ömər Xəyyam)

"Kişilik gülmək istəyir." (Nitsşe)

"Hər şey o qədər gülməlidir ki." (Mandelştam)

"Mükəmməllik həmişə komikliklə xarakterizə edilir. Ancaq gərək hansısa başqa emosiya bunu yarıb keçə bilsin ki, komediyanın mütləq gücü bu pafosu boğmasın. Daha dəqiqi o, yeni pafosun başladığını göstərəcək." (Kyerkaqor)

HERMETİK ƏDƏBİYYATIN APOLOGİYASI

Düşünürəm ki, oxucu mütləq dərketmə işi üstündə işləməlidir, özü müəyyən şeylərə çatmalıdır. Çeynənmiş, hazır fikirlər qara qəpiyə dəyməz. Dəyərli olan yalnız özün əldə etdiyindir. "Eyham etmək – budur şairin istəyi". Lap uşaqlar üçün olan "özün rənglə" kitablarındakı kimi, yazıçı fakturanı və formanı təklif edir, oxucu isə onu rənglərlə doldurur. Yaxud uşaq kitablarındakı "nöqtələr" kimi, birləşdirəndə quş, ev, bürc alınır. Şeirin birləşmə nöqtəsi oxucunun şüurudur.

Hermetik tekstin erotikası: qapalı, qapalı, az-maz açıq... Və bu, kifayətdir ki, cuşa gələsən. Çadra effekti.

HƏRF SƏHVİ

«Иностранная литература» jurnalını oxuyuram, 2006-cı il, 4-cü nömrə. 286-cı səhifədə maraqlı hərf səhvi gördüm, düşüncə planında maraqlıdır: "Demək olar ki, biz təkcə "muskulmanlarla" dialoq aparmırıq, həm də müsəlmanlara kömək edirik ki, onlar özləri "belə bir dialoq üçün lazım olan dili" əldə etsinlər.

HORROR

Desək ki, qorxu insanın yaşadığı ilk və başlıca emosiyasıdır, yanılmış olmarıq. Bütün mifologiya və din buna sübutdur. İbtidai insanın əsas qorxusu təbiət və yırtıcı heyvanlar idi, lakin daha dəhşətli qorxusu yuxu idi, çünki o, yuxuya gedəndə təbiət öz stixiyaları və vəhşi heyvanları ilə müdafiəsi zəifləmiş bədəni asanca ələ keçirə bilərdi. Hətta belə bir fərziyyə var ki, gecə

xorultusu bizə mağarada yaşayan əcdadlarımızdan yadigar qalıb: mağara insanı yatarkən qorxunc tərzdə xoruldayaraq potensial yırtıcıları özündən uzaqlaşdırırmış. Sivilizasiyanın inkişafı ilə çöldəki qorxular insanın içinə keçdi, horror janrı isə yuxu qarşısında qədim qorxunu istismar etməyə başladı, məsələn, "Qarağaclar küçəsindəki dəhşət" filmində olduğu kimi.

Yuxu ilə ölüm arasında tez-tez paralel aparırlar. Yuxunu kiçik ölüm, ölümü isə əbədi yuxu adlandırırlar. Bu analogiyanı nəzərə alaraq insanın xortlamış ölülər qarşısında dəhşətli qorxusunu anlamaq olar: əgər insan yatıb yuxudan sonra ayılırsa, o zaman nədən ölləndən sonra xortlamasın? Dinin ağrıkəsici funksiyası hər şeydən əlavə həm də o vədə yönəlib ki, ölü yalnız o dünyada diriləcək və öz yaxşı, yaxud pis əməllərinə görə ya cənnətə, ya cəhənnəmə layiq olacaq. Ağır başdaşı və bol süfrə – layiqli vida ilə yekunlaşan dəfn ayinləri isə deyəsən qeyri-şüuri şəkildə ölüm faktının son və qəti olmasına, ruh tərəfindən tərk edilmiş bədənin xortlayıb hələ ki, sağ olanların arasına qayıtmağına qarşı yönəlib.

Horror tamdəyərli janr kimi moderniti dövründə formalaşmağa və auditoriya qazanmağa başladı. Janrın problemlərinə həsr olunmuş "Ölümün rəqsi" kitabında Stiven Kinq horror mədəniyyətinin bütün müxtəlifliyinə həyat vermiş üç arxetipik mətndən danışır. Bunlar Meri Şellinin "Frankenşteyn"i (1818), R.L.Stivensonun "Doktor Cekil və mister Haydın qəribə əhvalatı" (1886) və Brem Stokerin "Drakula"sıdır (1897). Maraqlıdır ki, modernitinin digər övladı olan qeyri-klassik fəlsəfə də üç "əjdahanın" belində durur: Nitşe, Freyd, Marks. Amma qəribəsi odur ki, Nitsşenin, Freydin və Marksın əsas açılışları – konseptləri heyrətamiz şəkildə Kinqin dediyi həmin üç arxetipik mətnlə "qafiyələnir". Belə ki, Nitsşenin "allahın ölümü" konsepsiyasını birbaşa Meri Şellinin romanının süjeti ilə əlaqələndirmək olar: dahi və dəli alim ölü cəsədlərdən ağlasığmaz gücə və özünütəlim bacarığına malik olan diri bədheybət məxluq, daha doğrusu, üstinsan yaradır. Freydin işıqlı şüurun nazik qatı altındakı dərin və qaranlıq təhtəlşüuru kəşf etməsini Stivensonun povesti ilə əlaqələndirmək olar: sakit və alicənab doktor Cekil daxilindəki vəhşiyə azadlıq verən iksir icad edir, beləcə, içki içən, fahişələrlə yatan, qətllər törədən mister Hayd peyda olur. Marks isə sübut edirdi ki, kapitalizm proletariatın qanını içir, onu bərpa olmaq üçün və yenidən istismar etmək üçün yarımcan saxlayır. Bu ideya da birbaşa Stokerin "Drakula"sı ilə səsləşir.

YARPAQLAR EVİ

Bu gün kirayədə qalmağımızın bir ili tamam olur. Beş illik evlilik həyatımızda üçüncü dəfədir. Yer üzündə öz evimiz deyə biləcəyimiz bir yer olacaqmı? Yoxsa evsizliyimiz insan vəziyyətinin metaforasıdır? Brodskinin dediyi kimi, "Bu dünyadakı həyat özgə mənzilə palçıqlı ayaqqabılarla girməyi xatırladır".

Bir neçə il qabaq, bundan əvvəlki kirayə qaldığım evdə Mark Danielevskinin "Yarpaqlar evi" romanını oxudum. "Pis ev" toposu qorxu ədəbiyyatının açar anlayışlarından biridir. Avropa mədəniyyətində o, çox güman ki, labirint-

dəki Minotavr mifiylə bağlıdır. “Pis ev” mövzusu ingilis qotik ədəbiyyatında, sonra isə Edqar Poda inkişaf etdi. Ev – hər şeydən öncə, insanın təhlükəli xarici aləmdən gizlənə bildiyi məkandır, bu da onu ana bətni və məzarla qohum edir – ilk və son sığınacaq. Freyd olsa, deyərdi ki, ana bətninə qayıtmaq istəyi, ölüm arzusu kimi, reqressivdir. Modernist layihə olan psixoanaliz rasionallığın dəstəyi ilə irəliyə doğru kəskin hərəkəti nəzərdə tutur. Alman mədəniyyətində bu fikrin Freydən çox-çox əvvəllər mövcud olduğunu fərz etmək çətin olsa da, Novalis belə deyirdi: “Fəlsəfə insanın hər yerdə özünü evindəki kimi hiss etmək arzusudur.”

“Yarpaqlar evi” postmodern fəlsəfi qorxu romanıdır. Onun sujeti və forması nə şaquli – yuxarı, nə də üfüqi – irəli istiqamətə doğrudur. Romanın forma və süjeti mimetik üslubda üst-üstə düşür, yəni təhkiyə komponentlərindən biri digərini təkrarlayır və hər ikisi rizoma qismində ortaya çıxır – hərəkət, nə qədər xaotik olur-olsun, hər hansı istiqamətdən daha vacib. Mətni oxuyarkən diskomfort hiss etmək mümkündür. Oxucunun şüurunu genişləndirmək üçün bu şüur üzərində eksperiment aparılır. Mental məkanda, gündəlik olanın qabığı altında ikinci qat aşkarlanır, parlaq olanın altında qaranlıq və soyuq bir dərinlik gizlənib, orada bədheybətlər yaşayır. Və sonda təkcə bir vacib sual ortaya çıxır: içimizdə yaşayan demonlarla necə mübarizə aparaq?

Brodskinin həbsxana haqqında da yaxşı tərifi var: “Türmə – məkan çatışmazlığında vaxt artıqlığıdır.” Danilevski başqa cür deyə bilərdi: “Mənim evim – həbsdə olduğum qaladır. Və burada təkcə mənim yox, zamanın və məkanın da başı xarab olur.” (Eşerin “qeyri-mümkün” fiqurları yadıma düşür.) Roman kifayət qədər həcmli olsa da, fraqmentardır, elə bil, təhkiyə baş verənlərin bütün dəhşətini öz içində sığışdıra bilməyib yüzlərlə vərəq-yarpağa parçalanıb, sonra isə onlar yenidən təsadüfi qaydada bir yerə yığılıb.

Nəhayət, deməliyik ki, ötən əsrin əvvəllərində Amerikada bu cür “dəlixana” həqiqətən mövcud idi. Onu silah ustası Vinçesterin dul arvadı Sara Purdi tikmişdi. Qadın inanırdı ki, ərinin düzəltdiyi silahlarla öldürülmüş adamların ruhları onun malikanəsinə gəlib onu cəzalandıra bilər. Buna görə də ruhlardan gizlənmək üçün heç yerə çıxmayan pilləkənləri, quruca divara açılan qapı və pəncərələri olan labirintvari bir ev tikdirdi ki, ruhlar yolunu azsın və onu tapmasınlar.

XAOS VƏ KOSMOS

Nöqtə və xətt – sonsuz olduqları üçün forma deyillər.

Forma – məhdudiyyətdir, sərhəddir, çərçivədir.

Bir fenomeni müəyyən etmək onu çərçivəyə salmaqdır, heç nədən nəsə düzəltməkdir.

Hər şey heç nədir. İnsan öz psixofiziologiyası ilə artıq çərçivədir.

Böyük miqyaslar insana təsir edir, çünki onlar ilkinliyə, sərhədsizliyə yaxındırlar. Həcmli, iri şeylər yazmamaq da olar, şüuru genişləndirmək kifayətdir.

İncəsənət – estetik cəhətdən əhəmiyyətli məlumatdır. Məlumatı estetik cəhətdən əhəmiyyətli edən nədir? Kontekst və auditoriya?

İnformasiya, yaxud “in form”, yəni formada. Nöqtə və xətt – sonsuz küydür.

Küy, xaos özündə xeyli kosmos ehtiva edir.

Sənətçidə, alimdə, belə götürəndə bütün insanlarda xaosa tətbiq etdikləri “çərçivə hissi” var ki, onun vasitəsilə xaosu anlayır, onu kosmosa çevirirlər. Ən insani şey bu çərçivələrdir.

Məna nədir? İnsan faktoru?

Mədəniyyət – sərhəddir, tabudur, tövbədir, qadağalar sistemidir. Mədəniyyət Təbiətdən, Kosmos Xaosdan, İnformasiya Küydən azdır. Küy – yaradılmayandır.

Şüurun Heçlik içində Nəysə sərhədləməyi insanın gizlənmək üçün özünə sığınacaq, Məkan, Mağara axtarışıdır. İbtidai işlər: qədim insan düşmən Təbiətdən mağarada gizlənirdi. Şərti şəkildə desək, əgər bizə şüuru, ayırd etmək qabiliyyətini Şeytan veribsə, onda belə çıxır ki, biz dəlilik anında Allahın simasını, ilkin Xaosu, təbiəti görürük...

Heyvanlar öz ərazilərinə işarə qoyur, biz isə hər şeyə sərhəd çəkirik.

XIRDALIQLAR

Şairdə – dilin hərəkəti var.

Nasirdə – sujetin və qəhrəmanların hərəkəti var.

Filosofda – fikirlərin hərəkəti var.

Ədəbiyyatşünaslıq – ədəbiyyatın epistemologiyasıdır. Fəlsəfə – nəzəriyyənin epistemologiyasıdır. İnkişaf vektorunu belə icmallaşdıra bilərik: şairdən nəzəriyyəçiyə, nəzəriyyəçidən filosofa, filosofdan isə sadəcə, yaxşı həmsöhbətə.

XRİSTİANLIQ. ORTA YOL

Üç İbrahimi din içində Xristianlıq həm mənşəyi, həm də elan edilmiş prinsipləri baxımından orta yoldur. Bunu xaçın simvolizmi də sübut edir. (Təsadüfi deyil ki, "orta yol" və bodhisattva – bütün canlıları xilas etmək üçün nirvanadan şüurlu şəkildə imtina ideyasını elan edən Mahayana Buddizmi Məsihi bodhisattva kimi tanıyır.)

Yəhudilik birləşdirir. Xristianlıq birləşdirir və bölür. İslam ayırır.

Davud Ulduzu – iki oxşar bərabərtərəfli üçbucağın bir-birinin üstünə qoyulmasıdır (biri alt-üst, digəri tərsinə), yerlə göyün əlaqəsini simvolizə edir. “Yahudim” sözünün mənası ”bağlanmış” deməkdir.

Çarmıx – həm qılıncdır/ayrılıqdır (“Mən sülh gətirməyə yox, qılınc gətirməyə gəlmişəm.” Matta 10:34), həm də artımdır/əlaqədir, yəni simvolun simvoludur.

Aypara – yarımçıq qəmər – qəmədir, yəni hissə.

Xristianlığı bir din kimi tanımamaq olar. Onu bir ideya kimi qəbul etmək olar. Ancaq bu, Ən Böyük İdeyadır!

İKİLƏMƏ

Əşyalar məmnuniyyətlə ölür. Beynimizdə hətta? Qaranlıqdan izah göndərilir. Bildiklərimin hamısını yazmışam. İşığa bir damla belə qaşqabaq etməmişəm. İndi bilmədiklərimi yazıram: təsadüfün qığılcımları ilə. Unutqanlıq xiyabanında özünü yumub, özgəni açmış birisi hər məqamda sərbəstdir. Naməlum ərazilərdə gözəgörünməz qələm seyr edir atəşi. Yozulmuş dil zərrələri toplayıb söylədi: "heç hara baxmadan". Parıldayır quş təsvirdə, içindəki sıçrayışı nəhəng havaya ətraflandıraraq. Damarlar, əllərin boşluğu, ehtimal nöqtələri. Saniyələr necə də soyuq! Əql dövran edərək aləmlər yaradır və həmən əsnada qulaqlar düşüşün dərinliyini ölçür. Müşahidələnmiş insanlar heykələ çevrilir. Qız – səssiz-səmirsiz obraz, bir topa gözəllik. Çılpaq cismin hönkürtüsü korlayır gözləri. Əlavə hisslər ağ lövhəyə yazılıb. Sinədəftər qapılar küləklə ruhlanıb, çünki axşamlar üçölçülü küyə uyğun olaraq kəsişir bir-biri ilə səthlər və məkanlar. İstiqamət – əyrilik. Mələklər ət yeyən insanlardan iyrənir. Və iş mənaya çatanda müqayisə köməyə gəlir. Tutqun şəhərin daxilindəki yağış zəka vərdişlərini gülünc hala salır. Onlar nə rəngdə? Bu, təşbeh deyil. Sadəcə, dairələr olmaq və bir-birimizin içinə yaşamaq. Gəzəyən fikirlər, sürüşkən hisslər, bir sürü bədən. Düstur gecə kimi şərti və əhatəli. "Mən"im izdiham kimi. Minilliklərin mətni – susuzlamış aynalar, dilləri monoton və buzlu. Xatırlayıram gələcəyi, orada məktublar yandırılır konvertlərə baxmadan. İndi təxəyyülə bel bağlamadan bütün diqqətinizi saxta bağlayıcılarda toparlayın. Əbədiliyin pəncərəsindən biz hamımız əcnəbi. Bu dəfə hər şey fərqli. Konseptdəki bütün təsvirlərə rəğmən, yavaş-yavaş birləşərək divarları dəlirik dəli baxışlarla. Siqaret yanında vaxt lazım, ortasında ağzın istəyi. Həyat barədə düşüncələr ölüm hesabına gəlir. Rəqəmlər günahsız. Yaxud əksinə. Amma kitabın quruluşu ümidsizliyə sürükləyir. Ətrafını gözləyənlə sanki bir növ oynar sözlər. Vurulmaq – əks-sədalı cinayət. Məhkumdur bu yeknəsəqlik kağız üzərində.

İLHAM PƏRİSİNƏ VİDA

Mənə litium təyin edildikdən sonra (yeri gəlmişkən, ona xeyli şeir və mahnı həsr olunub), ilham getdi, yəni, hipomaniya. Başqalarını bilmirəm, amma mən ilhamın yalnız bir forması ilə tanışam, o da hipomaniyadır. Mənim vəziyyətimdə hipomaniya bipolyar pozğunluğumun ayrılmaz hissəsidir. Litium məni adekvat, sosial cəhətdən sabit etdi. Ancaq məni tərk edən ilhamı – saniyələr içində beynimdə baş verən yüzlərlə şifahi əməliyyatı və gözlənilməz birləşməni rəqəmsal olaraq kompensasiya etmək qərarına gəldim. Puşkinin dediyi kimi, "Təsadüf – icadlar tanrısı". Mən bu tanrıya güvənirəm. Nəhayət, şair bircə şey etməlidir – "sözləri bir-biriylə tanış etmək" (Mandelştam). Şərait ona gətirib çıxardı ki, mən kombinatorika üzrə adi işi kompüterə və alqoritmlərə həvalə etdim, özümə isə ən çətin şeyi saxladım – müəyyən bir ardıcıllığın seçimini və transformasiyasını. Bəli, bu təcrübələr bir az neyron şəbəkələrin

işinə bənzəyir. Rembodan xatırladığımız kimi, “şair mütləq müasir olmalıdır”. Çağdaş şeirlər gələcəkdən, dilin və insanlığın son nöqtəsindən yazılır.

Ancaq bu cür yazmaq mənim üçün bir sıra vacib suallar da doğurur. Mənim üçün təsadüf nədir? Xaos, yoxsa insanın dərk edə bilməyəcəyi nəhəng nizam? Bu mənzum nəsr yazılıb, yoxsa qurulub? Müxtəlif, ziddiyyətli diskursların toqquşmasında hansı potensial var? Xilaskar? İnqilabi? Qrammatik və sintaksis pozuntuları nə deməkdir? Normativ dilin totalitarizminə qarşı üsyan? İlkin, idraköncəsi dil axtarışı? Sosiumun elementləri arasında yeni əlaqələr yaratmaq, dilin hissələri arasında yeni bağlar qurmaq istəyimi?

Mən heç nəyi dəyişməzdim, çünki bütün bunlarda müəyyən məntiq var. Əksərən məhz mexanizmin pozulması daxili hissələr haqqında nəsə öyrənmək imkanı yaradır. Yəni mənim vəziyyətim də belədir. Psixi xəstəlik sayəsində psixi həyat və onun quruluşu ilə tanış oldum. Dərman qəbulu isə yaradıcılıq haqqında romantik konsepsiyalarla, illüziyalarla vidalaşmağa gətirib çıxardı.

İNTERTEKSTUALLIQ

Ən azı Eliotdan başlayaraq xeyli müəllif əvvəl yazılmışları müxtəlif formada mənimsəməyə başladılar. Bu yanaşma tərzi keçmiş dövrlərdə də var idi, sadəcə, Eliot poemalarında bunu şüurlu şəkildə etdi. Qədim Çin poeziyası da əvvəlkiləri özündən keçirmək üzərində qurulmuşdu və nəticədə o qədər qəlizləşdi ki, anlaşılmazlaşdı, süqut etdi. Uzun sözün qısası: ədəbiyyat həmişə intertekstualdır, bu, qaçılmazdır, müəllif heç bir intertekstual elementdən istifadə etməsə belə, “diqqətli oxucu” ən müasir şeirdə ən qədim poeziyanın izlərini aşkarlamağa qadirdir.

İZAH VƏ ANLAM

İzah – artikulyasiya, fraqmentasiyadır. Sol yarımkürənin işini kəsici cismin funksiyalarına bənzətmək olar: ağlı kəsir, itizəkalı, bətni-həqiqəti kəsir. Yavaş, “tormozlayan” adam haqqında deyirlər: kütbeyin.

Dərketmə/an-lamaq = ani bəsirət, satori; bəsirət, əslində, həmişə bildiyin şeylərin xatırlanmasıdır.

Dünyaya bərabər olan yeganə şey dünyanın özüdür. Qalanı sxemləşdirmədir. Söz/word həmişə dünyadan/world kiçikdir. Biz danışan kimi, nitqə, rasional düşüncəyə cavabdeh olan sol yarımkürəni işə salan kimi dərhal təsnifləşdirməyə başlayırıq, izah etmək üçün dərhal sadələşdirməyə başlayırıq. Hər şeyi izah etməyə çalışan və ya çinlilərin dediyi kimi, “dünyanı on min şeyə bölən” sol yarımkürə işə düşən kimi, biz sxemləşdirməni əldə edirik. Sağ yarımkürə isə əksinə, birləşdirir və anlayır. Sol yarımkürə izah edir, sağ anlayır. Yəqin ki, başa düşmək izahdan üstündür. Ancaq başqaları arasında olan məhsuldar bir varlıq olmaq üçün – axı başqaları qaçılmazdır – orta yolu seçmək lazımdır. Sol yarımkürə ilə sağ yarımkürə arasında ürəyi seçmək lazımdır.

Mövzu ilə bağlı lətifə. Universitetdə marksizm-leninizmdən dərs deyən müəllim kömək üçün özündən böyük həmkarına müraciət edir:

– Aleksey Petroviç, nədənsə mən öyrətdiyim fənnin mahiyyətini başa düşə bilmirəm...

– Qəti qorxusu yoxdur, Sergey İvanoviç. Bir şüşə araq alaq, gedək bizə, mən sizə izah edim.

– Yox, yox, Aleksey Petroviç, izahı mən də bacarıram, ancaq başa düşmürəm...

KROSSVORD

Azərbaycanlı və rus qatarla gedirlər. Rus təxminən həll edilmiş krossvordda altı hərfli böyük Azərbaycan şairinin adını axtarır. Azərbaycanlı yoldaşına kömək etmək üçün deyir:

– Nizamidir!

– Nə bilmək olar... Bəlkə Nəsimi. Yaxud Füzulidir, Vidadi, yaxud Vurğundur?

QURBAĞALAR

Əvvəllər mənim həyata münasibətimi Basyönün məşhur xaykusu ilə ifadə etmək olardı:

Köhnə gölməçə.
Qurbağa atıldı.
Sükut dalğalandı.

Ancaq indi qırx yaşımda, məndə xeyli yazıçıya tanış olan transformasiya baş verərkən, yəni romantizmdən realizmə keçərkən, mən başqa rəvayəti – süd dolu küpdəki iki qurbağa haqqında əhvalatı seçirəm. Qurbağalardan biri küpdən çıxmaq üçün xeyli cəhd etdikdən sonra təslim olur və süddə boğulur. Ancaq o biri müqavimət göstərir, tullanmağa davam edir, beləcə, südü yağa çevirir və quruyan yağın üstünə çıxıb xilas olur.

QUŞLARIN NİTQİ, ŞAİRİN SÜKUTU

Aşağıdakı qeydlərdə konspektiv şəkildə Cim Carmuşun “Paterson” filmi, təsəvvüf, xüsusən də Fəridəddin Əttarın "Məntüqüt-teyr" ("Quşların dili" və yaxud "Uçmağın məntiqi”) poeması arasında bəzi paralellər gətirilib. Təsəvvüflə paralellər Carmuşun 2009-cu ildə çəkilmiş “The Limits of Control” filmindəki səhnələrdən biri ilə təsdiqlənir – yapon əsilli alim-qadının qatardakı monoloqu ilə.

7 gün = 7 məqam.

Yol = Paterson – avtobus sürücüsüdür, yəni Yol adamıdır, Əttarın şanapipiyi kimi başqalarını Yola səsləyəndir. Təsadüfi deyildir ki, Patersonun həyat yoldaşı roluna Əttar kimi fars əsilli olan Gülşiftə Fərəhani seçilib.

Paterson dairəvi sürür. Dairə – Məkandakı spiralın səthi ölçüsüdür. Erkən yaradıcılığında Sirin (slavyan mifologiyasında cənnət quşu) psevdonimi altında yazan Nabokov deyirdi: “Spiral – ruhsal dairədir”.

Şəhər ətrafında dairə vurmaq – Kəbə ətrafında təvaf.

Paterson bir çox sufilər kimi şeir yazır. Onun doğma şəhəri – bir növ yer üzündəki cənnətdir. O isə həmən cənnətdəki Adəmdir (Patersonu oynayan aktyorun adı Adam Duqlas Drayverdir). İslam ənənəsi deyir ki, Adəm cənnətdə olarkən nəzmlə danışırdı.

Əkslər. Paterson daim öz yolunda bir-birlərini güzgütək əks edən əkizlərlə qarşılaşır və bu da "Məntüqüt-teyr" poemasının finalı ilə uzlaşır: Simurq – məqsədə çatmış, öz əkslərini dağ gölünün hamar səthində görmüş və özlərinin Simurq/Allah olduğunu dərk etmiş 30 quşdur. Fars dilindəki söz oyunu: si murğ – 30 quş.

Əttarın poemasında müsəlman olan Şeyx Sənan öz xristian sevgilisinə qovuşmaq üçün donuz otarır. Carmuşun filmində “xristian” Paterson hər gün öz “müsəlman” həyat yoldaşının itini gəzdirməyə çıxarır. İt bir çox sufi pritçalarının qəhrəmanıdır. Bundan əlavə, vətəni Azərbaycan və İran olan zərdüştlükdə it müqəddəs heyvan sayılır, o – can verməkdə olan insanlara axirət aləminə keçməyə/köçməyə kömək edir.

Paterson da yeni həyata doğulmaq üçün ölüdür. “Yeni həyat” – Dantenin nəzm və nəsrlə yazdığı avtobioqrafik povestidir.

Filmin finalında Əttarın poemasında da olduğu kimi – sıfırlaşma: baş qəhrəman axar suyun sahilində oturur (yəni, həyat davam edir), "Məntiqüt-teyr"dəki göldən fərqli olaraq. Göl – fəna və bəqadır. Burada Eliotun “Dörd kvartet”indən məşhur sətirlər yada düşür: “İçimizdə axan çay, ətrafımızda isə dəniz”. Və Patersona təmiz bloknot hədiyyə edilir: qəhrəman spiralın növbəti burumuna qalxır.

QOLDŞTEYN

Paracanovun Qafqaz üçün etdiyini Qoldşteyn Azərbaycan üçün edib. Lazımsız elmlər məzunu, qalaq-qalaq kitab oxuyub, Əli-Bayramlıda çöllərin və qürubun, Bakıda Tanrıdan Coysun tam nəşrini istəyən şəhər dəlilərinin, öz qurbanlarını bircə baxışla yanına çağıran ədalı dağlıların “Durğulu muğamı”nın, “Fantaziya” hamamının şəninə tərif deyirdi... Qoldşteynin mətnlərində təsvir olunan fiziki dünya metafizik uçuşlar və dalğıclar üçün tramplindir; maraqlı olan başqa şeydir – hər nöqtədə şaquli olan üfüqi olanla kəsişir. Onunku yüksək po-etikadır: ümumi qəbul edilmiş şeylərdən kənara çıxsa da (dil, bilik, təhkiyə), şəfqət əlini uzadan insan kimi qala bilir. Belə müəlliflər yadımıza salır ki, bizə sənət yox, etik və estetik şücaət lazımdır. Qoldşteynin yaradıcılığına münasibətdə tənqidçilər tamamilə əks bir fenomendən – bütün artıq, lazımsız şeyləri kənara atan dəhşətli ekonomluq-dan danışmalı olduqları yerdə “sözü hədsiz hörməsindən” danışırlar. Başqalarının səhifələr xərclədiyi şeylərə o, bircə inversiya ilə, bircə intonasiya fəndiylə nail olur.

Dörd kitab yazıb. Kim istəsə onları Yunqun dörd mərhələli analiz forması adlandırdığı şeylə əlaqələndirə bilər. 1. “Narsistlə ayrılıq” – katarsis, öz Kölgənin aydınlaşdırılması. 2. “Ruhani evliliyin aspektləri” – interpretasiya, Anima ilə əlaqə qurmaq, öz qürurun, yəni şüurlu intellektin tərəfindən qurban vermək. 3. “Famaqustanı xatırla” – adaptasiya, sosial tələblərə uyğunlaşma. 4. “Sakit çöllər” – transformasiya, fərdiləşmə, öz patterninin açılması və inkişaf etməsi. Qoldşteyn “Sakit çöllər”i xəstəxana çarpayısında yazıb bitirib, ağciyər xərçəngindən ölüb, mətnin hərarətini itirməmək üçün morfi qəbul etməkdən imtina edib. Ölümündən sonra həyat yoldaşı İrina Solqanikin redaktorluğu ilə məqalələr, esselər və söhbətlərdən ibarət “Pafosun xatirəsi” adlı daha bir kitabı nəşr olunub. Dörd beş oldu, xəmsə.

Aleksandr Qoldşteyn (1957) Tallində anadan olub, uşaqlığı Bakıda keçib, 1990-cı ildə İsrailə mühacirət edib, 2006-cı ilin yayında vəfat edib, Təl-Əvivdə dəfn olunub.

LARİSAYA MƏKTUB

Bu məktubu sənə “Çay və qəlyan aləmi”ndə oturub yazıram (yəni yazdım; zaman ildırım sürəti ilə keçir). Əgər mən ömrünün çox hissəsini Parisdə keçirmiş və UNESCO-da tərcüməçisi işləmiş, ən yaxşı romanı Allah bilir nəyəsə görə Yunanıstana qaçan və İsgəndəriyyəyə aşiq olan cəsarətli ingilis yazıçısının çox gözəl roman-tetralogiyası ilə paralellikləri olan (ona olan hörmətimə görə “oxşayır” və ya “özünəməxsus şəkildə təqlid edir” əvəzinə bu sözü seçdim) argentinalı yazıçısı olsaydım, əvvəlki cümləyə mütləq belə əlavə edərdim: “Görürsənmi hara gəlib çıxdıq, liiisonka?" Amma mən – o deyiləm. Bu aləmdəki işıq elə də parlaq deyil. Bu, məni sakitləşdirir. Ofisiant və çayxana sahibi Dəniz – yumşaq üz cizgiləri, ya valideynlərin, ya taleyin ucbatından elə də yaxşı şərtlər içində keçməyən uşaqlığına işarə, amma o uşaqlığın ilkin saflığı onun hər hərəkətini müşayiət edir – sifarişləri gətirdi: şaftalı şirəsi, qızardılmış ananas dilimləri əlavə edilmiş Misir çayı. Mən buraya, Ukrayna dairəsi ətrafındakı bu aləmə, küləyin cismində bir tunel açaraq gəlmişəm: ilan içində ilan, ziqzaq içində ziqzaq. Çay içmək və özünü yazan adam kimi dərk etmək xoşdur. Belə yazardı Bil şəhərindən olan dəli. Keçən il ilk dəfə tutmam tutanda mənə elə gəldi ki, başqa şeylərlə yanaşı, kainatı və dövranı yenidən başlatmalı olan ilan Uroborosam. Bu, bizim içimizə daxil edilmiş ən sonuncu matrislərdən biridirmi? Dəniz təhsilli hüquqşünasdır, iki il İtaliyada yaşayıb, işləyib, min beş yüz avro alırmış, 450-yə şəhərkənarında birotaqlı mənzil kirayələyib və xoşbəxt olub. Bütün bunları mənə atamla sonuncu dəfə burada oturanda danışıb. Sonra ondan “belle” və “bianca” sözlərinin mənalarını aydınlaşdırdım. “Dilimlər” rahatlıq yaradır və mən bir neçə “xatirə”dən qurtula bilmirəm (Rolan Bart). Burada ətalətin qarşısını almaq üçün bu cümlənin özüylə əvəz olunası başqa, mövcud olmayan durğu işarəsi tələb olunur. Qonşu blokda yaşayan rus qızı Nataşa. Rostova getdi. Onun evində biz “Murzilka”ya baxırdıq, hərflərə bükülən bədənlərə, süd içib siyənək yeyirdik. Keçənilki yaz dilənçisi ilə Fəvvarələr Meydanından ayrılan küçələrin birində

rastlaşdıq, əri üçün dilənirdi, amma mənim ona təklif etdiyim 50 manatı rədd etdi. “Hər dəfə keçəndə bir manat versən, bəsdir”. Yatağıma girən ilk özgə qız – qonşum Aida. Vurma cədvəlinin birgə təkrarlanması və cizgi filminə baxdıqdan sonra. Əsməri aldatdığım qarasaç, yaşılgöz həkim Tamilla. Fikirləşirdim ki, Tima ilə dostluğuna görə Əsmərdən qisas alıram. "Məni heç vaxt itələmə" – dedi Tamilla ürəyimi müayinə etdirdiyim № saylı xəstəxanada, ilk öpüşdən sonra. Bir gün sonra mən ona oxumaq üçün axmaq Uelbeki verdim.

(...) İstərdim ki, yay – ilin ən dürüst vaxtı, əşyaların və insanların ideal vəziyyətlərə son dərəcə yaxın olduğu vaxt tez gəlib çatsın. Daşkəndə getməmişdən qabaq işə götürdüyüm çapçı Bahara dedim ki, sənin masamın arxasında olmağın adını çəkmək istəmədiyim çox vacib bir şeyin varlığına inamımı artırdı, mən buna ad verib bu qeyri-adi, təkrarolunmaz hissləri sözün ümumişlək mənasına qapamaq istəməzdim. Eşq aşiqliyə aşiq olanda beləmi olur, liiisonka? Təyyarədə yerimə oturmamışdan qabaq bütün festival iştirakçıları ilə getməli olduğum Buxaradan ona göndərmək istədiyim SMS-i hazırladım, amma Buxaraya getməyə bacarmadım, daha doğrusu, istəmədim və üç gün Daşkənddə, səndə, tək qalmaqdan tamamilə xoşbəxt idim. Sənə oxumuşdum, yadındadır? “İndi günortanın qızmarına doymuş, əşyaların və insanların eləcə illüziya kimi göründüyü Buxarada mən insanın öz-özünü, öz adını unutdurmasına təkan verən bu məkanın və zamanın xilaskarlığına yox, göz qapaqları arxasındakı parıltıya qapılmışam: varlıq sənin Buxara günəşinin rəngindəki saçların və gözlərində cəmləşib mənim gözlərimə dolur, indi mən yalnız onlara inanıram.” Bu yalandır? Sentimentallıqdır? Yavaş-yavaş ədib olmaqdır? Sevgi diskursundan bir fraqmendir? Dəniz çayımı isitməyə gəldi. Onun qəmli çiyinləri, qəmli barmaqları. Son dövr əsələrindən birində Bart yazırdı ki, “Mən səni sevirəm” sözü həmişə bir subyektin digərinə şantajıdır, bircə qəbuledənin Ana və ya Tanrı olduğu və iki “səni sevirəm”in eyni anda deyilə biləcəyi möcüzəvi hal istisna olmaqla."

Davam etsəm, sənin lütfündən sui-istifadə etmiş olacam.

"Bir göz yaşı yenidən öz gözünə yuvarlanır", liiisonka, və mən yalnız iki sözlə yaşamaq istəyirəm: "gözəl" və "ağ".

Cümə, 06 Fevral 2009

MALLARME VƏ BEYTSON

“...şeylər artıq mövcuddur, onları yaratmağa ehtiyacımız yoxdur; biz yalnız onların arasındakı əlaqəni tutmalıyıq; poetik və musiqi əsərlərinin toxumasını təşkil edən bu cür telləridir.”

Mallarme, “Parisin səsinə” müsahibə, 1891

“Mən yalnız şeylər arasındakı əlaqə haqqında nəsə bilə bilərəm. Mən əgər masanın “möhkəm” olduğunu desəm, öz təcrübəmdən kənara çıxmış olaram”.

Qreqori Beytson, “Mələklərin qorxusu”, 1987

MEYMUNLARIN ALLAHI

Bu gün atamın 70 yaşı tamam olur. Valideynlərim boşandıqdan sonra, mən hələ uşaq ikən, “atam haradadır?” sualına anam həmişə “Allah sənin atandır” cavabını verirdi.

Mən atama inanmıram, mənim üçün o, həmişə itirilmiş insan olub, elə də qalacaq. Bəs Allaha inanırammı? Kim kimi yaradıb: O bizi, yoxsa biz Onu? Bəlkə də bu insana çevrilmiş meymunun ən böyük ixtirasıdır; dörd ayaq üzərində hərəkət edən, tədricən ayağa qalxan, yalnız ayaqları ilə yerə toxunan, dik durmağı, şaquli ölçü əldə etməyi bacaran *(İnsanın xeyli kəşfi öz fiziki quruluşunu təkrarlayır. Ondalıq say – on barmaq. Binar məntiq – beynin iki yarım kürəsi. İnternet – beynin neyron şəbəkəsi.)*, özünü bütün yaradılmışlardan üstün hiss edən və utanmağı öyrənən heyvanın öz narsizmini məhv etmək üçün insandan üstün Olanı icad etməsi... Utancaqlıqdan metafizika *(Metafizika – əlinizlə və nəzərlərinizlə çata bilmədiyinizə düşüncəylə çatmaqdır. Kəsəsi, spekulyasiya. Gözlərlə irəli, ağılla yuxarı.)* uydurmaq... Yəni Allaha inanırammı? O olmadan da dinc, hətta xoşbəxt yaşaya bilərsən. Ancaq nəticədə həmişə böyük məchul qalacaq – X. Və ümumiyyətlə bu suala nə üçün “bəli” və ya “yox” cavabı vermək lazımdır? "Bəli" ilə "yox" arasında "bəlkə"nin yüz çaları var. Məsələn, srağagün mən bu barədə heç düşünmürdüm. Dünən bir az içdim, həyatımdakı bütün pis şeyləri xatırladım və qərara gəldim ki, pis bir sadist olmaqdansa, Allahın ümumiyyətlə olmaması daha yaxşıdır. Sabah isə yəqin ki, 51% və ya 79% ehtimalla Onun varlığını etiraf edəcəm... İnsana çevrilmiş meymun. Meymuna çevrilən adam. “Siz şənbə gününü pozanları tanıyırsınız. Biz onlara dedik: “Mənfur meymunlar olun!” (Əl-Bəqərə, 65). İnsana çevrilmiş meymun *(Məktəbdə ruslar və metislər hədsiz tüklü və qarabuğdayı olduğum üçün mənə meymun deyirdilər. Sonra estafeti azərbaycanlılar özləri aldılar, daha az tüklülər və qarabuğdayılar. Məzlumlar zalımın optikasını, “norma” anlayışını əldə etdilər.)* olmaq ayıbdır və ümumiyyətlə, “İnsan olmaq ayıbdır. Yazmaq üçün bundan yaxşı səbəb varmı?” – belə yazır Delöz "Kritika və klinika " kitabında.

MEMARLIQ VƏ MEMUAR

Cəmi iki “faydalı” sənət növü var: memarlıq və memuar. Memarlıq düşməncə məkandan, memuar isə düşməncə zamandan qoruyur.

MƏDƏNİYYƏT

Antropoloji mənada mədəniyyət – təbiinin, təbiətdən gələnin dəyişilməsidir. Nəticə etibarilə yəhudilər və müsəlmanlar mədənidirlər, çünki onlar sünnətlidirlər, ancaq buddistlər və xristianlar isə barbardırlar. Vəftiz olunmuş provaslav dostum Fyodor bu yaxınlarda öz inancını dəyişmədən sünnət oldu. Bunu mədəni xristian olmağın gözəl olması ilə izah edir, ancaq sağlamlıq və seks baxımından da əvəzedilməzdir. Bax o – bizim zəmanəmizin qəhrəmanıdır.

MƏN

Bax: QEYDLƏR ÜÇÜN

MÜSLÜMÜN SUALI

Niyə cənnət həmişə bağ kimi təsəvvür edilir? Birincisi, cənnət ideyasını yaradanlar yəhudilər, müsəlmanlar səhra adamıdırlar. Qızmar (cəhhənnəm kimi) səhrada isə oazislər (kölgə, sərinlik, su) cənnətin prototipi ola bilər.

İkincisi, Təbiət – Mədəniyyət arasındakı fundamental, bəlkə də ilkin qarşıdurmada "Bağ" imtiyazlı orta yeri tutur. O, eyni zamanda həm təbiətə, həm də mədəniyyətə (antropoloji mənada) aid hadisədir.

Bağ ideyası buddizmdə mükəmməl şəkildə həll olunub – daş bağı. Həmişə 14 daş görürsən, ancaq bilirsən ki, onların sayı 15-dir. Bu bilik mümkün olan bütün fərdi görümlərin cəmi kimi hesablanır.

MÜŞAHİDƏLƏR

Bəlkə də reinkarnasiya ideyası suyun müşahidəsiylə bağlıdır. Su hər cür formaya düşür, çox yaxşı informasiya saxlancıdır, yeganə elementdir ki, üç halı var – maye, qatı (buz və qar) və qaz. Bütün canlılar sudan çıxıb, ana bətnindəki embrion su içindədir, insan orqanizmi 70-80% sudan ibarətdir. İnsan doğulana qədər – mayedir, yaşarkən – buzdur, ölümdən sonra – qazdır. Hindlilər bütün bunları dövriyyəyə buraxırlar, cəsədi yandırıb küllərini çaya buraxırlar: bir müddət sonra bulud yağışla dolur. İsa Məsih suda yeriyirdi.

Sufilər deyirlər ki, Mərifət – damlanın ümmana qovuşmasıdır. "Ümman üzərindəki yağış buludu kimi yola çıx, / çünki səyahət etməsən, heç vaxt insan ola bilməyəcəksən!" (Fəriddədin Əttar)

NƏFS VƏ KÖLGƏ

Qəlb – üfüqi nəfslə şaquli ruhun qovuşduğu yerdir.

Nəfs – insanın ehtiraslı ruhudur. Yalnız ölümlə, nəfəsin kəsilməsiylə nəfs üzərində tam qələbə çalınır.

Nəfsi müəyyən mənada analitik psixologiyadakı Kölgə anlayışı ilə ifadə etmək olar: adətən şüur tərəfindən rədd edilən şəxsiyyətin psixikasındakı gizli və ya təhtəlşüurdakı aspektlər, neqativ tərəflər. Öz Kölgəsindən qorxan insan bir qayda olaraq, onu başqalarının üzərinə atır. Yalnız ölümlə, mütləq zülmətin başlamasıyla birgə Kölgə də yoxa çıxır.

Həyatdaykən Kölgə müəyyən müddətliyinə yalnız bir halda yoxa çıxır: günorta vaxtı, Günəş zenitdə olanda. Satori anında, ilahi partlayışda, bəsirətdə.

Görünür, müqəddəslərin digərlərindən fərqi odur ki, onların həyatında Günəş daim parlayır.

NƏSR BARƏDƏ

Bədii ədəbiyyatın bütün cazibəsi personajların, obrazların, sujetlərin yoxluqdan necə çıxdığını müşahidə etməkdir. Elə bil onlar əbədilik hansısa alternativ aləmdədirlər, səni gözləyirlər ki, onları ordan çıxarasan.

Şeir tərcümə edəndə əvvəlcə qafiyələri tapırdım, sonra onları ritmə və mənaya uyğunlaşdırmağa çalışırdım. Yaxşı alınmırdı. Ancaq sonra anladım ki, ritmdən başlamaq lazımdır – ən qədim və sakral fənddən. Əgər ritmi tutsan, qafiyələr və fikrin dəqiqliyi öz-özünə gəlir.

Görünür, nəsrdə də belədir. Əgər intonasiya və ritmi tutsan, sujet, personajlar, mühakimələr, dialoqlar, struktur özlüyündən ortaya çıxır.

Hətta düzgün olmayan, atonal fraza belə ritmik olanda qulağı cırmaqlamır.

Prozada ilk növbədə həcm lazımdır – yazılanların həcmi. Relyef, cilalama işlərini sonra da aparmaq olar. Bu, eynilə kulturizmdəki kimidir.

İdeyadan yox, qəhrəmandan və onun hekayəsindən başlamalı. İdeya özözünə ortaya çıxacaq. Mallarmenin sözləriylə müqayisə: "Şeirdə sözləri düzgün yerbəyer etmək lazımdır. İdeyalar özləri ortaya çıxacaq." Deməli, nəsrdə personajların münasibətini düzgün qurmaq lazımdır, ideyalar özləri üzə çıxacaq.

Həmid Herisçinin və İliçevskinin prinsipi. Mən onların necə yazdıqlarını, gördükləri, eşitdikləri və hiss etdikləri hər şeyi – gündəlik həyatın hissələrini necə nəsrə çevirdiklərini görmüşəm.

Şairin ölümü – nasirin doğuluşudur.

Romantikin ölümü – realistin doğuluşudur.

Ola bilsin ki, analitik nəsrlə məşğul olmaq koqnitiv-davranışçı terapiya rolu oynayaraq özümü toplamaqda mənə kömək oldu.

PERSONAJ. Onun kiminləsə və nəyləsə KONFLİKTİ var. Konflikt SÜJETİ hərəkətə gətirir. Əgər konfliktin tərəflərindən biri haqlı, digəri haqsızdırsa, nəticədə bədii əsər, dram yox, melodram, moralite alınır. Amma DRAMATURGİYA – odur ki, hər kəsin öz doğrusu var (mötərizədə qeyd edək: həqiqət heç kimə məlum deyil) və yazıçı bu bərabər doğruların toqquşmasını göstərir.

Mən həmişə düşünürdüm ki, bədii mətn yaza bilmərəm, çünki insanları hərəkətə gətirən motivləri anlamıram.

Tez-tez dostlarımın yanında bu sözləri təkrarlayaraq roman, hekayə yazmadığıma haqq qazandırırdım. Halbuki, bir az nəfəs dərib fikirləşsək, məlum olur ki, bu motivlərdən ancaq bəlli sayda var.

Artıq 8 milyard insanıq, ancaq insanları hərəkətə gətirən bir neçə motiv var:

Pul hərisliyi;

Hakimiyyət aclığı, həmişə və hər şeydə haqlı olmaq aclığı, əməlləri və taleləri həll etmək aclığı;

Seks, narkotik, kef aclığı;

Ölümsüzlük aclığı;

XOŞBƏXTliyin əldə edilməsi kimi qiymətləndirilən eqo zəfəri.

Rus dilindən tərcümə:
Qismət RÜSTƏMOV, Nicat MƏMMƏDOV

(Ardı var)

Nəzakət MƏMMƏDOVA

YURD DEDİYİM BU TORPAQ

Yurd dediyim bu torpaq
Alnımın yazısıdır.
Babamın əmanəti,
Anamın laylasıdır.

Yurd dediyim bu torpaq
Yenilməyən qalamdı.
Təkcə anam deyil ki,
Həm də mənim balamdı.

Yurd dediyim bu torpaq
Ovxarlı qeyrətimdi.
Dünyanı heyran qoyan
Əbədi şöhrətimdi.

Yurd dediyim bu torpaq
Odum, közümdü mənim.
Kimliyimi tanıdan
Ulu sözümdü mənim.

Yurd dediyim bu torpaq
Ağır-ağır elimdi.

Qəlbləri ovsunlayan
Şirin ana dilimdi.

Yurd dediyim bu torpaq
Bükülməyən dizimdi.
Dünyanın sinəsində
Ləpirimdi, izimdi.

Yurd dediyim bu torpaq
Xalqımın qismətidi.
Əzəldən hər qarışı
Millətin ismətidi.

Yurd dediyim bu torpaq
Keçmişdir, gələcəkdir.
Sinəsində millətin
Arzusu güləcəkdir.

Yurd dediyim bu torpaq
Haqq ünvanlı səsimdi.
Zamanın yollarında
Tükənməz həvəsimdi.

Yurd dediyim bu torpaq
Əbədi harayımdı.
Sədaqətlə süslənmiş
Məhəbbət sarayımdı.

Yurd dediyim bu torpaq
Dinimdi, imanımdı.
Tarixin dəryasında
Əzəli limanımdı.

Yurd dediyim bu torpaq
Millətimin səsidir.
Milyon-milyon ürəyi
Hərarəti isidir.

Yurd dediyim bu torpaq
Babaların məzarı.
Ümidlərin baharı,
Arzuların gülzarı.

Yurd dediyim bu torpaq
Ünvanımdı, adımdı.
Babama, övladıma
Ulu hesabatımdı.
96 misra
Yurd dediyim bu torpaq
Qanımla suvanıbdı.
Ürəyimin oduyla
Ocağı qalanıbdı.

Yurd dediyim bu torpaq
Qədim Odlar diyarı.
Babəkin arzusudu,
Xətainin vüqarı.

Yurd dediyim bu torpaq
Əmanətdir, əmanət.
Hər qayası, hər daşı
Dəyanətdir, dəyanət.

Yurd dediyim bu torpaq
Barım, bərəkətimdir.
Tanrının bəxş etdiyi
Haqqım, həqiqətimdir.

Yurd dediyim bu torpaq
Tarixin sübh çağıdır.
Həniri sozalmayan
Ərənlər ocağıdır.

Yurd dediyim bu torpaq
Qəhrəmanlar yurdudur.
Xırdaca bir daşı da
Yenilməyən ordudur.

Yurd dediyim bu torpaq
Ən ulu hikmətimdi.
Dağı, daşı, ağacı
Tanrıyla ülfətimdi.

Yurd dediyim bu torpaq
Səsimdi, sorağımdı.
Arzular çiçək açmış
Bir bağçamdı, bağımdı.

Yurd dediyim bu torpaq
Əbədi libasımdı.
Burda yaşanan ömür
Baharımdı, yazımdı.

Yurd dediyim bu torpaq
Döyüş qərargahımdı.
Hər çınqılı, hər daşı,
Ulu səcdəgahımdı.

SƏNGƏR

Vətənin ağrılı, çətin anında
Ömrün qapısından çıxdı şəhidim.
Əsgər hünərini, əsgər andını
Düşmənə güllətək sıxdı şəhidim.

Hünər qanad açdı onun ruhunda,
Dilləndi qanında bir ulu "Cəngi".
Əsgər qeyrətindən həvəslənərək,
Üçrəngli bayrağın açıldı rəngi.

Qürbətdə üşüyən yurd yerlərində
Harayı ucaldı ər oğlu ərin.
Dillərdə dolaşdı şərəfli adı
Millətə ruh verən böyük hünərin.

Qeyrətə bələnmiş arzularını
Torpağın boynuna taxdı igidim.
Dözümün, təmkinin daş hasarını
Yağının başına yıxdı igidim.

Düşmənin üstünə getdi ər kimi,
Coşdu damarında qeyrət ahəngi.
Çaqqal sürüsütək qırdı düşməni,
Vətən torpağının cavan pələngi.

Üstünə yağsa da yağı gülləsi,
Ölümün gözünə qorxmadan baxdı.
Mələklər bəzəyən bəy otağıydı,
Üstünə çıxdığı şəhidlik taxtı.

Ölümü qorxutdu cəsarətiylə,
Bəxtinin yolları düşsə də düyün.
Bir vətən oğlunun döyüşçü ömrü
Açdı qapısını ölümsüzlüyün.

Vətən güzgü tutur hünər yoluna,
Həsrət sinəsindən köçür illərin.
Ölməzlik nəğməsi hopub ömrünə,
Torpağı Vətənə döndərənlərin.

Hər qəlbdə çağlayır qeyrət dənizi,
Millətim, həmişə üzün ağ olsun!
Qürurla söyləyir şəhid anası,
Ey müqəddəs Vətən, başın sağ olsun!

Vətən, dərdlərinə dərman olmağa
Şəhid balam kimi oğullar gərək.
Şanlı Qələbənin yolları üstə
Hünərvər ömürlər döşənsin gərək.

Adın qəhrəmandır, ucadır soyun,
Haqqın dərgahıdır məzarın, şəhid.
Bəzənib Allahın məhəbbətiylə
Əbədiyyət adlı gülzarın, şəhid.

Ana yurdumuza səngərdi sinən,
Torpağın sevgisi taleyinlə tən.
Baxıb hünərinə öyünür Vətən,
Zəfər ünvanısan, Vətən əsgəri.

Dağlar babaların daş nərəsidi,
Sular nənələrin layla səsidi.
Qəlbinin oduyla Vətən isindi,
Zəfər ünvanısan, Vətən əsgəri.

Səndən söz açdıqca yorulmur ürək,
Ümidlər açılır hey çiçək-çiçək.

Əzminlə yurduma zəfər gələcək,
Zəfər ünvanısan, Vətən əsgəri.

ŞƏHİD ZİRVƏSİ

Göyləri titrədir ahı-naləsi,
Ana layla deyir qəbir daşına.
Hər gün qucaqlayıb soyuq məzarı,
Sanki gəlib keçir beşik başına,
Həzin layla çalır qəbir daşına.

Oğullar içində gəzir oğlunu,
Güc verir gözünün həsrət yaşına.
O qədər sözü var, kimə desin ki,
Dərdini söyləyir məzar daşına,
Ana sığal çəkir qəbir daşına.

Gündə bir arzusun söyləyir ona:
– Axı heç keçmədin bəy otağına.
Xonçanı tutmadım, xına yaxmadım
Gülüzlü gəlnimin əl-ayağına.
Ana gileylənir qəbir daşına.

Göylərə yalvarır: məni də apar,
Sözümü deməyə çatım taxtına.
Göylərdən səs gəlir: sənin oğlunun
Şəhid ucalığı düşüb baxtına.
Ana layla deyir şəhid oğluna.

Oğlunun qəbrinin üstünə gedən,
Ananın harayı, dərdin səsidir.
Tanrı dərgahında uca sayılan,
Oğlunun yetdiyi şəhid zirvəsi,
Ananın yeganə təsəllisidir.

ŞƏHİDİM

Yaman narahatdır ruhun, bilirəm,
Durur qisas günün hələ, şəhidim.
Torpaq qan içində, düşmən əlində,
Dağın göz dağıdır elə, şəhidim.

Yalana dönübdü mənim gerçəyim,
Solub düymə-düymə gülüm-çiçəyim.
Analar açmayıb qara ləçəyin,
Göz yaşı dönübdür selə, şəhidim.

Yolu yox Vətənə aparan yolun,
Şikəstəm, sınıbdır qanadım-qolum.
Didərgin ruhunun qurbanı olum,
Məni də kəfənə bələ, şəhidim.

Sənə «söz vermək»dən sözüm qaralıb,
Xəcalət çəkməkdən üzüm qaralıb.
Qisas qiyamətə dirənib qalıb,
Ağırdı çiynimdə şələ, şəhidim.

Nə qədər ağrın var, ağrınla varam,
Yaramdı köksünün altdakı yaran.
Sən göydən enəsən, mən burdan duram,
Gələ zəfər günü, gələ, şəhidim.

GÖZLƏDİLƏR

"Qara kağız" yazılmadı ağ kağıza,
Yollarını gözləyənlər ümidini itirmədi.
Qapısını "qara kağız" döymədiyi ünvanlarda
Ümidlərin qapıları üzlərinə örtülmədi.
"Qara kağız" yazılmadı ağ kağıza,
Əsən yellər, susan yollar
Gedənləri gətirmədi.
Qönçə-qönçə çiçəkləri oda yaxan
Boynubükük bir bənövşə bitirmədi.
Ağ kağıza yazılmayan acı-acı taleləri,
Qalaq-qalaq ürəklərə yeridənlər,
Kül içində köz axtardı
Ömürləri bir şam kimi əridənlər.
Gözlərini bu yollardan çəkmədilər,
Ürəkləri sökülüncə, sərv boyları bükülüncə,
gözlədilər.
Yollardaca qara saçı ağ hördülər,
gözlədilər.
Bir zərrənin işığına yürüdülər,
gözlədilər.

Son ümidin yaxasından əllərini üzmədilər,
gözlədilər.
Ömürlərin bu yollarda paralayıb azanlar da,
Ürəyindən qanlar axan, ağı üstə dil-dil ötən
ozanlar da,
Qəbirlərin öz əliylə yad ellərdə qazanlar da
gözlədilər.
Taleləri – qələmini bəxt yazandan
oğurlayıb yazanlar da
gözlədilər.
Hey ağlaya, hey ağlaya gözlədilər.
Şəkilləri sığallaya-sığallaya gözlədilər.
Gün doğantək
Gün batantək gözlədilər.
Qürbət eldə bir vətəntək
gözlədilər.
Gözləməkdən bezmədilər,
gözlədilər.
Döz dedilər, döz dedilər,
Nə yaxşı ki, gözlədilər.
Dözən bizim analardı,
Dərd heykəli, qəm heykəli sonalardı.
Son mənzilə ümidlərlə köçüb gedən,
Ömürləri "hayıf" olan analardı.
Dərd göyərtdi anaların göz yaşları,
Dərd bəmbəyaz saçlarına yağan qardı.
Solan çiçək, yağan yağış, düşən yarpaq
Vida deyən gözüyaşlı son bahardı.
Dözən bizim analardı,
Nəmli-nəmli baxışlar var uzaqlarda,
uzaqlarda əsir düşdü
donub qalan sazaqlar da.
Harayına heç gəlməsin
ağ kağıza bəxti yazan.
Ağ kağıza qara bəxti necə yazsın
yazı yazan?
Qara bəxtin yazısını yazmaqdansa
ümid gözəl...
Bu ümidi itirməyən gözləməyin özü
gözəl.
Qoy gözləri hey yollarda haraylasın
bəxt yazanı.
Qurban olum, yazın hanı???
Qışın ötdü, yazın hanı?

Səyyarə MƏMMƏDLİ

BU MƏZARA NECƏ SIĞIRSAN, ATA?

Ömürlük həsrətin davamı kimi
Əksindən nə qəmli baxırsan, ata?
Dünyaya sığmazdı bizlərə arzun,
Bu məzara necə sığırsan, ata?

Zaman dərdlərini örtmədi sənin,
Bir günün əzabsız ötmədi sənin,
Göyçə arzuların bitmədi sənin,
Bu məzara necə sığırsan, ata?

"Su keçməz" aradan indi "gün" keçir,
Keçdiyin yollardan duman, çən keçir,
Çəkdiyin "el dərdi" səndən yan keçir,
Bu məzara necə sığırsan, ata?

Gözümüzü yola çəkili qoyub,
Görəcəyin işi tökülü qoyub,
Evimizdə yalnız şəklini qoyub
Bu məzara necə sığırsan, ata?

Bir ömürdə iki obadan getdin,
Biri viran, biri abadan..., getdin,
Özün bir, fikrin bir yuvada..., getdin,
Bu məzara necə sığırsan, ata?

İndi olub bu yal-yamac beşiyin,
Çəkəcək bu dağlar, daşlar keşiyin,
Orda başsız qoyub evi-eşiyi
Bu məzara necə sığırsan, ata?

Ömürlük həsrətin davamı kimi
Əksindən nə qəmli baxırsan, ata?
Dünyaya sığmazdı bizlərə arzun,
Bu məzara necə sığırsan, ata?

SÖZ YOLU

Söz yolu hamar olur,
Söz yolu kələ-kötür.
Ya çatar ünvanına,
Ya da yollarda itər.

Bəzən qalar havada,
Bəzən də yerə düşər.
Bəzən də iti olub
Qılınctək qəlbi deşər.

Göyə qaldırar səni,
Bəzən də çırpar yerə.
Ya dərdi sovar, ya da
Güc olar dərdə, sərə.

Ağızda bişib çıxar
Ürəkdən köz alanda.
Qəlb isinər, sevinər,
Qərəzsiz, düz olanda.

Haqq olsa da, güllətək
Açılıb, susar bəzən.
Əvəzində nahaq söz
olar yeriyib, gəzən.

Gah saf olar dürr kimi,
Gah da ucuz, yarımçıq.
Gah saxlanar sirr kimi
Gah da söylənər açıq.

Ya tez, ya gec bağlanar
Həyat yolu sabaha.
Hər nə olsa, söz yolu
Açıq olur sabaha.

***

Atalar deyib:
– "Bu günün işini sabaha qoyma."
Atalarımız həm də deyib:
– "Axşamın xeyrindən,
sabahın şəri yaxşıdır".
Qaldım iki deyimin arasında.
Tələsdim, bu deyim yadıma düşdü,
Tələsmədim, o biri deyim.
Odur ki, qalmışam hələ də
yolun yarısında.

***

Şeirlərim
göz yaşımın şəklidi.
Daha çox ağlayıram
ümidlərim öləndə.
Gözlərimdən süzülən
damla-damla hərflər
söz-söz birləşib,
misra-misra axır
və qərar tutur
son bənddəki nəticədə.
Çaylar axıb
ümmanda qərar tutduğu kimi.

***

Qılınc susur, hələ də
Qələmimdən qan damır.
Kəsilir budaq-budaq
Qılınc çaldığım ömür.

Gülnar ÜMİD

SƏNƏ SƏNDƏN DANIŞDIM...

Gözünün güzgüsündə
Daranırdım bu gecə.
Üzümə kirşanımı
Dodağının fırçası
Çəkirdi bax beləcə.

Kar olmuşdu qulağım
Eşitdiyim səslərə.
Nəfəsin danışırdı,
acıq verirdi bütün
"əbəs"lərə, "bəs"lərə.

İlk dəfə idi bu gün,
Sənə səndən danışdım.
Acığına gəlməsin,
sənə demişdim axı
Sevgilimlə tanışdın.

Şəlləmişdi saçımı
Kürəyimə əllərin.
Danışdıqca, dilindən
sürüşüb ürəyimə
Düşürdü ümidlərim.

Yol eyni, mənzil ayrı,
Qapının astanası
Utandı ayağımdan.
Gözümdə səni görüb,
Sevindi, intəhası.

***

Atdım şəkillərin içinə səni,
Bəlkə xatirəndən mənə dönəsən.
Biz eyni şəhərdə özgə ürəkdə,
Nə mən dayananam, nə sən gedənsən.

Sıxır ürəyimin bəxtini üzük,
Çıxarıb atmaqla yaşamaq olmur.
Gündüzlər yükümü uşaqlar çəkir,
Gecələr yükünü daşımaq olmur.

Gözlərim yolunun ipini çəkir,
Keçir boğazına dünənlərimin.
Sonra günahını boynundan atıb,
Keçirir boynuna bu günlərimin.

Nəfəsim kölgəmin çiyinlərində,
Nə uzaq yol gedir, görəsən Allah!
Bəlkə bu yolları yaxına çəkib,
Ürəyimi söküb hörəsən, Allah?

Sovurur ayrılıq səssizliyimi,
Dilimi də udur getdikcə ömür.
Kaş səni ümidə pay verməyəydim,
Mən elə bilirdim ümidlər ölmür.

***

Hər səhər göz qapaqlarımın arasından
bir pəncərə açılır yeni günə.
Ötən yollar zəncirləyir ayaqlarımı,
Qapıları bağlamışam keçmişin açarıyla.
Gələcək üçün yeni ünvanımızın
bütün tədarüklərini görmüşəm
Seçmişəm səni də, məni də...

Bircə qalıb qapıdan "biz" içəri girə.
Qorxma!
Çətinlikdən keçmək üçün bağlamışam
qorxunun gözlərini
Sənə de ki, tutub məni də götürüb gəlsin...

***

Saçlarımın uclarıyla gəzdim bütün şəhərləri.....
Şəhərlər səni çoxdan qovmuşdu
mən tanımadığım küçələrə
Məsələ budur ki...
Daha keçməyəcəm o yerlərdən azsam da, azsan da...
Qaç qurtul bütün xatırlamadığım yollardan..

DARIXIR, YENƏ DARIXIR....

Başın heç çiynimdə darıxmamışdı,
İndi köynəyimdə ilişib qalan
bircə o telindi baxır üzümə, lal-dinməz darıxır,
yenə darıxır...

Qucağım qoxunu gizlədir səndən,
gündüzlər geyinir, gecə soyunur.
"Sən"imdə gizlicə pıçıldadığın
qulağım darıxır,
yenə darıxır....

Ovcuna sıxdığım yanaqlarımı,
baxışın şəkildən güldürür indi.
Gözümü çağırır görüş yerinə
Xəyalım darıxır,
yenə darıxır...

Səni də, məni də, ötürən qapı
Bizim arxamızca göz atır hər gün.
Hər gələn qapının şıkkıltısına
Addımlar darıxır,
yenə darıxır...

Məmməd ORUC

60–40 ARASI



1983-cü ildə "Azərbaycan" jurnalının 60 illiyi dövlət səviyyəsində, təntənəli surətdə qeyd olundu. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən yubiley tədbirində Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov iştirak edirdi. Jurnalın 60 illik fəaliyyətinə görə verilən Qırmızı Əmək bayrağını da, gurultulu alqışlar altında, jurnalın baş redaktoru Əkrəm Əylisliyə K.Bağırov təqdim elədi. Bu yığıncaq və eləcə də yubiley tədbirləri haqqında o zamanın mətbuatında kifayət qədər material var və bu səbəbdən də mən o hadisənin "görünməyən" tərəfləri haqqında düşüncələrimi və ümumiyyətlə, hələ də yaddaşımdan silinməyən bəzi məqamları sizlərlə paylaşmaq istəyirəm.

O illər Sovet tarixində "durğunluq illəri" damğasıyla gözdən salınsa da, ədəbiyyata, mədəniyyətə verilən dəyər göz qabağındadır. 60 illik yubileyə, demək olar ki, bütün İttifaq respublikalarından qonaqlar dəvət olunmuşdu və onların əksəriyyəti sovetlər məkanında kifayət qədər tanınmış yazıçı və şairlər, bir sözlə, mədəniyyət xadimləri idilər.

Yazıçılar İttifaqında qərara gəlmişdilər ki, hər qonağa bir redaksiya əməkdaşı təhkim olunsun və bu əməkdaş yubiley tədbiri başa çatana kimi o qonağın qulluğunda dursun, bir qədər də mədəni söyləsəm, onu şəhərdə müşayiət eləsin.

O zaman mən üç il idi ki, jurnalda əməkdaşlıq eləyirdim və daha çox, jurnalda tərcümə işləri ilə məşğul olan Natiq Səfərovla durub-otururdum. Elə birinci gün, heç vaxt zarafatından qalmayan Natiq mənə belə bir təklif elədi:

– Məmməd, gəlsənə qonağımızı dəyişək?

Təbii ki, mən bunun səbəbi ilə maraqlandım.

– Bilirsən, Muxtar əkə (o, yaşı yetmişi haqlamış bir qazax yazıçısı idi) elə bilir ki, məni ona nökər veriblər, hərdən məni siqaret almağa da göndərir, bu öz yerində, heç siqaretin pulunu da vermir.

Əlbəttə, mən istəkli dostumun məsələni şişirtdiyini dərhal hiss elədim və mən də zarafat tərzində cavab verdim:

– Muxtar əkə sənin qismətindi, bir-iki gün turançılıq xatirinə döz də, nə olar?

Yeri gəlmişkən,Natiqin təklifi tam ciddi olsa belə, mən onu qəbul etməzdim. Çünki mənim “bəxtimə çıxan” qonaq tanınmış tatar şairi Renat Xaris idi və mən əsgəri xidmətimin bir qismini Kazan şəhərində keçirdiyimdən, onun Tatarıstanda nüfuz sahibi olduğunu bilirdim. Onu da bilirdim ki, o, Azərbaycan şairlərindən Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin onlarca şeirini tatar dilinə çevirib.

Elə həmin gün Natiqlə Muxtar əkənin arasında yaranmış “ziddiyyətin də” kökünə vardım. Məlum oldu ki, Natiq Muxtar əkəyə Oljas Süleymenov haqqında vaxtaşırı tikanlı suallar verməklə onu qıcıqlandırır. Muxtar əkə sovet əxlaqına qulluq eləyən bir qələm sahibi idi və o zaman Muxtar əkənin, bir çox əsərləri (o cümlədən “AZ İ YA”) satışdan və kitabxanalardan yığışdırılmış bir soydaşını qəbul etməməsi, əslində, başadüşüləndi və təbii ki, dostum Natiq də bunu anlayırdı və məncə, bir “turançılıq” nümunəsi kimi o, Muxtar əkəni həm də çox istəyirdi.

Yubiley tədbirlərindən qabaq bizə belə bir tapşırıq da vermişdilər: hər kəs öz “qonağından” bir ədəbi nümunə seçsin və jurnalın növbəti sayı üçün çapa hazırlasın.

Bu minvalla, mənim Renat Xarisdən seçdiyim örnək də jurnalın növbəti sayında çap olundu. Bir neçə gündən sonra iş vaxtı dedilər ki, bəs Bəxtiyar Vahabzadə səni telefona çağırır. O vaxtacan heç bir mükaliməmiz olmadığına görə təəccübləndim. Məlum oldu ki, Bəxtiyar müəllim Renat Xarisdən etdiyim tərcüməyə görə zəng vurub.

Bəli, o “durğunluq” illərində biz tam ədəbiyyat havası ilə nəfəs alırdıq. Məlum oldu ki, Bəxtiyar müəllimin daha çox xoşuna gələn mənim şeir seçimimdi. O mənzum parça isə bir ağacın harayından bəhs edirdi: “yapraqlarımı yoldular, yenə yarpaqladım, budaqlarımı qırdılar, yenə budaq göyərtdim, gövdəmi kəsdilər, yenə yaşıllandım, çünki köküm yerdədir, Ana torpaqdadır və s.” O zamanlar belə

yanaşma ədəbiyyatda cəsarət kimi dəyərləndirilirdi və bu da, görünür, zamanın tələbi idi.

“Azərbaycan” jurnalının 60 illik fəaliyyətinə görə (bayrağın üstündə xoş sözlər də yazılmışdı) dövlətin bizə təqdim etdiyi o bayrağı isə banketdən sonra (gecə yarıdan keçsə də) Yazıçılar İttifaqına gətirdik. Gözətçi:

– Bayrağa görə gələcəyinizi güman eləmişdim, – dedi. – Sizi televizorda gördüm.

“Azərbaycan” jurnalının əməkdaşları. 1978.
Soldan sağa: İntiqam Qasımzadə, Qabil, Sabir Süleymanov, Bayram Həsənov, Əmir Mustafayev

Gözətçinin bizi ekranda görməsi də təbii idi. Çünki redaksiyanın bütün əməkdaşlarını, qonaqlarla bir yerdə, zalda yox, filarmoniyanın səhnəsində oturtmuşdular. Yəqin ki, hörmət əlaməti olaraq...

O unudulmaz hadisənin üstündən nə az, nə çox, 43 il keçir və hələ də Baş redaktor İntiqam Qasımzadə ilə mən bu jurnalda fəaliyyətimizi davam etdiririk. Bəli, nəsillərin yarpaq tökümü çoxlarını aparıb...

Yaşasın yeni yarpaqlar!

Novruz NƏCƏFOĞLU

ADINLA YAŞA, “AZƏRBAYCAN”!

İşıq, günün hər hansı bir vaxtı üçün səciyyəvi olan aydınlıqdır. O aydınlıq ki, neçə-neçə yaradıcı insanın əlindən tutub, ruhsal durumdan xilas edib, öz kölgəsindən çəkib çıxarıb, həssas və zərif hisslərinə pəncərə olub, iç dünyasını güzgüləyib, bir sözlə, ətrafımızı həm gördüyümüz, bildiyimiz, həm də görməsək də, bilməsək də hiss etdiyimiz gözəlliklərlə canlandırıb, rəngləndirib... 100 yaşını tamamlayan “Azərbaycan” jurnalı da sözə-sənətə işıq olub, bu yolda iməkləyənlərdən, ta irəliləyənlərə qədər hər kəsin, hamının gündüzlər Günəşi, gecələr Ayı olaraq ilham pərisinin qanadlarına toxunan bir şam işığı qədər toxuna bilib.

Mən də bu gözəl duyğulara könül verib vurğun olduğum vaxtdan bəri ədəbi yoluma işıq saçan yol yoldaşım oldu “Azərbaycan”.

Əvvəl yoldaş, sonra yol, deyiblər. İndi bu ədəbi yol yoldaşlığının yaşı nə az, nə çox – düz 50 ildir. 50 ildir ki, doğma “Azərbaycan”ın daimi oxucularındanam.

Ədəbiyyat, bədii söz mənə görə həyat eşqi, bir həyat sevgisidir. Yerə düşən dənəyə, toxuma torpaq can verdiyi kimi, söz də insanı yaşadır, qəlbinə, ağlına-ruhuna paklıq, saflıq, mərhəmət, Vətənə qırılmaz tellərlə bağlılıq, fədakarlıq, bir sözlə, ümumi bəşəri duyğular toxumu səpir.

Etiraf edim ki, ədəbiyyata, sözə ilk marağım, sevgim indi də hər sayını intizarla gözlədiyim bu möhtəşəm, mötəbər bir söz meydanı olan doğma “Azərbaycan”ın səhifələrindən başlayıb.

Əlli il bundan qabaq bir oxucu kimi səhifələrini vərəqləyib oxucusu olduğun bir ədəbi-bədii dərgidə bir gün elə müəlliflərdən biri kimi özünün də imzasını görmək sevinci mənə də nəsib olub. “Azərbaycan”ın səhifələrində povest və hekayələrim çap olunub, oxuculara çatdırılıb.

Yüz yaşını tamamlayan “Azərbaycan” ölkəmizdə nəşr olunan ədəbi-bədii mətbu orqanlarının həmişə müdrik ağsaqqalı olub. Ancaq burası da var ki, jurnal elə yeniyetməlik, cavan, ahıl çağlarından üzü bəri müdrik olub, kamil olub. Müdriklik hər şey haqqında doğru və ağla uyğun qərar verə bilməkdir. Müdriklik daxili burulğanlardan və ehtiraslardan arınmanı bilməkdir. Müdrikliyin ən böyük xüsusiyyəti, hər mövzuda ölçülü olmasıdır. Müdriklik həm də həyatının idarəsini əlinə almış deməkdir. “Azərbaycan” jurnalında bu sadalanan keyfiyyətlərin hamısı var. Bu dəyərli jurnalı, artıq 100 ildir bizim ədəbiyyatın idarəsini öz əlinə almış saymaq olar.

İndi jurnala baş redaktorluq edən dostumuz İntiqam müəllimə, bütün yaradıcı heyətə ən səmimi arzu və istəyimi: qəlbi cavan, ruhu təzə dərgimizin yaşayacağı ömür yolu həmişə elə belə olsun.

Sənin də ömrün doğma, əziz, müstəqil Azərbaycanımızın ömrü kimi əbədi olsun!

Səni 100 il boyunca yaşadanlara Tanrıdan rəhmət düşür – indiki müəlliflərinə də uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları!

Adınla yaşa, “Azərbaycan”!

OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN”

jurnalına abunə yazılışı davam edir.

Əlaqə nömrələri:

+ 99412 498-78-10
+ 99455 668-78-79

Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.
İNDEKS: 76300

YÜZ İLİN BİRİNCİLƏRİ

RUHULLA AXUNDOV

13.01.1887 – 21.04.1938

“Onun gördüyü işləri heç bir həqiqi vətəndaş unuda bilməz”.
A.ŞAİQ

Abdulla Şaiq bu sözləri Ruhulla Axundov haqqında yazıb. Abdulla Şaiqin yüzlərlə şagirdi, yüzlərlə tələbəsi olub. XX əsrin əvvəllərindən üzü bu yana, Azərbaycan cəmiyyətinin seçilmiş simalarının böyük əksəriyyətinin təhsil və mənəviyyat yolunda Abdulla Şaiq adı dünən də, bu gün də sanki bir zəmanət sənədi gücü daşıyıb. Müəllimin də, rəhbərin də vicdan meyarı hər kəsin fərdiliyini və fərdiyyətini ədalətlə qiymətləndirmək olanda, taraz düz göstərir. Tərəzinin gözünü əyməklə mənəvi balansdan danışmaq, onu arzulamaq, ən yumşaq halda, Molla Nəsrəddinin evdə itirdiyi üzüyü çöldə axtarmaq lətifəsini xatırladır; Ay işığı içərinin qaranlığını aydınlatmır.

XX əsrin repressiya siyasəti tarazlığı hərb savaşından betər əyib. Onun səbəb olduğu fəlakətlər XX əsrin 30-cu illərində qalmadı, tarixin yaddaşını zədələdi. Bu zədələnən tarix, ideoloji texnologiyalar sisteminin də insanlıq qədər fəlakət yaşadığını söyləyir. Sübut – ilk vaxtlarda mədəniyyətlərin rəngarəngliyini real imkanlar və mövcud mexanizmlərdən bəhrələnməklə humanitar əməkdaşlığa yönləndirmək platformasında fəaliyyətə başlamış “Maarif və mədəniyyət” jurnalının “İnqilab və mədəniyyət”, “Revolyusiya və qultura” kimi ad – enerji dəyişkənliyinə məruz qalması, bu yöndə xüsusilə hegemon partiyanın ədəbiyyat siyasətinin əsl üzünü göstərmiş 1925-ci ilin məlum Qət(L)naməsi. Hər cür milli müstəsnalığın qorunması cəhdlərinə ölüm hökmünün işçi layihəsi olan bu sənəd sonralar qurultay səviyyəsində səlahiyyət aldı və... Bu gün yüz yaşlı “Azərbaycan” jurnalı - bu ili

sələflərinin ağrısını qüssə, kədər və eyni zamanda, dərin ehtiramla xatırlayır. Abdulla Şaiqin Ruhulla Axundovla bağlı yuxarıdakı etirafı həmin siyasətə dolayısı ilə etirazdı həm də. Bu etirafın hökm-qənaət tonundakı təəssüfündə “sağlığında qiymət verin insanlara” eyhamı da sezilir. Abdulla Şaiq niyə belə demişdi. Tələbəsinin faciəli taleyinə acımışdımı təkcə?

DOSYE: Atası Bağdadda ali ruhani təhsili alıb, ərəb-fars dillərindən dərs deyib. 4 yaşında anasını, az sonra atasını itirib. Ruhullaya da, bacılarına da böyük bacı Xoşsima analıq edib (Xalq artisti Nəcibə Məlikovanın anası). Bacılarının övladları yüksək təhsil alsalar da, dayılarının “xalq düşməni” olması bütün ailəni pərən-pərən salıb.

Şüvəlanda mədrəsə, Bakıda rus-tatar və realnı məktəblərində təhsil alıb. Bir neçə şərq və qərb dillərini bilirdi. Məktəbin “gözü olan”, iti zəkası, savadı, natiqlik qabiliyyəti ilə seçilən Ruhulla ehtiyac üzündən məktəbi bitirə bilməyib. "Orucov qardaşları" mətbəəsində əvvəl fəhlə, sonra: korrektor, tərcüməçi işləyib.. Anarxiya və hərc-mərclik illərinin burulğanı, nümayişlər, inqilabi ritorika, Nəriman Nərimanov, Dadaş Bünyadzadə və digər ziyalılarla ünsiyyət bu ağır təbiətli, zəif cüssəli, savadlı gəncin dünyagörüşündə dərin təbəddülatla yanaşı, taleyində dərin iz buraxıb. 1917-ci ildə daxil olduğu SR mənsubluğundan ayrılıb, Cümhuriyyətə qarşı mübarizə aparanlardan olub. Bir vaxtlar AXC-nin rəhbərlərini “Cəllad” adlandırmış Ruhulla Axundov Cümhuriyyət Kabinetinin Əmək nazirliyində vəzifə tutsa da, sonradan bu hökuməti tanımadığını bəyan edib. Yeri gəlmişkən, Zaq federasiyanın yaradılmasına da əvvəl etiraz etsə də, sonra, niyəsə, susub. 1919-cu ildə bolşevik partiyasına keçib. Həmin ildə gizli bolşevik nəşri “İzvestiya”nın sonra – “Kommunist” qəzetinin ilk redaktoru olub. Bir il sonra Leninlə görüşüb. XI Ordunun Bakıya gəlməsinə kömək edib. 1930-cu ildə Zaqafqaziya üzrə bolşevik komitəsinin katibi olmazdan əvvəl, gənc Ruhulla 4 ildi ki, Azərbaycanın maarif komissarı postunda Mustafa Quliyevi əvəz edirdi. Bundan əvvəlsə, respublikanın mərkəzi komitəsinin rəhbərliyində “əfsanəvi Sergey Mironoviçin” – Kirovun xələfi olmuş, niyəsə yerini çox tezliklə (1925-1926) Levon Mirzoyana təhvil verməli olmuşdu. Bundan başqa, irili-xırdalı müxtəlif partiya-dövlət sahələrinə rəhbərlik edib, jurnalistika sahəsində də fəal olub: həm publisistik mətbu çıxışları ilə, həm də naşir kimi olub (“Hüriyyət”, “Bakinski raboçi” qəzetlərinin də redaktoru olub). Sonrakı fəaliyyətində proletar ideologiyasının başlıca hədəfi olmuş siyasi, mənəvi-əxlaqi dəyərlərin məcmusunu sosialist cəbhəsinin və həyat tərzinin təbliğinə cəlb olunan bütün ideoloji alətlərin rejimin xarakterinə uyğunlaşdırılması siyasətini dəstəkləməsi başadüşüləndir. Humanitar mədəniy-

yətin rəsmi siyasətə dəstək olması ən demokratik ölkələrdə də qəbul olunub. Ruhulla Axundovdan buna görə imtina etmək nə dərəcədə doğrudur? Cəmiyyətin rifahına kömək etməyə yönləndirilmiş siyasətin kütləviləşdirilməsinə kömək edən yaradıcı insanların göstərişlə dövriyyəyə buraxılan ideyaları öz mövqeləri kimi dərk edərək, bu təbliğat-təşviqata qoşulmasının nə qədər desən nümunəsi olub, var, olacaq. 1920-30-cu illərin mürəkkəb məqamlarında mövqelərin eyniləşməsi, təbliğatın siyasəti də qabaqlaması qorxulu deyildi. Qorxulu, nigaran məqam kommunikativ əlaqələrin yönləndirilməsi işində mənəvi məsuliyyətin düzgün dərk olunmaması idi ki, əksər milli kommunistlərin böyük faciəsi də bu olmuşdu: aşırı inam və icraçı səylərinin aşırı dozası.

"Biz istiqlal istəyirik. Elə bir istiqlal ki, haqlar haqq, zalımlar məhv, məzlumlar hürr olsun" arzusuna, niyyətinə görə Ruhulla Axundovu qınamaq olmaz. Zaman göstərdi ki, ədalətin qələbəsini millətlərin birliyində, qardaşlıq ideyasında görən ruhullalar haqqın, zülmün, məzlumun adını və cəbhəsini düzgün təyin etməkdə yanılmışdılar. Milli, dini təsirlərə qarşı "allahsızlar cəmiyyəti"ni, milli, dini bayramlara qarşı inqilabi bayramları qoymaq işində mərkəzin siyasətinə səs vermək Azərbaycanın yeni rəhbərliyində təmsil olunmuş savadsız, səriştəsiz nazirlərin kor-koranə icraçı iradəsi üçün başadüşüləndi. ***"...Ruhulla Axundov haqqında isə bunları demək mümkün deyil. O, savadlı olmasına baxmayaraq, bu bacarığını öz xalqının milli dövlətçiliyinin inkişafına deyil, işğalçı kommunist rejiminin güclənməsinə sərf edib. Onun çatışmayan ən başlıca cəhəti kommunist ideologiyasına ürəkdən inanması və buna görə öz xalqına qarşı fəaliyyət göstərməsi idi" (Çarlz K.Mouzer. Zaqafqaziya haqqında qeydlər).*** Bu, bir milli ziyalının yox, əcnəbi baxışın soyuq mühakiməsi idi. Rejimin xalq düşməni"elan etdiyi hər bir milli ziyalının ittiham edilməsi mövqeyində hətta "şeytanla da ittifaqa hazır olan" siyasi ritorika belə yanaşmaları dövriyyəyə buraxmaqda, heç şübhəsiz, maraqlı idi. Uzun illər də bu təqdimat dövriyyədə dolandı, Cümhuriyyətə münasibətinə görə ondan "küskün" olanların tutalqa yeri oldu. Amma Abdulla Şaiqi eşitmək, onun nə dediyini, niyə dediyini düşünmək yada düşmədi, sərf eləmədi.

Kimsə düşünmədi ki, həmin Ruhulla Axundov pantürkizm adı altında türklüyə diş qıcayan sovet dövrünün qan-qan deyən vaxtlarında latın qrafikalı əlifbaya keçidin qızğın tərəfdarlarından və təşkilatçılarından biri olub, (özü də latın qrafikalı əlifbanın təkcə Azərbaycanda deyil, Şərqdə yayılmasının zəruriliyini, rolunu qeyd edirdi) türkoloji qurultayın (1926) təşkilində və işində fəal iştirak

edib, dilimizin elmi terminologiyasının yaranması onun adı ilə bağlıdır, rusca-türkcə 2 cildlik lüğəti tərtib edib, redaktoru olub. Ana dilinin inkişafına mühüm töhfələr verib. SSRİ EA Azərbaycan filialının yaradılmasında və rəhbərliyində iştirak edib, Mirzə Fətəli Axundovun xatirəsinin əbədiləşdirilməsi – heykəlinin qoyulması (1928), aşıqların ilk qurultayının keçirilməsi, “Koroğlu” dastanının çox nadir nüsxəsinin Azərbaycana gətirilməsi, öz dövrünün ən sanballı siyasi, elmi nəşrlərinin tərcüməsi, klassik irs nümunələrinin bir çoxunun tədqiqi, çapı ilə bağlı xidmətləri danıla bilməz.

Əvəzində, Mayakovskinin “Pravda”dan güc alan “Pompadur”u sevdirildi. Ruhulla Axundovun “xuliqanlığına” – rus sərnişinə qatarda etiraz etməsinə görə “eninə-uzununa çəkdiyi” şeiri az qala dərslik səviyyəsində “unudulmadı”. “Millətlərin atası” Stalinin milli kadrların savadlı olmasına dözümsüzlüyü fonunda yaxşı fürsət idi “pompadur”. Belə bir fikir də var ki, məhz bu insident zamanı vəzifə vəsiqəsini göstərməsi ilə karyerasına son qoyulub. Bundan sonra Moskvaya gedib, bir vaxtlar ehtiyac ucbatından realnı məktəbdə yarımçıq qoyduğu təhsilini burada tamamlayıb, Bakıya dönüb. Vəzifə yüksəlişinin növbəti mərhələsində Lenin ordeni ilə təltif olunub. Azərbaycanda sosialist inqilabının qələbəsinin 15 illiyi münasibətilə layiq görüldüyü orden də, lenin ideyalarına sədaqəti də onun 3 ay sonra “əksinqilabi – millətçi” kimi həbs olunmasına mane ola bilməyib.

Abdulla Şaiqin ***“incə zövqə malik, ədəbiyyatı dərindən başa düşən və onu qiymətləndirən xadimlərimizdən olmuş Ruhulla Axundovun dərin zəkasına, geniş dünyagörüşünə, tükənməz enerjisinə heç kəs heyrət etməyə bilməzdi”*** fikri tələbəsinin “antimilli” fəaliyyətindən qaynaqlanmırdı. “İnqilab və mədəniyyət” (indiki “Azərbaycan”) jurnalının redaktoru olduğu dövrdə (1927-1928) onunla birlikdə işləmiş şair Süleyman Rüstəmin xatirəsi həmin dövrdə azərbaycanlı ziyalı mühitinin eskiz-ştrixi kimi maraqlıdır: ***"Mən Ruhulla Axundovun mənzilində çox görkəmli alimləri, jurnalist, yazıçı və tərcüməçiləri görmüşəm. Xatirimə gələnlərdən: ...Tağı Şahbazi, Mehdi Hüseyn, Məmməd Arif, Mikayıl Rəfili, Nemət Bəsiri və başqaları..."***

“İnqilab və mədəniyyət” jurnalında Ruhulla Axundovun “Leninsiz, lakin leninizm ilə”(1927, N 1-2 s. 2-4), “Son iddia”(1927, N 9-10, s. 2-4), “Firdovsi kimdir?”(1934,N 10 – 11, s. 1-9) məqalələri dərc olunub.

Niyəsə, azərbaycanlıların antisovet fəaliyyətini ən çox erməni kadrlar müəyyən ediblər. Jurnalist Flora xanım Xəlilzadə Ziya Bünyadovun "Qırmızı terror" kitabına istinadən yazır: ***"Azərbaycanda DTK-nın ermənilərdən ibarət olan rəhbərləri "müəyyən" etdilər ki, təşkilatın başçıları R.Axundov, Ə.Qarayev... və başqaları idilər". Söhbət hansı gizli***

təşkilatdan gedirdi? Guya bu antisovet üsyanı qaldıracaq rəhbərlərdən biri Ruhulla Axundov gələcək Azərbaycan burjua-demokratik respublikasının prezidenti olmalı idi. Beləliklə, Ruhulla Axundov (bir vaxt Lenin ordenli kommunist) həbs edilərək zindana atılıb" ("Azərbaycan" qəzeti, 2010, 23 iyul).

Həbsində bir vaxtlar dost olduğu Mir Cəfər Bağırovun əlinin olduğu da iddialardan biridir. Sonralar onu siyasi rəqib kimi gördüyünə görə haqqında Stalinə 3 dəfə məruzə etmiş Bağırov onun rəhbərə qarşı çıxdığını, Trotski haqqında yüksək fikirdə olduğunu qeyd edibmiş...

Erməni ilə əvəzlənmə prosesi Ruhulla Axundovun İncəsənət işləri idarəsindəki vəzifəsində də baş verəcəkdi və həmin illərin canlı şahidlərinin xatirəsi bu yerdəyişməni belə xarakterizə edəcəkdi: ***"Ruhulla Axundov çox xeyirxah və nəcib insan idi. Yerində ermənini əyləşdirdilər. Qəddarın, başkəsənin birini..." (Barat Şəkinskaya).***

Arvadı Frida Naumovna Şlyomova - Axundova ondan bir il sonra ALJİR düşərgəsində 8 il sürgün yaşadı. Ailə başçısı səhər tezdən işə gedərkən evinin qarşısında həbs olunanda (17.12.1936) oğlu Fəridin 14, qızı Aneliyanın 3 yaşı vardı. Fərid II Dünya müharibəsində həlak oldu. Özü isə uzaq Moskvanın xəlvəti NKVD poliqonunda heçə-puça qarışdı... Mülayimləşmə dövründə bəraət aldı, partiya sıralarına bərpa olundu. Yəni, "Bağışlayın, səhv olub". Və bu faciə təkcə onun nəsibi deyildi. Coğrafiyanın fərqləri nəzərə alınmasa, Ruhulla Axundovun faciəsi kommunist ideallarına inanmış minlərlə azərbaycanlının faciəsi idi... Bu inamın bədəlini "Maarif və mədəniyyət" jurnalına 1923-1938-ci illərdə rəhbərlik etmiş beş milli ziyalı da ağır ödədi. Amma... faciə təkcə bu da deyil, bu ağır bədəlin çalarları sırasında işçəncələrin dərəcəsinə "şükür"etməkdi; işgəncələrin çeşidindən, şiddətindən havalanmış Ruhulla Axundov hətta tanımadığı adamlara da "mənim təşkilatımın ən fəal üzvüdür" – deyirmiş.

Bioqrafiyasının ziddiyyətli mənzərəsi sağlam məntiqi də çaş-baş qoyur: belə çıxır ki, qəddarlığın dərəcəsi vəzifə pillələrinin sayına, milli mədəniyyətə, elmə, maarifə xidmətin səviyyəsinə görə təyin edilirmiş, yoxsa, hakim rejimin "cəzalandırma taktikasının" iyrənc gedişi kimi başa düşülməlidir?! Amma nə olur-olsun, bütün yanlışları – səhvləri, günahları – xətaları ilə... Ruhulla Axundov bir azərbaycanlı, bir türk oğlu türkdü!..

Südabə AĞABALAYEVA

BÖYÜK KOMANDANIN BİR ÜZVÜ OLMAQ

...Zəng çalınır. Növbəti mühazirə dərsi. Təqvim planı üzrə beşinci mövzu. Bu il həm də 5-ci ildir. 5 ildir ki, müəllimlik məsuliyyətini daşımağa çalışıram. Bugünkü mövzumuz “Azərbaycan” jurnalının nəşri tarixidir. Təkrar edirəm – “Azərbaycan” jurnalının nəşri tarixi...

Hər dəfə jurnala bağlılığımı, doğmalığımı özüm də bilmədən gizlətməyə çalışıram. Amma hər dəfə də içimdəki fərəh hissi ələ verir məni. Axı, mən bu tarixin davamının şahidiyəm... Əziz Südabə xanım məni jurnala gətirəndə hələ 4-cü kursda oxuyurdum. “Azərbaycan” jurnalında Qarabağ mövzusu” adlı buraxılış işi yazmalı idim. Milli kitabxanada material toplamaq üçün keçirdiyim günləri, oxuduğum müəllifləri xatırlayıram bu gün. Həftədə bir neçə dəfə elmi rəhbərim Südabə xanım Ağabalayeva məni redaksiyaya dəvət edir və birlikdə ümumiləşdirmələr aparır, yığılan materialları dəyərləndirirdik. Bu proses mənə o qədər çətin gəlirdi, sanki ortaya bir şey çıxara bilməyəcəyimdən qorxurdum. Müəlliməm hələ o zaman dediyi sözləri bu gün də deyir: “Qorxma, yazının ü zərinə cəsarətlə get”. Amma mən sözün üstünə getməkdən bu gün də qorxuram... Daha sonra mənə jurnalın işi ilə bağlı kiçik texniki tapşırıqlar verdilər. Redaktə olunmuş yazıları elektron formatda düzəltməyə başladım. Heç vaxt jurnalın rəsmi işçisi olmadım, amma özümü həmişə jurnala, kollektivə aid hiss etdim. Və bundan sonra harada işləsəm də, bu, həqiqət olaraq qalacaq. Beləcə, 2009-cu ildən mən də “Azərbaycan”lı oldum. Redaksiyaya gələn qonaqlar və onların söhbətləri, yazıya aldığımız müsahibələr və s. sözlə ifadə edə bilməyəcəyim qədər bütöv bir məktəbdir. Jurnal işinin mətbəxini bilənlər anlayacaq nə demək istədiyimi.

Yeri gəlmişkən, bu gün də “Azərbaycan”la bağlı elmi-tədqiqat işinə Bakı Slavyan Universitetinin doktorantı kimi davam edirəm. Mövzum jurnalın 100 illik tarixində esse janrının inkişaf istiqamətləri haqqındadır və mən böyük zövq və məsuliyyət hissi ilə doğma jurnalı bu yöndən öyrənməyə çalışıram. Öyrənməyə çalışıram. Belə yazıram və duruxuram; “Azərbaycan” jurnalını öyrənmək elə həyatı, ədəbiyyatı, İnsanı öyrənmək deməkdir. Bu jurnalı

kənardan öyrənmək yetmir, onu yaşamaq lazımdır. Mən də, nə xoş ki, neçə illərdir, mənən jurnalla birlikdə, jurnalı yaşayanlarla birlikdə “Azərbaycan”ı yaşayıram... Ümid edirəm bu mövzunu müdafiə edib, daha bir nostalji yazı yazacağam.

Mühazirə davam edir... Sovet mətbuat sistemində sözə məsuliyyətin vacibliyindən, sovet ideologiyasının diktəsi ilə “öz” sərhədlərini aşmadan yaradıcılıqla məşğul olmanın çətinliyindən, qəlibə salınan “qəribə” insanlardan, repressiyaya məruz qalan baş redaktorlardan danışıram. Və hər dəfəsində də auditoriyadan suallar səslənir: “Axı necə?” Möhtərəm tarix hər şeyə qiymət verib artıq...

Həqiqətən də “Azərbaycan” jurnalı çox çətin dövrdə meydana gəldi. Bolşeviklər tərəfindən işğal olunan Azərbaycan, Cümhuriyyətin yarası ürəyində yeni bir tarixi mərhələyə başladı. “Yeni tarix yazmaq” cəhdləri mətbuatda 70 illik şuralı cəmiyyət və mədəniyyət formalaşdırdı. Birpartiyalı sistemə keçid mətbuatın iş prinsipini tamamilə dəyişdi. Ədəbiyyatın, incəsənətin yeni sosialist modeli 1923-cü ildə “Azərbaycan” jurnalının yaranması üçün zəmin yaratdı.

İlk redaktoru Tağı Şahbazi Simurq olan jurnal nəşri tarixində altı dəfə ad dəyişilikliyinə məruz qalıb. Və hər bir ad tarixi dövrün məziyyətlərini özündə ehtiva edib. Sonda 1953-cü ildə Səməd Vurğunun təşəbbüsü ilə bugünkü adını bütünlükdə haqqını verməyə davam edib. Və hər bir baş redaktor öz dəst-xətti ilə seçilib. Ən əsası, bir əsrlik fəaliyyəti dövründə “Azərbaycan” jurnalı ədəbiyyatın və mətbuat tariximizin mənəvi simvoluna çevrilə bilib. Azərbaycan ədəbiyyatının iki ayrı bir-birinə zidd mərhələsinin güzgüsünə çevrilən jurnalın gələn il yanvarın 28-də 100 yaşı tamam olur.

Ən böyük təbrik 100 yaşlı jurnalın yaradıcı kollektivinə düşür. Hər nömrə üçün materialların yığılmasından tutmuş, müəllif-redaksiya münasibətlərinin tənzimlənməsinə qədər məsuliyyətli işin öhdəsindən ustalıqla gələn “Azərbaycan” komandası bu gün ən məhsuldar ədəbi orqandır.

Əziz İntiqam müəllim, əziz müəlliməm Südabə xanım, SİZ mənə ümman qədər bilik verdiniz. SİZ sözün qüdrətini, ucalığını göstərdiniz, SÖZƏ DƏYƏR VERDİYİNİZ QƏDƏR ÖZÜNÜZ DƏ DƏYƏRLİSİNİZ, DƏYƏRSİNİZ.

100 yaş həm də “Azərbaycan”ın dostları, oxucuları üçün əlamətdar tarixdir. Qəlbində və evində “Azərbaycan”a yer ayıran dostların, əsil dostların!..

Neçə-neçə ədəbi nəsilləri geridə qoyub, söz meydanına çevrilən “Azərbaycan”, geriyə baxma. Geriyə baxma ki, bir əsrlik yaşını yeni yaşlara calaya biləsən. Yüz yaşın mübarək!

Zümrüd ƏHMƏDOVA

♦ Poeziya



Banu MÜHƏRRƏM

AL APAR

Bu sarmaşıq əlləri qır apar, sənin olsun,
Əlli-qollu sevincim sehirli pərin olsun,
İki kəlməlik sözüm həyəcan tərin olsun –
Sərin olsun bağçalar.

Qəhvə, badam gözləri sür apar, gəmin olsun,
Əllidonlu baxışım səbrli dəmin olsun,
İki gülməklik sözüm dərmanın, həbin olsun –
Şirin olsun alçalar.

Bu yorulmaz dizləri yor apar, çəmin olsun,
Əlidolu kürəyim səhərli çənin olsun,
İki ölməlik sözüm sübhəcən təbin olsun –
Şeir dolsun dolçalar.

SƏN YADIMA DÜŞƏNDƏ

Sən yadıma düşəndə
günəşə göz atıram, gözlərimi yandırır.
O parıltı sənsənmi? Qalan ağlımı alır.

Sən yadıma düşəndə
kəndimizin şəklini ürəyində daşıyır
içimdəki boz divar.
O kənd sənə tanışdı?
Səsin kəndə aparır, mənə tanış o civar.

Sən yadıma düşəndə
Ay Günəşlə yarışmır, Günəş Ayla öpüşür.
O Ay sənin dostundu?
Mənə səndən danışır,
sözünü kəsməyəndə darıxmağım ötüşür.

Sən yadıma düşəndə
İçir, gülür babalar,
gözündə cavanlaşır ən deyingən qarılar.
O cürünü görmüsən?!
Elə bil çiçəklərdən toz daşıyır arılar.

Sən yadıma düşəndə
Dənizdə qayıq batır,
əllərimdən yapışır kömək istəyən qollar.
O dənizi bilirsə…

KİMƏ GÖRƏ?!

Dərə olub incə-incə süzüldüm,
Qəhər dolu pencəyimə büzüldüm.
Özümdən çox özgəsinə üzüldüm.
Kimə görə? Nəyə görə? Nə xeyri..?

Saçımı izindən hörmək istədim.
Çiçəyi dizindən dərmək istədim.
Gerçəyi gözündən görmək istədim.
Demə: niyə?! Susum belə, nə xeyri..?

Öyrəndim ki, hər şəhərdə gəzilməz,
Dilbilməzə dərd etibar edilməz.
Öyrəndim ki, kin zahirdə görünməz.
Zillət belə. Gizlət elə! Nə xeyri..?

Adam var ki, baharını güz edər –
Biri gedər dərd dağını düz edər,

Biri gələr bağlarını yüz edər,
Bitər ömür, dönər kürə, nə xeyri..?

BİR AZ YAN!

Gülüşünə – əl açıb, sözə şeir hördürüm,
Gəlişinə – qol açıb, tellərimi hördürüm,
Yerişinə – yol açıb, güzargahlar hördürüm,
Qaçışıma bir az yan, bir az əri, bir az sön!

Salamımı – verəndə, gözlərini güldürüm,
Kəlamını – dərəndə, gözlərimi güldürüm,
Kamalımı – görəndə, sözlərini güldürüm,
Naxışıma bir az yan, bir az əri, bir az sön!

Bulanmasın – könlünün gölü, bulağı damsın,
Sulanmasın – ömrünün gülü, yarpağı damsın,
Dolanmasın – ruhunun dili, dodağı damsın,
Baxışıma bir az yan, bir az əri, bir az sön!

SUSMALI!

İlməsi qaçmış,
arasındakı üzərlik otu ovulub tökülmüş…
– o cib dəsmalı
ən çox sevdiyim adam üçündür.
Sulardan yol açan Musa misalı –
ocaq ürəyimə ayaq basmalı
– küçə daşlarını döyən yağışlar.

pərvanə xisləti – başıma dönüb
Dayanıb bir əhval maraqlanmamış
– çiynin saçlarıma qucaq açmalı.

Bədəni islanmış, rəngi saralmış,
ilməsi köksündən küsüb darılmış
ətrini axtaran o dəsmal haqqı!
Yusifin, Musanın Allahı haqqı!
sevgimin tapdanmış hüququ, haqqı!

Yağış dayanmamış, canım çıxmamış,
Ən sevdiyim adam gəlib çıxmalı.

Susub, eşitməyib, qulaq asmalı
"pərvanə sözü"nə, "şamın səsi"nə
Yağış yorulana, qış qalxanadək,
o şam , o pərvanə , o cib dəsmalı –
Susmalı! Susmalı! Susmalı!

SƏN BİLMİRSƏN

Qəlb sümüyə bənzəmir ki…
qırılanda bitişsin.
Bir az dinmə!
Azca hüzur...
Söz yorulsun, sözün qolları düşsün.
Ürəyinə düşdüyümdə arzuların
yuxun kimi əllərindən yox olsun.
İlk dəfəki o duruxmaq...
o darıxmaq....
o maraq....
cəsarətin öpüşüylə əsarətdən qurtulsun!
Mən bilirəm.
– tələtümlər təbiətin yaxasında düzlənir.
Əlvidalıq payızlar da acığından yağışlarla süslənir.
Sən bilmirsən.
Kötük – taxta evlərin qabırğası
neçə paslı mismarlarla gizlənir..
Amma...
...amma görünmür.
Kağız kimi insan qəlbi əzik-üzük yumrulanır, atılır.
Sanma...
...sanma görünmür!
İkisi də qığılcıma kül olur.
Sən bilmirsən.

QİSMƏT DEYİLSƏ

Nə qayə daşıyıram,
Nə də bir dağ aşıram.
Dəlicə yaşayıram...
Bir məhəbbət... bir ümid!

– Məndə nə var?!
Var amma...
Məndə könül arama...
Duz istəməm yarama...
Tez ol, tərpən, durma, get!
Əgər həyat budursa,
Ölüm qurtum sudursa,
Gözlərində su dursa
daha sevməyi tərgit!

Allah gülər, qul ağlar.
Saçımı qucur ağlar.
Nəmli, şərab dodaqlar
Qismət deyilsə, tərk et!



Şəfəq ƏLƏSGƏRQIZI

CAVABSIZ MƏKTUB

Üzünü söykəyib ağrılarıma
Kirpiyi nəm çəkən payız gecəsi.
Bir misra təsəlli istəyir ürək,
İçində uzansın ümid küçəsi.

Gecəni isladan yağış səsindən
Tozunu yuyuram xatirələrin.
Daha saçlarımı həsrət oxşayır,
Görən harda qalıb sevgi əllərin?

Ömrün qapısında əcəl gizlənir,
Açılır dərdimin ulduz düyməsi.
Yuyunur gözümün yağışlarında
Nimdaş taleyimin solğun nəğməsi.

Qəlbimdə bir ovuc ay işığı var,
Ömrümü isidir təbəssümümtək.
İndi bu gecənin qaranlığında
Cavabsız məktubdur sinəmdə ürək.

ADAM

Dur aç yaxasını xatirələrin,
Qoxla nəfəsini ötən illərin.

Ömrün dan yerindən əsən yellərin
Özgədir ləzzəti, özgədir dadı.

Adlayıb ömründən neçə qərinə,
Xəyal çəkir səni, çəkir dərinə.
Dünyanın rəngbərəng ilmələrinə
Zaman naxış- naxış düzür adamı.

Bu keçib gəldiyim ömür yolunda
Gözü doluxsunub bəzən yolun da.
Ürəkdən deyilən bir "sağ ol"un da,
İsidir həniri, közü adamı.

GƏLƏRMİ?

Əlini ver, yerlər, göylər darıxar,
Göydə quşlar qanad çalmaz, karıxar.
Qoşa uçaq, tək uçmaqdan nə çıxar,
Mənim kimi hər dərdə tab gələrmi?

Qorxuram ki, fikrim yenə yanılar,
Sahilinə gəmim nə vaxt yan alar?
Bu eyhamlar, sətiraltı mənalar,
İşin görsə, görən cavab gələrmi?

Bəlkə əsən külək olum tüstünə,
Bir sevdanın odu olar tüstünə?
Ürəyimin masasının üstünə
Çox sevdiyim sirli kitab gələrmi?

MƏKTUB

Yığdı evimizi tənə deyirəm,
İnam istisinə bürünmədin heç.
Bilir yaşıdlarım mən nə deyirəm,
Sevdiyim dalınca sürünmədim heç.

Sevgidə astaca adımı çağır,
Sevginlə sinəmə tuşlanan oxsan.
Suallar yağıştək başıma yağır,
Hayana baxıram, sən orda yoxsan.

Çovğunu, boranı vecinə alma,
Yağış məhəbbətə yağsa, çətirəm.
Mən təzə deyiləm, dəyişik salma,
Sevgi məktubundan qalan ətirəm.

DEYƏSƏN

Gözlərində şimşək kimi çaxmışam,
Ürəyini odlamışam deyəsən.
Gümanımın kəndirini qırmışam,
Sərhədini adlamışam deyəsən.

Bu dünyada tənbəldən çox, zirək var,
Bir qəlbi daş, beş ürəyi kövrək var.
Nisgil dolu cadar-cadar ürək var,
Mən gecikən baxt, naxışam deyəsən.

Çox çıxmışam hər alovdan, hər oddan,
Ay həsrətim, çıxar məni sükutdan.
Dünən gecə nəm çəkmişəm buluddan,
Yağacağam, gur yağışam deyəsən.

Ürəyim, ver gündüzümün hesabın,
Sevincini üstələyib əzabın.
Nə yaxşı ki, məhəbbətin kitabın
Örtməmişəm, qatlamışam deyəsən.

Modern nəsr, yadlaşma və tənhalıq problemi, "şüur axını" texnikası və Afaq Məsud yaradıcılığı

Xalq yazıçısı Afaq Məsud Azərbaycan nəsrinin, dramaturgiyasının ən orijinal üsluba malik yazıçılarından biridir. XX əsrin 70-ci illərində yaradıcılığa başlamış bu yazıçının əsərləri Azərbaycan nəsrində modernizmin inkişafında müstəsna rol oynamış və nəsrdə "şüur axını" texnikasının tətbiq edildiyi ilk nümunələrdən olmuşdur. O, hekayələrində, romanlarında "şüur axını"ndan istifadə etməklə adi məişət hadisələrindən tutmuş sosial və siyasi problemlərə qədər bir çox vacib məsələləri mövzuya çevirə bilmiş, insan, xüsusilə qadın psixologiyasının, şüurunun və şüuraltısının ən incə məqamlarını, reallıqla yuxu, xəyalla gerçəklik arasında keçidlərin varlığını və bəzən bu keçidlərin insan həyatını yönləndirən funksiya daşıdığını əks etdirərək insanın yalnız həyatı və mübarizəsi ilə deyil, bu həyat və mübarizə daxilində şüuru və şüuraltısının "oyunları" ilə, "axını" ilə birlikdə ədəbiyyat və sənət üçün maraqlı olduğunu sübut etmişdir.

Afaq Məsud yaradıcılığa tələbəlik illərində yazdığı hekayələrlə başlayıb və ilk hekayəsi "Ulduz" jurnalında dərc edilib. Çox keçmədi ki, bu hekayələr öz üslubu ilə, həqiqətən də, oxucuların diqqətini çəkdi. 70-ci illərdə o, bir-birinin ardınca "Qonaqlıq", "Üçüncü mərtəbədə", "Telefonda işıq", "Bekar", "Həsən əmi", "Tutuquşu", 80-ci illərdə "Yataqxana", "Şənbə gecəsi", "Mədəd", "Öldürdülər", "Uydurma", "Tək", "Gecə", "Qəza" hekayələrini, "Üzü işığa", "Suiti" romanlarını qələmə aldı. Bu əsərlərin böyük əksəriyyətinin mövzusu zahirən məişətdən götürülmüş olsa da, hər birində İnsan əzabı, İnsan yaşantıları, mənəvi və ictimai ziddiyyətləri, məişətlə və cəmiyyətlə mənəvi qarşıdurması bütün dərinlikləri və çılpaqlığı ilə təsvir edilmişdir. 90-cı illərdə onun qələmə aldığı əsərlərdə isə artıq cəmiyyətin, sosial-siyasi mühitin təzadları, baş verən dəyişikliklər yenə də zahirdə deyil, daxildə yaratdığı təbəddülat və qarışıqlıqlarla birlikdə təzahür etdi. Nizami Cəfərov yazıçının yaradıcılığının bu dövrünü çox dəqiq xarakterizə edərək yazmışdır: "90-cı illərin əvvəllərində ölkədə baş verən milli azadlıq, dövlət müstəqilliyi hərəkatları

istedadlı, geniş sosial-siyasi dünyagörüşlü yazıçının yaradıcılığına əhəmiyyətli təsir göstərir. Və eyni zamanda onun 80-ci illərdən sonsuz maraqla nüfuz etdiyi insanın daxili aləmi, mənəvi dünyası barədəki təsəvvürlərini daha da zənginləşdirir, ona ideoloji çalarlar gətirir". Həqiqətən də, 70-ci illərdə məişət hadisələrini və həyatın əsasən zahiri dəyişimini, gedişatını təsvir etməyə meyil göstərən yazıçı 80-ci illərdə şəxsiyyətin cəmiyyət və insan arasında mənəvi tənhalığına – daxili dünyasına enir, 90-cı illərdə isə onun yaradıcılığında artıq cəmiyyətin ictimai-siyasi problemləri əsas mövzuya və problematikaya çevrilir.

Afaq Məsudun ilk hekayələrindən etibarən ədəbiyyata həyat hadisələrinə maraqlı baxış bucağı olan bir qələm sahibinin gəldiyini müşahidə etmək olur. Hərçənd bu hekayələrdə hələ ki formalaşmış üslub, "şüur axını"na meyil çox hiss edilmirdi, lakin onların hər birində yazıçının təsvir etdiyi məişət hadisələrinin, cəmiyyətin, sosial problemlərin və bu problemlər fonunda baş qaldıran mənəvi-sosioloji ziddiyyətlərin mahiyyətini görmək, hiss etmək və təqdim etmək bacarığı qabarıq şəkildə duyulurdu. Bu mərhələdə onun "Üçüncü mərtəbədə" kitabında toplanmış "Qonaqlıq", "Üçüncü mərtəbədə", "Gəlin", "Telefonda işıq", "Ümid", "Günayın yuxusu", "Bekar" və s. hekayələri yazılıb. Onlarda, məsələn, 80-90-cı illərdə qələmə aldığı hekayələrdə olduğu kimi, dərin mahiyyət qatından, məişətin təsir etdiyi və fərqli istiqamətlərə – "məkanlara" "atdığı" şüurdan və şüuraltından danışılmırdı. Bu mətnlərdə İnsanın mənəvi dünyasının daxildən təsviri deyil, daha çox ünsiyyət zamanı və mühitdə müşahidə edilən təzahürləri görünürdü. Yalnız zahiri əlamətlər və xüsusiyyətlər əsasında yaradılan hansısa bir obrazın, xarakterin daxilində baş verən təbəddülatları yenə də yalnız zahirən təsvir edilən hadisələrdəki müəyyən elementlər və detallar vasitəsilə anlamaq olurdu. Amma bununla belə, Afaq Məsud üslubunu formalaşdıran "şuür oyunları", "daxili dialoqlar", "daxili monoloqlar", "şüur və şüuraltı dünyalara keçidlər", "təbiət hadisələri və insan ruhu arasındakı harmoniya və disbalans", onun obrazlarını xarakterizə edən "yadlaşma", "özgələşmə", "darıxma" və s. elementlər bu mətnlərdə də var idi. Tam olmasa da, hər halda, müəyyən işartılar şəklində görünürdü. Məsələn, "Qonaqlıq" hekayəsi həyatın mənasını qızılda, bər-bəzəkdə, dəbdəbədə görən gənc bir qadının yaşantıları ilə, "Telefondakı işıq" hekayəsi səsə aşiq olan gənc bir oğlanın yaşadığı xəyal qırıqlığı ilə, "Üçüncü mərtəbədə" hekayəsi içki aludəçiliyinin həyatın dibinə atdığı bir aspirantın tənhalığı və faciəsi ilə, "Gəlin" hekayəsi bütün arzusu və sevgisi gəlinə yönəlmiş, lakin qarşılıq görməyən bir qayınananın məyusluğu ilə daha çox ənənəvi nəsr elementlərini daşıyırdı. İlk baxışdan sosial münasibətləri, məişət qayğılarını əks etdirirdi. Lakin dəbdəbə həvəskarı olan qəhrəmanın Afaq Məsud yaradıcılığı üçün aktual olan və müxtəlif əsərlərinə təkrar-təkrar yol tapan "darıxmaq" mərhələsinə gəlməsi, "mənasızlıq" keçidlərindən (qızıl, dəbdəbə, göstəriş mənasızlığı!) adlaması bu yaradıcılıqda sonralar meydana çıxan yadlaşmış, özgələşmiş insanın iç ürpərdən "DARIXIRAM" harayına aparan "yol"un başlanğıcı kimi görünür. Yaxud telefondakı səsə vurulmuş və danışa-danışa üzünü görmədiyi qızın "əlində telefon tutmuş şəkilləri"ni çəkən gəncin, əslində, liliput olan qızla görüşünün sarsıntısından və həyəcanından

sonra gəldiyi qənaətlər ("Fikirləşdi ki, niyə insanlar hər şeyə qarşı belə tələbkardırlar? Niyə hər şeydən, hamıdan ancaq öz istədikləri şeyləri gözləyirlər?") Afaq Məsud yaradıcılığındakı o "daxilə enmə", "dərinə enmə" prosesinin başlanğıcı kimi maraq doğurur. Və ya "Üçüncü mərtəbədə" hekayəsində mühitdən doğan bütün xırdalıqların, detalların "canlandırılması", hətta küçədən eşidilən səsin, küyün belə vacib və ruh halını təkcə əks etdirən deyil, həm də tamamlayan bir detal səviyyəsinə qaldırılması artıq Afaq Məsudun 80-90-cı illər yaradıcılığında özünə yer edən "detala varma", "səsə varma", "teksturaya varma" kimi xüsususiyyətlərə çox bariz bir şəkildə işarə edirdi. Yazıçının hər xırda detala can vermək və məna yükləmək bacarığı bu hekayələrdə hələ ki zəif işartılar və rüşeymlər kimi görünürdü. Lakin görünürdü. Yaxud hər əşyanın, hər detalın təsvir edilən, obrazı yaradılan İnsanın bir parçası, davamı kimi qəbul edilməsinin və göstərilməsinin ilk işartıları da eyni şəkildə diqqəti cəlb edirdi: "Çəkmələr də elə bil onun əli, ayağı kimi bədəninin bir üzvünə çevrilmişdilər"...

Afaq Məsudun yaradıcılığında hər zaman diqqət çəkən xüsusiyyətlərdən biri mövzu və problemlərə fərqli rakursdan yanaşma olmuşdur ki, yaradıcılığının ilk mərhələsində də bunu müşahidə etmək mümkündür. Məsələn, bu hekayələrdə "insanların maraqsızlığı", "insanlardan qopma", "tənhalaşma" tematikasının ilkin işartıları gözə dəyir: "Çoxdan bəri adamlar onun üçün bütöv bir şeyə çevrilmişdilər. Hamısı bir-birinə oxşayırdılar. Səslərini də qarışıq eşidirdi. Uğuldayırdılar" ("Üçüncü mərtəbədə"). Bu hekayələrdə bir insanın ruhən və cismən necə boşala biləcəyinin, insan üçün ən dəhşətli bir səviyyə olan "Özünü itirmə"nin ilkin və hələ ki ötəri detallarla təsviri görünür: "Öskürdü, yadına Sonanın balacalığı düşdü. Necə olub ki, Sona haqqında bu vaxta qədər heç fikirləşməyib. Fikirləşməyib ki, arvadımdan ayrılmışam, ayrılmışam, axı mənim qızım da var... Başa düşdü ki, o özünü itirib" ("Üçüncü mərtəbədə"). Lakin yuxarıda da qeyd etdiyimiz kimi, bütün bu xüsusiyyətlər hələ ki işartı, ştrix şəklindədir və "özülə qoyulan ilk daşlar" təəssüratı bağışlayır.

80-ci illərdən başlayaraq Afaq Məsudun hekayələrində artıq məişət və sosial mühitlə ziddiyyətdə olan insanın daxili dünyası, bu qarşıdurmanın mənəvi və ruhi nəticələri görünməyə başlayır. Yazıçı bu illərdə "Tək" (1986), "O" (1992), "Dovşanın ölümü", "Şənbə gecəsi" (1983), "Sərçələr", "Qəza" (1988), "Can üstə", "Uydurma" (1985), "Müdir", "Gecə" (1986) hekayələrini qələmə almışdır.

Bu hekayələrdən ən maraqlılarından biri də "O"dur. Hekayədə yazıçı öz qəhrəmanının yadlaşma problemini əks etdirmək üçün bütün imkanlardan yararlanmışdır. Məsələn, bütün günü yağış yağmasının təsvirinə diqqət edək: pəncərədən görünən və səsi duyulan yağış hekayənin içində obraz səviyyəsinə qalxır. İnsanın yadlaşması, tənhalığı, cəmiyyət, ailə içərisində təkliyi problemi hər yanı basmış su təəssüratının içərisində daha anlamlı, daha gerçək və inandırıcı təəssürat bağışlayır. Daha doğrusu, qəhrəmanın daxili təbəddülatları, yaşantıları ilə ovqat yaxınlığı daşıyan yağış da, evin tavanına, divarlarına, sonra şüşəsinə düşən çat da simvolik bir anlam qazanır. Bu, münasibətlərdəki soyuqluğu, nəmliyi, yadlığı və çatı ifadə edir. Bir də O-nun

dilindən tez-tez səslənən "Darıxıram" sözü ilk hekayələrdə kölgə kimi görünən "DARIXMAQ" anlayışının artıq obrazlaşma prosesinə adladığını göstərir. Ümumiyyətlə, "DARIXMAQ" anlayışı yazıçının bütün əsərlərində vacib bir komponent kimi iştirak edir. Ona mütləq hiss, duyğu şəklində, bu olmasa da, ən azı, detal, fon şəklində rast gəlinir. Məsələn, "O" hekayəsində "DARIXMAQ" obraz səviyyəsində görünür və onu yaradan detallar arasında yağış, külək, nəmişlik, yad təbəssümlər, mənasız baxışlar, rütubət... bir də qoxu (sevdiyi qadının qoxusu) iştirak edir: "və yenə damcıların səsiylə bir Onun qoxusu dəydi burnuna, başı hərləndi… ürəyi əsdi, həm də elə bil rahatlandı".

Afaq Məsudun yaradıcılığı və hekayələri üçün aktual olan xüsusiyyətlərdən biri də budur ki, o öz qəhrəmanının duyğularına romantik, təmiz, "ruhi", "mənəvi" bir don geyindirmir. İnsan münasibətlərinin, insan duyğularının fiziki, cismani tərəfini, "havada qalan yox, alt təbəqəyə çökən tərəfi"ni də göstərir. Eynilə "O" hekayəsində olduğu kimi. O öz qəhrəmanının ailəsinə, olduğu mühitə yadlaşmasının arxasında duran "mənəvi ehtiyac"dan başqa, fiziki tələbatı da anladır. Onu "adiləşdirməklə" bərabər, dözümsüz bir duyğuya çevirir. Afaq Məsudun qəhrəmanı həyat yoldaşının yanında uzana-uzana arzuladığı "O" ilə bağlı içində yaşatdığı "bir gün, yəqin ki, bitəcək" ümidi belə yaşanan və təsvir edilən münasibətə acımasız, qəddar bir rəng qatır. Bununla da, qəhrəmanlarının tənhalığını, hisslərini sanki iliklərinə, ruhunun ən xırda zərrələrinə qədər hiss edir və təsvir etməyə, çatdırmağa nail olur: "Bəbəkləri hardansa, uzaqlardan baxırdı ona – gözləri elə bil dustaqxanadaydı".

Yazıçı bir evdə yaşayan insanların bir-birinə ikrah hissini "mənəvi duyğu" deyil, "fiziki təəssürat" şəklində göstərir: "Pultun düyməsini basıb gözü ekranda, bir müddət arvadının – bu beyinsiz, əsəbi toyuğun gedə biləcəyi ünvanlar barədə fikirləşdi". Bu "fiziki təəssürat" bəzi əsərlərdə hətta ürək bulanma şəklində meydana çıxır və onun qəhrəmanını artıq yaşa dolduğu zamanlarda belə izləyir. Bəzən onun vəziyyətini yazıçı elə sərt ifadə gedişləri ilə verir ki, bunun özündə belə "fiziki ağrı" hiss olunur: "Elə bil səsi gözündən çıxdı". Bu yadlaşma bəzən o dərəcədə olur və elə səviyyəyə qaldırılır (və ya qalxır) ki, insan hətta özünə də yad, tanımadığı insan qismində görünür. Onun qəhrəmanı ad günündə, ruhuna yad olan adamların arasında, küləyin, yağışın açdığı pəncərənin arxasında yenə də artıq həyatda olmayan Onun səsini eşidir: "Darıxıram…" – dedi və öz səsindən az qaldı ürəyi dayana. Bunu deyən O idi…"

İnsan tənhalığı problemi Afaq Məsudun hekayələri (ümumilikdə yaradıcılığı) üçün çox aktualdır. Amma qəribədir ki, bu tənhalıq məhz elə TƏNHALIQ kimi yaradılır, TƏKLİK kimi yox. Məsələn, "Gecə" hekayəsinin ikisi bir arada TƏNHA olan qəhrəmanlarının yaşantıları elə təsvir edilir ki, oxucu mətnlə tanış olduğu anda az qalır o mənzilə getsin və o Tənhalığa toxunsun, onu dağıtsın. Çovğunlu gecədə, göyün neçənci qatındasa işıqsız, qazsız evlərində tək olmasalar da, tənha olan bu qocaların ovqatı da, ruh halı da, sabaha və yaza çıxa bilməyəcəklərini hiss edən ürəkləri də o qədər dəqiq və təsirli təsvir olunub ki, özünü o evin soyuqluğunda, o evin soyuqluğunu isə ruhunda hiss edirsən. Bir çox əsərlərində olduğu kimi, yazıçının bu hekayəsində də təbiət

hadisələri ilə ruh halının birbaşa əlaqəsi var. “O” da bu əlaqənu yağış yaradırdısa, “Gecə”də çovğun qurur. Tənhalığı onun səsi, vıyıltısı, titrətməsi, kimsəsizləşdirməsi əks etdirir...

Afaq Məsudun qəhrəmanları hər an ölümə yaxın, ölümlə üz-üzədirlər. “Gecə”də də, “O”da da, “Tək”də, bir çox digər hekayələrində də... Bu əsərlərdə ölümlə yuxu arasında qəribə bir məhrəmlik və doğmalıq var. Sanki ölüm yuxunu, yuxu isə ölümü öz yanınca “gəzdirir”. Yuxu o dünyaya – ölənlərin dünyasına yeganə keçid yolu kimi göstərilir. Həm də yeganə əlaqə vasitəsi kimi. Çox qəribədir ki, heç vaxt bunu birbaşa şəkildə ifadə etməsə də, Afaq Məsudun yaradıcılığında bu yolun bütün konturları, yuxunun “doğmalığı” dəqiq görünür. “Tək”in qəhrəmanı bu keçiddən, bu yoldan, az qala, o yana adlamaq dərəcəsindədir: “– …getmə, ana... qurbanın olum, getmə... – deyə-deyə ağladı, – …darıxıram sənsiz, ana, yaman darıxıram…” Bu qəhrəman özünü yuxular dünyasının ən məhrəm sakini hesab edir. Yuxu “Tək”in qəhrəmanı üçün ona görə doğmadır ki, anası ilə görüşünü “təşkil edir”. O isə, öz növbəsində, cəmiyyətə və doğmalarına ona görə yaddır ki, yuxuya, onun vasitəsilə də ölümə bağlılıq bu dünya ilə, əzizləri ilə əlaqəsini getdikcə qırmaqda, parçalamaqdadır: “Fikirləşdi ki, görəsən, anası onun pis yaşadığını, daha doğrusu, ümumiyyətlə, yaşaya bilmədiyini bilirmi?” “Tək”in qəhrəmanı bu dünyada yaşaya bilmir. Yaşamağı bacarmır. Eyni zamanda da yaşatmağı bacarmır. Özü ilə birlikdə ətrafını da bədbəxt və narahat yaşama məhkum edir.

Bu hekayədə də yazıçının yaradıcılığının bu mərhələsi üçün qabarıq və əsas olan yadlaşma problemi aktualdır: “Hə, ailəsi də həmin o yad adamlardan ibarət idi. Yad uşaqlar və yad ər…”

Ümumiyyətlə, Afaq Məsudun yalnız bu hekayəsində deyil, 80-ci illərdə və sonra yazılmış bir çox əsərlərində “nə isə axtaran, tapa bilməyən”, “yaşaya bilməyən”, “xoşbəxt ola bilməyən”, “yaşada bilməyən” İnsan obrazı var. Yad İnsan obrazı. Lakin o da maraqlıdır ki, bu Yad İnsanlar həm də “çılpaq bir cəsarət” sahibidirlər. Onlar bəzən dilə gətirilməsi, etirafı çətin olan düşüncələri belə dilə gətirə bilirlər. Ümumiyyətlə, Afaq Məsudun qəhrəmanları insanın özündən belə gizlətdiyi, özünə belə etiraf etməyə çətinlik çəkdiyi düşüncələrini, qüsurlarını, duyğularını söyləməyə çox açıqdılar. Və yazıçını fərqli edən xüsusiyyətlərdən biri də məhz elə budur: fikir çılpaqlığı, düşüncə çılpaqlığı, etiraf çılpaqlığı. Bu mətnə bir qədər qəribəlik qazandıraraq oxucuya “sərt şillə” effekti yaşatsa da, modern insanın modern özünüifadə forması kimi qəbulediləndir: “Fikirləşdi ki, anasına bağlılığı, onun xəstəliyi və itkisiylə əlaqədar keçirdiyi bütün bu iztirablar ana-bala münasibətindən çox, sevgili münasibətini andırırdı... Bunu əri də bir dəfə demişdi ona”. Tənqidçi Tehran Əlişanoğlu Afaq Məsudun bu dövr yaradıcılığı haqqında oxşar qənaətlərə gəlir: “1970-1980-ci illərdə Afaq Məsudun hər hekayəsi modern insan durumunu, müasir milli fərdi, bütün iç çabaları, çıxılmazlıq ovqatı ilə təqdim edir, necə deyərlər, bizi bizə bizdən də artıq tanıdır, üst qatları qırıb daxili “mən”imizə nüfuz etməyə sövq edirdi. Bu, şəksiz ki, modernizm ədəbiyyatı idi” .

Afaq Məsud, demək olar, bütün hekayələrində Böyük İnsan Tənhalığının rəsmini göstərməyə çalışır. Əslində, bu rəsmdən daha çox tənha düşüncənin,

tənha yaşantının, tənha duyğunun fotosudur. Həm də rəngli deyil, ağ-qara fotosu. Ananın əl çəkməyən (ya da özünün əl çəkmək istəmədiyi) ruhundan qopmayan "Tək"in tənha qəhrəmanının bu fotoda bütün rəngsiz həyatı görünür: "Sonra yadına düşdü ki, axı evi də elə iş yeri kimidi, orda da burdakı kimi rahatlıq tapa bilmir... Anasından sonra orda da özünü burdakı kimi tənha və lazımsız hiss edirdi".

Daha bir incə və maraqlı məqam: bu hekayələrin qəhrəmanlarının, demək olar ki, heç biri konkret zahiri keyfiyyət, dəqiq zahiri görüntü qazanmır. Sanki bütün hekayələrdə (gah qadın, gah da kişi qismində) Tənha İnsan, Yad İnsan obrazının yayğın silueti mövcuddur. Görünən və duyulan budur. O obrazlar fərqli situasiyalarda, fərqli həyatlarda və fərqli insanlarla eyni Tənhalığı, eyni Yadlaşmanı yaşayırlar.

Afaq Məsud 90-cı illərdə "Sərçələr", "Dovşanın ölümü", "Ov quşu", "Dahi", "Prezident", "Alman kilsəsi", "Müvəkkil Vaysman" hekayələrini qələmə almışdır. Bu hekayələrdə də 80-ci illərdə yazıçını narahat edən problemlər öz aktuallığını hələ ki qorumaqdadır. Məsələn, onun hekayələri arasında "Sərçələr"i bu baxımdan xüsusi olaraq qeyd etmək olar. Bu hekayənin qəhrəmanı başqa olsa da, mətndə qaldırılan problem, məsələn, "Şənbə gecəsi"ndə, "Tək"də olan problemin eynisidir. Sadəcə, bir qədər fərqli rakursdan işıqlandırılıb. Yəni digər hekayələrdə yaradıcılıq axtarışında olan, sanki məhz bu axtarışın, bu eşqinin təsiri ilə yadlaşma problemi yaşayan qəhrəman (xüsusilə də qadın) bu dəfə kiçik qızın – övladın rakursundan təsvirə gətirilir. Yazıçı bu dəfə də bu yadlaşmanın bir uşağın (eyni zamanda da ərin, ailənin, mühitin) düşüncəsinə, psixologiyasına, həyatına, hətta məişətinə necə təsir etdiyini kompleks halında və dərinliyinə qədər göstərə bilir. Afaq Məsudun yaradıcılığında yaradılan qadın və Ana obrazları birbirinə çox bənzəyirlər. "Şənbə gecəsin"dəki ana", "Tək"dəki ana, "Sərçələr"dəki ana... Sanki bu hekayələrdə yazıçı olmağı da, ana olmağı da bacarmayan bir qadın təsvir edilib. Sanki bu qadın ana olmaqdan da, uşaqlardan da, onlar üçün daşımalı olduğu məsuliyyətdən də qorxur. Uşaqlar isə hər dəfəsində başqa bir vahimə yaradan obrazlar kimi görünürlər – azadlığı qısıtlayan, zamanı alan, məhv edən... Uşaqlarını, ailəsini ayaq bağı bilən, sonra isə özünə və yaradıcılığına olan inamını itirən yaradıcı qadın-Ana obrazı əsərdən əsərə, zamandan-zamana adlayaraq püxtələşir, dərinləşir və çox maraqlıdır ki, həm də doğmalaşır.

Bu qadının övlada olan münasibəti qəribə, qeyri-adi, amma eyni zamanda da tanışdır. Sanki yazıçı hər Ananın, ən azı, hansısa məqamda duyduğu, amma utanc və qorxu içində etirafından qaçdıqlarını bir-bir yazıya köçürüb. Onun qəhrəmanı "Şənbə gecəsi"ndə övladlarını "insan simalı gəmiricilər" adlandırır: "Həmin o yuxularda uşaqlarını paltar kimi əyninə geyirdi, corab əvəzinə qıçlarına çəkirdi, sonra ha çalışırdı onları soyuna, soyuna bilmirdi… Əynindən, ayağından çıxara bilmirdi… Qıçlarına, əyninə geydiyi uşaqları çığırışıb bədəninin dörd bir yanından ağlamağa, ətləri kəsilmiş kimi pis-pis ulamağa başlayırdılar… Onda bədənindən bir ağlaşma qopurdu ki, az qalırdı, vahimədən ürəyi dayana".

Və bu cür təsvirlər – yuxu vasitəsilə də olsa, yaradıcı qadının – Ananın özü ilə, arzuları ilə, məsuliyyəti ilə, etməli olub edə bilmədikləri ilə və s. daxili

mübarizəsini əks etdirir. Bu elə bir mübarizədir ki, ana olmuş hər bir (yaradıcı) qadın onun içərisindən keçsə də, onun məngənəsində sıxılsa da, bütün bunları etiraf etmək və dilə gətirmək cəsarəti hər kəsdə yoxdur.

"Sərçələr" hekayəsində anasının sərçələrə və öz yazılarına olan sevgisinə görə bu balaca quşlara nifrət duyğusu hiss edən bir qızdan söhbət açılır. O özünə qarşı sevgisizlik hiss edir. Qayğı və mərhəmət arayışı daşa, divara dirənir. Qızcığaz bu sevgini yalnız həyatının bəzi məqamlarında – xüsusilə də xəstə olduğu zamanlarda gördüyü üçün xəstələnmək istəyinə belə düşür. Nəticə etibarilə sevgisizlik nifrət, nifrət isə qəddarlıq doğurur. Kiçik bir uşağın ovcundakı boynu qırılmış sərçə sevgisizliyin, yadlığın və tənhalığın rəsminə, simvoluna çevrilir.

"Sərçələr"də Afaq Məsudun xüsusilə 90-cı illər yaradıcılığı üçün aktual olan ilk sürrealist təsəvvürlər görünməyə başlayır: "Birdən nənəsi üçün ürəyi gizildədi, başını, bütün bədənini ovuc kimi yığıb onun qarnına girib gizlənmək istədi... Nənəsinin qarnı okean kimi nəhəng və dərin idi". Bu təsəvvürlər zaman-zaman təsadüfən gəlibmiş kimi görünüb yox olsa da, izi və təəssüratı uzun müddət oxucunun yaddaşında qalır. Məsələn, "Sərçələr"in qəhrəmanı olan qızın yuxuda gördüyü və içi boş müqəvva kimi dağılıb yerə düşən anası kimi...

Bu hekayə yazıçının bu dövr yaradıcılığı üçün həm də ona görə aktualdır ki, mətndə yuxu xırda element olmaqdan çıxır. Həyatın və yaşamın, həyatda qalmanın vacib atributu səviyyəsinə qalxır. Həyatdakı münasibətin, gizlədilən qorxunun davamı, sonu (və ya başlanğıcı) kimi görünür: "Anası bir də yuxuda güllələyirdi onu. Həmin o qara makinasına minib tank kimi guruldaya-guruldaya üstünə yeryiyirdi". Yuxuda verilən bir çox detal gerçək həyatın, gerçək duyğunun və düşüncənin təzahürü rolunu oynayır. Hekayə (yazıçının bir çox başqa əsərləri kimi) özünü arayan, özünü tapa bilməyən, cəmiyyətə və özünə yadlaşan insanın faciəsini təsvir edir: "Fikirləşdi ki, ümumiyyətlə, elə bil anası nə isə istəyirdi, amma o istədiyini eləyə bilmirdi".

Yuxarıda da qeyd etdiyimiz kimi, Afaq Məsud mənəvi ağrının fiziki ifadəsini çox dəqiqliklə tapmağı və ifadə etməyi bacaran bir yazıçıdır. Hətta bunu o qədər dəqiqliklə ifadə edir ki, oxucu belə o ağrının əlamətlərini hiss etmək imkanı qazanır. Mənəvi ağrını fiziki ağrı ilə eyniləşdirmək istəyi bir çox əsərlərində olduğu kimi "Sərçələr"də də var: "...Titrəyib ayağa qalxdı, qırıqlar ətəyində mətbəxə getdi. Yeridikcə arxadan anasının nifrət dolu gözlərindən bədəninə bir xeyli zəhərli oxlar sancıldı".

Afaq Məsud 90-cı illərdə qələmə aldığı hekayələrdə ölümün fiziki təsvirini verir. Qoxusu, çürüməsi, ağrısı... ilə birgə. Məsələn, "Çürümə" hekayəsində burunları deşən "ölü qoxusu"nun arayışı sonda "formalin" adlı dərman adının tapılması ilə yekunlaşsa da, hekayə daha çox yaratdığı tənhalıq və yadlıq duyğusu, bir də ölüm qorxusu ilə yadda qalır. Və yazıçı sanki bu yadlığın bütün kiçik zərrələrinə qədər oxucunun ruhuna siarayət etməsi üçün qoxudan tutmuş təbiətə kimi bir çox xırda, amma təsirli detalları köməyə çağırır. O detalları əvvəlki əsərlərində olduğundan bir qədər də dərinləşdirir, xırdalaşdırır, dəqiqləşdirir. Ən əsası isə, nəticədə istəyinə nail olur. Məsələn, "Çürümə"də

"Göyün üzünü ağappaq kif örtmüşdü... Göyün üzündən yerə lopa-lopa kif yağırdı" cümlələri ilə yaratdığı təbiət hadisəsi öz romantik ab-havasından (hər halda, bu, lopa-lopa qar yağması təsvirindən çox fərqlənir!) uzaqlaşdırılaraq formalin qoxusu ilə birləşib oxucunu yazıçının qarşısına qoyduğu məqsədə doğru apara bilir. Ölüm öz vahiməsi (qəribədir ki, həm də yazıçı üçün doğmalığı ilə!!!) oxucunun gözləri önündə canlanır.

Afaq Məsudun yaradıcılığında yaddaqalan hekayələrdən biri də "Qəza" hekayəsidir. Burada yenə də ana obrazında danışılsa da, bu dəfə hekayənin qəhrəmanı tam fərqli bir ana-qadın kimi boy verir: "Deməli, həm də ərinin anasıydı. Bütün evin anasıydı". Bu dəfə Qadının çiyinlərinə içindən çıxa bilmədiyi, boğulduğu, əlinə-ayağına "sarınmış" analığının bir başqa keyfiyyəti də yüklənir. "Ərinin anası olmaq". Qəribə bir anlayış təsiri bağışlasa da, çox böyük sosial informasiya yükü var bu ifadənin. Cəmiyyətdən gələn, həqiqəti ifadə edən, lakin yenə də dilə gətirilməyən bir yük... Və yenə də analıq bacarığı, analıq duyğusu sorğulanır, müzakirə edilir: "Sonra da fikirləşdi ki, doğanda hardan biləydi ki, ana olmağın yeganə sevinci – doğuşdan sonrakı "analıq səadəti" deyilən qısaca bir andı?.. Sonra uşaqlar böyüdükcə nəyə sevinməliydi axı?.. Uşaqlar böyüdükcə dərdləri də böyüyürdü..."

Bu hekayədə də məişət qayğılarından, qulluqdan və "ərdə olmaqdan" bezmiş bir qadın görürük. Özü ilə, həyatı ilə barışa bilməyən bir qadın qəhrəman düşüncələri ilə özünə qarşı çox qəddardır (Özünə qarşı qəddar münasibət Afaq Məsudun, demək olar, bütün qəhrəmanlarına xas olan bir xüsusiyyətdir): "Yadına gəlir, o vaxtlar güzgüyə baxanda da özünü canavara oxşadırdı. Fikirləşdi ki, əslinə qalsa, elə indi də canavara oxşayır. Sonra fikirləşdi ki, canavara yox, itə oxşayır. Ağıllı, sadiq itə". Bütün həyatını ailə qayğılarına həsr edən bu qəhrəmanın güzgüdə özünü oxşatdığı obraz da təsadüfi seçilməyib. Bunun özündə belə yazıçının nəsrə gətirdiyi modern qadının içində baş qaldırmış etirazı, üsyanı kimi açıqdır, aktualdır, yenidir, fərqlidir. Bu düşüncələr, bu qənaətlər hələ ki haradan və necə çıxacağı bəlli olmayan, amma artıq qaynayan, püskürməyə məqam gəzən bir üsyanın ilk qığılcımlarıdır. Hələ ki özünə qarşı aqressiya şəklində meydana çıxır. Yazıçı hekayədə xoşbəxt olmayan bir qadının həm də qurtulmaq istəyini əks etdirir. Şüuraltında var olan, hər dəqiqə dilə gətirilməyən, amma dilə gətirilmədiyi üçün heç də yox olmayan bir istəkdir bu: QURTULMAQ İSTƏYİ! "Əri müxtəlif vəziyyətlərdə gözünün qabağına gəldi... ...Maşın çevrilmişdi... tüstülənən təkərlərin altından ərinin göyərib quruyan əli görünürdü... zərbədən tanınmaz hala düşmüş üzü sükanın arasına keçmişdi... Birdən yadına düşdü ki, heç adam arasına çıxmağa fərli qara paltarı yoxdu".

Gec saatlara qədər ərinin yolunu gözləyən bu qadın məhz şüuraltından gələn bir arzunun təsiri ilə paltar dolabından köhnə qara paltarını çıxarır, əyninə boş olduğu üçün səhərə qədər onu daraldır və sabahkı "qurtuluş günü"nə hazırlaşır. Yazıçı şüuraltından gələn istəkləri hekayələrinin bir çoxunda eyni uğurla təqdim və təsvir edə bilir. Amma eyni zamanda da əsərə vurduğu gözlənilən (və ya gözlənilməz!) sonluqla şüuraltı istəklərin, arzuların, təxəyyülün reallıqla qırılan əlaqəsini göstərmiş olur: "Hirsindən gözləri qarala-

qarala fikirləşdi ki, demək, o, bayaqdan burda özünə qara paltar tikir… bu bəydadaş isə sən demə, öz kefində..."

Romanları. Afaq Məsudun yaradıcılığında romanlar mühüm yer tutur. Bu romanlar arasında "şüur axını" texnikası ilə yazılanlardan biri "İzdiham"dır. Əsərin mahiyyətini, strukturunu, ideyasını açmaq üçün öz yaradıcılığı ilə bağlı hətta ən qəribə düşüncələrini belə etirafdan heç vaxt çəkinməyən yazıçının sözlərinə müraciət etmək daha doğru olardı: "90-cı illərin yayı idi. Mən nə yazdığımı özüm də bilmədən yazırdım. Bu belə baş verirdi ki, mən günün hansısa saatları qəfildən yazı ovqatına düşür, kağız-qələmimi götürüb otağıma çəkilir, orada müəyyən vaxtı heç nəyi düşünmədən, dayanmadan yazır, bir qədər sonra fəaliyyət limiti bitmiş elektron cihaz kimi dayanır, qələmi yerə qoyub ayağa qalxırdım... Sözümü ona gətirirəm ki, əsərin yazılma tarixçəsində beyni söndürülmüş dəftərxana icraçısı qismində iştirak eləmişəm" .

Yazıçının bu etirafı mətnin üslubuna da, seçilən texnikaya da açar rolunu oynaya bilər. Amma bununla belə, yenə də romanın oxunuşu özü oxucuya daha çox söz deyir. Romanı oxuduqda isə ilk gördüyümüz ata itkisini, tənhalığı, ailədə ataya münasibət ağrısını yaşayan qız, bu ağrının ağırlığı altında gəlin köçən qız, babasında, anasında, nənəsində təsəlli axtaran qız – müxtəlif, lakin həm də eyni obrazlardır. İlk təəssürat əsərin qəhrəmanının yuxusuna daxil olduğumuzdan xəbər verir. Əslində isə, "şüur axını" oxucunu qəhrəmanın həyatının müxtəlif mərhələlərinə heç bir xronologiya gözləmədən, heç bir keçidə işarə etmədən, əlaqəsiz bir şəkildə adlamasını təmin edir. Və bu "axın" insanın – bu halda əsərin qəhrəmanının – ruhunda, şüurunda, düşüncəsində yara kimi qalmış, onu incidən, onu "yaşamağa qoymayan" məqamlara – nöqtələrə toxunur. Məhz o məqamlar bizi qəhrəmanın şüurundakı yaraların səbəblərinə aparıb çıxarır. Dünyasını dəyişən atanı aparan və izdiham kimi görünən kütlə yalnız həmin anın, sarsıntı məqamının "izdihamlaşan" təsəvvürü və təəssüratı deyil. Həyatın hər anında, hər dəqiqəsində özünü Tənha sayan İnsanın içində yaşatdığı və yaşadığı İzdihamdır. Üstünə gələn, onu boğan, onu darıxdıran, onu qorxudan izdihamdır. Bu izdihamın içərisində – mətndən də göründüyü kimi – qız (qəhrəman) sığınmağa ada, doğma bir insan arayır. Bu arayış isə onu gah babaya, gah anaya, gah nənəyə, gah ərə doğru yönləndirsə də, onların hər birində "İzdiham içində yaşanan yadlıq, tənhalıq" var. Bu tənhalıq isə əsərin qəhrəmanını – Şüuru bir divardan o birinə çırpır, əldən salır, qovur, incidir.

Tənqidçi, ədəbiyyatşünas prof. T.Əlişanoğlu Afaq Məsudun "İzdiham" əsəri haqqında yazır: "İzdiham"povestində (1992) ətrafda baş verən hadisələrin təhtəlşüurla ilgili izahına cəhd var. Burda, əslində, fərdin timsalında kütlə portretini tipikləşdirmək meyli aydın duyulur" . Lakin bizim düşüncəmizə görə, romanda ətrafda baş verən hadisələrin deyil, şüurun və şüuraltının oyununun təqdimi, dərki və izahı görünür. Hətta romanın adında yazıldığı dövrün bir çox siyasi-sosial hadisələri ilə səsləşmə müşahidə edilsə də...

Bu romanda da Afaq Məsud yaradıcılığı üçün 90-cı illərdən aktuallaşan sürrealist elementlər görünməyə başlayır: "Atası idi... tabutda gözüyumulu uzana-uzana, burnunun içində balaca bayquş kimi buppuldayırdı... Harasısa

ağrıyırdı, ya ağlayırdı?! Ya bəlkə, oxuyurdu?..” Yaxud “Nənəsinin çiynindəki boz sərçə də ağzını açıb ilan kimi fışıldadı, boynuna dolanan çəhrayı, kor soxulcan da başını qaldırıb o yan-bu yana yellədə-yellədə fısıldadı…” Bütün bunlar görüntüdür, təsəvvürdür, şüurun axınından başqa, həm də oyunudur. Bu oyun qəhrəmanı atanın dəfnindəki izdihamın arasından çıxarıb “ağ gəlinlik paltarı məhəccərə keçmiş…” gəlinin darıxma, qorxma, sıxılma anına, oradan “uşağının qulaqlarını xəcalətdən nəfəsi kəsilə-kəsilə yerdən qaldırıb ciblərinə basdığı, ağrıdan göyərib özündən gedən uşağı qucağına alıb, ayaqları bir-birinə dolaşa-dolaşa, tələm-tələsik aşağı” endiyi, “endikcə pillələrin heç cür qurtarmadığı” ana, sonra yenə “atasının gətirildiyi” ana aparır. Qəhrəmanın həyatının vacib məqamlarına assosiativ keçidlər şüur axını ilə baş verir. Ata ölümü, toy, ana ölümü, atanın tavandan asılan “cırıltısı”, uşağın doğuluşu, babanın münasibəti – bütün bu hadisələr bir-birinə keçir və bir-birini “doğurur”, bir-birini boğur, bir-birinə adlayır. Ata uşaq kimi qucaqda, ana uşaq kimi qucaqda, qəhrəmanın isə özü yaşlı görünüşündə peyda olaraq “oyun”a yeni çalar qatır. Hər bir belə zamanlararası “aparma”, hər “axına qapılıb getmə” növbəti bir sarsıntı anına tuş gəlmək üçün vasitəyə çevrilir: “Nənəsi danışa-danışa, deyəsən, onu bişirmək üçün ocaq qalayırdı… hardasa lap yaxınlıqda çırtaçırtla yanan çırpının iyi gəlirdi...”

Oxucu bu “şüur axını” içərisində insanla hər zaman oyun oynaya bilən şüurun ən gözlənilməz həmlələrinə, gedilşlərinə də tuş gəlir: “Bir müddət beləcə, bircə damarından asılı başı anasının ayaqlarında, buludlu göyə baxa-baxa xırıldadı... Sonra meh əsdi... əsib-əsib gücləndi... küləyin səsinin içi ilə hardansa, uzaqdan adda-budda bayquş səsləri eşidilməyə başladı… İzdiham hardasa yaxında idi... ...Qışqırmaq istədisə də, səsi çıxmadı… səsin əvəzinə, boğazından eybəcər xırıltı çıxdı. Xırıldaya-xırıldaya: Getmə, Hektor, getmə qanlı meydana!.. – deyib huşunu itirdi...”. Bütün bu axının içərisində haradasa şüuraltıda ilişib qalmış və qəfildən boy verən bu söz gözlənilməz olduğu qədər də çoxmənalı və əhəmiyyətlidir. Demək olar ki, “açar” funksiyasını oynayır: dərk etmək, anlamaq, “şüur oyununu”unun məğzini başa düşmək üçün. Anlamalıyıq ki, şüurumuzun və şüuraltımızın sirli gedişlərinin hər an haradansa lap dərinliklərdən hansı informasiyanı, hansı ağrını və ya hansı mənasızlığı dartıb çıxaracağının özü bir müəmmadır. Xatırlamalıylq ki, bu məlumatlar hər an bizi çaşdırmaq iqtidarına malikdir.

Romanda zaman adlayışları, zaman qarışıqlıqları, özünün qocalığını görmək, nənənin uşaqlığını bu günə daşımaq və s. elementlər seçilən üslubun əsaslandırılmasına xidmət edir, çünki “axın” idarəedilməzdir: “Şəkilçəkən təzə şəkli divardan, bayaqkı şəklin altından asdı və o, ürəyi sıxıla-sıxıla, baba-nənəsinin arasında özünün əvəzinə, əyriburun, qoca qarını gördü, barmağını qarıya tuşlayıb: – Bu mənəm?.. – dedi. Fotoqraf əsəbi üzlə: – Yox, bəs mənəm?!.. – dedi”.

Bir sözlə, “İzdiham” romanı Afaq Məsud yaradıcılığında mühüm bir mərhələnin aparıcı xüsusiyyətlərini özündə əks etdirən mətn kimi dəyərləndirilməlidir.

Afaq Məsudun roman yaradıcılığında əhəmiyyətli yer tutan əsərlərdən biri də “Azadlıq” romanıdır. Başqa bir adı “Yasaq yuxular” olan əsər keçid dövrün-

də, Azərbaycanda ictimai-siyasi hadisələrin ən qarışıq zamanında meydana gəlmişdir. Bu əsərin yaradıldığı mərhələ artıq cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrin yazıçının yaradıcılığına sirayət etdiyi dövr idi.

Bu romanda da "şüur axını" texnikasından istifadə edilibdir. Əslində, ilk baxışdan polifonik təsir bağışlayan, müxtəlif səslərin (fikirlərin) cəmini ifadə edən roman fikir və düsüncə olaraq müxtəlifliyi göstərsə də, üslub olaraq, ifadə tərzi olaraq böyük əksəriyyətlə monotondur. Romanda real prezidentlər, liderlər, onların ölkənin həyatındakı rolu, düşüncələri, qəribəlikləri fərqli adamların səsi ilə təqdim edilir. Bütün düşüncələr Prezidentin (hər birinin) və hadisələrin təsvirinin fərqli tərəflərdən və fərqli düşüncələrdən təqdiminə xidmət edir. Lakin bu təqdimatların hamısı bir ağızdan, bir düşüncədən, bir yanaşmadan çıxıbmış kimi səslənir. Bu prezidentlər real prototipi olan və hər xüsusiyyətindən tanınan şəxsiyyətlərdir.

"Ümumiyyətlə, bu roman nə qədər siyasi-ictimai məzmun daşısa da, Afaq bu əsərdə, idman diliylə desək, yenə öz meydanında oynayır, ən çətin sualların cavabını gerçəklikdə yox, qəhrəmanlarının yuxularında axtarır". Afaq Məsudun "Yasaq yuxular" romanında da yuxu vacib element kimi iştirak edir. Professor Nizami Cəfərov Afaq Məsuda açıq məktubuna yazır: "Sizin, demək olar ki, bütün əsərlərinizdə "ölüm" motivi mövcuddur. Ölüm sizin yazıçı təhkiyənizdə insanın həyata (özünə) münasibətini, daxili mübarizəsini (və müqavimətini) izah edən bir ədəbi priyoma, üsula çevrilir. Eyni xüsusiyyət yuxu motivinə də aiddir... Sizin qəhrəmanınız yuxudan gerçəkliyə (həyata!), irreallıqdan reallığa (və ya əksinə) o qədər rahat, maneəsiz keçir (və bunu o qədər ustalıqla təsvir edirsiniz) ki, həmin priyom-üsul əsərin janr keyfiyyətinə təsir edəcək bir səviyyəyə qalxır" .

Romanda yuxu ilə reallıq arasında əlaqə elə bir "keçid" prinsipi ilə qurulmuşdur ki, birinin yuxusu başqa birinin reallığını, başqa birinin reallığı isə digərinin yuxusunu izah və idarə edir. Romanında qəhrəmanlar yuxuya getməkdən qorxurlar. Çünki romanda yuxu təkcə bu dünya ilə hansısa başqa bir dünya arasında deyil, eyni zamanda da bir tale ilə başqa talelər arasında əlaqələndirici vasitədir. Elə bir energetikaya, elə bir gücə malikdir ki, təsirindən ayrılmaq olmur. Yuxuların əsiri olan insanların müalicəsini aparan professorun özü belə yuxulara əsir düşməkdən qurtulmağı bacarmır. Lakin bu "sirri açmaq" istəyinin insan üçün yasaq olduğunu sonda dərk edir. Çünki həyatda toxunulması, sona qədər dərk edilməsi mümkün olmayan həqiqətləri var və qəhrəman da bunu anlayır. "Yuxuya aludə olmağın Allahdan üz çevirmək, bu dünyadan əl çəkmək olduğu, bu hərəkətin Allahın qəzəbinə səbəb olduğu" qənaətinə gəlir.

Tənqidçi Vaqif Yusifli yazır: "Afaqın "Azadlıq" romanı həm janr xüsusiyyətinə, həm də üslubi yönünə görə ilk baxışda qəribə təsir bağışlayır. Yəni roman publisistik bir ahənglə, templə başlayır, sonra sırf psixoloji səpgidə davam edir, sonda yenə publisistik ton qabarıq görünür". Amma bizim düşüncəmizə görə, prezident haqqında söhbət gedən hissədə daha güclü təsir göstərən publisistik ton bütün əsər boyu, sadəcə, bəzi məqamlarda zəifləməklə davam edir. Yalnız professor və xəstələrindən bəhs edən hissə bədii mətn (!!!) keyfiyyəti – roman içində roman xüsusiyyəti qazanır.

Romanda daha bir maraqlı məqam Yazı ilə bağlıdır. Sirri gizlədən, yandırılan, başqa bir formaya keçən, lakin nədənsə bir çoxlarının diqqətini çəkməyən yazı Afaq Məsud yaradıcılığında yeni anlam qazanır. Dünya nəsri və eyni zamanda da XX əsrin sonlarından başlayaraq Azərbaycan nəsri üçün aktual olan sirli Yazı və Əlyazma simvolu bu yaradıcılıqda da (ilklərdən biri kimi!) görünür. Roman mətn içində mətn, yazı içində yazı, süjet içində süjet şəklində qurulsa da, üst qatda yenə də cəmiyyət üçün maraq kəsb edən prezident obrazları və onların cəmiyyətin həyatındakı yerləridir. Xalqın qazanmaq istədiyi, liderin oyatmaq istədiyi, nəticə etibarilə nə olduğu, necə olduğu şübhə doğuran Azadlıq anlayışının təhlilidir. Müəllif "Azadlıq" adı verdiyi romanda sona qədər dərkolunmaz bir istəyin təsvirini verməyə çalışır.

Afaq Məsudun publisistik təhkiyənin üstünlük təşkil etdiyi romanlarından biri də 2003-cü ildə yazdığı "İkincik İohan" romanıdır. Yenə də cəmiyyətlə, real həyatda baş verən hadisə – Roma Papasının Bakıya gəlişi ilə bağlı olan əsərdə Papanın obrazı diqqət çəkir: "Onu bir vaxtlar Lyolik çağırırdılar. Axı əvvəllər o, artistlik eləyirdi?!. Sonradan yazıçılığa girişdi. Axırda da Papa oldu – dedi və pərtliyimin dərəcəsini müəyyənləşdir¬mək¬dən ötrü gözaltı üzümə zilləndi".

Romanda Papanın dünyaya məhz Bakıdan səslənməsinə simvolik məna geyindirməyə çalışan yazıçının təsvirində bu böyük hadisəyə sevgi rəngi qatılır: "Xilas duasının məhz burda, az qala, səsin də maddiləşdiyi bir ölkədə oxunmasının bizlərin bilə bilmədiyi nə isə daha əsaslı və gizli səbəbləri var idi, görünür". Bu obrazın ədalət tərəzisini qorumağa çalışdığı ifadə edilir: "Mən yorulmadan, Papanın bir vaxtlar Yer üzünü lərzəyə gətirən Səlib yürüşlərinə görə bütün müsəlman dünyasından üzr istəməsini, Katolik Kilsəsinin tarixində baş vermiş bütün xoşagəlməzliklərə görə, xristian Şərqi ilə pravoslavlar arasında əlaqələrin kəsilməsinə gətirib çıxaran dini münaqişələrə və inkvizisiyalara görə, hətta nə vaxtsa, orta əsrlərdə yaşamış dahi riyaziyyatçı-astronom Qalileo Qalileyin inkvizisiya məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilməsinə görə yer üzünün bütün insanlarından üzr istəməsini, bütün bu tarixi günahları öz üzərinə götürməsini xatırlayır, bir vaxtlar Günəşin Yer kürəsinin və başqa planetlərin başına yox, əksinə, Yer kürəsinin və planetlərin Günəşin başına hərləndiyini sübuta yetirmiş Qalileyin, ölümündən 340 il keçməsinə baxmayaraq, Papanın təkidi ilə bəraət almasını yada salırdım..."

Modernist nəsrin nümayəndəsi olan Afaq Məsud bir müddət sonra nəsrimiz üçün aktuallıq qazanacaq "müəllif ölümü"nün əksinə olaraq, digər əsərlərində olduğu kimi, bu romanında da bir obraz kimi görünür. Romanın bütün publisistik "tonallığı"na baxmayaraq, yenə də yaradılan obrazlar, verilən detallar bədii mahiyyət daşıyır. Məsələn, bu qoca yaşında bu şəhərə nə üçün gəldiyini başa düşmürmüş kimi görünən Papaya oxucuda qəribə bir rəhm hissi yarada bilir: "O, köməksiz hərəkət edə bilmir, eniş pillələrindən endirilən arabasına zorla dayaqlanır, ətrafı, dünyaya yenicə göz açmış quş balası kimi, anlaqsız baxışlarla seyr edir, üzündən geriyə qayıtmaq həvəsi oxunurdu…"

Bu "quş balası" sanki bəşəriyyətin xilasına doğru atılacaq bir addımın sahibi, vasitəçisi kimi göstərilir oxucuya. Oxucu Papanın böyüklüyünə inansın deyə, çaba göstərilir. Bir zamanlar ona güllə atan qatillə görüşərək bağışlayan

Papa haqqında yazılır: “Dustaqla təkbətək keçirilmiş bir saatlıq görüşün gedişi ictimaiyyətə açıqlanmadan, məxfi saxlanılmış, zindanı tərk edib kilsəyə dönən pontifik qatilinin əfv edilməsi barədə bəyanatını imzalamışdı. Bu hadisə ilə bağlı sonrakı açıqlamalarından birində o: – Bu dünyanın insanı xoşbəxt etmək gücü yoxdur… – demişdi”. Oxucunu isə sarsıdan təkcə Papanın öz qatilini bağışlaması yox, həm də “Bu dünyanın insanı xoşbəxt etmək gücü yoxdur” etirafıdır. Bir də bu etirafın içərisində yazıçının – qəhrəmanın Papaya olan qəribə, məhrəm münasibəti və sevgisi. Bütün mətn boyu bu sevgi çox aydın, dəqiq duyulur: “O danışdıqca səhnədən tamaşa salonunun yarıqaranlığına axan dalğayabənzər nəyinsə içəridə nələrisə dəyişdiyi, görüş iştirakçılarını çaşdırıb pərt elədiyi bilinir, bəziləri içəri dolmağa davam edən bu anlaşılmaz, yad havaya müqavimətlə gizli-gizli əsnəyir, digərləri arxa cərgələrdə əsəbi-əsəbi pıçıldaşırdılar… – Aclar qarşısında yemə!.. – dedi, sonra dayandığı yerdə heysiz ləngərtiylə yellənib, – yeyirsənsə, onları da süfrənə dəvət elə... – deyib susdu”.

Pyesləri. Afaq Məsudun pyesləri daha çox yaradıcılığının üçüncü mərhələsinə aiddir. Bu pyeslərdən bəziləri əvvəllər hekayə kimi işlənmişdir. Məsələn, “Can üstə”ni qeyd edə bilərik. Ölüm ayağında olan qocanın şəxsi arxivi ilə maraqlanan, onun qovluqlarına keçmişin sirlərini qoruyan mənbə kimi baxan qəhrəman bu qovluqlar əsasında roman yazmaq fikrinə düşür. İnqilabdan sonrakı dövrlər haqqında yazılacaq bu romanda həmin illərdə yüksək vəzifələrdə çalışmış, bu səbəbdən də bir çox günahlara sahib, bir çox hadisələrə şahid olmuş qocanın qovluğu əsaslı mənbə olmalıdır. Qocanın can üstə olduğu vaxtdan istifadə edən qəhrəman, nəhayət ki, qovluqları açır, lakin gördüklərindən dəhşətə gəlir. “50-60-cı illərdə xəbərlər proqramında gedən mətnlərin adda-budda, nizamsız köçürmələri” olan bu yazılar “tranzistorda verilən xəbərlərdən köçürülmüşdü”. Hekayədəki bu mövzu pyesdə enerji təchizatı idarəsinin əməkdaşı cildində girmiş əzrayıl və həkim cildinə girmiş mələyin iştirakı ilə bir qədər də genişləndirilir. “İki hissəli müəmmalı qətl hadisəsi” kimi nəzərdə tutulan pyesdə Afaq Məsudun ümumi yaradıcılığı üçün aktual olan mistik məqamlar da var. Hekayədəki mistik başlanğıc pyesdə bir qədər də dərinləşdirilib və əsaqslandırılıb. Pyesdə yazıçı qocanın 37-ci il repressiyası zamanı hadisələrin gedişatında iştirak etdiyini və repressiya edilmiş nənəsi Müşkünazla bağlı nəsə bildiyini güman edir. Tez-tez sayaqlayan, əslində isə həm də “oyun oynayan” qocanın sözləri onun keçmişinə bu dəfə yuxu deyil, sayıqlamalar vasitəsilə keçid rolunu oynayır: “Tutun onu! Zindana! Pəncərəsi omayan! Qaranlıq, havasız zindana! Hər saatdan bir də... yerinə su tökün”. Hekayədə təsvir edilən daxili mühakimələr, daxili “dioloqlar” və “monoloqlae” pyesdə artıq açıq dialoqlara çevrilir. Qəhrəmanla qoca arasında açıq bir “atışma” halını alır. Və hekayədən fərqli olaraq qoca bu pyesdə Əzrayılı aldada, yayındıra bilir.

Ümumiyyətlə, Afaq Məsudun hekayə və roman yaradıcılığı kimi pyes yaradıcılığı da öz orijinallığı, fərqliliyi və yazıçının üslubuna sadiqliyi ilə seçilir.

Nərgiz CABBARLI

“...Qarabağdır məkanım”



Bu yazıda fenomen, övliya nəslindən olan şəxs, daha doğrusu, onun böyük ictimaiyyətə çox da tanış olmayan yaradıcılığından bəhs edəcəyəm. Yəni, ədəbiyyatın sonuncu elementi olan “oxucu tənqidi”ndən çıxış edəcəyəm. Çünki haqqında yazacağım şəxsi oxuduqlarımdan, eşitdiklərimdən tanıyıram. İstədim ki, yaxın keçmişdə – sovet dövründə yaşayan, qısa ömrünə (36 yaş) çox savab işlər sığdıran, ağır başlı, şəfa sözlü, əsil-nəcabətinə, övliya şəcərəsinin ad-sanına uyğun ləyaqətli ömür sürən, təşkilatçılıqda, xeyriyyəçilikdə, böyüklükdə seçilən, Qubadlı rayonundan olan Mir Məhəmməd Ağanın bir kitabda toplanan (ölümündən sonra) şeirlərinin – lal duyğularının arasından birgə keçək, onları dilləndirək.

Şair və onun yaradıcılığı haqqında danışarkən, əsərlərin yazıldığı dövrdəki ictimai-siyasi vəziyyət, şərait, inanclar, dünyagörüşü, sənət anlayışı, adət-ənənə kimi anlayışları nəzərə almaq lazımdır.

Məlumat üçün qısaca qeyd edim ki, Mir Məhəmməd təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, təsəvvüf ədəbiyyatının əsas qollarından olan nəqşibəndi təriqətinin ən böyük nümayəndələrindən Seyid Mir Həmzə Nigarinin nəslindəndir. Şair bunu öz şeirində də qeyd edir:

Atam bir Günəşdi, mən də zərrəsi,
Babam Mir Hüseyn Seyyid Nigari.
Hər kiçik şey üstə atmaram kəsi,
Peyğəmbər övladı Xızır bil məni.

Şairin babası, əmisi və atası Mir Sədi ağa da Seyid Nigaridən sonra nəqşbəndi təriqətinin böyük təmsilçilərindən sayılıb və hər biri elə Seyid Nigari ilə oxşar taleni yaşayıb. Belə ki, onlar sovet dövründə təqiblərə, sürgünlərə, həbslərə və min türlü əzab-əziyyətlərə məruz qalıblar.

Əksər hallarda toplumlarda ədəbiyyat şeirdən başlanır. Şeirin əsasını götürdüyü mənbə din olmuş, Tanrı düşüncəsinin formalaşdırdığı adət-ənənələr, əxlaq qaydaları birbaşa ədəbiyyatda öz əksini tapmışdır. Ədəbiyyat həm də dini və onun əxlaq qaydalarını, həyat tərzini izah etmək vəzifəsini öz üzərinə götürür.

Mir Məhəmmədin şeirlərində mistik şəxsiyyəti ilə ətrafında sirr dairəsi, poetik şeirləri ilə cazibə dairəsi yaradan Mir Həmzə Seyyid Nigarinin həm də yaradıcı ruhunu görmək olur. Bu təsiri əsas keyfiyyətlər və əsas prinsiplər baxımından poetik bənzətmələr və eyni texniki xüsusiyyətlərə malik şeirlər sübut edir:

Eşqin kanı Qarabağdır məkanım,
Bülbüli-şeydayəm, cənnət yerimdir.
Əvvəl başdan Qaraqaşlı bustanım,
İmdi gülüstanım Qara pirimdir.
Sinəmə çəkilən qara dağımdır,
Yandıran aləmi gör nə çağımdır!
Qara bağrım qanlu Qarabağımdır,
Gözlərimdən axan yaşi-tərimdir. *(S.H.Nigari)*

Mir Məhəmmədin atası "Mir Sədi Ağaya" xitabən yazdığı şeirə nəzər yetirək:

…Nurdan xəlq olmusan kimin var şəkki,
Dərəcən yüksəkdir uca dağ təki,
Haqqın bayrağıdır əllərindəki,
Qasım Çələbidir mayağın sənin.

Sən bir ümmansan ki, bulanmaz hər an,
Sən bir sultansan ki, tapılmaz nöqsan,
Sən bir ağacsan ki, qorxmaz tufandan,
Mir Məhəmməd olub budağın sənin.

Bu şeirdə Mir Məhəmməd nəsil şəcərəsinin övliya olmasına, övliyalığın Allah qatında mərtəbəsinin yüksək olmasına diqqət çəkir.

Türk tarixçisi və ədəbiyyatşünası Mehmed Fuad Köprülü yazırdı ki, "...bu təkkələrdə yaşayan sufilərin əsl simaları qalın mənakip buludları ilə örtülsə belə, qəti fikir odur ki, o buludların arxasında çoxlu mühüm şairlər, çoxlu dərin və azad düşüncəli mütəfəkkirlər, səmimi İlahi eşq dəlisi tapmaq olar".

Şairin də inancı bu şeirlərin yazıldığı dövrlə bağlı bir xüsusiyyət kimi, keçmişdə böyük bir yenilik olaraq ortaya çıxan, özünün də sonradan davamçısı olduğu təriqətdən gələn övliyaların mistik gücünə olan inancdır ki, o, bu hərəkata daha obyektiv baxır:

Qəlbi çıraq olub elə nur saçan,
Min çırağa dəyər çırağın sənin,
Daşlar bayram edər, torpaqlar gülər,
Üstünə düşəndə ayağın sənin.

..De, kim sənə arxalanıb güvənməz?
De, kim səndən hər an kömək diləməz?
O hansı işdir ki, söylə, düzəlməz,
İçində olarsa barmağın sənin.

Və ya, "Özündən qeyrisin düşünməyənlər, Axı nə bilər ki, insanlıq nədir?" deyən şair övliyaları incidənlərin sonun yaxşı olmayacağına, İlahi tərəfindən cəzalanacaqlarına inanır və bunu şeirin son bəndində dilə gətirir.

..Sənin davamçınam, inan ey pədər,
Qoymaram işlərin olsun zay, hədər,
Sənə düşmən çıxan hər kəs, hər nəfər,
Qəbirdə olacaq dustağın sənin.

Şair bu sözlərilə sovet rejiminin İslam dininə olan mənfi münasibəti, bu dinin daşıyıcılarından olan atası Mir Sədi Ağaya edilən zülmləri – dəfələrlə həbs olunmağını sətiraltı vurğulayır. Bununla da, rusların yetmiş il ərzində Azərbaycanı təkcə ölkə olaraq deyil, insanlarının adət-ənənəsini, dini inancını, milli düşüncəsini də işğal etdiyini nəzərə çatdırır.

İslam tarixində sufi alimlərin gəldikləri nəticələrə görə din, dini inanc zorakılıq, qovğa, zülm səbəbi olmamalıdır. Çünki İslamın mahiyyəti sülh, əminamanlıq, dinclik yaratmaqdan ibarətdir.

İslama xidmət edən övliyalar bütün dövrlərdə toplumların inanc, güvənc yeri olublar. Ən çıxılmaz vəziyyətlərdə xalq övliyalara üz tutub, onlardan kömək istəyiblər:

Əlsiz-ayaqsıza hayandı getdi,
Sözündə mərdanə, dayandı, getdi,
Nakam eşqi ilə darandı, getdi,
Sevdiyi gözəlin telində Miri.

Kiçik bir haşiyə çıxaraq, qeyd edim ki, bütün övliyalar kimi, Mir Məhəmmədin də qeyri-adi qüvvələri – kəramətləri olduğu deyilir. 36 illik qısa ömrünə çox şey sığdırıb qəhrəmanımız, o, övliya cənnətinin yaşıl bağı kimi həm təmsil etdiyi nəslin, həm də ədəbiyyatsevərlərin yaddaşında qalacaqdır.

Mir Məhəmməd nəslinin adlarının bir müddətdən sonra itəcəyi qorxusu və ya o adların əbədiləşdirilməsi arzusu ilə öz kimliyini o adlarla birgə şeirlər vasitəsilə gələcəyə daşıyır:

…İnsaniyyətlik yadigardır bizə,
Baxmamışıq hər yalana, hər sözə,
Babam Şeyx Əfəndi Seyid Mir Həmzə,
Qoymayıb qayıda diləyim mənim.

İnsan ağıllanır dolduqca yaşa,
Çatdırır ömrünü min cürə başa,
Ey atam Mir Sədi, əmim Mir Paşa,
Qoymayın zay ola əməyim mənim.

Şərqdən Qərbə müsəlman coğrafiyasının fikir sahiblərinin, filosof şairlərinin əksəriyyətinin əsərlərində çox mühüm yer tutan mövzu İlahi sevgidir. Onlardan sonra gələnlər də o dahiləri özlərinə bələdçi seçiblər. Mir Məhəmmədin qəzəllərində də bu məqam gözlənilib. O da bu ənənəyə söykənərək, şeirlərində İlahi məhəbbəti ifadə etmək üçün rəmz olaraq maddi dünyadan olan obyektlər seçmişdir. Bir çox şairlərin ilahi eşq səfərində istifadə etdikləri Yusif-Züleyxa, Leyli-Məcnun və s. bu kimi motivlərə Mir Məhəmmədin qəzəllərində də rast gəlinir:

Hər kimsə ki, aşiqdir, qoy göstərsin vəfasını,
Hər kəs sevirəm deyir, çəksin yarın cəfasını.

Keçərəm bu canımdan sevinərək elə o dəm,
Görsəm əgər bir dəfə cananımın simasını.

Nə tərif edir aşıqlar bilmirəm Züleyxanı,
Valeh olur süzənlər sevgilimin sərpasını.

O, “Hər kimsə ki, aşiqdir, qoy göstərsin vəfasını” ilə başlayan qəzəlində İlahini sevgili simasında meydana çıxarır. Burada o, simvolizmin yalnız məcazi məhəbbət kontekstində başa düşülməsi təhlükəsinə baxmayaraq, rəmzlərin güman edilən mənalara malik olmadığını son iki beytdə izah edır:

Hər kəsə qismət deyil, sevgilisinə qovuşa,
Hər kəsin işi deyil keçə eşqin dəryasını.

Düşsə əgər hər bir kəs gündə min fikrə, xəyala,
Dəyişməz Mir Məhəmməd sözünü, təmənnasını.

Klassik şairlər kimi, klassik tənqidçilər də bu qənaətə gəlmişlər ki, İlahi eşqin simvollarla ifadə olunması əls sənətdir.

Şair qəzəllərinin çoxunu müxtəlif dövrlərə aid olan divan şairləri kimi öz əhval-ruhiyyəsini əks etdirmək üçün yazıb. Burda belə öz övliya böyüklərinə arxalanıb, onlardan mənəvi güc alaraq o çətin və müqəddəs yolun davamçısı olduğunu bildirib:

Çıxmaram yolundan soyulsa dərim,
Sən mənim sarvanım, mən sənin nərin,
Olsa gər üstümdə zərrə nəzərin,
Küllü kainata nur saçaram mən.

Bütün yarananın iftixarısan,
Təriqət bağının nəğməkarısan,
Sən bizə peyğəmbər yadigarısan,
Sənə ustadından yadigaram mən.

Eləcə də əmisinə xitabən yazdığı şeirdə yenə şairin ürək yanğısını duyuruq:

Düzdür, etməsəm də çoxlu ibadət,
Sizədir qəlbimdə ancaq məhəbbət,
Qoyma məhşər günü çəkim xəcalət,
Yanımda babamla dur, sənə qurban.

Usta olmasam da, deyiləm naşı,
Fkrimdən keçirsən hər addımbaşı.
Qəlbimdə məhəbbət kaş sizə qarşı,
Axaydı hər zaman gur, sənə qurban.

Mir Məhəmməd səndən umur bir nəzər,
Yolunda dəryaya qərq olub üzər.
Adın ürəyimdə qanımtək gəzər,
Gövhər nədir, Əmi, dürr sənə qurban.

Vəsf – bir şeyi tərifləməklə, həm də onu səciyyələndirməkdir.

Ədəbiyyatımızda vəsf deyəndə əsasən, klassik ədəbiyyatda Hz. Məhəmmədi, Əli Əleyhissalamı və b. mədh etmək məqsədi ilə yazılmış şeirlər anlaşılır. Eyni zamanda xəlifələr, dini liderlər, övliyalar, müəllimlər haqqında yazılan şeirlər də vardır. Bu baxımdan istər klassik ədəbiyyatımız, istərsə də xalq ədəbiyyatımız vəsf baxımından çox zəngindir.

Bir çox klassik şairlərin də əsərlərindən məlum olduğu kimi, şeir mahir insanlar üçün bir vasitədir. Yəni şeir məharət meydanıdır, burada güc fiziki deyil,

mənəviyyatın poetik təsviridir. Mir Məhəmməd də qəlbinin sevgisini nümayış etdirircəsinə yazır:

Şairə ilham verən baharın gözəl çağını,
Qəlblərə ruh gətirən badi səbanı sevmişəm.

…Ey nazənin, gəlibdir göydən yerə düz dörd kitab,
Hamısını istəmişəm, ancaq Quranı sevmişəm.

Nə lazım bu dünyada göz dikən var-dövlətə,
Olsa da, olmasa da, xoş güzəranı sevmişəm.

Mir Məhəmməd, demirəm sevməyə qadir deyiləm,
Bu sözün nöqsan olar, çünki insanı sevmişəm.

Qəzəlin son beyti oxucuya Nəsimini xatırladır. Beytin birinci misrasında qeyd olunan "demirəm sevməyə qadir deyiləm" fikri bəndəlik, əhdə vəfa, mövcud olanı sevməyə borcluluq mənalarını verir, yəni insanın insanı sevməməsi nöqsandır. Bu sözün əsl mənasında həm də, insanda insana olan bağlılıq, etibarlılıq mənasında işlədilir. Beytin ikinci misrasında qeyd olunan "çünki insanı sevmişəm" ifadəsi qarşı tərəfi mədh hissəsidir. Bu, eyni zamanda qarşı tərəfə məsuliyyət hissi yaşadır, çünki o İNSAN sevib… Şair bu qoşmada sədaqətinin ixlasını (məqsədini) üstüörtülü deyir. Şeir şairin məmduhuna (mədh etdiyinə) olan bağlılığının səbəbini səmimiyyətlə əks etdirir:

Sevgilim, sənin kimi bir canalan istəyirəm,
Düz ilqar, düz etibar, əhdi-peyman istəyirəm.

İstəmirəm o gözəli yaramır xeyrə-şərə,
Bir nəfər özüm kimi dərdə yanan istəyirəm.

…Döysən də sən qapımı əgər gündə milyon kərə,
Xoşdur mənə gəlişin, nazlı mehman istəyirəm.

Şair öz ruh halını qəzəli ilə sevgilisinə bildirmək istəyərkən, aşiq olmaqdan doğan bəlaları da qələmə almaq istəyib. Bu, divan şeiri ənənəsində tez-tez rast gəlinən bir vəziyyətdir ki, müəllif burada şair olmağın da aşiq olmaq qədər çətin olduğunu dilə gətirir və istəyini bəyan edir ki, elə bir yar istəyirəm ki, mənim qədər dərd anlayan, söz qanan olsun. Yəni sevgilisinin həm də bir həmdəm, bir dost, bir dərd ortağı – yarışair olmasını arzu edir:

..Mir Məhəmməd, sorsalar nə istəyirsən, belə de:
Hal bilən, dərd anlayan, bir söz qanan istəyirəm.

Bu məqalədə kişik bir baxışla övliya Mir Məhəmmədin, qısa ömürlü şair Mir Məhəmmədin könül dünyasını ziyarət etdik, duyğuları ilə tanış olduq və bildik ki, şairin şeirləri insanları doğru yola dəvət edir, onları mənəvi saflığa, İlahi həqiqətə səsləyir.

Adilə NƏZƏROVA

♦ Esse

Ağrıya elegiya

"Öz eli, öz xaqanı olan xalq idim,
elim hanı, xaqanım hanı?"
Orxon yazılarından

Min illərdi hissləri vəsf edirik. Sevinc, kədər, sevgi, nifrət, qəzəb... Elə bil ağrı hissini unutmuşuq. O hissi ki, itirəndə yerdə daha heç nə qalmır.

...Mən dünyadan qopub Miroqrad adlı qapalı bir şəhərə düşmüşdüm. Səssizliyin qulaq batırdığı, sarı rəngin at oynatdığı, xatirələrin unudulduğu bu müəmmalı şəhərdə sanki nə vaxsa yaşamışdım. Uçurumun kənarında dayanıb ölümə pənah aparan insan selini gördükcə yaddaşımın sahilləri, ruhumun qanadları ağrıyırdı. Boş baxışlarını gələcəyə – sarı ilğım dənizinə dikən bu adamlarsa arabir davul səsindən diksinir, "ruhunu oyat" hayqırtısını eşitdikcə öləzimiş ruhları baramadan çıxmağa can atan kəpənəklər kimi uçunurdu...

Vüsal Nurunun "İlğımda çimən atlar" romanı məni ilğımın ta içinə aparmışdı. Mən ilğımı əlimlə kənara itələyib həqiqəti axtarırdım, amma Miroqrad adlı şəhər Tanrını, Günəşi, Həqiqəti çoxdan unutmuşdu. Parıltısıyla göz qamaşdıran "sülh" şəhərinə elə bir ucdan elmdə, səhiyyədə inqilab edə biləcək alimləri, həkimləri, mütəxəssisləri dəvət edir, sonra bu müəmmalı şəhər zəkasıqarışıq seçilmişləri udurdu.

* * *

Gəmidən düşüb şəhərə gətirilənlər arasında müxtəlif millətlərin nümayəndələri ilə yanaşı üç azərbaycanlını – bioloq, professor Sabit Ağazadə, ginekoloq Sara və neyrocərrah Aydın Qaraxanlını görürəm. Yeni gələnlər həyəcanlıdırlar. Onlar adını eşidib üzünü görmədiyi bu şəhərdə yaşayacaq, elmdə can atdıqları məqama çatacaq, kəşfləriylə insanları "ölümsüz" edəcəklər.

Yeni sakinlər şəhərə daxil olmaq üçün tuneldən keçməlidirlər. İlk maneə ilə də elə orda qarşılaşırlar; paltarları, əşyaları nədi, heç alt paltarı ilə tuneldən keçə bilməzlər:

"Ailələr soyunmaq istəmirdilər. Deyirdilər, müqavilədə soyunmaq yazılmayıb. Bu, adamları alçaltmaqdır"...

Nizam-intizamlı şəhər belə mənasız etirazları qəbul etmir. Yeni sakinlərə "Miroqrad Şəhər İdarəetmə Mərkəzi"ndə təlim keçirilir.

"Adım Raya Kozakovadır. Miroqrad qapalı şəhərdir. Burada yalnız daxili qanunlar işləyir. Miroqradın baş katibi Nikita İliç Vissarionoviç yoldaşdır. – Raya rəhbərin adını ayaq üstdə deyib, yüngülcə təzim etdi. Əyləşdi. Monitorda baş katib göründü, orta boylu, dolu bədənli, lopa bığlı kişi əlində tutduğu qara şlyapasını havada yelpik kimi yelləyirdi..."

Yeni sakinlərə telekart, maska və nömrə verilir. Bu şəhərdə telekartı itirmək bütün hüquqlarını itirmək deməkdir.

"Raya Kozakova hamıdan maskaları götürməyi xahiş elədi. Dedi ki, bu gündən sonra sizin əsl üzünüz bu maskalardır. Süni intellektli qapılar maskanın rəqəmlərini oxuyanda açılır".

"Hərə öz maskasını götürdü, həvəsi olanlar üzünə taxdı. Maskadan qəribə qoxu gəlirdi, yad adam qoxusu, – onlar belə dedilər".

Miroqrad qəribə şəhərdi. Adamlar var, adları yoxdur, üzlər var, sifətlər yoxdur, dayanacaqlar var, avtobuslar yoxdur, amma hamının dayanacaqda oturub gözləmək hüququ var.

Yeni gələnlər eyforiyada üzsələr də, dünyagörmüş professor Sabit Ağazadə ilk andan qorxunc bir yerə düşdüyünü anlayır.

Hamı eyni yeməyi yeyir, hamı eyni vaxtda yatır, hamı qulağındakı qulaqcıqla idarə olunur və hamı susur...

Nikita İliç Vissarionoviç bu yerin Tanrısıdır. Elə bu şəhərdə – "Beriya" laboratoriyasında tanrının yaratdığından da güclü, ağıllı, ağrı hiss etməyən parentallar (yeni insan) yaradılır. Alimlər sevinclərini gizlədə bilmirlər, "Süni hipotalamusun transplantasiyasına qərar verilib".

Keçmişlə gələcək bu şəhərdə üz-üzədi. Tarixin üz qarası sayılan sovet dövrünün "parlaq sima"sı – Stalin obrazı sanki Nikita İliç Vissarionoviçin simasında "dirilir". Düşünən başlara qənim kəsilən amansız repressiya maşını Miroqradda başqa bir formada – bəşəriyyəti xilas etmək adı altında yaddaşsız, ağrısız, üzüyola kölə istehsal edən laboratoriyalar kimi "zühur" edir. Görünür, bütün diktatorlar bir-birinə bənzəyir, görünür, bütün zamanlarda "Beriya laboratoriyası" işləyir...

* * *

Böyük ümidlərlə bu şəhərə gəlsə də, bir anda şəxsiyyətinin, neyrocərrah kimi uğurlarının üstünə xətt çəkilib 46 rəqəminə çevrilən Aydın Qaraxanlı yaşayacağı mənzildə çürümüş cəsəd izini taparkən "ideal dünya"sı dağılır, qorxunc bir aləmə düşdüyünü anlayır.

İş yerində – Beynəlxalq Ağrı Mərkəzində gördüklərini "eybəcərlikdə inqilab" adlandıran Aydın Qaraxanlının fikirləri ilə razılaşmayan həmkarları isə burda parentallar erasının başladığına, "Super insan, super güc", ağrısız cəmiyyət yaratdıqlarına inanırlar.

Aydın Qaraxanlı "Beriya laboratoriyası"nda saysız-hesabsız əməliyyatlardan sonra ağrı hissini itirən, bütün əmrləri sorğusuz-sualsız yerinə yetirən F30 adlı gənc parental qızla tanış olur. Parentalın yeganə qüsuru həddindən artıq əsnəməsidir. Bu qüsur uğurlu nəticəyə kölgə salır. Yeni neyrocərrah 46 – Aydın Qaraxanlı bu problemi həll etməlidi.

"Xəstənin anamnezinə baxmaq istəyirəm.

– F30 xəstə deyil. Könüllüdür. Biz onun bütün ağrı siqnallarını söndürmüşük.

– Bunu necə bacardınız?

– Onun bütün xatirələrini sildik"...

Aydın Qaraxanlı keçmişsiz, xatirəsiz, ağrısız insan yetişdirilən bu laboratioriyada qorxunc həqiqətlərlə qarşılaşır. Sonralar yaşadığı mənzildə ölmüş adamın ondan əvvəl F30-un həkimi olan neyrocərrah Morud Uluqbek olduğunu öyrənir. Həmkarları həvəslə "Yoldaş Morud Uluqbeki yola saldıq, F30 onun son işi oldu", – deyirdilər.

Bu sirli şəhərdə missiyasını başa vuran alimlər Vissarionoviçlə görüşüb müəmmalı şəkildə yoxa çıxırlar...

* * *

Miroqrad Aydın Qaraxanlı üçün bir tapmacadır. O, heç kimi bu şəhərə gəmiylə gəldiklərinə inandıra bilmir. Adamlar mayak, gəmi, qağayılar deyib onu ələ salır. Çünki bu şəhərdə hamı həyatın mayakını itirib. Ürəyinin səsini eşitməyənlər həyatın, dənizin, qağayıların səsini necə eşidə bilərlər?

Divarlara çəkilmiş şəkillər, yarımçıq düsturlar, ən çox da sözlər onun diqqətini cəlb edir: "Səliqəsiz yazılmış hərfləri oxumaq istəyirdi. "Mavi göy üzü, büllur kimi göl, yamyaşıl çəmən... atlar çapar, atlar... Mənim yurdum ordadı... Mənim evim ordadı... Mənim yarım ordadı... Mənim... ordadı..."

* * *

Professor Sabit Ağazadə isə ilk gündən, beyinlərin yuyulduğu bu şəhərdə qalmaq istəmir. "Deyirdi, tüpürüm bunların yeni dünyasına. İnsanı iki xəttin içinə soxublar. Bu qədər adam bir zəngə çömbəlib durur".

Miroqrad elə bir şəhərdi ki, itaətsizlik edəni bağışlamır, necə ki, qocaman professoru bağışlamadı. Sabit Ağazadə sarı xəttdən çıxdığı üçün ən ağır cəzaya – insanı alçaltmaq üçün hazırlanmış akvariuma salınsa da, sonacan ləyaqətini qoruyub saxlayır. "Sabit Ağazadə akvariumda öldü. Onu maskabaşa çevirə bilmədilər"...

Miroqrad insanlığın itdiyi yerdir. Adamlar ölən doğmasını, ən yaxın adamını lazımsız əşya kimi "Tullantıların qəbulu şöbəsi"nə təhvil verib əvəzində bonus qazanır.

* * *

Keçmişindən qopmayan, dənizi, gəmini hələ də xatırlayan, axına qarşı üzən Aydın Qaraxanlı həqiqətlərin izinə düşür. “Rəfdəki beyin fiqurunu götürüb altındakı yazını oxudu: məni unutma!”

Aydın Qaraxanlı Ulukbeyin əşyaları arasından tapdığı davula “Tullantıların qəbulu şöbəsi”ndən aldığı insan dərisiylə yeni üzlük çəkir, hər dəfə toppuzu davula vuranda adamlar diksinir, yaddaşı yuyulan, köləyə, əslində kölgəyə çevrilən insanların ruhu azacıq da olsa dirçəlir.

Eyni nömrədə, eyni maskada gəzən yeni neyrocərrahı isə F30 hələ də Ulukbey hesab eləyir.

“– 46 sənsən! Mənə söz vermişdin.

– Mən? Söz vermişəm... Hə. Yadıma sal. Nə söz vermişəm?

F30 onun üzünə boş-boş baxırdı.

– Bilmirəm. Sən dedin... – Qız hər susanda Aydının ürəyi üzülürdü.

– İlğımda çimən atlara aparacaqsan. Birlikdə bacararıq...”

Beyinləri yuyan, əslində isə öz beyinləri yuyulub müqəvvaya çevrilən alimlər – “rəqəmlərsə” : “Əgər parental düşünürsə, demək, problem var. Sən bilirsən düşünmək nə qədər zərərlidir? Sən əmr verirsən, o düşünür, bunu edim-etməyim? Sonra başlayacaq qorxmağa. Qorxu da ağrı yaradır axı...” – deyirdilər.

* * *

Mən keçmişin, xatirələrin, hisslərin silindiyi bu şəhərdə adamların dayanıb mürgü döyə-döyə gözlədikləri, amma nəyi gözlədiklərini bilmədikləri dayanacaqda dayanıb son yüz ilin ölməz əsərlərindən birini – qırğız yazıçısı Çingiz Aytmatovun “Əsrə bərabər gün” romanını xatırlayıram. Roman içində roman adlandırılan "Manqurt" hekayəsində öz kökündən, tarixi yaddaşından məhrum edilən, anasını belə xatırlamayan Manqurtu yada salıram:

“Nayman Ana soruşdu:

– Məni tanıyırsan? Manqurt başıyla “yox” – dedi.

– Bəs adın nədir?

– Manqurt.

– Səni indi belə çağırırlar, əvvəlki adın yadındadır? Bir əsl adını yadına sal görüm...

Manqurt danışmırdı...”

Bir Manqurt bəşəriyyəti qorxudurdu, Miroqradda əslində hamı manqurt idi. Yaddaşı yuyulub xatirələri silinsə də F30 ruhuna sığınmış Ayqız o qorxunc günü hələ də xatırlayırdı:

“Qardaşımla çöldən qoyun sürüsünü gətirdik. Sonra qımızı başımıza çəkdik. Dodağımızın üstündə köpüklü ağ izi qaldı. Bir-birimizə baxıb gülüşdük... atamın ayağı üzəngiyə ilişib qalmışdı. At atamın cəsədini sürüyüb gətirmişdi. Onu vuran kapitan Simyonov da dalınca gəldi”...

Ov da, ovçu da bəllidir...

* * *

Mən Miroqrad adlı şəhərdə dünyanın qürub çağına tamaşa edirdim. Ağrısız, yaddaşsız, ölümsüz superinsan yetişdirən bu cəhənnəmdə sevgi hissini ruhundan qovan bu adamlara narıncı eynəkdən tamaşa edirdim. Narıncı eynəkdən hər şey bulanıq görünürdü. 46 nömrə F30-u xilas etmək istəyirdi, həyatın ritmini unudan adamlar davul ritminə arabir diksinirdilər, bu şəhərə gələndə xoşbəxtlikdən uçan Saranı dəli adıyla dəmir barmaqlıqlar arasına salmışdılar. O, xəyallarında dəmir barmaqlıqlar arasından sivişib çıxır, uzaqlardakı evinə doğru qaçır, amma keçmişini, evini tapa bilməyib hücrəsinə qayıdırdı.

Bir gün sarı xəttdən çıxan 46-nı da Saranın hücrəsinə gətirdilər.

"Burdan qaçmağın asan yolunu bilirəm", – Sara dedi.

"– Hansı yoldu?

– Xəyalla buralardan çıxmaq olur. Səni Vissarinoviçin heç bir qanunu saxlaya bilməz. Aşa bilmədiyin divar qalmaz..."

Sarı şəhərlərdə xilas yolu olmur. Sarı xətlər edam dirəkləri kimi səni izləyir və bir gün havada uçan ilgəhlərdən biri boğazına keçir. O ana kimi yaşamalı, xəyalla da olsa əl-qolunu bağlayan divarları parçalamalı, dünyanı Miroqrada çevirənləri, insanı insanlıqdan çıxaranları, ruhuna əl uzadanları, xəyallarına, arzularına kölgə salanları sındırmalısan...

"...Dəmir qapını Ayqız açanda Aydın sevincək yerindən durdu. Vissarionoviç öldü... Professoru öpəndə zəhərlənib. Ara qarışıb. Qaçaq! Mən gəmiyə gedən yolu xatırladım..."

"Çapan atların toxmaq ayaqları Morud Uluqbekin davuluna çevrilmiş yeri döyəcləyirdi. Onlar ritmə tərəf qaçdılar... ilğıma girdilər.

Aydının ayağı altında qalıb qırılan 46 nömrəli maskanın yarısı quma batmışdı, bir gözüylə göyə baxırdı.

Göydə kağız quşlar uçurdu..."

Mən "İlğımda çimən atlar..." romanının son cümləsini oxuyub səssiz-səmirsiz Miroqradı tərk elədim. Bir gün ilğımda atlar çimməsin, göydə kağız quşlar uçmasın, Ayqızlar ağ çadırlarından ayrı düşməsin, Vissarionoviçlər gözəl dünyanı cəhənnəmə döndərib insanların ruhuna, hissinə hakim olmasın deyə Vüsal Nurunun yaratdığı şəhəri hər kəsə tanıtmaq istədim.

P.S. Xatırladım ki, Vüsal Nurunun "İlğımda çimən atlar" romanı "Azərbaycan" jurnalının 09-2022 sayında çap olunub. Ədəbiyyatımızda hadisə sayılacaq bu uğurlu, çoxqatlı və cəsarətli romana görə dəyərli qələm dostum Vüsal Nurunu ürəkdən təbrik edirəm. Dünyanın hansı dilinə çevrilsə, "İlğımda çimən atlar"ın oxucusu olacaq. Bəşəri mövzuda yazılmış bütün əsərlər kimi...

Təranə VAHİD



İSKƏNDƏR ATİLLA
“DRAMATİK ƏSƏR”
BAKI, “GƏNCLİK” NƏŞRİYYATI, 2022

Kitabda İsgəndər Atillanın müxtəlif illərdə yazdığı beş dram əsəri toplanıb. Müəllifin yazdığı ilk pyes olan “Hüseyn Cavid” (təkmilləşmiş üçüncü nəşr) və “Cümhuriyyətçilər”, “Alp Ər Tunqa”, “Xan Tomris və Kral Kir”, “Səttarxan” adlı dram əsərləri oxuculara təqdim olunur.

ELNARƏ AKİMOVA
“UZUN, İNCƏ BİR YOLDA...”
BAKI, “ELM VƏ TƏHSİL”, 2021

Filologiya elmləri doktoru Elnarə Akimovanın “Uzun, incə bir yolda...” kitabı Azərbaycanın görkəmli fikir adamı, milli düşüncənin, türkçülük ruhunun qorunmasında, məfkurə istiqamətinin müəyyənləşməsində əvəzsis xidmətləri olan Əli bəy Hüseynzadə və Hüseyn Cavid irsinin tədqiqatçısı kimi tanınan Azər Turanın ömür yoluna və yaradıcılığının vacib məqamlarına həsr olunub.



NƏZAKƏT MƏMMƏDLİ
“YURT HASRETİ”
İSTANBUL, “TURAY” YAYINCILIK, 2023

Nəzakət Məmmədovanın “Yurt hasreti” adlı şeirlər kitabı Türkiyədə çap olunub. Kitabda şairin II Vətən müharibəsindən əvvəl və sonra yazdığı şeirlərdən seçilmiş nümunələr yer alıb. Ümumilikdə toplunun birinci hissəsində yurd həsrətiylə, torpağının işğalıyla barışmayan bir vətəndaşın hisləri, duyğuları görünür. İkinci hissədəki şeirlərdə

oğlu düşmənlə döyüşən ananın intizarı, nigaranlığı, fəxarəti, qüruru görünür.

Şeirləri Türkiyə türkcəsinə çevirən və ön sözün müəllifi İmdad Avşardır.



ZEMFİRA MEHERREMLİ
"ZAFER YOLCULARI"
İSTANBUL, "TURAY" YAYINCILIK, 2023

Publisist-yazıçı Zemfira Məhərrəmlinin "Zafer yolcusu" kitabı İstanbulda çap olunub.

Kitab üç bölümə ayrılıb: "Şuşa artıq bizimdir!", "Meğer dünya ne küçükmüş", "Zemfira Meherremli haqqında yazılanlar". Topluda müəllifin müxtəlif dövrdə yazdığı, yerli mətbuatda dərc olunmuş publisistik məqalələri və hekayələri yer alıb. Kitabı Türkiyə türkcəsinə çevirən və ön sözün müəllifi İmdad Avşardır.

CABİR ALPOĞLU ALBANTÜRK
"ALPAN – TÜRK YURDU"
SUMQAYIT, "AZƏRİ" POLİQRAFİYA, 2022

Müəllifin dördüncü kitabı və elmi-kütləvi nəşr olan "Alpan – türk yurdu" kitabında yer alan materiallar şərti olaraq 3 hissəyə bölünür: 1) Qafqaz Albaniyasının tarixi konteksində Qubanın, Alpanın tarixi keçmişi ilə bağlı olan elmi və elmi-publisistik məqamlar; 2) Quba bölgəsinin, Alpan kəndinin müxtəlif aspektlərdən tərənnüm olunduğu ədəbi-bədii nümunələr; 3) Erməni faşizminə qarşı müharibədə iştirak etmiş alpanların cəbhə yolunun əks olunduğu materiallar.

Topluya yazıları daxil edilən hər müəllifin yazı üslubuna, mövzuya yanaşma tərzinə toxunulmadan təqdim edilib.

Kitabın elmi redaktoru dosent Aqil Şahmuradovdur.

REDAKSİYA HEYƏTİ:
Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudun Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Əlioğlu, Paşa Qəlbinur, Rəfael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru